**VAQİF SULTANLI**

# HEÇLİK VADİSİ

*Povest və hekayələr*

Thank you for trying Soda PDF

Bakı – Azərnəşr – 2010

**BBK 47**
**S - 92**

Ön sözün müəllifi:
**Çingiz Hüseynov**

**Vaqif Sultanlı.**
**Heçlik vadisi.** Bakı, Azərnəşr, 2010, 184 səh.

Kitaba müəllifin «Ölüm yuxusu» povest-illüstrasiyası, müxtəlif illərdə yazdığı hekayələri daxil edilmişdir.

**4700000000**
**M - 651(07) 2010**

© Vaqif Sultanlı, 2010

Thank you for trying Soda PDF

## MƏKTUB ŞƏKLİNDƏ MÜQƏDDİMƏ

Əzizim Vaqif, yanılmıramsa, otuz ilə yaxındır – əlyazma şəklində, son zamanlar isə internet vasitəsilə – məktublaşırıq səninlə.

Bu məktublar – söhbətlərimizin mövzusu – ümummilli məsələlər, ədəbiyyatamızın vəziyyəti, problemləridir, onları müzakirə edir, dərdləşirik.

Uzun müddətdir bizi daha çox – hər ikimizin sevimlisi, xalqımızın böyuk siması, sədaqətli oğlu, uzaqgörən ideoloqu – Məhəmməd Əminin həyatı, irsi, taleyi maraqlandırır, bu maraq sönməzdir – mən o vaxtlar «Doktor N» romanımı yazır, sən isə Məhəmməd Əminlə bağlı monoqrafiya üzərində çalışırdın.

Ənənimizi pozmaq istəməzdim, odur ki, mən sənin tezliklə çıxacaq və mənalı – «Heçlik vadisi» – adı olan kitabına müqəddiməmi bu səpkidə, yəni məktub formasında yazmaq istəyirəm.

Təbii ki, sənin gözəl, sanballı, dərin elmi yazılarına, kitablarına bələdəm, onları oxumuşam, bilirəm. Dəfələrlə jurnal və qəzet səhifələrində iti qələmli publisist yazılarını da həvəslə oxumuşam. Konfranslarda, görüşlərdə həqiqətsevər (və bunun üçün odlu, həyəcanlı) çıxışlarının şahidi olmuşam.

Ancaq ilk dəfədir tam, bütöv şəkildə bədii əsərlərinlə indi-indi taniş oluram. Baxmayaraq ki, iyirmi ildən çoxdur bədii yaradıcılıq sahəsində də çalışmaqdasan.

Və günah hər ikimizdədər: həm səndə – yazılarını göstərməkdən nədənsə çəkinmisən, həm də məndə – alim xobbisi sanırdım bu yazıları, ciddi maraq gostərmirdim onlara.

Yadımdadır, o vaxt yazdığın hekayələrini oxumuşdum, bəyənmişdim – onları təkrar oxuduqda görürəm ki, təriflərimdə yanılmamışam, onlarin lirik üslubu, romantik ruhu, fəlsəfi düşüncələrə vadar edən və ümidlər dolu məzmunu, ab-havası, sadə, lakin gizli məna daşıyan adları belə - «Ağ yol», «Səhər dumanı», «Yarpaqsız budaqların yaşıl nəğməsi», «Axşam günəşi», «Xurmayı saçlar»… - göstərir ki, seçdiyin nəsr yolu sənin yolundur.

Thank you for trying Soda PDF

Düzü, elmlə bədii yaradıcılıq, sanıram, doğma deyil, ögey qardaşlardır, ancaq nadir hallarda doğma da ola bilərlər, və bunu təsdiqləmək üçün uzağa getmək lazım deyil – tanınmış yazıçılarımız Mirzə İbrahimovu, Mir Cəlalı xatırlayaq, İsmayil Şıxlını, Şıxəli Qurbanovu yad edək... – sən də bu cərgədənsən, çünki artıq müxtəlif janrlı bədii yazlarına bələdəm, formal deyil, həqiqətən təsdiqləyə bilərəm.

Hər halda elmlə yazıçılıq arasında ziddiyyətlər var, qalır, özünü istər-istəməz göstərir və bunların kökü – qələm sahibinin həyat problemlərinə olan münasibətinə bağlıdır.

Yəni elmdə konformist ola bilərsən və çox zaman olursan da, bədii yaradıcılıqda isə bu kımı geniş mənada güzəştlər ölumə bərabərdir.

Çünki deyilən, yazılan söz boş-boşuna deyilmir, yazılmır, o, böyük həqiqətləri, cəmiyyətin ciddi ziddiyyətlərini qorxmadan açıb göstərməlidir, odur ki, çox zaman cihad qələmli söz etirazlara, hücumlara məruz galır, həm yuxarıdan qovulur, həm də aşağıdan, – bu barədə biz səninlə çox danışmışıq, əqidəmiz yaxındır.

Bu baxımdan povestə yanaşıb onu maraqla  və təkrar-təkrar arxada qalmış səhifələrə dönərək – əsərin aydın, şəffaf, üzdə sadə, əslində isə mürəkkəb mənalar daşıyan xalq dili məni tutdu – oxudum.

Ancaq ılk-əvvəl deməliyəm ki, əsərinə verdiyin janrı, daha doğrusu povestə əks mənasında işlətdiyin «illüstrasiya» əlavəsini qəbul edə bilməyəcəyəm; bunu da deyim ki, əsərin janrını müəyyən etmə axtarışların, sənin bu kimi çalışma-təşəbbüslərin qəbuldur.

Əsər heç də illüstrasiya, yəni – ədəbiyyatçıların dili ilə desək – həyatın astar üzü deyil, bu – həyatın özüdür, mən onu povest-pritça, metaforik povest adlandırardım, yəni, burada təsvir olunan hadisələr adi əhvalatlar deyil, bu rəmz səviyyəsinə qaldırılan, məcazi xarakteri daşıyan yazıdır.

Povestdə söhbət – ölüm-dirim söhbətidir, insan – heyvan problemi meydana atılır, biz kimik, biz nəyik, bəzən əsl heyvan öz hərəkətlərində (bunu inandırıcı şəkildə göstərirsən) insandan

üstündür... Xilqətin bircə yolu var, yazırsan, – məzar yolu; böyüklü-kiçikli bütün yer üzü bu yoldadı.

Ancaq insan öz yolunu – qəbiristanlığı uçurub, başdaşılarını buldozerin ağzına verərək dağılmış qəbirlərin üstündən yol çəkmək istəyir... Hətta sağ ikən səhv ucundan basdırılan və sonradan dirilib qəbirdən çıxanı da insanlar xortdan bilib gəbul etmək istəmirlər.

Bu süjet xətti uğurlu tapıntıdir; və məni sevindirən bir də budur ki, sən yeni dövrdə, yeni üslubda, təkcə realist üslubuna deyil, başqa – metaforik, assosiativ üslublara da arxalanaraq, Mirzə Cəlil, Əbdürrəhimbəy Hagverdiyev ənənələrini davam etdirməyə çalışırsan: ölülər – diri kimi, dirilər – ölü kimi...

Cəmiyyətin, dövlətin dəyəri, sağlamlığı, əhəmiyyəti, əsl mənada xəlqiliyi dünyalarıni dəyişən sıravi, adi ölənlərə olan münasibətindən bəlli olur.

Əsərdə bədii əksini tapmiş müxtəlif taleli dirilər – həm ölülərin qəbirlərini xilas etməyə, həm də onlari uçurub dağıtmağa, sökməyə çalışanlar – iştirak edir.

O tərəfli – bu tərəfli xarakterlər, simalar öz səciyyəvi adları ilə - Əliş, Qəmər, Faiq, Bəkir, Qumru, Abış kişi, Cəvahir qarı, Əvəz, Pəri... – əsərdə geniş panoram yaradır və beləliklə real cəmiyyətimizin, quruluşumuzun, geniş mənada – müasir dünyamızın tipik və xoşagəlməz mahiyyətini əks etdirir.

Hər bir kitabda son cümlənin böyük əhəmiyyəti var.

Sənin kitabının ümid dolu son cümləsi məni tutdu: «at qanad çıxarmışdı»…

Ən xoş arzularımla – **Çingiz Hüseynov**
Rusiya, Peredelkino
may, 2010

Thank you for trying Soda PDF

# HEÇLİK VADİSİ

esse

*Ömrün yarım əsrlik*
*sərhədində düşüncələr*

Həyatımın qeyb olan illərinin mənzili başında bircə anlıq nəfəs dərərkən bu qədər ömür yaşadığımın heyrətləri içərisində nədən dünyanın gözlərimdə dəyişərək bambaşqa örtüyə büründüyünü, bu zaman sərhədində hər şeyin bunca başqalaşdığını anlaya bilmirəm.

Yaşanmış illərin arxasından dönüb geriyə baxanda dumanlı bir heçlik vadisindən savayı nəyinsə xatıra gəlmədiyi o uzaq keçmişdən görünməz, bilinməz xəyalların, gerçəkləşməsi mümkün olmayan, sərgərdan arzuların arxasınca qaçmaqda, mənasız qovğalarda, çəkişmələrdə xərclənərək tükənən bir ömrün əzabları, ağrıları boylanır.

Bu heçlik vadisində tarixin zamansızlığına tərk edilmiş, nədən dünyaya gəldiyinin fərqində olmayan, məhkum edildiyi əzabların sərxoşluğu içərisində məzara uzanan insan selinin öz məcrasını uçurmaq, axarın səmtini dəyişmək üçün mənasız cəhdləri nə qədər gülünc görünür.

İndi heçlik vadisində xoşbəxtlik axtarışı ilə qeyb etdiyim illərə təəssüflənir, bu vadinin uzaqdan göz oxşayan, mavi tül örtüyə bürünmüş, əsrarəngiz xarabalıqlarında nəyi isə dəyişməyin mümkün olacağına inanaraq yaşadığıma acıyıram.

Əlli yaş həyatdan doyub yorulduğumu deyil, «bu ömrü yaşamağına dəyərdimi» sualı ətrafında düşüncələrə çəkərkən, qəti bir əminliklə «ömür deyilən budursa, onu yaşamağına dəyməzdi», - düşünürəm.

Zamanın arxasından ömrümün hədər keçən illərinə, yaşadığım həyəcanlara, bir zamanlar yerli-yersiz özümə dərd etdiyim cılız qayğılara görə heyfsilənirəm.

Dünyanın qəddarlığına, amansızlığına göz yumub yaşamaq istəyərkən, ömrün bu qədər mənasız olduğunu dərk etmədiyimə heyfsilənirəm.



Thank you for trying Soda PDF

Sözün sehrinə, cazibəsinə sığınarkən, sözlə nəyi isə dəyişdirməyin mümkünlüyünə inanarkən nə qədər yanıldığıma təəssüflənirəm.

Dar ağacına çəkilmiş haqqın, ram edilmiş azadlığın, susdurulmuş fəryadların, boğulmuş harayların, oğurlanmış gələcəyin qaibanə kölgəsinin dolaşdığı, həyat adlanan bu heçlik vadisində bir zamanlar xoşbəxt olmağın mümkünlüyünə inanaraq yaşadığım üçün sadəlövhlüyümə təəssüflənirəm.

İndi yaddaşımın uzaq toranlıqlarında bu heçlik vadisinin qüssə, kədər, ayrılıq, həsrət, dərd, əzab və iztirab qoxuyan mənzərələri baş qaldırdıqca içim sızıldayır.

Yarım əsrlik ömür tarixçəsinin bir heçlik əfsanəsinə dönüşü nə qədər kədərlidir.

Bu heçlik vadisində insanlığın alçaldılmağına, qürurun sındırılmağına, ləyaqətin tapdalanmağına seyrçi olmağın ağrı və əzabları içərisində keçən günlərə ömür deyilməsi acı bir təəssüf doğurur.

İnsanın – sayrışan ilğımlarına ovsunlandığı, ümidsizlik, çarəsizlik, çıxılmazlıq içərisində qıvrıldığı, hər an, hər saniyə ölümə bir az da yaxınlaşdığı bu heçlik vadisində ömür adına hörülmüş torların, şəbəkələrin, sədlərin bitməz-tükənməz açılmazlaqlarına təslim olmaq nə qədər üzücüdür.

Bu heçlik vadisində itirilmiş keçmişin izini-nişanəsini axtararkən arzuların, xəyalların yer üzünə əkilmiş bomboz məzar daşları bütün vahiməsi ilə baş qaldırır.

*26 mart 2008,*
*Bakı*

Thank you for trying Soda PDF

***Povest-illüstrasiya***

## ÖLÜM YUXUSU

Elə bil bu yerlər dünya yaranandan bəri yağış görməyib; istidən boynunu bükmüş ağaclar əlacsız-əlacsız torpağa baxır, çölün-biyabanın otları yanıb qupquruca çör-çöpə dönüblər, susuzluqdan torpağın sinəsi cadar-cadar olub...

O, bütün bunları görmür. Bu bürküdə yaddaşını korşaldan təkcə o uzaq səsdi.

O səsin hayandan gəldiyini bilmir, nə deyildiyini, nə danışıldığını anlayammır. Ancaq bu səsdə layla kimi istilik, doğmalıq duyur. Bir anlığa özündən ayrılaraq elə bilir ki, səs içərisindən başlayır və bu onun öz səsidi. O, bu səsin üstündən uzaqlara, lap uzaqlara baxır, elə uzaqlara baxır ki, yaddaşı dumanlanır, başı gicəllənir, yol gözlərində qarışır, qurtarır, itir...

Buldozer düzü-dünyanı səksəndirə-səksəndirə keçib gedir. Uzaqda, kəndin ətəyindəki qəbiristanlıqda torpaqdan göyərib qalxıbmış kimi qara-qara başdaşıları ucalır. Onun yaddaşında bu torpaq yovşan kollarından, quruyub gülləri tökülmüş yulğun topalarından, bir də qara-qara başdaşılarından ayrı dərkolunmazdı.

...Buldozerin çalovu başdaşına toxunub ət ürpədən xırçıltı qopardı. Elə bil bayaqdan bəri yuxu içərisindəydi, xırçıltı səsinə səksənib ayıldı. Var gücüylə əyləci basdı. Əli-qolu, ayağı, içi-içalatı büsbütün soyudu, sustaldı. İçərisindən soyuq bir gizilti keçdi. «Fələəək, qəbiristanlıqdan da yol salarlarmı, yol salarlarmı, yol salarlarmı?..».

Birdəncə yaddaşında ağrıdan sızıldayan, boğuq səslə imdad diləyən insan cəsədləri üstüylə uzanan yol ağardı. Ona elə gəldi ki, bu yolun üstündə dayanıb və ayaqlarının altı göynəyə-göynəyə hayana gedəcəyini bilmir; təzə ayaq açmış körpə kimi addımlarını atmağa qorxur. Ayağını tərpədən kimi torpağın altından fəryad və inilti səsləri qalxır. Az qalır dəli ola...

Kabinənin qapısını açıb yerə atıldı. Yoldan azca aralı iri çaylaq daşının üstündə oturdu. Yaşıl mamırlı, çopur-çopur qəbir



Thank you for trying Soda PDF

daşlarına göz gəzdirdi. Baş-başa verib durmuşdular. Farağat əmri verilmiş pərakəndə əsgər dəstələrinə bənzəyirdilər. Bir anlığa ona elə gəldi ki, indicə savaş əmri veriləcək, qəbiristanlıqda yaranılışdan bəri görünməmiş əlbəyaxa daş döyüşü başlayacaq, hər şey yerlə-yeksan olacaq. «Niyə insan tuşlandığı yolun səmtinin qəbiristanlıq olmağıyla barışammır, ayağı yer tutan gündən məzara sarı getdiyini unudur? Unudur və bilmir ki, bütün bu dava-dalaş, vuruş ölüm üçündü, ölümü yaxınlaşdırmaq üçündü, ölümün yolunu qət etmək üçündü. İnsan bu yolun mənzili başına yetişmək üçün bu dünyayla savaşa çıxdığını da unudur. Unudur və bilmir ki, keçdiyi dolaylar, aşdığı sədlər torpağa qarışmaq üçündü, torpağa layiq olduğunu sübut eləmək üçündü. Bilmir ki, xilqətin bircə yolu var – məzar yolu; böyüklü-kiçikli bütün yer üzü bu yoldadı.

Bəs onda başdaşı nə üçündü? Niyə insan izsiz-tozsuz torpağa tapşırılmır? Niyə insanın basdırıldığı yerdə ona başdaşı ucaldılır? Bəlkə başdaşı insanın ömrünə, həyatına, dərdinə ucaldılan abidədi, ömrün davamıdı, ölümdən sonrakı həyatdı? Bəlkə başdaşı təsəllidi, aldanışdı...».

Ona elə gəlir ki, başdaşıları da canlıdı, insan kimi bir-birilə söhbət eləyir, daş dilində pıçıldaşır, dərdləşirlər. Onların da özlərinə görə dərdləri, qayğıları var, sevirlər, sevilirlər. Ancaq işıqdanmı, insandanmı qorxduqları üçün gündüzlər daş yuxusuna gedirlər, onların həyatı gecələr başlayır. Ona görə də qəbiristanlıq gecələr vahiməli olur.

Bir vaxt necə də istəyirdi ki, bu böyük qəbiristanlıqda başqaları kimi onun da əzizi, doğması olsun, başqaları kimi o da bu qəbirləri göstərib öyünə bilsin. Uzaq uşaqlıq illərindən bəri qəbir üstə gələnlərə həsəd aparırdı. Və böyüdükcə bu dərd də arzu kimi, ümid kimi içərisində böyüyürdü...

Ancaq indi birdən-birə bütün qəbiristanlıq ona doğmalaşdı və uzaq uşaqlıq illərindən qəlbində doğulan, yaşa dolduqca ildən-ilə boy atıb böyüyən o nisgil ağır-ağır çəkilib getməyə başladı.

«Qəbiristanlığı uçurub başdaşılarını buldozerin ağzına vermək və hələ bu azmış kimi uçurulub dağılmış qəbirlərin üstündən yol çəkmək, qır tökmək, asfalt döşəmək, tfu... Bunu

Thank you for trying Soda PDF

fikirləşən insandımı, məxluqdumu, ağlı-şüuru üstündədimi, bir papağını qabağına qoyub nə iş tutduğunu - bu cəhənnəm – ömrünün sonunu - sonrasını fikirləşirmi...».

Qəbiristanlığın aşağı başında iki-iki, üç-üç dəstə-dəstə qəbir qazırdılar. Bir həftəydi ki, qazhaqazdı. Meyitlərin sür-sümüyünü yığışdırıb, başqa yerə köçürürdülər. Kimi qardaşını, kimi bacısını, kimi ata-anasını, kimi övladını, qərəz köçha-köçdü. Səhər qəti tapşırıq alıb çıxmışdı; qəbiristanlıq büsbütün uçurulmalıydı. Neçə günüydü ki, çınqıl dolu maşınlar gəlib qayıdırdılar. İş ləngiyirdi. Ayın axırına kimi yol təhvil verilməliydi. Bu gün ikinci dəfəydi gəlirdi; səhər gələndə camaat axşama kimi möhlət istəmişdi. Qəbirləri vaxtında macal eləyib köçürməyənlər vardı. Bəziləri isə belə hadisə baş verəcəyinə inanmadıqlarından hələ qəbirlərə toxunmamışdılar. «Sən bir sözə bax: «Burdan tapşırıblar, burdan da çəkəciyik. Hökumətnən hökumətlik eləmək olmaz!». Camaata yol lazımdı deyin, guya ki, hökumət qəbiristanlığı ayaqaltı eləməlidi... Bəyəm hökumət deyir ki, camaatın qəbiristanlığını uçur, dədə-babalarının ruhunu təhqir elə?.. Bir də nə hökumət-hökumət salmısan. Bura bax, ə, hökumət kimdi? Bir məni başa sal görüm kimdi hökumət? Susursan?! Ə, hökumət sənsən, mənəm, Məmməddi, Həsəndi, Vəlidi...».

– Əmi, ay əmi!

Diksindi. Başını qaldırdı. Altı-yeddi yaşlarında nimdaş paltarlı bir uşaq idi. Əynindəkinə paltar da demək olmazdı, elə bil başdan-ayağa cır-cındıra bürümüşdülər. Dərdli-dərdli ağlayırdı və ağladıqca göz yaşları yanaqları aşağı axır, sifətinin tozunu-çirkini yuyub aparırdı. «İlahi, bu uşaq hardan peyda oldu? Bunun boyuna-buxununa bax, göz yaşlarına bax, bir əlcə uşaq da belə ağlayarmı? Bir əlcə uşaq da qəlbində dərd, nisgil gəzdirərmi? Elə ağlayır ki, deyirsən bu saat əriyib suya dönəcək, ovulub torpağa qarışacaq... ».

Uşağın ürəyini gözlərindən oxudu.

– Əmi, ay əmi! - Uşaq yenə sözünün dalını gətirəmmədi.

Qəhərləndi. Qalxıb uşağın qolundan tutdu, sərt, qabarlı əllərilə saçlarına sığal çəkdi.

Thank you for using Soda PDF

– Anamın qəbrini uçurma, ay əmi! Sən allah, uçurma. And iç ananın canına ki, uçurmayacaqsan.

İçərisində birdəncə gücsüzlük duydu və bu duyğu yuxu kimi, yorğunluq kimi ağır-ağır vücuduna yayılmağa başladı. Ona elə gəldi ki, indi, durduğu yerdə qəfildən ürəyi dayanacaq.

Uşaq inad eləyirdi:

– And içirsənmi? De görüm and içirsənmi?

«İndi nə cavab versin uşağa, necə başa salsın, nə yolla ovutsun onu. Nə cür desin ki, bu iş borcdu, tapşırıqdı, onlu da, onsuz da görülməlidi, ona qalsa, bircə qəbrə də toxunmaz, ona qalsa...».

Bir həftəydi ki, gecə yuxu nə olduğunu bilmirdi. Bir azca gözləri çimir alan kimi cəsədlər, skeletlər gəlib yuxusuna doluşurdu, gecəni səhər eləyənə qədər onunku ona dəyirdi.

Qəbiristanlıqda qızğın iş gedirdi. Adamlar bu saatca hər şeyin yerlə-yeksan olacağından qorxurdular. Bellə, külünglə torpağı qazıb tökür, sür-sümüyü xərək-xərək daşıyıb Babalı bağının yuxarısındakı təzə qəbiristanlıq yerində basdırırdılar. Uzaqdan təzə qəbiristanlıq yerinə baxanda adama elə gəlirdi ki, bütün bu yaxın kəndlərə nə isə ağır, dəhşətli qırğın üz verib və bir belə insan cəsədinin birdəncə basdırılmağı da həmin fəlakətlə bağlıdı.

Hacı Mahmud babanın qəbrinin üstündə tikilmiş ağ günbəzi söküb təzə qəbiristanlıq yerinə daşımışdılar. Hacı Mahmud babanın qəbri də köçürülmüşdü. Günbəzin kərpic və dəmirlərini daşıyıb qəbrin ətrafına yığmışdılar, ara sakitləşən kimi tikintiyə başlanacaqdı.

Qalxıb buldozeri söndürdü. Camaat tamam dağılışmamış işə başlamayacaqdı. İndi Miriş olaydı burda, onun buldozeri söndürməyini görəydi, böləydi itən vaxtı dəqiqələrə, saniyələrə, sonra da vuraydı aya, günə. Onda oğul istəyirdi onun qabağında dayana. Çəkdiyi papirosun tüstüsünü gözlərindən buraxa-buraxa yeddi arxa dönəninə söyəcəkdi. Papirosu basıb gözündəcə söndürəsən əclafın...

Qəbiristanlıqda iş qurtarana qədər gözləyəcəkdi. Lap Mirişin dədəsi xortdayıb qəbirdən gəlsə yenə tələsən deyildi. Söyürsə, qoy söysün, havadı, küləkdi. Yeri gələndə adamı dan-

layarlar da, söyərlər də. Bu işdən min dəfə Mirişin söyüşü yaxşıdı. Qoy camaat heç olmasa rahat ölülərini köçürsün...

Traktorun gurultusu kəsiləndən sonra bel-külüng səsi apaydın eşidilirdi. Böyük-kiçik, arvad-uşaq bir-birinə qarışmışdı. Elə bil bu çağacan qəbiristanlığın uçurulacağına inanmırdılar. Buldozerin səs-küylə gəlib qəbiristanlığın yanında dayanmağı ümidlərini büsbütün qırmışdı. Birdəncə əl-həya düşmüşdülər. Ağlaşa-ağlaşa, təntiyə-təntiyə, söylənə-söylənə qazırdılar.

Bir həftə qabaq ilk dəfə buldozeri bura sürəndə camaat az qalmışdı daş-qalaq eləsin onu. Ağzının, burnunun qanını bir-birinə qatmışdılar. Kəndin ağsaqqalları yığışıb gəlincə kənd soveti sədri güclə camaatın əlindən almışdı.

– Ay camaat, - demişdi, - nə düşmüsünüz bu yetimin üstünə. O, öz kefiylə gəlibmi bura bəyəm? Bir dayanın, ağsaqqallar yığışsın, görək neynirik. Yoxsa qəbiristanlıq oyun-oyuncaq deyil ki, hər yetən alsın buldozerin ağzına. Day mən heç, deyək qocalmışam, korşalmışam, sizə nə gəlib? Bir səbrinizi, hövsələnizi basın, qoyun rayon rəhbərləri gəlsin, soruşaq, öyrənək, biz də bilək bu nə məsələdi, nə qəzyədi. Yoxsa boş-boşuna qışqırıb-bağırmağın nə mənası? Bu da dəyirman deyil ki, atam balası, çevirib eləsinlər kababxana, içki məclisi, hər cür zatıqırığın yığnaq yeri. Bu qəbiristanlıqdı, cəmi ölənlərimizin müqəddəs yatağıdı. Müqəddəs olan şeyə də gərək toxunulmasın. Yoxsa, day bu nə müqəddəslik oldu ki...

Sonra sədr özü gəlmişdi:

– Sizə, - demişdi, - yaxşı bir qəbiristanlıq yeri ayırmışam. Köçürün ölülərinizi ora. Nə köməklik lazım olsa, eləyəcəyik.

Camaat arasından kimsə:

– Olmazmı ki, yoldaş sədr, yol üçün elə bir yer ayırasınız, nə köməklik lazım olsa, biz özümüz eləyərik. Qəbiristanlıq da qalsın öz yerində.

Sədr əsəbiləşib özündən çıxmışdı:

– Əşi, mən sizə adam kimi söz dedim, day demədim ki, söz güləşdirək. Kişi təzə işçidi, heç bir ay deyil gəldiyi bu rayona. Duraq indi boş şeyin üstündə onunla üz-göz olaq…

– Necə yəni «boş şeyin üstündə». Qəbiristanlıq bəyəm balaca işdi? - Bunu da kimsə camaatın arasından demişdi.

Sədr bu sözə dözməmişdi:

– Qurtardıq, - demişdi, - daha bu məsələni qurtardıq. – Sonra isə özünün maşınına oturaraq: - Vallah, bu camaatla fələk də yola getməz, elə ki, mən gedirəm, - deyib acıqlı-acıqlı çıxıb getmişdi.

Qolunun-qabırğasının ağrısından beyni zoqquldayırdı. Ona elə gəlirdi ki, bircə addım atsa, ürəyi dayanacaq, üzü üstə yerə sərələnəcək. Kənd soveti sədrinin dediklərini sanki yuxuda eşidirdi. Buraya nə məqsədlə gəldiyini büsbütün unutmuşdu. Gözlərini qan örtmüş bu adamlar kinli-kinli ona baxırdılar. Onu əzişdirib şil-küt eləsələr də, ağız-burnunun qanını bir-birinə qatsalar da, bu adamlara qarşı içərisində nifrət duymurdu, ancaq yerbəyerdən ona dikilən gözlərin soyuq işığı bədəninə üşütmə saldığından qaçmaq, gizlənmək istəyirdi. Ayaqlarını torpaqdan qoparammırdı, ağzına dolan turş qanı uda-uda dayanıb dururdu.

Başını qaldırdı. Uşağı yanında görmədi. Uşağın getməsindən xəbər tutmamışdı. «Görəsən nə cavab verdi uşağa, necə yola saldı, ürək ovudan bir söz dedimi, barı?». Nə illah elədisə, yadına sala bilmədi.

... Bir vaxtlar uşaqlarla yığışıb qəbiristanlıqda oynayardılar. Hərdən də hamıdan xəbərsiz təmtəkcə gələr, qəbiristanlığı addımbaaddım gəzərdi. O zaman qəbiristanlığın bu başından o başınacan olan bu yol ona hədsiz uzun gələrdi. Qəbiristanlığı gəzib bir-bir qəbirlərin üstündəki qəmli, həzin şeirləri oxuyardı. Bu şeirlər dünyanın vəfasızlığı, ölümün, ayrılığn qaçılmazlığı haqqındaydı, bu şeirlərdə işıq, ümid, təsəlli yox idi, bu şeirlərin misraları boyasızdı, çılpaqdı. İndi də bir şeirin ilk misraları yadındaydı: «Bəxtimin gəmisi toxundu daşa, cavanlıq ömrümü vurmadım başa...». Dörd misralıq bu şeirin dalını yadına sala bilmirdi.

* * *

Əliş lümlüt qəbiristanlıqdan bir az aralı çayın yaxasıyla uzanıb gedən dikdirin üstündə oturmuşdu. Başı əllərinin ara-



Thank you for trying Soda PDF

sında içinə çəkilmişdi; görmürdü, eşitmirdi. Əlişin bədənini ağappaq, narın tük basmışdı. Gözlərinin qarası da ağarmışdı və uzaqdan-uzağa Əlişin giləsi ağarmış gözlərindən soyuqluq yayılırdı. Ancaq Əlişin nə gözlərinin giləsinin ağarmağından xəbəri vardı, nə də gözlərindən yayılan və yayın cırhacırında baxanın canına üşütmə salan soyuqluqdan.

Qəbiristanlıqdakı bu səs-küyün, vurhavurun da nə olduğunu bilmirdi. Bir gecədə başına gələnlərdən başını itirmişdi. Bir adam axtarırdı soruşa, dərdləşə, danışa, ancaq içərisində hansı bir duyğusa qəbiristanlığa, ömrünü birgə keçirdiyi adamların içərisinə getməyə qoymurdu, onu hamıdan, hamıdan ayırırdı.

İndi Əliş oturub başına gələnləri təzədən yaşayırdı, elə bil olub keçənlərə inanmırdı, inanmaq istəmirdi. Bir də, bir də yaddaşından keçirirdi ki, bəlkə gördüklərinin yuxu, aldanış olduğunu xatırlaya...

...Gözlərini açanda qaranlıq idi, zülmət kimi qaranlıq idi. Tərpənmək, çevrilmək, heç olmasa düşdüyü yerin yönünü, səmtini tapmaq istədi, ancaq əli-qolu qalxmadı, elə bil əllərini bədəninə sarımışdılar. Bütün bunların mənasız olduğunu dərk eləyəndən sonra heç olmasa harda olduğunu xatırlamağa çalışdı, ha fikirləşdisə yadına sala bilmədi, elə bil yadına-yaddaşına da qaranlıq çökmüşdü. «Bu nə olan işdi, fələk? Belə qaranlıq yurd, hücrə olardımı? Elə bil cəhənnəmin yeddinci qatına düşüb. Bəlkə yuxudu görür?..».

Dəqiqələr, saniyələr ağır-ağır çıxıb gedirdi və çıxıb gedən vaxt özüylə birgə onun səbrini, dözümünü də alıb aparırdı. Nəfəsinin toxunub qayıtmağından və havanın qoxusundan hiss eləyirdi ki, onunla divarı ayıran məsafə çox yaxındı. Əllərini tərpədə bilsəydi, böyür-başını yoxlayardı, harda uzanıb yatdığını dəqiqləşdirərdi. Ancaq əli-qolu ilə birlikdə elə bil bərinibədənini də büküb sarımışdılar, nə illah eləyirdisə, sarıqdan açıla bilmirdi.

Bütün bunların yuxu olmadığını dərk eləyənə qədər aradan xeyli vaxt keçdi. Buna əmin olandan sonra olub keçənləri bir-bir yaddaşından keçirməyə başladı. Son günlər xəstə yatırdı, halsız idi, əməlli-başlı soyuqlamışdı. Bəs sonra? Sonra bir

Thank you for trying Soda PDF

həftəydi evdən bayıra çıxmırdı, yatırdı, çarpayısı da pəncərənin qabağında qoyulmuşdu, təkcə axşamlar gün batanda içəri günəş işığı düşürdü. Orası da yadındadır ki, iştahası tamam çəkilmişdi. Bir də gecələr yaxşı yata bilmirdi, ağrıdan bəri-bədəni sızım-sızım sızıldayırdı. Bəs sonra? Sonra elə hey yatmaq istəyirdi, gözləri yuxudan açılmaq bilmirdi. Və yatdı da... Bundan sonrasını isə xatırlaya bilmirdi. Bəlkə hələ yuxudan oyanmamışdı? Yuxu bu qədər uzun çəkərdimi? Yox, belə cansıxıcı olmazdı yuxu...

Nəfəs almaq üçün havanın çatmadığını hiss edir və bu onu darıxdırırdı. Ancaq havadan gələn təzə torpaq ətri məlhəm kimi ruhuna, varlığına yayılırdı, yayıldıqca da əsəbləri sakitləşirdi və sakitləşən əsəblərilə birlikdə elə bil yavaş-yavaş özünə qayıdırdı.

Əllərində-ayaqlarında xoş bir taqətsizlik var idi. Elə bil əlləri, ayaqları hələ oyanmamışdı, oyanan təkcə beyni, düşüncəsiydi. Elə bil dünyanın səsi-küyü qeybə çəkilmişdi. Təkcə qulaqlarında bir səs var idi, bu səs yerin, torpağın təkindən gələn qəribə bir uğultuya bənzəyirdi. Bu uğultu elə dərindən, elə uzaqdan gəlirdi ki, onun cazibəsindən qopammırdı, ayrılammırdı və yadını-yaddaşını kəsib keçən bu səsdə ölüm kimi, dünya kimi, zülmət kimi bir əbədilik vardı.

İsti idimi, soyuq idimi, hiss eləmirdi, bədəninin yuxusu hələ çəkilib getməmişdi. «Fələk, bu nə iş idi düşdü birdən-birə. Nə gecəsini bilirsən, nə gündüzünü. Nə bir səs eşidirsən, nə bir yana çevrilə bilirsən. Bu gen dünyada nə yer-yurd idi düşmüşdü?».

Qolu ağrıyırdı. Deyəsən axı, qolunun üstə uzanıb yatmışdı; ancaq sağ, ya sol qolu olduğunu bilmirdi. Dünyanın bu dar, qaranlıq hücrəsində ölçü və duyğu hissini tamamilə itirmişdi. Bir də ki, nə fərqi sağ, ya sol? Qolu ağrıyırdı, qolu ağrıdan sızıldayırdı, vəssəlam. O biri böyrü üstə çevrilə bilsə, ağrı çəkilib gedərdi.

Yavaş-yavaş başını qaldırdı. Və bir neçə dəfə başını qaldırıb qoydu. Elə bil başını qaldıra biləcəyinə inanmırdı.

Başının altında yastıq, balış yox idi. Sonra istədi çevrilsin, ancaq çevrilə bilmədi. Bədəninə bürünmüş o şey nəydisə,



Thank you for trying Soda PDF

onu çevrilməyə qoymurdu. Əvvəlcə bunun içərisindən çıxmaq lazımdı. Bəlkə də qaranlıq bunun içərisində idi. Burdan çıxa bilsə, hər tərəf işıqdı, aydınlıqdı. Ancaq bunun içərisindən çıxmaq mümkün idimi?..

Acmamışdı, ancaq susamışdı, dili, dodağı susuzluqdan təpimişdi. Bir parç sərin bulaq suyu olsa, ləzzətlə başına çəkərdi. Nədənsə susuzluğunu tezcə də unutdu.

Vaxt ağır-ağır ötürdü. Gözləyirdi, elə bil nə isə baş verməliydi və saniyələr, dəqiqələr səssiz-səmirsiz ötüb keçdikcə get-gedə aydınlaşan beyninə qəribə şübhələr dolurdu. Bu şübhələri özündən uzaqlaşdırmaq istəyirdi, ancaq nə illah eləyirdisə, bacarmırdı.

Əlilə bədəninə sarınmış bürüncəyin bir tərəfindən tutub var gücüylə dartdı. Bürüncək cırıldı, axtarıb cırıq yeri əlinə keçirdi, yenidən dartmağa başladı. Bürüncəkdən çıxan əlilə böyür-başını yoxladı. Dörd bir tərəf divar idi. Sonra əlini qorxa-qorxa çılpaq bədəninə çəkdi. «...Qəbir!!!» Və birdən... Ayaqları ilə kəfəni cırım-cırım elədi.

Qəribə, heybətli səslə qışqırırdı. Ancaq bu insan səsinə bənzəmirdi, qışqırığa bənzəmirdi. Elə bil ulayırdı.

Qışqırdıqca burnuna qəribə qoxu dolurdu. Sonra hiss elədi ki, burnundan qan fışqırır. Dodaqlarında qanın turş, ürəkbulandıcı dadını hiss elədi.

Qan axdıqca yüngülləşirdi. Bu nə yüngüllük idi belə? Qəribə işdi; bundan belə uzan, ağlın, şüurun kəsə-kəsə ölümün nə vaxt gəlib yetişəcəyini gözlə...

Təkcə yuxuladığı axşam yadındaydı, ondan sonrasını xatırlaya bilmirdi. Düz o yatan indi ayılırdı.

Bir azdan sonra tamam sakitləşdi. Burnundan fışqırıb axan qanla birlikdə susuzluğu keçib getmişdi. Hər şeyi necə vardısa dərk eləyəndən sonra yatıb təzədən ölmək istəyirdi. Yuxuda ölüm qat-qat asan idi; bu dar, qaranlıq hücrədə ayıq gözlə ölümü gözləməkdən dəhşətli heç nə olammazdı.

Yuxuda görürdü ki, kor ilan ayağından çalıb və nə illah eləyirsə, ayaqqabını şişib əndazədən çıxmış ayağından çıxara bilmir. Qıçı tamam keyləşmişdi. Hiss eləyirdi ki, zəhər bədənini dondura-dondura üzü yuxarı qalxır. Get-gedə nəfəsi tıxçanırdı.



Thank you for trying Soda PDF

Tanımadığı qara geyimli bir qadın qarışla boyunu ölçürdü... Sonra necə oldusa birdən gözlərini açdı. Sağ qıçı tamam keyləşmişdi.

«Bu ilan hardan gəlib yuxusuna girdi... Qəbir evində də rahat buraxmayacaqmı onu, ilahi?».

Neçə il idi ki, ilan ona rahatlıq vermirdi. Hayana gedirdisə, gözlərinin qabağından çəkilib getmək bilmirdi. Və qəribəydi ki, ilanın hansı səmtdə durduğunu, harda gizləndiyini fəhmlə duyurdu, bəlkə elə buna görəydi ki, o da ilanı öldürməyə cəhd eləmirdi. Evdə oturub iştahla çörək yediyi yerdə birdən ona elə gəlirdi ki, kimsə hərəkətlərini izləyir. Handan-hana yadına düşürdü ki, ona göz qoyan ilandı; iştahası tamam küsürdü. Gecələr ilanın səsini eşidirdi; bilirdi ki, ilan evin damıyla tavanın arasında gecələyir. Hərdən fikirləşirdi ki, gecələrin birində tavan üstünə qopacaq, ilan düşüb bədəninə sarmaşacaq. İlanın soyuqluğunu uzaqdan-uzağa canında hiss eləyirdi. Beləcə ömür-gün qorxu və yuxusuzluq içində keçib gedirdi.

İndi bu dar və qaranlıq hücrədə ilanın vahiməsi iynə-iynə bədəninə doluşurdu. Bir vaxt kimdənsə eşitmişdi ki, ilan təzə meyitlərin gözlərini yeyir. Bunu düşünəndə gözlərinin giləsi göynədi.

Aradan nə qədər keçdiyini bilmirdi. Bəlkə bir gün, bir həftə, bəlkə də bir ay. «Görən indi günün hansı vaxtı olar? Gecəmi, gündüzmü?». Ona elə gəlirdi ki, dünyada ancaq zülmət var, qaranlıq var, işıq, aydınlıq deyilən şey yuxudu, əfsanədi, xəyaldı, vəssəlam.

Görəsən, insan aclığa, susuzluğa nə qədər dözə bilir? Lap tutaq ki, bir həftə, yaxud bir ay. Bəs sonra?

Təzədən qışqırmağa başladı. Ancaq səs çıxmağa, ün yetməyə bir yer vardımı görəsən? Bu, sadəcə təsəlliydi. Qışqırıb-bağırandan sonra bir xeyli yüngülləşirdi. Və beləcə yüngülləşəndən sonra yatmaq, yuxulamaq istəyirdi. Heç olmasa yuxularında işıq görmək istəyirdi.

Ancaq yuxuda da hər tərəf qaranlıq idi. Səmaya elə bil qapqara çarşaf çəkmişdilər; zülmətdən göz-gözü görmürdü. Uzaqdan, lap uzaqdan bel-külüng tappıltısına bənzər bir səs gəlirdi, elə bil hardasa qazıntı aparırdılar. Səs elə küt, elə boğuq

Thank you for trying Soda PDF

idi ki, hansı səmtdən gəldiyini sezmək qeyri-mümkündü. Yaddaşında yuxuyla oyaqlıq bir-birinə qarışmışdı, ancaq hiss elədi ki, bu boğuq, küt tappıltı səsini yuxuda deyil, həqiqətdə eşidir. «Bəlkə də yaxınlıqda qəbir qazırlar. Əgər qəbiristanlıqdadırsa, burda tappıltı səsi başqa nə səbəbə gələ bilərdi ki... Görünür, indi bayırda günün günorta çağıdı, işıqdı, hər halda axşam olmaz, şər vaxtı qəbiristanlığa ölü gətirmək, qəbir qazmaq el adətinə ziddi – bunu bilir. Görən ömrünü bu dünyanın işıqlı günlərinə bağışlayıb ona qonşu gələn kimdi? – Tanıdıqları, bildikləri, kəndin ölüm ayağında olanları bir-bir gözlərinin qabağından gəldi keçdi. – Vaxtlımı ölüb, vaxtsızmı? – Bu nə sualdı özünə verir, vaxtlı da ölüm olarmı?».

Tappıltı kəsildi, xeyli bu səsi eşitmədi. Bir müddət sonra həmin boğuq, küt səs təzədən eşidilməyə başladı. Ancaq səs bayırdakına nisbətən bir qədər aydınlaşmışdı və qulaqlarına tappıltı səsiylə birgə nə deyildiyi anlaşılmayan danışıq səsləri də dəyirdi.

Nəfəsini udub dayandı. Astadan nə barədəsə yeyin-yeyin danışırdılar. Get-gedə aydın eşidilən tappıltı səsiylə birgə üstündəki qamış tərəcənin titrəməsindən qəti yəqin elədi ki, onun qəbrini qazırlar. «Aman allah?!». Niyə onun qəbrini qazırlar? Bəlkə diri olduğunu bilirlər? Bəlkə onu eləcə diri-diri torpağa basdırıblar? Bəlkə hələ də yuxu görür...».

Səsini çıxarmağa qorxurdu. Qəbrinin qazılmasının səbəbini heç cür özünə izah eləyə bilmirdi.

Bir azdan belin tappıltısı kəsildi. İçəri sərin hava doldu. İndi dünya ilə, işıqla arasında qamış tərəcə qalmışdı.

Havanı acgöz-acgöz ciyərlərinə çəkdi. Səsini çıxarmağa hələ də qorxurdu. Qorxurdu ki, xortdamış bilib bellə vurub öldürərlər. Dəmir tiyəni bircə dəfə təpəsinə endirsələr kifayətdi. Məsələni aydınlaşdırana kimi iş-işdən keçər.

Üstünə torpaq tökülməsin deyə çəpinə qoyulmuş tərəcəni dartıb çıxardılar. Ay işığında gözləri qamaşdı.

– Qorxma, - deyirdi qalın səsli, - kəfəni cır, əvvəcə üzüyü dart çıxar. Üzük çıxmasa, kəs barmağını. Sol əlinin orta barmağında olmalıdı, meyit yuyulanda görmüşəm. Dişləri çıxarmaq çətin olacaq... Bir az əlli tərpən, vaxt keçir.

Cır səsli:

– Vallah, dizlərim əsir, qorxuram düşəm, qəbirdən çıxa bilməyəm.

Qalın səsli:

– Vaxt keçir. Hələ nə qədər yol getməliyik biz, - dedi.

Cır səsli:

–Yox, gəl özün düş, - dedi, Bura kimi mən eləmişəm, bundan sonrasını özün elə.

Qalın səsli:

– Ə, kişiliyin olsun, ölünün nəyindən qorxursan? Bir həftənin ölüsü dirilib yeməyəcək ha səni... - dedi.

«Bir həftə! Deməli, bir həftədi torpağa basdırıldığı... Ona bir əsr qədər uzun görünən bu vaxt cəmisi bircə həftəymiş. Necə olub ki, bunu hiss eləməyib?.. Bəlkə torpağın altında qəbir evində vaxtın çərxi özgə cür fırlanır... Şükür kərəminə, ilahi?» – Əliş səslərini tanımadığı bu iki nəfərin danışığına qulaq asa-asa düşündü.

Cır səsli:

– Atam-qardaşım, bir qələtdi sənnən evdən çıxmışam, söz kəsmişəm, bura gəlmişəm. Bacarırsan, gəl özün gir, - deyə yalvarırdı.

Qalın səsli:

– Tfu, - dedi, - gör bir mən kimnən yola çıxmışam. Mənim ağzımı...

Özünü söyüş söyməkdən güclə saxladı. Sonra nə fikirləşdisə:

– Yaxşı, onda gəl meyiti qəbirdən çıxaraq, bayırda görək işimizi, buna sözün nədi... - dedi.

Cır səsli nə isə dedi, ancaq qulaqları almadı. Qalxıb qəbrin içində oturdu. Hələ qəbirdən xeyli aralıydılar, mübahisələri kəsməmişdi.

– Ay allah bəndələri, - dedi.

Ancaq bilmədi ki, səsini eşitdilər, yoxsa yox, çünki səsi özünə də qəribə gəldi.

Mübahisənin kəsməyindən bildi ki, səsini eşidiblər. Ancaq səsin qəbirdən gəlməyini heç biri ağlına gətirmədiyindən

elə bilirdilər ki, kimsə onları pusur, səs də hardansa kənardan gəlir. Özlərini itirmiş halda yerə çökdülər.

Taqətsiz bədənini güclə dikəldərək əlləri ilə torpaqdan tutub qəbirdən çıxmaq istəyirdi, ancaq qəbrin qum kimi torpağı barmaqlarının altında axırdı.

– Ay allah bəndələri, - dedi, - kömək eləyin.

Ay işığında kölgələr ona sarı çevrildilər. Qəbrin içərisində çılpaq dayanıb baxırdı. Ağ saçları üz-gözünə tökülmüşdü. Əvvəlcə qorxa-qorxa, qorxudan inildəyə-inildəyə geri çəkildilər, sonra beli, kürəyi atıb qışqıra-qışqıra kəndə sarı qaçmağa başladılar.

– Ooooo...

– Uuuuuu...

Bu, insan səsinə bənzəmirdi.

Haray, qışqırıq səsləri kəndə çatanacan kəsilmədi.

Qalxıb torpaq topasının üstündə oturdu. Başdaşını çıxarıb böyrü üstə atmışdılar. Ay işığında adını-familiyasını oxudu. Doğum-ölüm tarixinə baxdı. Qırx yeddi il...

Düşüb qəbirdən kəfəni çıxaranda apaydın görünən qəbir çuxuruna, bir həftə gecə-gündüzün nə olduğunu bilmədən yatdığı yerə baxdı. Qəbrin içərisi o dərəcədə vahiməliydi ki, ixtiyarsız olaraq əli-ayağı titrəməyə başladı. Müvazinətini itirib yıxılmamaq üçün özünü güclə saxladı.

Handan-hana özünə gəldi. Onun varlığını sarsıdan bu qəbir yerində bir həftəni necə uzanıb qaldığına heyrət eləyirdi. Necə olmuşdu ki, ürəyi partlayıb ölməmişdi. Necə olmuşdu ki, qaranlıq, ümidsiz, bir yerdə bu qədər dözüb dayana bilmişdi. «Bəs onda niyə deyirlər insan ümidsiz yaşaya bilməz. O ki, heç nəyə ümid eləmirdi. Yerin təkində, əlini-qolunu güclə tərpədə bildiyi kəfən arasında axı heç nəyə ümid qalmırdı, uzanıb ölümü gözləməkdən savayı bir iş qalmırdı. Bunu bilə-bilə, bu acı həqiqəti dərk eləyə-eləyə necə oldu ki, sağ qaldı... ».

İndi qəbrin içərisində, onun vahimə doğuran divarlarına baxdıqca özü-özünün dözümünə, dəyanətinə heyrət eləyirdi.

Sonra kəfənin torpağını çırpıb qoltuğuna vurdu, birtəhər qəbir yerindən çıxdı.



Thank you for buying Soda PDF

Neçə gündən bəri kəfən içərisində uzandığı qəbrin bürküsündən sonra isti yay gecəsi belə ona soyuq gəlirdi. Səhərə yaxın olduğundan əsməyə başlayan xəfif mehdən üşüyürdü. Kəfəni çiyninə atdı ki, bir qədər canı qızsın.

Bütün bu əhvalatlardan sonra da hər şey ona yuxu kimi gəlirdi. Elə bil hələ yuxudan ayılmamışdı, haçansa ayılacaqdı və keçirdiyi bu qara-qorxular gülməli görünəcəkdi özünə.

Qəbiristanlığa qeyri-adi bir səssizlik çökmüşdü. Bayaq qışqıra-qışqıra kəndə sarı qaçıb gedən o iki nəfərin səsi hələ də qulaqlarından getməmişdi. Uzaqdan, kəndin içərilərindən arabir itlərin hürüşmə səsləri gəlirdi.

Başdaşıları ayın solğun işığında qaralırdılar. Özgə vaxtlar gecənin bu vədəsi qəbiristanlığın yanından keçməyə ürək eləməzdi, ancaq indi səssiz-səmirsiz torpaq topası üstündə oturmuşdu və özünü, taleyini düşünürdü. Bilirdi ki, nə vaxtsa yenə bu yurda gələcək, bu torpağa qovuşacaq.

Cavanlıqda gözəl bir qaraçı qızı falına baxarkən iki dəfə öləcəyini söyləmişdi. O zaman iki dəfə ölməyin nə olduğunun fərqinə varmadığından cır-cındır içərisində işıq saçan qaraçı gözəlinin sözlərinə məhəl qoymamışdı. İndi illərin uzaqlığından birdən-birə hardansa qaraçı qızının sözlərini xatırladı.

«İndi evdə neyləyirlər görəsən? Bayaq o iki nəfərin söhbətinə görə basdırıldığı vaxtdan yeddi gün keçir, yəqin ki, sabah yeddisini verəcəklər. İndi güman ki, səhərin bütün hazırlıq işlərini görüblər. Arvadını yaxşı tanıyır, bu günün işini qətiyyən səhərə qoyan deyil, mini min söz desə də fərqi yoxdu, öz bildiyi ilə gedəcək. Sabah yəqin ki, həyət qohum-qonşuyla dolu olacaq. Zarafat deyil, qırx yeddi yaş nə ömürdü ki... İndi hamı arvadına vaxtsız dul qaldığı üçün təsəlli verir. Görəsən, uşaqlar neyləyir, atalarının ölümüylə barışa bilirlərmi? İllah da balacası? Onu elə istəyirdi ki, axşamlar işdən qayıdanda uşaq az qalırdı sevincindən dəli ola. Çox güman ki, anası onun öldüyünü uşaqdan gizli saxlayır. Hələ balacadı, ağlı kəsmir, birtəhər aldatmaq olar. Yəqin qızcığaz axşamlar, onun işdən qayıdan vaxtı kürrük eləyir. Görən anası onu necə ovundurur?.. İndi neyləsin? Gecənin bu vaxtı gedib evinin qapısını döysə, inanarlarmı dirilib gəlməyinə? Deməzlərmi bu vədə torpağın



Thank you for trying Soda PDF

altından nə təhər çıxıb gəlmisən bura? Ancaq başqa çıxış yolu da yoxdu, indi getməsə, günün günorta çağı çıl-çılpaq necə qayıda bilər? Hər halda evə dönmək üçün kəndin yatmış vaxtı daha münasib olar...».

Düşüncələr birdən-birə onu elə qoynuna aldı ki, hər şeyi unutdu. İndi gecənin bir aləmi, bir vaxt uzaq səfərlərdən qayıtdığı kimi gözlənilmədən qapını döyüb evə girəcək. Uşaqlar atalarının gəlişinə yuxudan oyanacaqlar, sevindiklərindən uçmağa qanadları olmayacaq.

Ay qəfildən buludların arxasında gizləndi. Qəbiristanlığa qatı qaranlıq çökdü, bir andaca hər şey bu qatı qaranlığa qarışıb yox oldu. Bu qəfil qaranlıqdan sümükləri səksəndi, yerin altında, qəbirdə keçirdiyi o dəhşətli günlərin mənzərəsi bir andaca gözləri önündən keçib getdi. Ay buludların arxasından çıxıb ətrafı işıqlandırana kimi özünə gəlmədi.

Kəfənin bir ucunu çiyninə atdı, o biri ucunu belinə doladı. Ay işığında vahimə tökülən boş qəbrə son dəfə nəzər salaraq kəndə sarı yönəldi.

Qəbiristanlığı tamam qazıb tökmüşdülər, qəbirlərin yerindən qara-qara çuxurlar baxırdı. Ha fikirləşirdisə, bu qəbirlərdən nə üçün meyitlərin, sür-sümüklərin qazılıb çıxarıldığını anlaya bilmirdi. Qəbir çuxurlarına yıxılmamaq üçün addımlarını ehtiyatla atırdı.

Qəbiristanlığı keçib kəndə aparan yola çıxdı. Yol ağappaq ağırırdı. Bir həftə bundan qabaq tabutda, adamların çiynində bu yolu gəlmişdi, ancaq o zaman necə gəlməyindən xəbəri olmamışdı. İndi ağappaq ağaran yolla yeridikcə qəbiristanlığa gələn insan dəstəsi və bu dəstənin başı üzərindəki tabut gözləri önündə canlanırdı.

Kəndin işıqları sayrışırdı. Bayaq qışqıra-qışqıra kəndə sarı yüyürən o iki nəfərin səsinə qalxan itlərin hürüşməsi hələ də kəsməmişdi. Bu səs ona ürək-dirək verirdi.

Budur, gəlib kəndə girən yolların ayrıcında dayanır. Bu yolların ikisi kəndin içinə aparır, biri isə çayın yaxasıyla onun evinə gedir. Xoşbəxtlikdən evi kəndin ətəyindədi, itləri yuxudan eləməyəcək.



Thank you for trying Soda PDF

Çayın suyu tamam çəkilib; yayda az-az hallarda su olur burda. Ancaq qurbağaların səsi gəlir, hardasa çayın yatağındakı gölməçələrdə gecənin sərinliyindən, kimsəsizliyindən həzz ala-ala oxuyurlar. Gecənin səssizliyində bu səs ona o qədər doğma gəlir ki, sanki neçə illərin ayrılığından sonra ilk dəfə bu səsi eşidir.

Tini burulan kimi evinin yerləşdiyi səmtə baxdı. Gündüz olsaydı, evin damı apaydın görünərdi, ancaq indi ağacların arasından evin kirəmidli damını seçmək çətin idi. Təkcə yeridikcə ağacların arasından süzülüb gələn şüalardan bildi ki, eyvanın işığı yanır, arvadı həmişəki kimi işığı bilərəkdən söndürməyib.

Yavaş-yavaş evə yaxınlaşır. Bir azdan küçənin başına çatanda həyət qapısı aydın görünəcək.

Evə yaxınlaşdıqca özü də bilmədən ürəyi titrəyir. İndiyənəcən keçirmədiyi qəribə hisslər varlığını bürüyür. Get-gedə vücuduna dolmağa başlayan qorxu hissi onu əvvəlki kimi yeriməyə qoymur, saxlayıb düşünməyə, hərəkətlərini ölçüb biçməyə vadar eləyir.

Darvazaya çatıb dayandı. Kənardan baxanda küçədə, həyət qapısında, qapının taxtaları arasından həyətin görünən yerində heç bir dəyişiklik gözə dəymirdi. Elə bil bu evdə, bu həyətdə adam ölməmişdi, yas düşməmişdi, hər şey necə qoyub getmişdisə, eləcə qalırdı.

Eyvanın zəif işığı həyətin gündoğana baxan tərəfini işıqlandırır, sütunların və evin qənşərindəki əbrişim ağaclarının kölgəsi həyət qapısınacan uzanırdı.

Qapını yavaşca itələdi. Açılmadı, hiss elədi ki, cəftəni vurmaqdan əlavə arxasına dəmir ling söykəyiblər. Qapının cəftəsini bayırdan açmaq üçün barmağın zorla yerləşə biləcəyi balaca deşik vardı. Barmağını salıb yavaşca cəftəni itələdi. Cəftə açıldı. Sonra səssizcə qapını itələdi. Ancaq qapının arxasına söykənmiş dəmir ling onu açılmağa qoymurdu. Çiynini qapıya söykəyib var gücüylə itələdi. Qapı bir qədər aralandı və birtəhər özünü içəri saldı.

Həyətdə elə sakitlik idi ki, ürəyinin döyüntüsü eşidilirdi. Evin pəncərələrindən qaranlıq tökülürdü. Ayaqlarının ucunda

yeriyirdi ki, səs-küy salmasın. Elə bil aradan bir həftə yox, uzun illər keçmişdi.

«...Niyə belə ehtiyatla yeriyir? Nədən çəkinir? Bu evi, həyəti öz əliylə qurub düzəltməmişdimi? Bəs niyə oğurluğa gedirmiş kimi qorxa-qorxa yeriyir?».

Ayaqlarının ucunda yataq otağının pəncərəsinə yaxınlaşdı. Başını pəncərənin dəmir şəbəkəsinə söykəyib içəri baxdı. İçəri qaranlıq idi və pəncərənin qabağına qoyulmuş güzgüdən başqa heç bir şeyi seçmək mümkün deyildi. Xeyli boylansa da, bir şey görə bilmədi. Pəncərənin qabağından çəkildi.

Ay işığında kölgəsi evin divarına düşürdü və hərəkət elədikcə uzanıb qısalan kölgəsinin vahiməsi onu basırdı, ona görə də kölgəsinin vahiməsindən qurtarmaq üçün qaranlığa çəkildi.

Bir müddət evin işıq tutmayan səmtində dayanıb gözlədi. Özü də bilmirdi ki, niyə gözləyir. Ona elə gəlirdi ki, indicə qapı açılacaq, onun pəncərədən baxdığını görən arvadı çıxıb içəri səsləyəcək. Ancaq vaxt keçir, qapı açılmırdı. Gözləməyə isə səbri çatmırdı.

Təzədən pəncərəyə yaxınlaşdı. Dəmir şəbəkələrin arasından içərini bir xeyli süzdü. Fərqi yoxdu, heç bir şey seçə bilmədi. Çağırmaq lazım idi, başqa cür evdəkiləri oyatmaq mümkün deyildi. Ancaq necə çağırsın? Burdan, pəncərənin qabağından çağırsa, ayılan kimi yuxulu-yuxulu onun kölgəsini görüb qorxa bilərlər. Bəs onda neyləməlidi?

Pəncərənin qabağından çəkilib evin qənşərindəki əbrişim ağacının yanında dayandı. Arvadını burdan səsləmək daha münasib olardı. Çünki arvadı çağırışına eyvana çıxan kimi onu görməliydi. Onu çağıranın kim olduğunu yəqinləşdirmək üçün eyvanda dayanıb gözləri ilə qaranlığı axtarmalıydı. O da eyvandan bir qədər aralı, evin qənşərindəki əbrişim ağacının altında hər şeyi necə var izah eləyə bilərdi. Güman ki, arvadını inandıra biləcək. Axı, burda nə vardı ki... Sadəcə olaraq onu sətəlcəm tutmuş, ölmüş bilib dəfn eləmişdilər. Taleyi elə gətirib ki, yerin altından, qəbir evindən təsadüf ucundan qurtara bilib. Yox, güman ki, arvadı bütün bunların baş verdiyinə inanacaq. Arvadını inandıra bilsə, uşaqları da inanacaq, inandırammasa heç.

Bütün gücünü toplayıb özünü ələ aldı, yavaşca arvadını səslədi:

– Qəmər...

Ancaq elə bil səsi çıxmadı, səsini təkcə özü eşitdi. Buna baxmayaraq bir xeyli gözlədi. Gözlədi ki, bəlkə çağırışına səs verələr.

Sonra bir də:

– Qəmər, - dedi və yenə nəfəsini udub gözlədi ki, indicə qapını açacaqlar. Ancaq içəridən səs gəlmədi. Bir anlığa ona elə gəldi ki, evdə heç kəs yoxdu, otaqlar bomboşdu, onun ölümündən sonra Qəmər uşaqlarını da yığışdırıb gedib atası evinə. Nahaq bu həyətdə qorxa-qorxa, çəkinə-çəkinə addımlayır. Bəlkə gedib eyvana çıxsın... Evin qapısının açıq olub-olmadığını yoxlasın... Ancaq getmədi, Qəmərin evdə olub-olmadığını yəqinləşdirmək üçün bu dəfə hündürdən:

– Qəmər! - deyə çığırdı.

Özü öz səsindən diksindi.

– Qəmər, ay Qəmər! - Bir də çağırdı.

Qapı yavaşca aralandı. Qəmər gecə paltarında saçları dağınıq halda eyvana çıxdı. Bir əlilə yaxasından tutaraq o biri əlilə qapını arxasınca çəkdi. Sürahının kənarına qədər gəlib həyət qapısına sarı:

– Ay adam, kimsən? - deyə soruşdu.

Söykənib dayandığı əbrişim ağacından aralanıb:

– Mənəm, Qəmər, - dedi.

Qəmər səsin darvaza səmtindən yox, evin qənşərindən gəldiyinə diksindi, söykəndiyi sürahıdan bir az geri çəkildi. Ancaq dayanıb gözlədi ki, həyətin ortasından gələn bu səsin, ona son dərəcə tanış gələn bu səsin sahibini tanısın.

Bir az da qabağa yeriyib qaranlıqdan çıxdı:

– Mənəm, Qəmər, - dedi, tanımadınmı? Əlişəm, dirilib gəlmişəm.

Qəmər ay işığında ağappaq kəfənə bürünmüş, başdan-ayağacan ağappaq tük gətirmiş, onun əri olduğunu deyən bu qəribə məxluqu görcək dəhşətli səslə çığırdı və qayıdıb otağa qaçmaq istədi. Ancaq dönməyə, qayıdıb özünü otağa salmağa



Thank you for trying Soda PDF

imkan tapmadı, özündən gedərək tirtap yerə yıxıldı. Qəmərin çığırtısı gecənin səssizliyi boyunca yayılaraq əks-səda verdi.

İstədi eyvana çıxıb Qəmərin qolundan tutub evə aparsın, uşaqları oyatsın, hər şeyi necə varsa, olduğu kimi onlara başa salsın. Ancaq pilləkənləri yarıya qədər qalxmışdı ki, içəridən tuman-köynəkdə cavan bir adam çıxdı. Eyvanın işığında göz-gözə gəldilər; Əliş qapıbir qonşuları olan Məsinin oğlunu tanıdı və hiss elədi ki, oğlan gecənin bu vədəsi arvadın səsinə çıxıb eyvanda onu görməyiylə özünü itirib, o da arvadı kimi bu saat, bu dəqiqə özündən gedib yıxılacaq. Məsinin oğlu bunu hiss elədiyindənmi, yoxsa gecənin bu vədəsi ləzzətlə yatdıqları yerdə peyda olmuş bu qəribə məxluqdan qorxduğundanmı yavaş-yavaş dalı-dalı çəkildi və özünü içəri saldı.

Qəmər hələ də eyvanda yıxılıb qalmışdı, huşu özündə deyildi.

Pilləkəndəcə dayanıb durmuşdu, bilmirdi qalxıb Qəməri evə aparsınmı, ya yeddisi çıxmamış onun evinə soxulan, arvadıyla, eyş-işrətə qurşanmış Məsinin oğlunu boğub öldürsünmü, yoxsa necə gəlmişdisə eləcə çıxıb getsinmi? Çünki işin belə olacağını qətiyyən gözləmirdi. Ağlına da gətirməzdi ki, iyirmi beş illik ailə həyatı boyu sevib inandığı bir qadın yeddisi çıxmamış belə bir işə qurşansın, yaslı-yaslı evinə oynaş gətirsin.

Qapı təzədən açıldı. Məsinin oğlu əlində qoşalülə tüfəng evdən çıxdı. Qan beyninə vurdu. Bildi ki, bircə an ləngisə güllə təpəsinə çaxılacaq. Dəli kimi yerindən qopub həyət qapısına tərəf götürüldü. Sol əlilə dəmir lingi qapının arxasından götürüb selbələdi ki, bayıra çıxıb qaça bilsin. Qapıdan çıxhaçıxda güllə açıldı. Sol qolunun istiləşdiyini hiss elədi.

Qəbiristanlığacan dayanmadan yüyürdü. Yüyürə-yüyürə hərdən çevrilib arxasına baxırdı ki, əli tüfəngli arxadan onu qovurlarmı... Ancaq qaranlıqda gözləri heç nə seçmirdi. Səhər üzü olduğundan hava daha da qatı qaranlığa qərq olmuşdu.

Qəbiristanlığa çatıb dayandı. Sol qolunu əlilə sürtüb yoxladı; qan içərisində idi. Bayaq açılan güllə qoluna dəymiş, dirsəkdən azca yuxarı əzələsini deşib keçmişdi.

Ancaq qolunda ağrı hiss eləmirdi. Bir gecədə qısa zaman ərzində baş vermiş bu dəhşətli və gözlənilməz hadisələrdən tamam özünü itirmiş, hissləri, duyğuları korşalmışdı.

Qəbrin torpağı üstündə oturub bir neçə saat bundan qabaq ona vahiməli görünən çuxura baxırdı. İndi qəbir çuxuru adi bir quyu kimi gəlirdi ona. «...Ömür, həyat necə də mənasızmış... İnsan niyə gəlir dünyaya görəsən, niyə yaşayır, bu dünyadan apardığı nədi?.. Tale, alın yazısı nə olan şeydi, niyə insan bunlardan qaça bilmir, qurtula bilmir».

Hava get-gedə işıqlaşırdı. Uzaqda gündoğan səmtində göyüzü qızarmağa başlamışdı. Bir azdan bu qızartı bütün gündoğan səmtini bürüyəcək, səhər açılmağa başlayacaqdı. Torpağın altında neçə vaxtdan bəriydi ki, işıq, aydınlıq axtarırdı. Ancaq indi dan yeri qızardıqca hiss elədi ki, o, işıq, aydınlıq istəmir, bəlkə qırx yeddi illik ömründə ilk dəfə olaraq qaranlıq istəyir, zülmət istəyir...

Üstündə oturduğu qəbrin torpağından bir ovuc götürdü. Qazılıb çıxarılmasaydı, illərlə bu torpağın altında yatacaqdı, çürüyüb bu torpağa qarışacaqdı. Və birdən-birə qazılıb torpağın altından çıxarıldığına, taleyin bu qəribə, gözlənilməz oyununa acıdı. Özünə yazığı gəldi.

Gündoğan səmtində üfüqlər qan içindəydi. Səhərə az, lap az qalırdı. Bir azdan hava tamam işıqlaşacaqdı. «... Bəs o bundan sonra neyləyəcək, necə yaşayacaq, kimin üçün yaşayacaq?.. Onun sadə bir təsadüfdən xilas olduğuna, xortdamadığına inanacaqlarmı?.. Lap inansalar belə, bundan sonra yaşamağına dəyəcəkdimi? Axı bundan sonra evinə, ailəsinə qayıda bilməyəcəkdi...».

Hava işıqlaşdıqca, səbri tükənirdi. Nə edəcəyini bilmirdi. Eləcə qəbrin torpağı üstündə oturub gözlərini çuxura zilləmişdi. Elə bil yer üzündə tək o qalmışdı, bu başdaşları qalmışdı, bir də bir həftə gecə-gündüz nə olduğunu bilmədən yaşadığı bu qəbir çuxuru qalmışdı.

* * *



Thank you for buying soda PDF

Bütün bu əhvalatlar bir də, bir də yaddaşından keçdikcə Əliş bunların öz başına gəldiyinə inanmırdı.

Bel-külüng səsləri birdəncə kəsildi. Başını qaldırdı. Adamlar əl saxlayıb Həlimə qarının tamaşasına durmuşdular. Çal saçları boyun-boğazına tökülmüş Həlimə qarı qucağında qara-qara daşlar ayaqyalın qəbiristanlığın içərisiylə fır-fır fırlanırdı. Bayaqdan bəri neçə dəfə qazılıb köçürülmüş qəbirlər arasında oğlunun qəbir çuxurunu tapıb itirmişdi.

Uşaqları xısın-xısın ağlaya-ağlaya analarının dalınca düşmüşdülər, ancaq arvad heç kəsi yaxına buraxmırdı.

Handan-hana axtarıb oğlunun qəbir yerini tapdı. Qazılıb tökülmüş yumşaq torpağın üstündə oturaraq qucağındakı daşları dizlərinin üstünə qoyub oxşamağa başladı. Qucağındakı daşları elə oxşayıb əzizləyirdi ki, deyirdin daşlar canlıdı, ətinin-canının ayrılmaz parçasıdı. Həlimə qarı oxuyurdu, oynayırdı, gülürdü, qucağındakı daşları sığallaya-sığallaya, oxşaya-oxşaya öz-özünə danışırdı, daşlarla söhbət eləyirdi.

– Oğul, - deyirdi, çox gözlədim yolunu, bilirdim gələcəksən, ananı gözü yolda qoymayacaqsan. Day gözlərim yığıldı yollardan, indi rahat ölə billəm.

Ətəyindəki daşlar oğlu Əvəzin qəbrindən çıxmışdı. Əvəzin necə öldüyü indinin özünəcən qaranlıqdı. Əsgərlikdən ölüm xəbəri alınandan bir həftə sonra meyiti iki nəfər əsgər qutudaca gətirmişdi. Dəfn zamanı qutunu açmağa icazə verilməmişdi. O iki əsgərin göstərişilə meyit elə qutudaca torpağa qoyulmuşdu.

İlahi, o vaxt Həlimə qarı nə müsibət açmışdı. Taxta qutunu dırnaqlarıyla necə didirdi, əlləri ilə necə sürtüb oxşayırdı, qutunun başına necə fırlanırdı. İndi qəbirdən oğlunun cəsədi əvəzinə daş-kəsək çıxdığını biləndə qarı havalanmışdı. Uşaqları nə illah eləmişdilərsə, analarından gizlədə bilməmişdilər. Hansı bir gizli qüvvəsə arvadı çəkib qəbiristanlığa gətirmişdi. İndi bilmirdilər daş-kəsəyi nə adla dəfn eləsinlər. Qəbir yerini itirmək ondan da ağırdı.

– Bizi qarğıyanı allah qarğısın, - Əvəzin böyük bacısı, qardışının ölümündən bu yana yas paltarını əynindən çıxarmayan qaragünlü Sona əllərini göyə açıb qarğış tökürdü.



Thank you for trying Soda PDF

Uşaqları nə illah eləyirdilərsə, daş-kəsəyi arvadın əlindən alıb analarını evə qaytarammırdılar.

– Toxunmayın mənim oğluma, - deyirdi, - oğul doğmamısız mənimçün, yeri-göyü dağıdaram.

Qardaşının ölüm xəbəri gələndə nişanlı olan Sona düz iki il sonra ərə gedəndə də o qara paltarda gəlin köçmüşdü. Bu günəcən əynindəki o qara paltarı çıxarmağı qardaşı Əvəzə xəyanət bilirdi.

Qaragünlü Sona tamam başını itirmişdi. Ona elə gəlirdi ki, qardaşını qarğıyıb daşa döndəriblər. Həlimənin qucağındakı qara-qara daşlara qəribə bir qorxuyla baxırdı, elə bil daşlarda anlamadığı, dərk eləmədiyi bir sirr vardı.

Daşın üstündə oturub baxırdı. Adamların içərisində üst-başı toz-torpağa bulaşmış ərlə-arvad səhərdən bəri o yan-bu yana qaçırdılar. Qəbiristanlığı bəlkə azı min kərə belədən-belə gəzib dolaşmışdılar. Kirpiklərinəcən toz-torpağın içərisindəydilər. Adamlardan ayrılaraq bir kənarda dayanıb baxırdılar, sonra ər qabaqda, arvad əlində bel arxada qəbiristanlığa girirdilər, çala-çala qəbir yerlərinin arasıyla yavaş-yavaş keçib gedir, diqqətlə qəbir yerini axtarırdılar.

Sonra gəlib onun oturduğu daşın yanında dayandılar. Yolçuyla Pəriydi; əyin-başları elə gündəydi ki, ikicə addımlıqdan tanımaq olmurdu.

Yolçuyla Pərinin uşağı təzə doğulmuşdu və xəstəxanadan çıxarandan bir həftə keçməmiş tələf olmuşdu. Uşaq boğulub ölmüşdümü, anasının altında qalmışdımı, bilinmirdi. Ancaq qonşular uşağın ölməyindən iki gün sonra xəbər tutmuşdular. Ata-ana körpəyə veriləcək yüz manat pulu əldən çıxarmamaq üçün onun ölməyini hamıdan, qohum-qonşudan belə gizləmişdi... Uşağı gecəykən yuyub qəbiristanlığa aparmışdılar. Qaranlıqda kimsəsiz qəbiristanlıqda ərlə arvad külünglə qəbir qazmışdılar. Cəmi yeddicə gün ömür sürmüş körpəni gizlicə yaş torpağa tapşırıb səhər üzü evə dönmüşdülər. Səhər evdə uşaqlara bərk-bərk tapşırmışdılar ki, körpənin keçindiyini heç kəsə deməsinlər. Kişi gedib körpəyə veriləcək pulu almışdı.

Camaat yalnız bundan sonra uşağın tələf olmağını bilmişdi.



Thank you for trying Soda PDF

O gündən arvad yata bilmirdi, səhəri dirigözlü açırdı. Yuxusu qaçaq düşmüşdü, ha çalışırdısa gözlərinə yuxu getmirdi. Əri aparmadığı həkim, göstərmədiyi baxıcı qalmamışdı. Deyirdilər ki, qorxub, keçib gedəcək. Ancaq yuxusuzluq keçib getmirdi, uzun gecəni səhər eləyənəcən onunku ona dəyirdi.

Gecənin bir aləmi arvad qalxıb yatağında otururdu. Əri də yatammırdı. Arvadı bu bəlaya düçar olandan onun da yuxusu çəkilmişdi.

– Uzan, gözlərini yum, - deyirdi, - yüzə qədər say.

Arvad ərinin dediyi sayaq uzanıb gözlərini yumurdu, başlayırdı saymağa.

– Bir, iki... on beş, otuz doqquz... yüz, yüz bir...

Fərqi yox idi, yuxusu gəlmirdi ki, gəlmirdi. Uşağı dəfn elədikləri gecə, o gecənin vahiməsi canına hopmuşdu, heç cür o qorxunu, vahiməni canından çıxara bilmirdi.

– Axı niyə qoymadın uşağı el adətilə dəfn eləyək, sənə demədimmi haram düşmür bizə.

– Sənin nə vecinə... Bir çətən külfət saxlayıram mən. Birini bilirsən, birini yox.

– Acından ölməyəcəkdik ki... Pis-yaxşı dolanırdıq.

– Yıxıl yat, arvad! Yum gözlərini, yuxuya gedənəcən say.

– Yata bilmirəm, Yolçu, başa düşürsən? Yuxusuzluq öldürür məni. Düz on gündü yata bilmirəm.

– Səhər aparacam səni Molla Məhəmmədin yanına.

– Yolçu, sən atanın goru, çıxar evdən o yüz manatı. İndiyəcən bizə nə gəlibsə tamahdan gəlib.

Beləcə arvad günlərlə gecəni dirigözlü açırdı. Səhər qalxıb görürdülər ki, arvad yatağının içində oturub.

– Gecə bayıra çıxmağa qorxuram, - deyirdi, - hara baxıramsa, uşaq gözlərimə görünür. Yoxsa çıxıb bayırda gəzərəm.

Qəbiristanlığın üstüylə yol çəkilməsinə arvad ayrı cür baxırdı. Elə fikirləşirdi ki, uşağı tamaha qurban verdikləri, el adətiylə basdırmadıqları üçün bu yol çəkilir.

– Sənə dedim axı o vaxt, çıxar tulla evdən o yüz manatı, gör bir başımıza nələr gətirdin...

Yolçu üst-başı toz-torpaq içində dayanıb baxırdı. Arvadının sözlərini eşitmədi. Onu fikir götürmüşdü. “Axı harda bas-

dırmışdılar bu körpəni? İndiki kimi yadındaydı, gecə qəbiristanlığın qapısından keçib necə getdilər, hansı qəbirlərin yanından ötdülər. Sonra köhnə qəbirlərin arasında torpağı qurumuş otlardan təmizləyib külünglə balaca qəbir qazdılar. Üstünə də balaca başdaşı sancdılar ki, qəbrin yeri itməsin. İndi necə olmuşdu qəbir, hara qeyb olmuşdu?».

Qəbiristanlığın köçürülməsi söhbəti qalxandan ər-arvad əl-haya düşmüşdülər. Elə həmin günün səhəri ikisi də obaşdannan durub qəbiristanlığa gəlmişdilər. Bir ay bundan əvvəl basdırılmış uşağın qəbri yoxa çıxmışdı. Qəbiristanlığı aşağı-yuxarı neçə dəfə gəzmişdilər, ancaq qəbir tapılmırdı ki, tapılmırdı.

Evdən çıxıb həmin gecə uşağı dəfn eləməyə apardıqları yolla gəlirdilər. Hansı yolla keçib gəldiklərini fikirləşə-fikirləşə gəlib qəbiristanlığın ortasına çıxırdılar. Ancaq qəbir tapılmırdı, qayıdıb yolu bir də gəlirdilər. Fərqi yox idi. Sonra bir dəfə gecə yarısı arvadı Yolçunu durğuzub qəbiristanlığa gətirmişdi ki, bəlkə qaranlıqda gəldikləri yolu yaddaşında bərpa eləyə-eləyə qəbrin yerini tapa. Qaranlıqdan üşənə-üşənə o qədər yolu piyada gəlmişdilər. Ayın tutqun işığında qəbirlərin arasıyla dan yeri ağaranacan o qəbri axtarmışdılar. Ancaq yenə qəbri tapa bilmirdilər ki, bilmirdilər.

Yolçunun üst-başına baxdı, günəşdən yanıb qaralmış sifətinə baxdı; yazığı gəldi. Üz-gözünün ifadəsində tutduğu işdən it kimi peşiman olduğu bilinirdi. Və onu da hiss elədi ki, uşağın qəbrini tapıb köçürməyincə, arvadının özünə gələcəyinə, yaşayacağına inanmır.

Keçib onun yanında, daşın üstündə oturdu. Arvadı Yolçudan aralanıb adamlara qarışdı. Günün günortadan keçdiyini bildiyindən başa düşürdü ki, uşağın qəbri bu gün tapılmalıdı, hava qaralanacan tapılmasa, sonra gec olacaq.

Göz-gözə gəldilər, hiss elədi ki, Yolçu danışmağa, dərdini bölüşməyə adam axtarır. Ancaq o danışmaq istəmirdi, heç kəslə kəlmə belə kəsmək istəmirdi. Gördüyü bu mənzərə o qədər sarsıdıcıydı ki, danışmağa özündə güc belə duymurdu.

Aradan nə qədər keçdiyini bilmədi. Bir də başını qaldıranda gördü ki, Pəri tozun-torpağın içərisində adamlardan ayrılıb ona sarı gəlir. Gəlib ərinin qabağında dayandı:



Thank you for trying Soda PDF

– Nə oturmusan burda, görmürsən axşam düşür, bəsdi dincəldin, qalx görək neynirik. - Arvad bunu deyib əlini qaşına qoyaraq günbatan səmtə baxdı ki, görsün günün hansı vaxtıdı.

Yolçunun tükü də qımzanmadı, elə bil arvadının sözlərini eşitmirdi.

– Səninlə deyiləm? Görmürsən qaş qaralır?

– Gəl otur dincini al, həlak eləmə özünü, cəhənnəm olsun hər şey...

– Başına at təpibdi nədi, uşağın qəbri tapılmasa, dəli ollam bu gün haqqı, - arvad əllərinin ikisini də birdən günəşə sarı uzatdı.

– Yekə arvadsan, ağlını başına yığ, bir həftəlik uşaqdan ötrü özünü həlak eləmə. Yazıqsan, bir çətən külfətimiz var axı. Özünə yazığın gəlmir, barı balalarına yazığın gəlsin.

– O uşaqsız mənə ömür yoxdu, olmayacaq, bu su kimi aydındı sənə, sənin deməyin artıqdı.

– Gəl otur, sən atanın goru, görək bir dünyanın hara-harasıdı. Bir həftədi işimdən-gücümdən olub düşmüşəm sənin dalınca. Gecə də yuxuma qəbir girir, başdaşı girir. Bir bizdə görünməyib ki... Camaat heç bu yaşda öləni qəbiristanlığa gətir-mir...

Arvad bir gözü qəbiristanlıqda:

– Sənə dedim həyətdə, bağın ayağında basdıraq uşağı, – dedi. - Qoymadın, dedin aparaq qəbiristanlığa. Bu da sənin qəbiristanlığın. Di, tap görüm necə tapırsan...

– Bəlkə elə belə xeyrədi. Uşaqdı da, nə yaşamışdı ki, nə də yadda qala...

– Doqquz ay onu bətnimdə gəzdirmişəm, canımda gəz-dirmişəm, sənə nə var ki...

Yolçu dinmədi, daha doğrusu bilmədi nə cavab versin. Uşağı gecəynən gətirib qəbiristanlıqda basdırdıqları gündən bəri hər şey yaddaşında bir-birinə qarışmışdı və varlığını sarsıdan bu qarmaqarışıqlıqdan nə yolla xilas olacağını bilmirdi.

Qəfildən isti külək qalxaraq, bir andaca qəbiristanlığı ağ dumana bürüdü. Toz-torpaq sütunu göyə milləndi. Boğanaq qə-biristanlıq yerinin bu başından vurub o başından çıxdı, burula-

Thank you for trying Soda PDF

burula uzanıb nazildi, sonra hiss olunmadan çıxıb getdi. Ancaq qəbiristanlığın üstündən ağ toz dumanı xeyli vaxt çəkilmədi.

Küləyin, boğanağın qalxmasıyla kəsilən səslər təzədən oyandı, bellər, külünglər əvvəlki ritmiylə işləməyə başladı.

Arvad gözlərini qəbiristanlığın üstündən asılıb qalan toz dumanından çəkmədən:

– Ürəyimə damıb ki, uşağın qəbri torpaq altda qalıb. Bu qədər qəbri ki qazıb töküblər, onun altında bilək boyda başdaşının itməsinə nə var ki...

Yolçu yenə dinmədi, çünki daha canında taqət qalmamışdı, indi də qazılıb tökülən torpaq yığınının altında qəbri axtarmağa başlasalar, bu işə tab gətirməzdi. Ancaq arvad inad eləyirdi:

– Yolçu, dur, ürəyim partlayır mənim. Heç olmasa gedək o yerləri bir də axtaraq. Yadındadımı, gecə hardan keçib gəlmişdik...

Durub qəbiristanlığın içərisinə tərəf getdi. Gedə-gedə fikirləşirdi ki axı, bu dünya niyə belədi; birinin özünə dərd elədiyini o biri vecinə almır. Biri başdan-başa çirkab içərisindədi, o biri ən xırda məsələdə heysiyyətinin tapdanmasına belə dözmür, dözə bilmir. Bax, elə bu qəbirlər, bu qəbir daşları bir-birindən niyə bu qədər seçilir?..

– Ay oğul, bu daşın ucundan yapış aparaq? - Boş qəbrin başında dayanmış qoca bir kişi ona sarı döndü.

Daşın o biri ucundan tutdu. Bir xeyli getdilər. Qocanın daşı aparmağa gücü çatmırdı, yol boyu ayaqları titrəyirdi, az qalırdı yıxıla.

Dayandı, daşı yavaşca yerə qoydular:

– Tələsmə, əmi, - dedi.

– Qorxuram, oğul, qaş qaralır, sonra gec olar. Bir də başdaşını necə düzəltdirərəm? Üz-gözüm də öyrəşib buna. Əlimi sürtəndə elə bil ciyərparamın kürəyini sığallayıram. Bu başdaşını ora aparammasam, rahat olammaram.

Qocanın səsi elə titrək idi ki, sanki danışmır, ağlayırdı. Tük basmış sifəti göz yaşlarına bulaşdığından par-par yanırdı. Görürdü ki, qoca dincəlmək üçün dayansa da, yerində dura

Thank you for buying Soda PDF

bilmir, başdaşını təzəcə sökülüb dağılmış qəbiristanlıq yerindən çıxarmaq istəyir.

– Oğul, - dedi, - belə rahat gəzməyindən deyəsən qəbiristanlıqda bir adamın yoxdu.

– Yox, əmi, – dedi, – mənim heç kəsim yoxdu.

Qoca başını bulaya-bulaya:

– Xoşbəxtsən ki, oğul, heç kəsin yoxdu. Bu qəbri söküb daşımaq bilirsən nə zillətdi... Kimlərdənsən, oğul?

– Mənim heç kəsim yoxdu, əmi...

Bunu deyib başdaşını təkbaşına qaldırıb aparmaq istədi, ancaq yerindən tərpədə bilmədi.

– Dayan, oğul, tək apara bilməzsən, qoy ucundan tutum. Mənim belə qocalığıma baxma. Oğlumdu axı, nə qədər ağır olsa, mən tək qaldıra billəm, ancaq sən yox. - Qoca bunu deyib başdaşının ucundan tutdu. Təzədən getməyə başladılar.

...Həlimə qarının səsi qəbiristanlığı başına götürmüşdü. Arvad ağzını göyə tutub qarğış yağdırırdı. Uşaqları arvadın dalınca tökülərək bayaqkı kimi qaytarıb evə aparmağa çalışırdılar. Ancaq arvad heç kəsə məhəl qoymurdu.

– Bu yazığı dəli elədilər, – bunu qoca dedi və başdaşının ağırlığı altında titrəyən ayaqlarının büküləcəyindən qorxub dayandı. Təzədən daşı yerə qoydular.

– Hə, oğul! Bu uşağın sümüklərini bir-bir əllərimlə yığmışam torbaya. Düz bir torba ağzına kimi sümük elədi. Sümükləri torpaqdan ayırıb yığdıqca uşaqlığı gəlirdi yadıma. Balaca olanda deyirdi ki, ata, bilirsən, mən nə olacağam? Saçlarını sığallayırdım, soruşurdum, quzum, nə olacaqsan? Deyirdi, ata, dərviş olacağam. Deyirdim oğul, niyə dərviş, yer üzündə sənət qəhətdimi, bəyəm, gəlib dərviş olasan? Deyirdi, yox, ata, mən dərviş olacağam, gəzəcəyəm qarış-qarış yer üzünü. Deyirdim, oğul axı, niyə dərviş olacaqsan, bir desənə, mən də bilim. Deyirdi ki, bunu sonra, mən dərviş olanda biləcəksən. Nə illah eləyirdim, bir söz qopara bilmirdim. Elə uşaqlıqdan dərviş paltarı geyirdi, yerişi-duruşu, hərəkətləri, rəftarı ilə özünü dərvişlərə oxşadırdı. Bilmirəm, harda görmüşdü bu bədbəxt dərviş tayfasını, niyə dərviş olmaq istəyirdi? Sonra gəldi belə oldu. Birdən-birə ayaqları tutuldu, erkən yaşlarından yatağa düşdü.

Hayana apardımsa, dərdinə bir çarə tapılmadı. Bədbəxt gözlərimin qabağındaca əriyib getdi. İndi qəbrindən sümüklərini çıxaranda baxıram, baxıram, sümüklər o illəri geri qaytarır. Fikirləşirəm ki, insan niyə belə bədbəxtdi, ömür, həyat niyə belə mənasızdı. Uşağın əllərini basdırmadım, apardım evə. Dünən axşam əllərinin sümüklərini qabağıma qoyub o ki var ağlamışam. Bir vaxt bu əllərin necə canlı olduğunü gözlərimin qabağına gətirdikcə nəfəsim tutulurdu. Gördüm ki, əllər evdə mənə rahatlıq verməyəcək, təzədən gətirib basdırdım.

Təzə qəbiristanlıq yerinə nə vaxt gəlib çatmaqlarından xəbəri olmadı. Qocanın söhbəti o qədər cazibəli idi ki, nə yolun uzunluğunu, nə də başdaşının ağırlığını duymamışdı. Təkcə başdaşını yerə qoyanda hiss elədi ki, xeyli yol gəliblər və yorğunluqdan əlləri-ayaqları sızıldayır.

Təzə qəbiristanlıq yerində xeyli məzar vardı; qəbirlərin bəziləri sıra ilə, bəziləri tələm-tələsik, necə gəldi salınmışdı. Yaxın qohumları yanaşı basdıra bilmək üçün bəzi yerlər iplə, məftillə əhatəyə alınmışdı. Bir xeyli yeni köçürülmüş qəbirlərin arasıyla gəzib təzədən qocanın yanına qayıtdı. Qoca:

– Allah səni xoşbəxt eləsin, oğul, – dedi, – Yaman karıma gəldin. Sən olmasaydın, bu qədər yolu çətin ki, gəlib çıxa biləydim.

– Dəyməz, əmi, – dedi, – allah sənə də ömür versin.

Qocanın başdaşını basdırmasına kömək eləyə bilərdi. Ancaq hiss elədi ki, dayana bilmir, dözə bilmir. Təzə qəbiristanlıq yerindən ayrılıb gəldiyi yolla geri qayıtdı.

Köçürülməmiş bir qəbrin böyründə hardansa gələn səs onu saxladı. Başını qaldırdı. Qarşısındakı qəbrin torpağının ilbəil göyərib solan otlarından hiss olunurdu ki, indiyəcən bir dəfə də olsun yada salınmayıb, üstünə ayaq basılmayıb. Ancaq bilirdi ki, bu qəbrin sahibi Cəlal kişi torpağa qoyulandan sonra unudulmayıb, hələ sağlığında, əli qazanc gətirməkdən kəsilən gündən, qocalığın onu sürükləyib ölüm yatağına saldığı gündən, içində ölüm gəzdirə-gəzdirə evin-ailənin artığına çevrildiyi gündən unudulub.

Cəlal kişi bu yurdda qərib idi. Cavanlığında düzü-dünyanı yora-yora çox yerlər gəzmişdi, aranı dağa, dağı arana qat-

mışdı, ancaq ahıllaşdıqca yavaş-yavaş köçəri həyat onu yormuş, xoş-naxoş bu kənddə yurd salıb ev tikdirmişdi. Oğlanlarını ev-eşik eləyib, qızlarını ərə verəndən sonra bu yerlərə birdəfəlik bağlanmışdı. Belə-belə bir də baxıb görmüşdü ki, kəndin camaatına qoşulub.

Ancaq ömür keçdikcə vətən, torpaq çəkir, qoca təzə yurd yerinə heç cür bağlanammırdı. Qəribçilik dərd olub içərisini qovururdu, elə hey oturub-durub vətənindən, elindən, camaatından danışırdı. Ona elə gəlirdi ki, dədə-baba yurdu qırx-qırx beş kilometr aralıda deyil, çox-çox uzaqlardadı, dünyanın gedilməklə çatmaq, yetişmək mümkün olmayan bir səmtindədi.

Cəlal kişi ölənəcən gözlərini dağ səmtindən yığammamışdı. Qışın qapını kəsdirdiyini dağları örtən qardan bilərdi, havanın necə keçəcəyini dağın dumanından seçərdi. Hərdən dərdini dağıtmaqçün tütəyə dəm verərdi. Doğma yerlər yadına düşəndə elə çalardı ki, dilsiz-ağızsız heyvanların da ürəyinə qəribçilik toxumu düşərdi, torpaq ayaqlarının altından qaçardı. Sürü ağzını otdan ayırıb həsrət-həsrət dağlara sarı boylanardı. Beləcə qoca gözü dağda, özü aranda qəribçiliklə ömür sürmüşdü.

Bir qış kişi var-dövlətini yığıb-yığışdırıb arvadını və sonbeşiyini götürüb baş almışdı vətəninə. Səksən yaşında qolunu çırmalayıb kərpic kəsmişdi, palçıq qatmışdı, ev tikmişdi, tövlə düzəltmişdi, nə zillətlə kolxozdan yer alıb bağ salmışdı. İki ilin içərisində bir cah-cəlal yaratmışdı ki, gəl görəsən? Ancaq nə fayda? O iki ildə arvadıyla qızı kişiyə göz vermişdilər, işıq verməmişdilər. İş o yerə gəlib çatmışdı ki, kişinin qazanıb gətirdiklərini hazırlayıb qabağına qoymurdular. Xörək bişirilib ondan gizlində yeyilirdi. Süfrəyə gətirib qoyduqları təkcə yavan çörək olurdu ki, kişinin ondan da gözü doymurdu, yedikcə elə hey yemək istəyirdi. Qışın zəlov-zəlovunda kişi xəstələnmişdi, səksən illik ömründə ilk dəfə xəstəxana görmüşdü. Xəstəxanada ola-ola arvad kişini buraxıb qayıtmışdı əvvəlki yurdlarına. Kişi xəstəxanadan çıxandan sonra qoyub getdiyi yurdu boş görmüşdü, quruca canını götürüb o da arvada qoşulmağa məcbur olmuşdu. Beləcə ay dolanmış, il ötmüşdü və Cəlal kişi baxıb görmüşdü ki, əvvəlki yurdundadı. Daha qocalmışdı, yaş o yaş

deyildi, kolxozun naxırını otarmağa halı qalmamışdı. Heç nə olmayıbmış kimi başlamışdı öz sürüsünü otarmağa.

Səhər-axşam süfrəyə oturanda xəstəxanadakı günləri yadına düşürdü:

– Gedəcəyəm xəstəxanaya, – deyirdi, qoy işin əl-ayağını bir tərəfə yığım... Bu il mütləq gedəcəyəm.

Evdə yaxşı bilirdilər ki, onu xəstəxanaya çəkən xəstəliyi yox, gündə üç dəfə verilən, çoxlarının yeyə bilmədiyi isti xörəkdi... Çünki xəstəxana adı gələndə qocanın gözləri işıqlanırdı, ağzı sulanırdı. Di gəl ki, işdən heç cür macal eləyə bilmirdi, bir də başını qaldırırdı ki, il tamam olub, qış kəsdirib qapının ağzını. Ancaq yenə ümidini üzmürdü, torpağı, payızın qovurub-qızartdığı otu-ənciri örtməyə başlayan bəyaz qarın o üzündə gizlənən baharı görürdü və inanırdı ki, havalar isinən kimi işin əl-ayağını yığıb mütləq xəstəxanaya gedəcək.

Öləndə vəsiyyət eləmişdi ki, vətənində, dədə-baba yurdunda basdırsınlar, ancaq övladları kişinin vəsiyyətinə əməl eləməmişdilər. «Öz elidi, camaatıdı, qərib olanda nolar, – demişdilər, ömrü burda keçib, bu adamlarla çiyin-çiyinə yaşayıb, hər necə olsa, camaat xeyrinə-şərinə yarıyıb. İndi övladları, bir bölük nəvə-nəticələri burda ola-ola kişini aparıb dədə-baba yurdunda dəfn eləmək el-obaya hörmətsizlikdi. Dost var, düşmən var... Böyüyüb ərsəyə gətirdiklərinin hamısı böyründə-başındadısa nəyi qürbətdi buranın. Bir də öləndən sonra harada basdırılmağının nə fərqi varmış ki... Bir ruhudu, o da bizi bağışlayar...».

«...Mənim ömrüm qəribçiliklə keçib, atam balası, qərib torpaqda yeriməkdən ayaqlarımın altı göz-göz yaradı, hələ də sönmək bilmir. Qəribçilik ömür olmayıb, zülüm olub mənə. Öləndə barı məni vətənimə aparmadılar, sözümü, vəsiyyətimi də qəribçiliyə saldılar. İndi də qərib yurdda uyuyuram, atam balası. İnsan qürbətdə ölmürmüş, diri-diri torpağa qoyulurmuş; mən diri-diri torpağa qoyulmuşam. Qürbət torpaqda yatdığımı düşünəndə hələ də sümüklərim sızıldayır, nə illah eləyirəm ərimək bilmir, çürümək bilmir... Yerin altında tüstüm ərşə çıxır, ha əlləşirəm torpağa qarışammıram».– Səs hərdən qırılır, sonra yenidən dalğa-dalğa qalxırdı; ona elə gəlirdi ki, səs bir əlçim

bulud kimi qəbrin üstündəcə asılıb durub və elə bil bu səsi eşitmir, görür. – «Uçurun başdaşımı, atam balası, bir insan ki, qürbətdə qəbrə qoyuldu, bir insan ki, doğulduğu torpağa qarışammadı, ona başdaşı haramdı, o insan izsiz-tozsuz basdırılsın gərək...» – və səs get-gedə yavaşıyaraq yaddaşında çağlayan əbədi uğultuya qarışıb eşidilməz oldu. Qəbrin üstündəcə asılıb duran o bir əlcə bulud damcıyamı, göz yaşınamı dönüb torpağa hopdu.

…Səfinin qəbrinin üstündəki mərməri oğurlayıb aparmışdılar. Dünən qəbri söküb sümüklərini təzə qəbiristanlıq yerində dəfn eləmiş, qəbrinin üstündəki mərmər başdaşıyla sinədaşını vaxt eləyib köçürə bilməmişdilər. Fikirləşmişdilər ki, hələ bir gün ixtiyarlarında var, səhər gəlib apararlar. Bu gün isə qəbiristanlığa gələndə başdaşıyla sinədaşını yerində görməmişdilər. Səhərdən bəri qəbiristanlığın bu başından vurub o başından çıxırdılar, ancaq daşların hayana aparıldığını, kimin apardığını tapa bilmirdilər.

– Onu götürənin əli qurusun. – Səfinin arvadı qarğış tökürdü.

Oğlu anasını sakitləşdirməyə çalışırdı:

– Yaxşı biabır eləmə bizi. Başdaşı kimin nəyinə gərəkdi. Oyun-oyuncaq döyül ki, götürələr.

– Məsələ oğurluq məsələsi deyil, adama sataşmaqdı bu. – Arvad heç cür sakit olmaq bilmirdi. – Allah bilir, sürüyüb hansı qəbir çuxuruna salıblar. Üstünü də torpaqlayıblar ki, bütün günü avara-sərgərdən olaq burda.

– Sən otur, dincini al, mən bir qəbiristanlığı fırlanım. - Səfinin oğlu bunu deyib qəbir çuxurlarını axtarmağa getdi.

Səhərdən bəri baxmadıqları qəbir daşı qalmamışdı. Dünən qəbiristanlıqdan hava qaralanda getmiş, səhər günəş adam boyu qaxmamış gəlmişdilər. O vaxtdan bura bir-bir qəbir daşlarına baxıb keçirdilər. Hər bir daşın üstündə də ölənin adı-familiyası, doğum-ölüm tarixləri o qədər aydın yazılmışdı ki, şübhə yeri qalmırdı.

İndi Səfinin oğlu uzaqdan anasının qarğış səslərini eşidə-eşidə qəbir çuxurlarına baxırdı. O bu işə mat qalmışdı. qəbir

Thank you for trying Soda PDF

daşlarını gecəynən kim apara bilərdi, həm də belə bir vaxtda bu qəbir daşları kimin nəyinə gərəkdi.

Qəbiristanlığı bir də başdan-başa dolaşıb anasının yanına qayıtdı. Anası əvvəlki kimi qazıb köçürdükləri qəbir çuxurunun başında oturmuşdu.

– Tapa bilmədim, – dedi, – qəbir çuxurlarına bir-bir baxdım, heç yerdə yoxdu.

Anası cavab vermədi, dodağının altında nə isə mızıldandı. Bir xeyli beləcə dayandılar. Heç biri nə edəcəklərini bilmirdi.

– Sənə dedim ki, dünən qəbir daşlarını köçürək, qoymadın məni öz ağlımla gedəm. – Bayaqdan bəri dillənməyən anası dedi.

Cavab vermədi, eləcə başını qaldırıb anasının üzünə baxdı.

Səfinin oğlu başını qaldıranda balaca qardaşının qaça-qaça onlara tərəf gəldiyini gördü. Uşaq təngnəfəs halda özünü yetirib:

– Dədənin başdaşını Seyfinin uşaqları oğurlayıblar...

Anası:

– Necə, necə? Başa düşmədim...

– Deyirəm, dədənin başdaşını oğurlayan Seyfinin uşaqlarıdı.

Anası sıçrayıb yerindən qalxaraq:

– Kim dedi bunu sənə? - soruşdu.

Uşaq:

– Zeynəb xala gəlmişdi, o dedi. Oturub evdə gözləyir. Məni göndərdi ki, səni çağırım...

Üçü də dərhal yola düzəldilər.

Uşaq nəfəsi təngiyə-təngiyə:

– Zeynəb xala deyir ki, başdaşını rayonda pambıq məntəqəsinin yanına qoyub satırmışlar. Uşaqlar onu görən kimi qaçıb gizləniblər. Deyir, yaxınlaşıb başdaşının o üz bu üzünə çevirib baxdım. Üstünün yazısını tərtəmiz siliblər.

Arvadın sifəti qəfildən dəyişib eybəcər hala düşdü.

* * *



Thank you for trying Soda PDF

Ətrafı qəribə bir üfunət bürümüşdü. Və bu üfunət çıxıb getmək bilmirdi, qəbiristanlığın üstündə bulud kimi asılıb qalmışdı.

Bir az o yanda Abış kişi qəbiristanlığı bürüyən bu üfunət qoxusundan xəbərsiz özünə qazdığı qəbrin başında oturub tənbəkisini tüstülədir. Üzünün, alnının qırışları səyriyə-səyriyə duru, sulanmış gözlərilə harasa baxır. «Bir də çətin özümə gor qaza billəm, - düşünür, düz altı ay əlləşmişdim bunun üstündə, bütün zəhmətim püç olub getdi. Gözümə durub bir də təzədən gor qazmaq. Heç bilmirəm ömür möhlət verəcəkmi buna...».

Çolaq Səftər ayağını çəkə-çəkə ona yaxınlaşır:

– Niyə özünü günün altında bişirirsən, qoca, çıxıb gedəmmirsənmi evinə-eşiyinə. Kim sağlığında özünə gor qazmışdı səndən savayı? Sənə demədimmi qazma, düşər-düşməzi olar. Altı ay özünü həlak elədin burda, axırı noldu? Sən tanrın, yığış get evinə-eşiyinə, nə tövrü vəsiyyət eləsən, eləcə də qazacağıq gorunu.

– Necə arxayın olum gedim. Gor qazmaq deyil sizinki. Ölünü ölü yerinəmi qoyursunuz? Heç düşməni də torpağa bu sayaq quylamırlar, necə ki, siz quylayırsınız.

Abış kişi tənbəkisinə dəm verir. Dişsiz ağzından çıxan tüstü başının üstündə sual işarəsi kimi burulur, burulur, sonra yavaş-yavaş çıxıb gedir. Bütün keçmişi ağır-ağır içərisindən keçir və sanki tüstü burumlarına qarışaraq həmişəlik olaraq yadından-yaddaşından çıxıb gedir. Abış kişi yadından-yaddaşından həmişəlik çıxıb gedən keçmişini, gəncliyini qaytarmaq istəyir, ancaq nə illah eləyirsə bacarmır. Təkcə onu bilir ki, içərisindən nə isə ayrılıb gedir və o, bunu qaytarmaqda, saxlamaqda gücsüzdü.

Çolaq Səftər dayanıb mat-mat baxır. Elə bil o tüstüyə qarışa-qarışa qocanın yadından-yaddaşından çıxıb gedən keçmişini görür.

Çolaq Səftər yenə:

– Çıx get evinə, sən allah, - deyir və ayağını çəkə-çəkə uzaqlaşır.

Thank you for trying Soda PDF

«Təzə qəbiristanlıq yeri heç cür ürəyimə yatmır. Bilmirəm orda necə rahat olacam. Burda heç olmasa, bilirdim kimnən qonşuyam. Orda onu da biləmməyəcəm». Qoca günəşə baxa-baxa düşünür.

Günəş isə qocanın gözlərində ölürdü. Kürəyini torpağa söykəyib oturmuşdu. Heç kəs ona fikir vermirdi. Adamlar işində-gücündəydilər.

Abış kişi ölürdü. Qoca özü də görürdü ki, çıxıb gedir. Qışqırmaq istəiyrdi, köməyə çağırmaq istəyirdi, ancaq səsi çıxmırdı, təkcə işığını itirməkdə olan gözləri baxırdı. Bayaq başının üstündə sual işarəsi kimi burulan tənbəki tüstüsü yayılıb havaya qarışmaqdaydı. Gözlərini havaya qarışmaqda olan tüstü topasından çəkəmmirdi. Tüstü get-gedə daha da görünməz olurdu.

Bir azdan tüstü tamam gözdən itəcək, büsbütün yayılıb havaya qarışacaqdı. İnsan da belədir, doğulur, qocalıb ölür, sonra da çürüyüb torpağa qarışır.

Bütün ömrü ona yuxu kimi gəlirdi, elə bil yaşamamışdı, ömür sürməmişdi, nə isə özünün də dərk eləmədiyi sirli, anlaşılmaz bir yuxu görmüşdü.

Abış kişi yaşayıb yorulmuşdu. Çoxdannan bəriydi ki, dünyaynan halallaşmışdı. Başdaşını yondurub üstünə ad-familiyasını, doğum gününü yazdırmışdı, təkcə ölüm tarixi qalırdı, ancaq nə sirdisə, bu çağacan öləmmirdi, ölüm ondan qaçırdı. İndi birdən-birə qoca ölməyə başladığını, ölümün içərisinə yayıldığını hiss eləyirdi. Ölüm vücuduna yayıldıqca yavaş-yavaş yüngülləşirdi.

Bayaqdan bəri düzü-dünyanı yandırıb-yaxan günəş indi canını qızdırmırdı. Qoca üşüyürdü. İçərisinə yayılan soyuqdan bədəni uçunurdu. Və soyuq bərinə-bədəninə yayıldıqca tabı-taqəti çəkilib gedirdi. Bir belə adamın içərisində hamıdan xəbərsiz çıxıb getmək istəmirdi. Gözlərilə kimisə axtarırdı, ancaq kimi axtardığını özü də bilmirdi. Heç kəs səssiz-səmirsiz dünyadan çıxıb gedən qocaya məhəl qoymurdu.

Başının üstündə göy üzü dəniz kimi dalğalanırdı. Səmanı belə təmiz, aydın, dalğalı gördüyü yadına gəlmirdi. Dünyanın belə sonsuz-intəhasız olduğunu da indiyəcən aydın dərk elə-

Thank you for trying Soda PDF

məmişdi. İndi ölüm qabağı bu nəydi belə? İnsan son gününəcən kor olurmuşmu, ilahi? Yulğun topalarına kimi ona tanış, doğma olan bu torpağamı qarışacaq?

Ürəyi uçundu.

Ölüm varlığına yuxu kimi yayılırdı. Ona elə gəlirdi ki, ölmür, nə isə sirli, əsrarəngiz bir yuxuya gedir. Və bu yuxu – ölüm onu öz qoynuna elə bir qüvvə ilə çəkirdi ki, özgə heç nəyin barəsində fikirləşəmmirdi.

Adamlar yanından ötüb keçirdilər. Heç kəsin ağlına gəlmirdi ki, gündüzün günorta çağında qəbiristanlığın ortasında, hamının gözü qabağında ölmək olar. Abış kişi ölümünə özü də inanmırdı. Ölüm onunçün sirli, qorxunc bir varlıq idi. Fikirləşirdi ki, ölüm üçün gecə lazımdı, təklik, kimsəsizlik lazımdı, ölümün sirri, vahiməsi də elə bundadı.

O qədər səs-küyün içərisində təkcə Həlimə qarının səsini eşidirdi. İkicə addımlığında olan qarının səsi ona çox-çox uzaqlardan gəlirdi. Ancaq qoca bu səsdəki fəryadı duyurdu.

İstəyirdi ki, yanı üstə çevrilib üzü günbatana uzansın, gözüylə günəşi son mənzilinəcən ötürsün, amma bacarmırdı. O yuxu gəldikcə ağrısı-acısı yavaş-yavaş canından çıxırdı, elə yüngülləşirdi ki, sanki indicə anadan olmuşdu.

Göyün görünməzliyində nöqtə kimi seçilən qartallar dövrə vura-vura qəbiristanlığı seyr edirdilər. Quşlar heç vədə qəbiristanlıqda bu qədər insanı bir yerdə görməmişdilər. Qartalları heyrətləndirən oydu ki, qəbiristanlığa yığılmış bu adamlar ölüləri, dəfn olunmuş cəsədləri çıxarırdılar. Dünyanın qanad çaldıqları bu səmtində baş verən bu əhvalat onları heyrətə gətirmişdi. Və qartallar göyün dibsiz dərinliklərində dövrə vura-vura qəbir çuxurlarına, daşınan insan cəsədlərinə sonsuz heyrətlə baxırdılar.

İçərisini bürüyən maraq və heyrətin gücüylə qartalların biri dəstədən ayrılaraq xeyli aşağı enmişdi. Quşun heyrəti elə güclüydü ki, dil açıb insanca danışmaq, baş verən bu əhvalatların sirrini, səbəbini öyrənmək istəyirdi.

Qartal aşağı şığıyıb alçaqdan qəbiristanlığın üstüylə süzərək yenidən göyün əngilliklərində dövrə vuran quşlara sarı baş aldı.

Thank you for trying Soda PDF

Aşağıda kor ilan başını dimdik tutub Cəvahir qarının qəbri üstə dayanmışdı. İstidən, bürküdən nəfəsi təngiyirdi. Neçə gün idi ki, rahatlıq nə olduğunu bilmirdi, hansı qəbirdə gizlənirdisə, hansı yuvaya soxulurdusa, bel-külüng səsinə səksənib oyanırdı. Yerin altıyla dolanbac yollarla nəfəsi kəsilənəcən sürünürdü. İlan neçə gün idi ki, Cəvahir qarının qəbrində gizlənirdi. Qorxurdu ki, bu qəbri də sökərlər, gizlənməyə yer tapammaz. Ancaq Cəvahir qarının qəbrini köçürmək heç kəsin yadına düşmürdü.

Cəvahir qarı kəndin hamamında xadimə işləyirdi, kimi-kimsənəsi yoxdu. Kənddə hamam tikiləndən bu yana Cəvahir qarının günü burda keçirdi, gecə-gündüz yuyurdu, təmizləyirdi, qazancı da hamama gələnlərin qəpik-quruşuydu; hamamdakı işinə görə maaş almırdı, heç kəs onu burda işləməyə məcbur eləmirdi. Amma Cəvahir obaşdannan, hamamın fit səsi eşidiləndən ta gecənin bir vaxtı hamam boşalanacan işləyirdi. İşə bir dəqiqə də gecikməzdi. Hamamçı Ağaisa ona neçə kərə işə girməyi təklif eləmişdi. Demişdi heç bir sənəd-filan lazım deyil, oturaq, bir ərizə yazaq, qol çək, səni rəsmi işə keçirim, onsuz da bu əziyyəti çəkirsən, günün gözü çırtlamamış gəlib şər qarışanda gedirsən. Handa bir nümunəvi işçi belə işləyəmməz. Ancaq nə illah eləmişdisə, arvadı razı sala bilməmişdi. «Qocalmışam, - demişdi qarı, - təqaüdə çıxan vaxtımdı, day bundan sonra mənim nəyimə yaraşar təzədən ərizə yazam, qulluğa girəm». Və arvad axıracan da inadından dönməmişdi.

Cəvahir qarı ömrü boyu dilənçi kökündə yaşamışdı. Özünün dediyinə görə, qardaşı vardı, hardasa uzaq bir şəhərdə böyük qulluqdaydı. Bunun uydurma olduğunu bütün kənd bilirdi. Amma Cəvahir qarı özünün uydurmasına elə inanırdı ki, bunu üzünə vursan dəli olardı.

Cəvahir qarının Xasay adında əri olmuş, özündən xeyli qabaq ölmüşdü. Xasayın sağlığında Cəvahir o qədər də dərd çəkməzdi, övladsızlığının fikrini eləməzdi. Təkliyin, züryətsizliyin nə demək olduğunu ilk dəfə Xasayın ölümündən sonra qaranlıq daxmada tək-tənha qalanda, səhəri dirigözlü açanda dərk eləmişdi. Və Cəvahir qarının - küçədə dilənçi kökündə gəzən bu qadının günlərin birində al-qumaşa büründüyünü gör-

Thank you for trying Soda PDF

müşdülər. Görənlər gözlərinə inanmamışdılar. Cəvahir qarı cavanlığından, gəlinlik vaxtından bu çağacan qoruyub saxladığı pal-paltarını geyinib qızıllarını düzmüşdü. Qarı elə bəzənmişdi ki, deyirdin qırx qul-qaravaş qulluğunda durmuşdu.

Kəndin içiylə az qala uça-uça gedirdi. Soruşanda:

– Qardaşımı görməyə gedirəm, - deyirdi, - qardaşım məni qonaq çağırıb...

Bir gün əvvəl qapıbir qonşusu Nazlı qarıgilə gedib yuxusunu ona danışmışdı:

– Qardaşım iki gündü yuxumdan çıxmır. «Necə bacısan, – deyir, – bu neçə ildə bircə dəfə də olsun gəlib mənə baş çəkməmisən. Oturub gözləmisən ki, mən gəlib səni yoxlayım? Bəs, fikirləşmirsən ki, iş-güc adamıdı, macal eləyə bilmir, ya bəlkə xəstədi, gəlməyə imkanı yoxdu». Dedim, gələcəm, qardaş, mütləq gələcəm. Beləcə bir xeyli gileyləndi. İstədim hal-əhval tutam, uşaqlarını soruşam. Gör bir nə vaxtdı ki, görmürəm, ancaq birdəncə tutqun kölgəyə dönüb yoxa çıxdı. İndi bilmirəm neyniyim, işdən də macalım yoxdu.

Nazlı qarı bilməmişdi nə cavab verə:

– Bu günlərdə gedib baş çəkərsən, - demişdi, - fikir eləmə.

– İstəyirəm, sabah obaşdannan yola çıxım. İşdən də gərək iki-üç günlüyə icazə alam, yoxsa bir günə gedib qayıdammaram, uzaq yoldu.

Demişdi və cavab gözləmədən çıxıb getmişdi. Nazlı qarı onun dalınca baxa-baxa qalmışdı. Və o gedən Cəvahir düz bir ay gözə dəyməmişdi. Bir ay keçəndən sonra Cəvahir dilənçi kökündə qayıdıb gəlmişdi. Ayaqyalın, başıaçıq kəndin içiylə kimisə söyə-söyə, yamanlaya-yamanlaya gedirdi. Cəvahir qarı dəli olmuşdu, qardaşını axtara-axtara havalanmışdı.

Havalanandan sonra hər gün qəbiristanlığa gələr, saatlarla oturub zəif, gücsüz əllərilə özünə qəbir qazardı. Aradan xeyli vaxt keçəndən sonra Cəvahir qarının meyitini qazdığı qəbrin içindəcə tapmışdılar. Qəbrin üstünü torpaqlayıb başdaşı ucaltmışdılar.

Ölümündən sonra danışırdılar ki, hamamın daş divarları içərisindən Cəvahir qarının səsi gəlir. Guya deyirdilər ki, səs su-

yun şırıltısına qarışaraq daş divarlarda əks-səda verir. Və bu səsin vahiməsindən kənd hamamına gələnlərin sayı get-gedə azalmağa başladı, sonra tamam əl-ayaq kəsildi.

Hamamçı Ağaisa axşama kimi hamamın qabağında boş-bekar oturub müştəri gözləyirdi.

– O sözü çıxardanın atasına lənət, - deyirdi. - Divardan da səs gələrmi? Dəli olub ölmədimi Cəvahir gözünüzün qabağında? Özünüz öz əlinizlə torpaqlayıb başdaşı qoymadınızmı? Ayda filan qədər dövlətə plan verməliyəm mən. Özünüz gəlmirsiniz, cəhənnəm, gələni də qoymursunuz, bütün rayona yaymısız bu söz-söhbəti.

Ancaq o sözün kəndə yaydığı qorxu və vahimə necə güclüydüsə, camaat hamamçının sözlərinə məhəl qoymur, damda, daşda, tövlədəcə yuyunub təmizlənir, hamama gəlməyə ürək eləmirdi.

...Kor ilan bayaqdan bəri yuvadan çıxmışdı, səksəkə içərisində Cəvahir qarının qəbrinin üstündə oturub ətrafa göz gəzdirirdi. Bir az o yanda ilantutan ovsun oxuya-oxuya ilanları yuvalarından çıxarır, uzaq şəhərə aparıb zəhər almaq üçün qalın salafan torbalara yığırdı. Torbada bir-birinin bədəninə sarmaşan, tükürpədici səslə mələşən ilanları gördükcə qorxudan az qalırdı ürəyi dayana. Kor ilan qorxurdu ki, birdən onu da tutub salafan torbaya salarlar, zəhər almaq üçün uzaq şəhərə apararlar. Ötən yay iki qardaşını beləcə tutub aparmışdılar. O vaxtdan insan ayağının səsi gələndə canına vəlvələ düşür, qaçıb özünü hansı yuvaya gəldi toxuyurdu. İlan ən çox o ovsundan qorxurdu. Qardaşlarını da alladan ovsun olmuşdu. «İlahi, o ovsunda nə cazibə vardı elə? Niyə qardaşları o yalan vədlərə aldandılar? Bəs onun niyə birdən-birə dili-ağzı bağlandı, qardaşlarını çağırammadı, qaytarammadı. Bir-birinə qoşulub kor kimi o səsin dalınca getdilər, bir daha geri dönmədilər. Niyə onda lal kimi dayanıb dururdu?».

Ötən yay qardaşlarını yoldan çıxaran o iki nəfərin birini kürəyindən çalıb öldürmüşdü. Kənd bir-birinə dəymişdi. Şəhərdən həkim gəlib çıxanacan sancdığı adam canını tapşırmışdı. O birindən isə qorxurdu. Elə qorxurdu ki, arxadan yaxınlaşmağa belə ürək eləmirdi. Ən çox da onun soyuq gözlərindən qor-

Thank you for trying Soda PDF

xurdu. Bir dəfə sancmaq üçün arxadan yaxınlaşanda o, soyuq gözlər kürəyinin arasından necə baxmışdısa, daş kimi mıxlanıb yerində qalmışdı. Nə illah eləmişdisə, qaçıb gizlənməyə özündə güc tapmamışdı. Xoşbəxtlikdən o zaman insan otların arasından onu seçəmməmişdi.

İndi qəbiristanlığı başına götürmüş bu səs-küyün içərisində kor ilan o ovsundan savayı heç nə eşitmirdi. Ovsun oxunduqca ilan kövrəlirdi, yumşalırdı, məst olurdu, qardaşlarını tutub uzaq şəhərə aparan o soyuq gözlərə qarşı bütün kinini, nifrətini unudurdu. İlan ixtiyarsız olaraq o səsə doğru sürünürdü. «Ona nələr vəd olunur, ilahi? Bu yoldan qayıtmaqmı olar? O səs necə doğmadı, necə şirindi, elə bil layla çalınır. Əgər qorxduğu bu səsdisə, niyə aldanır, niyə qayıtmır, niyə dayanmır? Onu özündən alıb aparan nədi belə?..».

İlantutan dodağının altında ilanların anlayıb eşidəcəyi bir dildə ovsun oxuyurdu. İlanlar onların beynini dumanlandıran o ovsunu yaxından eşitmək üçün sərin yuvalarından çıxırdılar.

Kor ilan nə vaxt yuvasından çıxdığını bilmirdi. Nəfəsini içəri çəkib ruhuna, varlığına yuxu kimi yayılan o səsi dinləyirdi. Ovsunda nə cazibə vardısa, özünü, aldanmış qardaşlarını büsbütün unutmuşdu, o səsdən savayı heç bir şey eşitmirdi. Bir də baxıb gördü ki, ilantutanın ayaqları altındadı. O sirli əsrarəngiz dünya ilantutanın uzun, nazik qıçları arasından daha aydın görünürdü. «O nə rəngdə dünyayadı elə? Bəs o göyüzünü örtən gömgöy duman nədi? Görən ona nələr vəd olunur, ilahi? Az qalır xoşbəxtlikdən qəşş eləyə”. Başı elə gicəllənir ki, elə bil kimsə quyruğundan yapışıb var gücüylə fırlayır.

Boynundan tutan dəmir maşadan açılammır. Uzun nazik qıçların arasından görünən o sirli-sehrli dünya birdən-birə göy dumana bürünür.

...Briqadir Qaraş Qumrunun qəbri üstündə oturub əllərilə üzünü örtmüşdü. Qaraş hər dəfə bu qəbrin üstə gələndə Qumrunun yoxluğunu unudurdu, dünyada ölüm, ayrılıq adına bir varlığın mövcudluğuna inanmırdı.

Qumrunun Qaraşın istəklisi olduğunu bütün kənd bilirdi. Aralarında on yaş fərq olsa da, bir-birini uşaqlıqdan istəyirdilər. Qumru yetim idi, ata üzü görməmişdi. Anası təkbaşına onu nə

illətlə böyütmüşdü, bir allah bilirdi. Qumrunun istəklisi olduğunu bilə-bilə Bəkirin ona elçi göndərməsi və elçilərinə «yox» cavabı verilən gününcə səhəri söhbət camaat arasına çıxmamış onu yoldaşları ilə qaçırıb zorla özünə arvad eləməsi yatsa Qaraşın yuxusuna da gəlməzdi. O əhvalatdan sonra Qaraş büsbütün sarsılmışdı, təkcə içərisində Bəkirə qarşı buz kimi soyuq bir nifrət gəzdirirdi. Və bu nifrəti ona görə bu günəcən gətirib gəlmişdi ki, Qaraş Qumrunu heç cür unuda bilmirdi.

Ərə gedəndən sonra Bəkir Qumrunu işə qoymurdu. Qaraş bütün günü pambıq sahələrini gəzir, Qumrunu fikrindən, düşüncəsindən qovub çıxarmağa çalışırdı. Qumrunun işlədiyi sahənin kənarına onun adı yazılıb vurulmuş taxta lövhə, tez-tez altına çəkilib söhbət elədikləri qoşa söyüd hər gün yaddaşındakı xatirələri təzələyirdi. Ona elə gəlirdi ki, səhərlər maşın siqnal verə-verə camaatı işə səsləyəndə günlərin birində Qumru əlində zənbil Bəkirin evindən çıxıb adamlara qarışacaq. O nə vaxtdan bəriydi bu günü qorxu və həyəcanla gözləyirdi. Ancaq günlər ötür, Qumru gözə dəymirdi. İllər keçdikcə Qaraş yavaş-yavaş özü də istəmədən Qumrunun yoxluğuna alışmışdı. Ancaq sahənin kənarında Qumrunun adı yazılmış taxta lövhəni dəyişməmişdi.

Bəkirdən Qumrunun boynuna düşən altı uşağın altısı da doqquz aylığında ana bətnində boğulub ölmüşdü. Yeddinci uşaq isə sağ-salamat doğulmuşdu. Elə rahat olmuşdu ki, Qumru bu uşağın doğulmasını özü də hiss eləməmişdi.

Qumru bu uşağı əllərinin içərisində böyüdürdü. Uşaq böyüdükcə, dil açıb danışdıqca onun ana qəlbini sevinc qarışıq qorxu bürüyürdü. Ürəyinə dammışdı ki, günlərin birində uşaq yuxu içində birdəncə quşa çevrilərək pırıltı ilə uçub gedəcək, bir daha qayıtmayacaq. Və beşiyə baxdıqca elə bil ki, uşağın quşa çevrildiyini, gizlin-gizlin qanad çıxardığını görürdü.

Uşaq səhərdən axşama, axşamdan səhərə kimi evin bir tərəfindəcə tavandan asılmış beşikdə yırğalanırdı. Nə sirdisə, başqa heç yerdə rahatlıq tapammırdı.

Beşik Bəkirin ulu nənəsindən qalmışdı və iki əsr idi ki, beləcə yırğalanırdı. Beşiyin asıldığı hörmə kəndirin birini hörümçək toru elə tutmuşdu ki, deyirdin beşiklə birgə bu hörüm-

çək toru da ulu nənəsindən qalmadı. Bu beşikdə uşaq üzü gündoğana uzanmalıydı və gündoğana açılan dəmir milli pəncərədən uşağın üzünə ovuc içi boyda işıq düşməliydi, yoxsa rahat olammazdı. Ayrı yerdə uşağın sifəti meyit rəngi alırdı və baxan deyərdi ki, bu saat uçub gedəcək. Beşiyə uzadan kimisə rəngi üstünə gəlir və uşağı yuxu aparırdı. Uşağın yuxu gördüyünü yanaqlarında kölgələnən ləkələrdən, üzünün, dodaqlarının qeybə çəkilən təbəssümündən, bət-bənizinin torpaq rəngi almasından bilirdi. Qumru bütün günü beşiyin başında oturar, gözlərini uşağa zilləyərdi, elə bil yuxunu uşağın üzündəncə oxumaq istəyirdi.

Beşik yırğalandıqca xatirələr onu tilsim kimi çəkib keçmişə aparırdı. Bir anlığa uşağı unudurdu, ona elə gəlirdi ki, yırğalanan beşikdəki özüdü və anası beləcə başının üstündə dayanıb onun yuxularına qarışmaq istəyir.

Uşaq oyanıb qışqırdıqca o da diksinir, qorxudan rəngi-ruhu uçurdu. Hər dəfə qəfil qışqırtıdan sonra uşağı yenidən yuxu aparırdı və nə illah eləyirdisə, oyada bilmirdi. Uşağın çöhrəsində səssiz bir kölgə gəzirdi və elə bil bu kölgə tuluqlanmış qan idi, çıxmağa yer, səmt axtarır, ancaq tapammırdı.

Ana qəlbilə duyurdu ki, uşağın çöhrəsindəki o tutqun kölgə nədisə balasının həyatı ondan asılıdı. Kölgə uşağın gözlərinin həndəvərində dolaşırdı, elə bil bəbəklərin çıxmağa ən münasib yer olduğunu kəsdirmişdi.

Uşaq gözlərini açan kimi ürəyi üstünə gəlirdi:

– Nə çox yatdın, qurban?

– ...

Uşaq cavab vermirdi və təzədən gözlərini yumurdu. Ən çox qorxduğu bu sual onu tilsim kimi yuxunun qoynuna çəkirdi. Qalxıb ehtiyatla balasının başını qolları üstünə alırdı. Yuxu könülsüz-könülsüz gözlərindən çəkilirdi.

– Yuxu görürdün, yenə, quzu?

– Deməyəcəyəm, bildin, deməyəcəyəm, əl çək məndən!

Uşağın dişləri yaşına sığmayan əsəbiliklə qıcanırdı.

Qumrunun bəbəklərində bir cüt göz yaşı muncuqlanırdı. Əlacsız-əlacsız yaş süzülən gözlərini uşağın çöhrəsinə dikirdi. Bilirdi ki, uşağa nə zaval gəlmişdisə, yuxudan gəlmişdi. Yu-

Thank you for trying Soda PDF

xuda nə demişdilərsə, neyləmişdilərsə, gözünün qabağındaca sönüb gedirdi. O yuxu nəydisə sirr olaraq qalırdı. Bilirdi ki, uşağın əcəli o sirli yuxuyla bağlıdı, sirri açsa, güman ki, yaşayacaqdı.

– Nə görürdün yuxuda, qurban? Bax indi əmin gələcək, sabah özüylə səni meşəyə gəzməyə aparacaq. Bircə de görüm nə görürüdün yuxunda...

– Yox, deməyəcəyəm!

– Adam heç anasından sözmü gizləyər? Nə görürdün yuxunda, hə, qurban?

O əl çəkmir, uşaq inad eləyirdi. Uşağın inadını qırmaq çətin idi, yaman çətin idi. Ancaq bilirdi ki, uşağın taleyi inadındadı, inadını sındıra bilsə, yaşayacaq balası, sındırammasa heç...

O bütün gecələrini sübhə kimi uşaqla birgə qalmağa razıydı, təki uşaq yatmasın, o sirli, vahiməli yuxunu bir daha görməsin. Ancaq uşaq yatmaq istəyirdi, uşaqda yuxuya qəribə təşnəlik vardı, yerinə uzanan kimi bir əlcə daş parçasına dönürdü, ha çağırırdı, silkələyirdi, oyanmaq bilmirdi.

Gecə itlər səs-səsə verib ulaşanda uşağın taleyilə bağlı qorxu və vahimə bürüyürdü onu. Ona elə gəlirdi ki, o ulaş səslərilə uşağın yuxusu arasında nə isə sirli, anlaşılmaz bir əlaqə var və bu qərib, müdşih səs onu sehrinə salıb aparmaq istəyir.

Gecənin bir vədəsi uşaq gözlərini açır, sorğulu baxışlarını anasına zilləyirdi.

– Məəm qardaşım vaar, əmmə?

– Yox, qurban...

– Var, altı qardaşım var, məəm...

Onu heyrət bürüyürdü, çünki bircə dəfə olsun uşağın yanında bu barədə danışılmamışdı. «Hal aparır uşağı, nədi, fələk... bu nə dərddi mən düşmüşəm. Bunu kim xəbər verib ona?».

Dan yeri onun yuxusuz gözlərindən başlayırdı. Yorğunluğunu, səhəri diri gözlü açdığını yalnız dan üzü hiss eləyirdi. Və bu yorğunluqla, yuxusuzluqla birgə səhərin açılması ona sonsuz fərəh gətirirdi. Sübhün toranında yuxusuz gözlərilə uşağın çöhrəsinə baxırdı. Üzünün ləkələrindən, göz qapaqla-



Thank you for trying Soda PDF

rının titrəyişindən, dodaqlarında uçuşan təbəssümdən yuxusunun qorxulu olub-olmadığını bilmək istəyirdi.

Uşağın ömrü yuxudaca gəlib keçirdi və nə böyüyürdüsə, yuxuda böyüyürdü, gözlərini açan kimi sanki uşaq kiçilirdi, solurdu.

Bir gecə uşağın səsinə dimdik atılmışdı. Görmüşdü ki, uşaq beşiyin içində oturub qorxudan tir-tir titrəyir. Ana balasını qucağına almışdı.

– O kimdi orda əmmə? – uşaq əlilə otağın qaranlıq küncünü göstərirdi.

Bircə anda mürgü ananın gözlərindən çəkilmişdi.

– Heç kəs yoxdu orda, quzu, gözünə görünür, nədən qorxursan...

Uşaq gözlərini qaranlıq küncə dikib dururdu. Qaranlıqda çılpaq, əcaib bir vücud onu ağuşuna çağırırdı. Dişiylə dırnaqlarını çeynəyə-çeynəyə onu hədələyirdi. Uzun kirpikləri yer süpürən bu qorxunc vücud hər gecə yuxularına gəlir, onu aldadıb aparmaq istəyirdi. Qorxudurdu ki, yuxusunu açsa, canını alacaq.

– Qoyma, üstümə gəlir, əmmə! – Uşaq anasının qucağına elə qısılır ki, deyən köksünü yarıb içəri girəcək.

– Qorxma, quzu, sənə heç kəs heç nə eləyəmməz, – ana təşvişlə qaranlığa baxır. – O yanda atandı, burda mən, nədən qorxursan axı? İstəyirsən işığı yandırım...

Uşağın qışqırığı ananı vahiməyə salır.

– Qoyma, öldürdü məni, əmmə, atamı çağıııır!..

– Bəkir!!! – Arvadının çağırışına Bəkir dik atıldı. – Dur işığı yandır, hal aparır uşağı. Bir az əlli tərpən!

– Ataaa!!! – Uşaqdan elə qışqırıq qopur ki, daş-divar səksənir.

Bəkir qalxıb işığı yandıranda uşaq Qumrunun qucağında solub getməkdəydi. Elə bil kimsə ikiəlli uşağın hulqumundan tutub canı çıxıncaya qədər boğmuşdu.

Uşağın ölümündən sonra Bəkir Qumrunun gününü göy əskiyə düymüşdü. «Sənnən mənə arvad olmayacaq, – deyirdi, nə qədər ki, gözün o piyaniskə köpək oğlundadı, uşaq üzünə həsrət qoyacaqsan məni...». Qumrunu elə döyürdü ki, yerinə bir başqası olsaydı, səsi ərşə dayanardı. Ancaq Qumrunun cınqırı

da çıxmırdı. Elə bil bədənində sümüyü yox idi və Bəkirin yumruqları, təpikləri ona əsər eləmirdi. Bəkirin ayaqları altında halsız-halsız inildəyirdi. Ərinin bu vəhşiliklərindən sonra da evdən çıxıb getməyə həvəsi gəlmirdi. Qumrunun heç nəyə həvəsi qalmamışdı. Uşağın ölümü ömrünün yarpağını salmışdı. Eləcə gözləyirdi. Gözləyirdi ki, nəsə olacaq. Elə gözləyə-gözləyə də əriyib getmişdi.

Qumrunun ölümündən sonra Bəkir təzədən evlənmidi. Bəkir Qaraşın hər gün Qumrunun qəbri üstə gəldiyini bilirdi. Arvadının qəbrinin köçürülməməyinin əsl səbəbi də buydu — qəbri Qaraşa qısqanırdı. İstəyirdi ki, qəbir uçurulub yerlə-yeksan ola, tamam itib gedə, bəlkə onda Qaraş Qumrunu büsbütün yadından çıxarardı.

... Qəbiristanlığın ortasında bir dəstə adam dayanıb söhbət eləyirdilər. Qaraşın gözləri bu adamların arasında Bəkiri aldı. Bəkir də Qaraşı gördü və istədi gözlərini ondan yayındıra, özünü görməməzliyə vura. Ancaq gördü ki, gözlərini Qaraşdan ayırammır və uzaqdan-uzağa Qaraşın baxışları qarşısında kəsilə-kəsilə dayanıb durur.

Qaraşın yaxınlaşmağıyla söhbət kəsildi. Bəkir ovsunlanıbmış kimi hələ də gözlərini ondan ayırammırdı.

Qaraş alçaqdan:

– Sənə sözüm var, Bəkir, - dedi, - bir dəqiqəliyə bura zəhmət çək.

Bəkir istədi desin ki, mənim bu adamlardan gizlin işim yoxdu, nə sözün var de, amma nə düşündüsə, səsini çıxarmadı, adamlardan ayrılıb qorxaq addımlarla Qaraşa sarı getdi. Qəbiristanlığın içərisilə dinməz-söyləməz xeyli yanaşı yeridilər.

Sonra Qaraş nə fikirləşdisə ayaq saxladı və birdəncə dönüb:

– Niyə Qumrunun qəbrini köçürmürsən, Bəkir? -dedi.

Bəkirdən səs çıxmadı. Bayaqdan, Qaraşı uzaqdan-uzağa gördüyü andan Bəkirin dalağı sancmışdı və Qaraşın ona nə deyəcəyini yaxşı bilirdi. Ancaq elə bil bu fikir bayaq Bəkirin ürəyinə dammamışdı. Bəkir bu sözləri ilk dəfəydi eşidirdi, ona görə də quruyub qalmışdı, bilmirdi nə cavab verə. Qumru ilə evləndiyi gündən bu yana ilk dəfəydi ki, Qaraşla kəlmə kəsirdi.

– Düz on il arvadlıq eləyib sənə, evinin çırağını yandırıb. Sənin üstündən aşıb bu işi görsəm, camaatın ağzından qurtara bilməzsən. Nə qədər ki, gec deyil, vaxt ikən qaz köçür qəbri.

Sözünə ara verib:

– Belə sakit danışmağıma baxma, - dedi, - qəbri köçürməsən, sümüklərini xıncım-xıncım elərəm.

Bəkir eynən bayaqkı sayaq heykəl kimi dayanıb durmuşdu. Ağzını açıb dillənməyə ürək eləmirdi. Bilirdi ki, artıq-əskik bir söz desə Qaraş doğrudan da sümüklərini xıncım-xıncım eləyər.

Qaraş çevrilib getdi.

...Babalı bağından isti meh əsməyə başlamışdı və meh əsdikcə qalınlığın çürük yarpaq və qabıq qoxusu qəbiristanlığın üfunət iyinə qarışaraq kəndə yayılırdı. İlan kimi bir-birinə sarmaşıb durmuş ağaclar sirli-sirli pıçıldaşırdılar. Qəbiristanlıqdan gələn bel-külüng səsləri gündüzün kirimişliyində ağacların bu sirli pıçıltılarını eşitməyə qoymurdu. Gecələr bu pıçıltılara qurdların ulaş səsləri də qarışacaq və bu səs kəndin ab-havasına çökmüş qorxu və vahiməni çəkilib getməyə qoymayacaqdı.

İki qoca əllərində əsa qəbiristanlıq yerini gəzirdilər. Qocaların birinin əlindəki əsanı qabağa uzada-uzada yeriməsindən hiss olunurdu ki, ya tamam kordu, ya da gözləri yaxşı görmür. Kənardan baxanda adama elə gəlirdi ki, bu saat ayaqları sürüşüb qəbir çuxuruna yıxılacaqlar və bir daha ordan çıxa bilməyəcəklər. Bir-bir qəbirlərin başında dayanır, nisbətən gümrah olanı gözləri zəif qocaya qəbir sahibinin kim olduğunu deyirdi. Gözləri zəif olan qoca isə yanındakına inanmırmış kimi yaxınlaşıb əllərini başdaşına sürtürdü. Axtardığı adamın başdaşı olmadığını yəqinləşdirəndən sonra:

– Yox, bu deyil, - deyirdi və əl-ələ tutub başqa qəbirlərə tərəf gedirdilər.

Uşaqlar qəbiristanlıq yerində gizlənpaç oynayırdılar. Qazılıb tökülmüş çuxurların qəbir yeri olduğunu ağıllarına gətirmədən qaçıb gizlənirdilər. Ayrı vaxt olsaydı, böyüklər onları qəbirsitanlıq yerinə buraxmazdılar, ancaq indi böyüklərin



Thank you for trying Soda PDF

başı ölülərinə qarşıdığından qəbir çuxurlarında gizlənpaç oynayan bu uşaqlar yada düşmürdü.

Uşaqların bütün bu qəbiristanlıq əhvalatlarından xəbərsiz sevinib əylənməyi ona qəribə gəlirdi. O heç vaxt belə uşaqlıq keçirməmişdi, heç vaxt bu uşaqlar kimi ürəkdən sevinməmişdi. Uşaqlara tamaşa elədikcə, başa düşürdü ki, o, uşaq olmayıb, uşaq sevinciylə sevinməyib, heç vaxt qayğısızlığın nə olduğunu bilməyib.

Bəs səhərdən bəri onun yanına gəlib gedən, anasının qəbrinin uçurulacağından qorxan o uşaq kimdi? Niyə bəs o, bu uşaqlar kimi gülüb sevinməyin nə olduğunu bilmir. Və indi hiss elədi ki, anasının qəbrinin uçurulacağı üçün vahiməyə düşən o uşaqla onu nələr bağlayır. Hiss elədi ki, o uşağa baxanda özünün keçmişini görür, uşaqlığını görür, ömrünün o illərini görür ki, yaşıdlarından fərqli olaraq sevinə bilmirdi, çiyinləri vaxtsız, erkən qayğıların ağırlığına dözmürdü. O, əvvəllər də, indi də uşaq qayğısızlığının, səbəbsiz sevincin nə olduğunu dərk eləyə bilmirdi.

Bütün bunları düşünə-düşünə gözləri ilə qəbiristanlıq yerində o uşağı axtarıb tapmaq istədi. Ancaq nə qədər o yan-bu yana boylandısa gözlərinə dəymədi.

* * *

Günbəzin kərpiclərinin yığıldığı yerdə iki nəfər bir-biri ilə danışırdı.

– Nə oldu, niyə kömək eləmirsən, bu qədər daşı ordan bura təkbaşına daşımışam. Ayrı vaxt bircə nəfər günbəzin içinə səndən icazəsiz girəndə az qalırsan təpəsini dağıdasan. Camaatın verdiyi nəzir-niyazı elə qamarlayırsan ki, elə bil dədənin halalca malıdı. Günbəzin təmirinə gələndə isə bircə dəfə cibindən bir qəpik çıxarıb verməmisən. Elə camaatın cibini soymağı bilirsən. Çək yaxanı dur qıraqda, tikilib hazır olandan sonra gəlib dədə malı kimi sahib olarsan.

– Dayan, dayan, qabaqdangəlmişlik eləmə, - bayaqdan bəri qarşısındakının təhqirlərinə sakitcə dözən yumrusifət, saqqallı kişi axır ki, dilləndi:

Thank you for trying Soda PDF

– «Dayan, dayan...». Niyə dayanmalıyam? Dayanıb sənin moizələrinə qulaqmı asmalıyam? Özünü mənə tanıdacaqsan? Sənin arvadın deyildi, üç manat nəzirdən ötrü qəbiristanlıqda saçyolmasına çıxan? Bunu kənddə bilməyən yoxdu, yoxsa bunu da danacaqsan?..

– Əşi, qurtar sən allahın bu söz-söhbəti, qoy ölümüzü köçürək.- Yumrusifət, saqqallı kişi mübahisəni kəsmək istədi.

– Belə gündə öz ölünü yaddan çıxarmazsan. Ancaq günbəzi köçürməyə gələndə özünə iş tapacaqsan. Ta ki, işdən yaxanı kənara çəkəsən. Tikilib hazır olandan sonra isə... Əşi, bunları deməyin nə mənası var? Sənin nə vecinə, deyirəm, öz başım ağrıyır. Çıx get, sən olasan allahın əsəbiləşdirmə məni.

Yumrusifət, saqqallı kişi bu sözə bəndmiş kimi ondan aralandı. Ancaq xeyli müddət arxadan onu təhqir eləyən səsi eşitdi.

– Bunlar kəndin camaatından deyil, ayrı xəmirdən yoğrulub. Tfu...

Yumrusifət, saqqallı kişi bu sözü eşidəndə dayandı, qayıtmaq istədi, ancaq qayıtmadı, təzədən yoluna davam elədi.

* * *

Həlimə qarının dəli qəhqəhəsi qəbiristanlığı başına götürmüşdü. Bu səs dalğalana-dalğalana kəndin əl-ətəyinəcən gedib çatırdı. Qarının qəhqəhəsində sirrə, sehrə bənzər nə vardısa, adamı iliyinəcən sarsıdırdı, əlini büsbütün dünyadan üzürdü, ovsunlayırdı. Bu səs adamları sanki uzun illərin sərxoşluğundan bir anlığa ayırırdı, ayıldırdı. Və adamlar dünyaya ayıq gözlə baxmaqdan çəkindiklərindənmi, nədəndi, bu səsdən hürkürdülər, hövllənirdilər. Bu səsdən sonra adamlar biri-birindəncə xoflanırdılar, özlərindəncə xoflanırdılar, özləri-özlərindən qaçmaq istəyirdilər. Qeyri-ixtiyari əl saxlayırdılar, bel-külüng səsləri tamam kəsilirdi. Səs çəkilənəcən beləcə dayanıb dururdular, işləyəmmirdilər. Və çəkilib gedən qəhqəhə səsi əllərin, qolların tabını-taqətini də özüylə alıb aparırdı.

Umuxanımın qəbrinin önündə dayandı. Başdaşının üstündə, xırda hərflərlə qazılmış doğum-ölüm tarixinə baxdı. Cəmi

Thank you for trying Soda PDF

otuz yaş! Vəssəlam! Ömrünün çiçək kimi açılan vaxtında solmuşdu. Bir zamanlar gözəlliyilə bütün mahalda məşhurdu. Yoldan keçəndə tamaşasına durardılar. Bütün ətraf kənd-kəsəyin cavanları Umuxanımın həsrətindən ölərdilər. Bir vaxt bu qadının adı gələndə kişilərin qəlbinə gizilti dolardı, yuxuları ərşə çəkilərdi.

O yola nə vaxt düşdüyü bilinmirdi. Və Umuxanımın elə bil uşaqlığı, yetkinliyi olmamışdı, eləcə birdən-birə gözəl qadın donunda, mələk donunda göydən nazil olmuşdu. Bu kənddə Umuxanımın keçmişini tanımırdılar, harda böyüyüb ərsəyə çatdığını bilmirdilər. Umuxanım elə gözəl idi ki, bu gözəlliyin işığı onun keçmişini görməyə qoymurdu. Umuxanım bu kəndin, bu mahalın həyatına birdəncə daxil olmuşdu.

Təkcə onu bilirdilər ki, Umuxanım dünyanın qayğısız günlərindən birində özü də duymadan aldanmışdı. Aldandığını özündən gizləyə-gizləyə bir xeyli yaşamışdı. Sonra başqa birisinə aldanmışdı. Sonra da bir başqasına. Umuxanım beləcə-beləcə aldana-aldana yaşamışdı və bir də baxıb görmüşdü ki, bütün bu ətraf kənd-kəsəkdə məşhurdu. Gecəsi-gündüzü olmayan bu həyat onu bezdirmiş, ölümündən bir az qabaq ərə getmişdi.

Ancaq Umuxanım ailə həyatına dözə bilməmişdi. Günlər ötdükcə qızlığını, gəlinliyini itirdiyi o illərin ağrısını çəkir, adam arasına çıxmağa utanırdı. Əri nə illah eləyirdisə onu evə-eşiyə bağlaya bilmirdi.

– Burax məni, qoy çıxım gedim, - deyirdi, - dözə bilmirəm. Niyə axı, məni məcbur elədin ərə gedim. İndi mənə görə sən də camaat içinə çıxa bilmirsən.

Ancaq əri buna razı olmurdu ki, olmurdu:

– Heç kəsə fikir vermə, - deyirdi, - başını aşağı sal uşaqlarımızı böyüt.

Umuxanım görürdü ki, əri belə desə də, içində əzab çəkir, ona rast gəldiyinə, onunla evləndiyinə min kərə, milyon kərə peşimandı.

Evlərinə gələnlərin əksəriyyəti ilə Umuxanım görüşmüşdü, bunu Umuxanımın əri də yaxşı bilirdi. Bu adamlar Umuxanıma özgə gözlə baxırdılar. Heç nə deyib danışmasalar da,

Umuxanım onların gözlərindən elə şeylər oxuyurdu ki, ərinin üzünə baxa bilmirdi. Umuxanım hiss eləyirdi ki, evlərinə gəlib-gedən,bir vaxt onun həsrətindən yanıb qovrulan bu adamlar ona yuxarıdan aşağı baxır. Umuxanım hiss eləyirdi ki, ailə həyatı onun əlini-qolunu bağlayıb, ailə onu heç cürə rahatlıq bilmədiyi dar bir qəfəsə salıb və asanlıqla bu dar qəfəsdən qurtarmaq mümkün olmayacaq. Umuxanım belə şeylərə vərdiş eləməmişdi, ailə həyatı çox böyük əzab hesabına başa gəlirdi. Ərə getməklə Umuxanım hökmünü, zabitəsini itirmişdi, qürrəsini, gözəlliyini itirmişdi. İndi elə bil heç kəs Umuxanımın gözəlliyini görmürdü, görmək istəmirdi, göz-gözə gəldiyi adamlar yalnız onun keçmişini bildiklərini hiss elətdirir, hansısa bir sözləmi, işarəyləmi o günləri unutmadıqlarını xatırladırdılar. Belədə Umuxanım özünü alçalmış sanırdı, özünə yazığı gəlirdi, ərinə yazığı gəlirdi. Bəlkə də uşaqları olmasaydı, hər şeyə tüpürər, təzədən əvvəlki həyatına qayıdardı. Ancaq uşaqlar əl-qolunu bağlamışdı, ha fikirləşirdisə, bir çıxış yolu tapa bilmirdi.

Hərdən kəndin uşaqları küçədən onun adını qışqıra-qışqıra keçirdilər. Umuxanım uşaqların qışqırıq səsində evinə gəlib-gedən adamların gözlərində duyduğu ifadələri duyurdu. Uşaqların səsində, qışqırığında sözlə izaha gəlməyən nə isə gizlənirdi. Ər-arvad qışqırıq səslərini eşitməzliyə vururdular; biri radionun səsini qaldırır, o biri özünü məşğul kimi göstərirdi. Tək bircə dəfə uşaqlar onun adını qışqıra-qışqıra küçədən keçəndə əri dözə bilməmiş, əlinə ağac alaraq qışqırışan uşaqları küçənin yuxarı başınacan qovmuşdu.

Son günlər Umuxanım səhərdən axşamacan həyətdə olurdu. Əri nə vaxt işdən qayıdırdısa, onu evin qənşərindəki tut ağacının altında görürdü. Körpənin beşiyini də gətirib tut ağacından asmışdı. Bütün günü kürəyini ağaca söykəyib beşiyi yırğalaya-yırğalaya gözlərini harasa zilləyib baxırdı. Elə bil nə isə olmalıydı, kim isə gəlməliydi; hər xışıltı səsinə dönüb baxır, heç nədən diksinirdi. Gecələri də çətin keçirdi; səhərəcən gözlərini qırpmadan qaranlığa baxırdı, özünü unutduğundanmı, yoxsa ərinə oyaq olduğunu bildirməməkdən ötrüydümü, axşamdan daş kimi düşüb qalır, yatağında belə çevrilmirdi.

Ancaq bir gün...

Thank you for trying Solid PDF

Bir gün əri işdən qayıdanda Umuxanımı həyətdəki tut ağacından özünü asmış görmüşdü.

Meyitin iki addımlığındaca quruyub qalmışdı.

Umuxanımın gözəl sifəti qapqara, kösöv rəngindəydi, açıq gözlərinin qarası axıb gizlənmişdi, zərif boynu bədəninin ağırlığına dözməyib uzanmışdı. Ağzının bir tərəfindən gələn qan çənəsinə kimi axıb nazik şırım salmışdı və Umuxanımın qaralıb kösövə dönmüş sifətində qurumuş qan şırımı zorla seçilirdi.

Uşaqların kiçiyi tut ağacının o biri budağından asılmış beşikdə yatırdı, böyüyü isə ağacdan sallanan meyitin ayaqları altında oturub anasının düşüb qalmış ayaqqabıları ilə oynayırdı.

Əri handan-hana özünə gələndə gətirib meyiti ağ mələfəyə bürümüşdü. O gecə uşaqları yatızdırıb səhərə qədər tut ağacının dibində tükürpədici səslə ulayan itlə birgə arvadının meyitinə keşik çəkmişdi. Meyit o biri gün günorta üstünəcən, milis idarəsindən bir dəstə adam gəlib çıxanacan tut ağacından asılı qalmışdı.

...İndi qəbrini büsbütün unudublar. Qəbiristanlıq uçurulanda son xatirə – qəbir daşı da uçurulub dağılacaq, bu qadınla bağlı son nişanə də yer üzündən silinəcək.

Umuxanımın qəbrinin dörd bir yanı çala-çala qazılmışdı və bu çalaların hər birindən qorxu baxırdı, vahimə baxırdı. Bu çalalardan ölümün soyuq, sərt üzü görünürdü və adam inana bilmirdi ki, bir vaxt gələcək,o da bütün canlılar kimi torpağın altında, belə qaranlıq, vahiməli qəbir çuxurunda məskən salacaq.

…Uşaq yumşaq torpağın üstündə oturmuşdu. Rəngi-ruhu, üst-başıyla torpaqdan seçilmirdi. Gözlərini məchul bir nöqtəyə dikib durmuşdu, sanki ətrafında, böyür-başında qazılan qəbirlərin, daşınan insan cəsədlərinin ona dəxli yox idi. Sanki uşaq deyildi, yaşlı idi, ahıl idi, yaşayıb yorulmuşdu, dünyanın sirrinə, sehrinə inamını itirmişdi. Sanki uşaq ikən qocalmışdı. Və uşağın çöhrəsində dünyaya qarşı elə bir soyuqluq və etinasızlıq duyğusu vardı ki, ona yaxınlaşıb bir söz soruşmağa ürək eləmədi.



Thank you for trying Soda PDF

Qəbiristanlığın içərisilə, adamların və başdaşılarının arasıyla yavaş-yavaş addımlayır. Bir həftə bundan qabaq az qala onu daş-qalaq eləmək istəyən bu adamlar indi elə bil onu görmürlər, bəlkə bilərəkdən özlərini görməzliyə vururlar, bununla demək istəyirlər ki, ona da, onu buraya göndərənə də nifrət eləyirlər. Bəlkə onu özlərinə tamam yad, uzaq bir insan hesab eləyirlər; düşünürlər ki, o, insan deyil, onu insan doğmayıb, qəlbi, ürəyi yoxdu. Bəlkə elə güman eləyirlər ki, bu boyda qəbiristanlıqda bircə nəfər doğması, əzizi olmadığı üçün bunun qisasını alır. Axı insanlar cürbəcürdü, hərə bir şey fikirləşə bilər və bunu insanlara qadağan eləmək qeyri-mümkündü. Kim bilir, ola da bilsin ki, bu qəbiristanlıq yerindəki doğmalarının, əzizlərinin qəbrini köçürən bu insanların doğrudan da başı öz dərdlərinə qarışıqdı, içərilərinə çəkiliblər, özgə heç kəsi görmürlər, görmək istəmirlər. Bunu dərk eləmək üçün gərək o adamların ömrünü yaşayasan, özünü onların yerinə qoya biləsən.

Qəbiristanlığın içərisilə addımladıqca bu adamlara qarışmaq istəyirdi, onların dərdinə şərik olmaq istəyirdi, ancaq bacarmırdı, elə bil dili-ağzı bağlanmış, hissiz, duyğusuz bir canlıya çevrilmişdi. Köçürülən qəbirlərdən düşüb qalan insan sümükləri qəbiristanlığın qara, yumşaq torpağı üzərində ağarırdı. Adamlar bunun insan sümükləri olduğuna məhəl qoymadan üstündən yeriyib keçirdilər; insan sümükləri insan ayaqlarının altında xırçıldayırdı. Bu xırçıltı səsi yaddaşındakı bütün qeyri səsləri batırır, beyninə, iliyinə işləyirdi; əti çimçəşirdi, sanki insanların ayaqları altında qalan onun cəsədi, onun sümükləriydi və o ayaqların ağrısını, ağırlığını sinəsində, qabırğalarının üstündə hiss eləyirdi.

Əgər bu qəbirləri özünə doğma bilirdisə, niyə onları köçürən insanlardan uzaqdı... Niyə özüylə bu insanlar arasında yaxınlıq, bağlılıq tapa bilmir.

– Səhərdən qəbirlərin arasıyla veyil-veyil gəzir. – Sümükləri xərəyə yığıb aparan iki qocanın hansısa dilləndi.

Çevrilmədi, dönüb onara sarı baxmadı. “Görən onun veyil-veyil gəzməyi qocaları niyə belə narahat eləyir? Bəlkə onlara kömək lazımdı, axı sinnin, yaşın bu çağında bu dərinliyinə qəbri qazıb sümükləri çıxarmaq, sonra da xərəyə doldurub təzə

qəbiristanlıq yerinə aparmaq ağır işdi. Bəlkə qayıdıb onlara kömək eləsin, heç olmasa təzə qəbiristanlıq yerində qəbir qazar». Ancaq qayıtmadı, özü istəsə belə qayıda bilmədi.

...Çolaq Səftərin gəlhagəliydi. Bilmirdi nə sürətlə işləsin. Təzə qəbiristanlıq yerində bu gün iyirmiyə qədər qəbir qazmışdı, hər birini də əlli manata. Ayrı vaxt Çolaq Səftər qəbrin birini iyirmi beşdən yuxarı qazmazdı, ancaq indi sifariş verən o qədər çox idi ki, istər-istəməz məzəndəni qaldırmışdı. Çolaq Səftərlə vaxtında behləşə bilməyənlər isə, ölüləri üçün qəbri özləri qazırdılar, çünki bu axırıncı gün idi və Səftər özü istəsə belə bundan artıq qəbir qaza bilməzdi.

Çolaq Səftər işin öhdəsindən gəlmək üçün uşaqlarını da qəbiristanlıq yerinə tökmüşdü. Hamısı bir vaxtda doğulubmuş kimi eyni boy-buxunda olan bu uşaqların hərəsi əllərində bel Səftərin nişan verdiyi yeri didələyirdilər. Səftər hər işini buraxıb uşaqlara baş çəkir, onlara yalandan vədlər verməklə həvəsləndirirdi.

Səftər elə sürətlə işləyirdi ki, heç kəsi görmürdü. Qəfildən başını qaldırıb Abış kişinin oturduğu səmtə baxdı, ancaq onu yenə görmədi. Bayaq qocayla aralarındakı söhbəti xatırlayaraq başını buladı.

...İri tut gövdəsindən başdaşı vurulmuş başqa bir qəbrin önündə dayandı. Üstündəki yazıya baxmamış da sahibini tanıdı – Faiq müəllimin qəbriydi. Dəyirmandan bir az yuxarıda, şumun qırağında döyülməkdən qançır olmuş meyit, meyitin əynindəki torpaq rəngli pal-paltar, bir tərəfə düşüb qalmış ayaqqabı tayları... Bunlar indiki kimi yadındaydı. Faiq müəllimi xatırlayanda ilk gözünün qabağına gələn döyülməkdən qançır olmuş həmin meyit və meyitin sinəsindəki güllə yaraları olurdu.

Faiq müəllimin ölümü sirr idi, gecə kimi, zülmət kimi sirr idi və bu çağacan da sirr olaraq qalırdı, ən qəribə də burasıydı ki, heç kəs bu sirrə əl aparmaq istəmirdi. Bu ölümdə adamı ağrıdan nahaqdan mühakimə olunmaqdan savayı, bir də Faiq müəllimin yadların-yaxınların nəzərində «oğru" kimi qalmağıydı.

«...Mən pulla basdırılmışam, əzizlərim, torpaqla yox. Pul altında yatmaq çətindi, pulun ağırlığı altında nəfəsim çatlayır.

Thank you for trying Soda PDF

Dəyməyin qəbrimə, qoyun üstümdən yol çəksinlər, asfalt döşəsinlər. Qoyun çürüyüm, əriyim, qum olum, torpaq olum, görünməyim, bilinməyim. – Səs sanki daşa dəyib əks-səda verir, dalğa-dalğa yayılaraq boğuq bir uğultuya çevrilirdi. – Elə bilməyin ki, unudulmağım ağrıdır məni. Elə bilməyin ki, kimdənsə gileyliyəm. Yox, qətiyyən yox! Bu qərib yurdda bir kəsdən gileylənməyə haqqım yoxdu. Mən oğruyam, əzizlərim, qoyun oğrusuyam, uzaq olun məndən. Uçurun başdaşımı, mən başdaşına layiq deyiləm, qoyun mənim varlığımdan xəbər tutmasınlar...» - yerinmi, yaddaşınmı təkində səs birdən-birə kəsildi.

Hər dəfə bu ölümü xatırlayanda yaddaşını göynədən bir də o üç nəfərin – qətldə təqsirli bilinən iki oğul və atanın havada kor-kor gəzən, ağrıdan büzüşən, maqqaşla dırnaqları çıxarılmış barmaqlarıydı. Bu barmaqlar qanla örtülüydü, gücsüz və köməksizdi. Bu barmaqlar lal idi, səssiz idi, yetim idi. Atanın dırnaqlarını çəkib çıxaranda canını dişinə tutub dözmüşdü, amma gözlərinin qabağında oğlanlarının dırnağının çıxarılmasına dözəmməmişdi, eləmədiyi cinayəti boynuna götürmüşdü. Ancaq oğlanları bu yaşda atalarının tutulmasına razı olmamışdılar, öz aralarında razılığa gəlmişdilər; kiçiyi cinayəti boynuna götürmüşdü – həyatını, cavanlığını, gələcəyini qurban verərək on yeddi yaşında məhbəsə yollanmışdı.

On il sonra azadlığa çıxanda erkən gənclik illərində qoyub getdiklərini büsbütün başqa boy-biçimdə görəcəkdi. Bəxtindən, qismətindən zorla qoparılıb alınan on illik ömür onu bir əsr qocaldacaqdı, yaşıdlarından ayrı salacaqdı. Yuxu kimi, xəyal kimi uzaq və əlçatmaz olan o qayğısız illəri həsrətlə xatırlayacaq, ömrünü kəsib keçən uçurumun dərinliyi, keçilməzliyi, vahiməsi vaxt-bivaxt başını gicəlləndirəcəkdi.

Qayıdıb gələndən sonra otuz yaşlarında həyatını yenidən qurmağa çalışacaqdı – ev tikəcək, evlənəcək, hardasa yüngül bir işə düzələcəkdi, amma eləmədiyi cinayətin ləkəsini, damğasını ömrü boyu üstündə gəzdirməyə məcbur olacaqdı. Bu ləkə, bu damğa onu için-için yeyəcək, bütün ömrünü zəhərləyəcəkdi. Qışqırıb bağırsa da, haqq səsini eşitməyəcəkdilər. İçəridən kəsilə-kəsilə qalacaqdı. Bu ömür qismətindən xilas olmaq üçün neçə dəfə özünə ölüm diləyəcəkdi. Ancaq həyatın şirinliyinə

aldana-aldana dözəcəkdi, dözəcəkdi və ömrünün elə bir vədəsi gələcəkdi ki, yavaş-yavaş özünün günahsızlığına şəkk eləməyə başlayacaq, qatil olduğuna inanacaqdı. Onda yaşamaq o qədər də çətin olmayacaqdı.

* * *

Sümsük bir it avara-avara çuxurların arası ilə dolaşırdı. Məsələnin qətiləşdiyi bu bir həftəni it qəbiristanlıqda keçirmişdi. Əvvəllər də bura tez-tez gələrdi. Sahibi öləndən sonra hər gün qəbiristanlığa baş çəkər, vaxtının xeyli hissəsini burada keçirərdi. O vaxtdan itin yiyə duranı yox idi, başlı-başına kəndin-kəsəyin küçələrini dolaşırdı. Hayana gedirdisə, hansı qapıya üz tütürdüsa, daşa basırdılar. «İtiniz ollam, insanlar, - deyirdi, - qovmayın məni qapınızdan, qoyun həyət-bacanızı qoruyum, nə qədər istəyirsiniz arxayınca yıxılıb yatın, yuxuma haram qatıb ev-eşiyinizə keşik çəkim. Niyə məni qapınızıdan qovursunuz, niyə başa düşmürsünüz ki, itlik eləmək istəyirəm. Bəs siz itliyə götürməsəniz mən neyniyə billəm...». İtin gözlərindən eşidilən bu səsi hər dəfə daş-kəsək batırırdı. Üstünə insafsızcasına yağdırılan daş-kəsəkdən qaçıb canını qurtararaq qəbiristanlığa gəlirdi, başını qəbrin torpağı üstə qoyub zarıyırdı, elə bil sahibiylə qabaq-qənşər oturub söhbət eləyirdi. Hərdən qəribsəyəndə ona elə gəlirdi ki, sahibi səsini-sədasını eşitmir. Belə çağlarında başını torpaqdan qaldırıb yetim-yetim ulayırdı.

İt neçə gün idi ki, qəbiristanlığın qazılıb köçürüldüyünü görürdü və sahibi sarıdan bərk narahatçılıq keçirirdi. Buldozerlərin çığır-bağırla gəlib qəbiristanlığın bir tərəfində dayanması onun ümidlərini büsbütün qırmışdı. İt başa düşürdü ki, buldozer buraya elə-belə gəlməyib, qəbiristanlıq uçurulmalıdı, başqa köçürülməmiş qəbirlər kimi sahibinin qəbri də yerləyeksan olmalıdı. Və bunu başa düşdüyündən heç cür özünə yuva tapa bilmir, bir yerdə qərar tutammırdı.

İndi birdən-birə it qəti qərara gəlmişdi. O, çala-çuxurların böyür-başı ilə qəbrə sarı tələsirdi.

Uzaqdan sahibinin qəbri çala-çuxurların arasında kimsəsiz görünürdü. «...Torpağın insanı bərabərləşdirdiyi yalanmış...

Thank you for trying Soda PDF

Bu dünyada yetim olan o dünyada da yetimmiş. Yiyəsiz hər iki dünyada yiyəsizmiş...».

İt qəbrə çatıb dayandı. Qəbrin böyür-başına fırlanıb ayaqları ilə qazmaq üçün münasib yer axtarıb tapdı. Sonra sinəsi üstə çöküb qazmağa başladı. Neçə günün aclığından sonra ona qəribə bir qüvvə, ehtiras gəlmişdi. Və sahibinin qəbrini eşib tökdükcə bu qüvvə və ehtiras soyumaq əvəzinə artırdı.

İt birdən dayanıb ətrafına göz gəzdirdi. Adamlar bir-birinə məhəl qoymadan tələsə-tələsə işləyirdilər. Özgə vaxt olsaydı, sahibinin qəbrini eşməsinə təəccüblənərdilər, amma indi bu kənd-kəsəyi, bu ətraf yerlərin sakinlərini belə şeylərlə heyrətləndirmək olmazdı.

İti bunlar qətiyyən maraqlandırmırdı. Onu təşvişə salan gələcək kimsəsiz həyatıydı. Çünki it bu dünyada tək idi, sahibi, yiyə duranı yox idi, üz tutub ağlamağa, dərdini yüngülləşdirməyə bu qəbirdən savayı yer tanımırdı. Sahibinin qəbrini köçürəmməsə, tək-tənha, kimsəsiz qalacaqdı. İt bunu fikirləşdikcə tükləri qabarıb qalxırdı. «...Dünyanın sonu budursa, niyə bir-birinizin qanını sorursunuz, ay allah bəndələri? Mən itəm, it ağlımla dərk eləyirəm ki, hər şeyin sonu, həddi torpaqdı, torpaqdan o yana həyat yoxdu. Niyə siz bunu insan ağlınızla dərk eləyəmmirsiniz? Çəpər-çəpər, kənd-kənd, ölkə-ölkə, sərhəd-sərhəd didişirsiniz, ay allah bəndələri?».

Üfüqdə yana-yana, allana-allana çıxıb gedən günəş qüssə və ayrılıq qoyub gedirdi.

* * *

– Deyir, rəhmətlik Əminənin qəbrini köçürəndə arvadın başını tapmayıblar, meyit də üzü qibləyə tərəf deyil, əks tərəfə qoyulubmuş.

– Heç Səltənətin meyitini yerli-dibli tapmayıblar. Bir həftədi sağı-solu qazıb tökürlər. Elə bil meyit yağlı əppək olub göyə çəkilib.

– Ə, eşitməmisiniz, deyir, Əliş xortdayıb gedib evinə, gecənin bir aləmi döyüb qapını, arvadı çıxıb eşiyə, ərini görən kimi qışqırıb özündən gedib. Məsinin gədəsi olardaymış – tür-

mədən qayıdanı deyirəm. Deyir, elə Əlişin üçü günü qaş-gözlə alışıb verişiblərmiş. Sözüm onda deyil, arvadın qışqırığına tüfəngi götürüb çıxır. Əliş görəndə ki, iş o işdən deyil, götürülür. Gədə bir daraq gülləni qaranlığa boşaldır. Arvad səhərə yaxın ancaq özünə gəlib, ancaq dili açılmır ki, açılmır. Doqqazın ağzından qəbiristanlığın aşağı başınacan yol qan ləkəsidi, görünür, güllə tutub amma öldürməyib, qaçıb qurtarıb...

– Ə, bə bu gün Əlişin yeddisiydi axı... Vallah, indi yadıma düşür. Ora gedəniniz olmamışdı ki...

– Mən günorta üstü baş çəkdim. Baş çəkdim deyəndə elə çəpərin üstündəncə həyətə boylandım. Gözümə bir kəs dəymədi. Baş aça bilmədim nə məsələdi bu...

– Əlişin xortdaması xəbəri bütün kəndə yayılıb. Deyir, camaat gəlir, uzaqdan-uzağa baxır qayıdır, heç kəs həyətə girməyə ürək eləmir...

– Vallah, inanmağım gəlmir, ancaq xortdayıbsa, innən belə yuxu haram olacaq bizə...

– Səftər deyir ki, səhər obaşdannan bura gələndə gördüm, oturub qəbrinin başında çılpaq. Başını salıb aşağı, ovcunda torpağı ovub tökür. Bədənini də ağappaq tük basıb. Deyir, əvvəl-əvvəl görmürdüm. Hardan ağlıma gələrdi ki, Əliş xortdayıb çıxa bilər. Başımı aşağı salıb gedirdim. Qəfildən gözüm sataşdı. Qıçlarım tutuldu, istədim qayıdam, nə illah elədim ayağım torpaqdan aralanmadı. Deyir, nəfəsimi udub elə beləcə dayandım. Ovcunda torpağı ovxalaya-ovxalaya dodağının altında nə isə pıçıldayırdı. Sonra deyir, nə isə hiss eləyib birdən arxaya döndü, məni görən kimi kəfənini qapıb güllə kimi aradan çıxdı.

Bel-külüng səsləri öləziyəndə adamların danışığı eşidilirdi. Adamların səsi küləyin uzaqdan gətirdiyi səsə bənzəyirdi.

...Yerbəyerdən qazılıb köçürülmüş qəbirlərin arasında bir başdaşı ucalırdı. Yaxınlaşıb üstünü oxudu – Sultanzadənin qəbriydi. Sultanzadənin meyitini altı ay bundan qabaq Bakıdan gətirib dəfn eləmişdilər. Vəsiyyət eləyibmiş ki, öləndə kənddə basdırsınlar. Arvadı vəsiyyətinə əməl eləmək istəmirmiş. Mərhumun vəsiyyətini dostları yerinə yetiriblər.

Sultanzadə iyirmi yaşlarında bu kənddən çıxıb getmişdi, harda oxumuşdu, oxuyub nə olmuşdu, bunu bilmirdi. Böyük-

lərdən eşitdiyi buydu ki, Sultanzadə bu kəndin fəxridi, adı-sanıdı. Kənddə danışılanlardan onu da bilirdi ki, Sultanzadə yazıçıdı, alimdi, kitab yazırdı, adı-sorağı çox-çox uzaqlara yayılmışdı. Rayonda Sultanzadənin yaxın qohumlarından bacıları, dayısı uşaqları qalmışdı. Nə qədər ki, kişi sağ idi, işləri keçirdi, kəndə gələndə orda oturma, burda otur, onu yemə, bunu ye, day nə bilim pərvanə kimi başına dolanırdılar. Öləndən sonra kimə gərəkdi ki... Kişini basdıranda Bakıdan iki avtobus dolusu adam gəlmişdi. Qəbrinin üstündə bir mitinq olmuşdu ki, gəl görəsən. Rayonun bütün böyükləri tökülüb gəlmişdilər.

Dəfnindən sonra qonaqlar yığışıb ata yurduna getmişdilər. Ata yurdu da ki, qapısı bağlı. Yiyəsiz yurddan nə olasıdı ki... Uşaqların biri qaladan aşıb böyük darvazanı içəridən açmış, qonaqlar həyətə doluşmuşdular.

Sultanzadəni ilk dəfə bu həyətdə görmüşdü. Evin qənşərindəki üzüm çardağının altında stol arxasında oturub nə isə yazırdı. O vaxta qədər elə bilirdi ki, kitab beləcə açıq-aşkar stol arxasında oturub yazılmamalıdı, kitab yazmaq qeyri-adi, müqəddəs, ilahi bir işdi və o iş mütləq gizli görülməlidi.

Həyətə neçə il idi ki, insan ayağı dəymirdi. Bu həyətin gur çağlarını görmüşdü, indi onu insansız təsəvvürünə gətirə bilmirdi.

Qonaqlar donub qalmışdılar. Gələnlərin çoxu bu evdə dəfələrlə olmuşdu, mərhumun sağlığında bu həyətin gur çağlarını görmüşdü.

Sultanzadənin arvadı da gəlmişdi. Qapqara paltarda əlləri qoynunda həyətin bir tərəfində donub qalmışdı. Elə bil o, bu evin sakini deyildi, başqaları kimi uzaq, yad bir adamın yasına gəlmişdi.

Qonaqlar iki-iki, üç-üç həyəti dolanır, sapsarı yarpaqlarla örtülmüş həyətdə mərhumun həyatı ilə bağlı nişanə axtarırdılar. Həyətdəki suyu çəkilmiş su daşı, daşın altındakı pas tutmuş vedrə, bir tərəfdə atılıb qalmış köhnə yovşan süpürgə, qapısı taybatay açılmış toyuq hini, yağışın yuyub apardığı torpaq təndir adamda qəribə bir qüssə oyadırdı. Sultanzadənin dayısı oğlanları, şəhərdə ərdə olan bacıları da həyətdəydilər.



Thank you for trying Soda PDF

Kənddə mərhumun evində kiçik də olsa bir süfrə açmaq lazım idi; bunu əvvəlcədən Sultanzadənin yeznələri, dayısı uşaqları fikirləşməliydilər. Qonaqlar uzaq yoldan gəlmişdilər. Mərhum adlı-sanlı bir adam idi, kəndin, tanış-bilişin, qohum-əqrəbanın çox işlərinə kömək olmuşdu. Başının tükü sanı bu adamlara yaxşılıqları keçmişdi. Dəfn son borcdu, bu borcu yerinə yetirmək bir belə adamın əlində su içmək kimi asan idi. Əvvəllər sağlığında Sultanzadə kəndə gəlməmişdən neçə gün qabaq sorağını alardılar, maşın tutub qabağına çıxardılar. Bir-birindən xəbərsiz neçə evdə qoyun kəsilərdi, süfrə açılardı. Qərəz kişini bir dəqiqə sakit buraxmazdılar, qaldığı beş gündə, bir həftədə doğma ev-eşiyini, ata-anasının dərdini-əhvalını soruşmağa vaxt tapmazdı. Tanış-biliş, qohum-əqrəba da ki, çoxdu, getməyəndə xətirlərinə dəyirdi, məcburdu heç birinin sözünü yerə salmasın. Uşaqlı-böyüklü bütün kənd Sultanzadəyə həsədlə baxardı. Amma Sultanzadə özünü bədbəxt hesab eləyirdi. “Elə bilməyin, - deyirdi, - kitab yazmaq, alim olmaq, uzaq şəhərdə yaşamaq xoşbəxtlikdi. İndi mən and içib aman eləsəm də siz buna inanmayacaqsınız. Ancaq inanın, düz sözümdü, əsil xoşbəxt sizsiniz. İnsan doğulub boya-başa çatdığı torpaqdan uzaqda heç bir şeydi. Kənddən çıxan gündən hər gecə yatağıma girəndə ilk ağlıma gələn bu olur ki, görəsən, haçansa, biryolluq doğma yerlərə qayıda biləcəyəmmi?».

Sultanzadə danışırdı, məclisdəkilər heyrətlə qulaq asırdılır. Sultanzadə danışarkən olduqca gücsüz görünürdü. Elə bil o, bu kəndin-kəsəyin dağdan ağır dərdlərini aşıran, açılmaz qapılarını açan bir şəxs deyildi, əlindən heç bir iş gəlməyən, dünyanın ən köməksiz və ən bədbəxt adamıydı. «Sizdən bir xahişim var, - deyirdi, öləndə məni bu torpaqda basdırın. Ömrüm qəribçilikdə keçdi, heç olmasa qoymayın qəbrim qəribçiliyə düşsün. Bir-iki ilə qayıdasıyam. Qayıdıb ömrümün qalanını burda yaşayacağam. Deyirəm, bəlkə əcəl aman vermədi, onda qoymayın məni qərib yerdə basdırsınlar».

Qonaqların Sultanzadənin həyətində donub qaldıqları həmin gün birdən-birə bu sözlər hardan gəlib yadına düşmüşdü?

Həyətin ortasında böyük daş çarhovuz vardı. Bunu Sultanzadə öz əllərilə düzəltmişdi. Həyətin bir tərəfini kəsib keçən



Thank you for trying Soda PDF

balaca, ensiz çayın sahili boyu söyüd ağacları sıralanmışdı. Bunlar da Sultanzadənin öz əllərinin məhsuluydu. Həyətdə nar, armud, heyva acağlarının sayı-hesabı yoxdu.

Bura gələnlər həmişə Sultanzadəni bu həyətdə görmüşdülər. İndi adamlara elə gəlirdi ki, bu saat möcüzə baş verəcək, evin qıfıl vurulmuş qapıları birdəncə açılacaq və Sultanzadə ev paltarında eyvana çıxıb qonaqları qarşılayacaq. Qonaqlar gözləyirdilər, ancaq möcüzə baş vermirdi.

Sultanzadənin övladı olmurdu. Ər-arvad evlənmələrindən on il keçənədək gözləmişdilər, başa düşəndə ki, daha uşaqları olmayacaq, uşaq evindən körpə bir qız götürüb saxlayırdılar. Qonşular Sultanzadənin uşaq götürüb saxladığını bilirdilər. Uşağın qulağına çatmasın deyə evlərini də dəyişməyə məcbur olmuşdular.

Sultanzadə bu qızı canından artıq istəyirdi. Qız da onu dəlicəsinə istəyirmiş... Qızı yağ içində böyrək kimi böyütmüşdülər. Qız da ki, nə qız – dünya maralı, baxan bir də dönüb baxmaq istəyirdi.

İyirmi yaşına kimi xəbər tutmamışdı. Ancaq bir gün... qohum-qonşulardan kimsə, nə məqsədləsə bu sirri qıza açmışdı. Bunu kimin elədiyini Sultanzadə ölənəcən bilməmişdi. O da bilinməmişdi ki, qız bu xəbəri niyə belə dəhşətlə qarşılamışdı. Burda Sultanzadənin nə günahı ola bilərdi ki... Uşaq evindən körpəcə bir qızcığazı, əslini-nəslini tanımadığı bir uşağı iyirmi il əllərinin içərisində böyütmüşdü, o eləməsə də başqa birisi eləyəcəkdi bunu, bəlkə də yiyə duran olmayacaqdı, uşaq evində atasız-anasız böyüyəcəkdi. Pislikmi eləmişdi?! Öyrənib-biləndən sonra da qız heç nəyi üzə vurmamışdı. Qızın əhvalatı başa düşdüyünü Sultanzadə özü hiss eləmişdi, o da üzə vurmamış, özünü bilməməzliyə qoymuşdu. Ancaq bir axşam Sultanzadə işdən dönəndə qızı evdə görməmişdi – yazı stolunun üstünə bir məktub qoyulmuşdu. Qız evdən getmişdi. Bu əhvalatdan sonra Sultanzadə birdən-birə qocalmışdı.

Axşam dəfnə gələn qonaqlar qatarla qayıtmışdılar. Sultanzadənin arvadı isə qayıtmamışdı, o gecəni təmtəkcə kimsəsiz yurdda qalmışdı, otağın işığını yandırmadan səhəri dirigözlü açmışdı. Üç otağıydı və otaqların birinin açarını həmişə cibində



Thank you for trying Soda PDF

gəzdirərdi. Bu Sultanzadənin şəxsi otağıydı, arvadı bu evə gəlin gəlmişdi. Gəlinlik cehizi – köhnə qədim pianodan tutmuş bufetin qab-qacağınacan qurulu necə vardısa qalırdı, evin bir çöpünə də toxunulmamışdı. Arvadının bir cüt xalçası divardan asılmışdı. Sultanzadə Bakıdakı evinin əşyalarını qab-qaşığına kimi təzədən alıb yığmışdı. Və Sultanzadənin anası bu otağın qapısını ən əziz qonağa belə açmazdı.

O gecə qohum-qonşunun təkidinə baxmayaraq Sultanzadənin arvadı evdən çıxmamıdı. Baldızları da nə illah eləmişdilərsə, onu razı sala bilməmişdilər; nə bir yana getmiş, nə də bir kimsənin yanında qalmağına razı olmuşdu. «Əl çəkin məndən, - demişdi, - qoyun öz dərdimi dərd kimi özüm çəkim. Sabah cəhənnəm olub gedəcəyəm, sonra o ev, o da siz, bir çöpü də gərəyimə deyil. Ancaq bu gecəlik məni sakit buraxın. O bircə qardaşınızın qəbrinə and verirəm, mənim bu gecəmə toxunmayın». - Bu sözdən sonra baldızları dinməz-söyləməz çəkilib getmişdilər.

O gecə Sultanzadənin arvadı səhərə kimi yatmamışdı. Səhərə kimi pəncərənin qabağında dayanıb gözlərini qaranlıqdan çəkməmişdi. Səhərə kimi aran çayının səsinə qulaq asmışdı və bu bir gecədə Sultanzadə ilə keçirdiyi otuz beş illik ömrünü təzədən yaşamışdı; otuz beş illik ömür çayın, suyun səsinə qarışıb bir gecədə ömründən təzədən axıb keçmişdi.

Səhərisi gün onu qəbiristanlıqda görmüşdülər. Günün gözü əyilənəcən Sultanzadənin qəbrinin üstündə oturub səssiz-səssiz ağlamışdı. Sonra isə hayana çıxıb getdiyini bilən olmamışdı. Elə bil arvad yağlı əppək olub göyə çəkilmişdi. Ancaq gecələr Sultanzadənin qəbri üstə xırdaca yovşan dəstələri qoyulardı. Bunu kimin gətirib qoyduğunu heç kəs bilmirdi. Ancaq qəbrin üstə düşən ləpirlər Sultanzadənin arvadının ayaq izlərinə bənzəyirdi. Bir müddət sonra qəbrin üstündən yovşan dəstələri də yığışdı – Sultanzadənin qəbri beləcə unuduldu.

Qazılıb meyitləri köçürülmüş vahiməli qəbir çuxurlarının əhatəsində biləkdən azca uzun başdaşı vurulmuş uşaq qəbri qalmışdı. Üstündə ad-filan, tarix yazılmamışdı. «Görünür, az yaşayıb, lap az, bəlkə qırx gün, bir ay, bəlkə də lap az. Görən niyə bəs başdaşına bir şey yazılmayıb? Bəlkə az yaşadığı üçün

Thank you for trying Soda PDF

özlərinə dərd eləmək istəməyiblər. Eləcə adsız-ünvansız torpağa tapşırıblar? Bəlkə də torpağa beləcə adsız basdırılmağın nə isə gizli bir səbəbi var?».

Başını qaldıranda uşağı qarşısında gördü. Uşağın üst-başı torpağa elə bulaşmışdı ki, yerdən güclə seçilirdi. «Bəlkə uşaqdan soruşsun, görən bilərmi? Hardan biləcək, körpə uşaqdı, bu az yaşında bir belə qəbrin hansı birisini tanısın?».

Uşaq onu gözləmədən:

– O mənim qardaşımdı, - deyir, - yeddi qurbanla tapmışıq. Onun qəbrini uçursan, mən qardaşsız neyniyə billəm? - deyir və üzünü çevirib harasa qeyb olur.

Yadına düşür. Yeddi qurbanla tapılmış bu uşağın taleyi ona tanışdı. Yadındaydı, qırx gün ona ad qoyulmamışdı. Qırxı tamam olan günü uşağın ilk qurbanı kəsilmiş, həmin gün dayısı uşağın adını Məzahir qoymuşdu. Səhəri gün isə uşaq tələf olmuşdu.

Qırx gün! Cəmisi qırx gün! Ömrə bir bax? Qırx gündən ötrü dünyaya gəlmək... Dünyanın suyundan, bərəkətindən, havasından qırx gün dadmaq. Cəmisi qırx gün! Buna ömürmü demək olar,həyatmı demək olar, fələk? Doqquz ay bətnində uşaq gəzdirəsən, doqquz ay həsrətlə, qorxuyla övlad yolu gözləyəsən, ancaq qırxca gün yaşaya, vəssəlam. Qırx gündən sonra onu əzizlədiyin əllərinlə aparıb torpağa tapşırasan. Qırx gündən sonra onu evə, ailəyə bağlayan nə varsa, özün öz əllərinlə məhv eləyəsən. Sən bir ömrə bax, fələk? Qırx gün!..

O yeddi qurbanın yeddisini də kəsmişdilər. Düz yeddi il hər dəfə qurban kəsiləndə anası körpənin qəbri üstə pay gətirmişdi. Düz yeddi il o qəbir – qırx günlük körpənin qəbri əzizlənmişdi. Yeddi ildən sonra isə yavaş-yavaş unudulmuşdu.

Bəs niyə uşaq bu qəbri qardaşınınkı hesab eləyir? Axı dəqiq bilir ki, bu onun qardaşı deyil. Bəlkə qəbrini uçurtmamağı xahiş elədiyi qadın da anası deyil, tamam yad, uzaq bir adamdı. Bəlkə də anasıdı. Axı, bunu necə bilmək olar?

Uşağa bu barədə işarə vursan, onsuz da kövrək olan qəlbinə xal düşəcək. İnanırsa, qoy inansın... Axı həyat elə çoxları üçün yalandı, aldanışdı. İnsan bir şeyə inanıb təsəlli tapa bilirsə, bu özü həyatdı, ömrün, həyatın puçluğuna etirazdı. Qoy necə

Thank you for trying Soda PDF

düşünür, düşünsün, təki bununla təskinlik tapsın, təkliyini, yetimliyini unuda bilsin.

Qəbiristanlığın yuxarı başına keçib çayın sahilinə endi. Uzaqdan baxanda adamın ağlına belə gəlməzdi ki, belə isti, bürkülü yerdən çay axa bilər.

Yazqabağı dağlarda qarlar əriyəndə çay daşar, qəbiristanlığın yuxarı tərəfi suyun altında qalardı. O zaman camaat elliklə tökülüb gələr, çayın sol sahili boyu bənd atardılar. Ancaq gələn yaz sel bəndi təzədən yuyub aparar, qəbiristanlığın yuxarı tərəfi suyun altında qalardı. Yazqabağı suların kükrəyib qalxdığı o çağları xatırlayanda inanmaq olmurdu ki, bu həmin çaydı.

Çayın yatağındakı balaca gölməçələrdə su həddən artıq qızdığından qurbağalar çıxıb sahilin gün tutmayan künclərinə çəkilmişdilər. Qurbağaların dəriləri qupquru qurumuşdu, istiyə, bürküyə, susuzluğa dözə bilmirdilər, günün dönməyini gözləyirdilər ki, suyun istisi çəkilsin, girib dərilərini islatsınlar.

Qalxıb çay aşağı getməyə başladı. Bilirdi ki, bu çay aran düzlərini keçib dolana-dolana, burula-burula gedib Kürə qovuşur. İndi çayın dibinə baxdıqca qurumuş torpaqda səssiz-səssiz axan suyun izini görürdü. İllər uzunu suyun altında qalan bu torpaq indi günəşin hərarətinə dözə bilmirdi.

Çayın yaxasıyla ensiz cığır uzanırdı. Cığırı tutub gedirdi. Qarşıda bir dəstə adam çayın kənarında durmuşdu. Yaxınlaşanda gördü ki, Həlimə qarı qucağında qara-qara daşlar çayın içərisinə düşüb gölməçədəki suyla daşları yuyur. Uşaqları yuxarıda dayanıb ağlaşırdılar.

Həlimə qarı qucağındakı daşları böyrünə yığmışdı. Gölməçənin isti suyunda daşları oxşaya-oxşaya yuyur, sonra tumanının ətəyiylə, əynindən cırıb çıxardığı çit qoftasıyla silirdi. Arvad bu işi elə ehtiyatla görürdü ki, deyirdin oğlunun meyitini yuyur.

Çayın yatağındakı gölməçənin dibi lil olduğundan su bulanmışdı və Həlimə qarı daşları lilli suda yuyurdu.

Dözə bilmədi, üzün çevirib qəbiristanlıq səmtə getdi. Bayaq Həlimə qarını qəbiristanlığın içərisində görmüşdü və qarının qəhqəhələri indi də qulaqlarından çəkilib getmək bilmirdi.

Thank you for trying Soda PDF

Adamlar bayaqkı kimi işləyirdilər. İsti olduğundan tər dabanlarından süzülüb gedirdi. Pal-paltarları suyun içindəydi. Əlləri, sir-sifətləri tərdən, torpaqdan yapışqana dönmüşdü...

... İt ağzında sahibinin kəlləsi təzə qəbiristanlıq yerinə qaçırdı. Bayaqdan bəri bu yolu aşağı-yuxarı o qədər qaçmışdı ki, tamam əldən düşmüşdü. Bir anlığa dincini almaq üçün sümüyü yerə qoyanda dili ağzından bir qarış çıxırdı.

«...Niyə insanlar yaxınlarının, əzizlərinin qəbrinin yol altında qalıb unudulmasına dözə bilmirlər? Axı onsuz da bu köçürülən qəbirlər haçansa unudulacaq, haçansa dağılıb, ovulub torpağa qarışacaq, izi-tozu büsbütün itəcək. Axı, bu dünyanın yaşını hələ heç kəs bilmir... İnsan niyə belə yazıqdı, nə vaxta qədər taleyin əlində oyuncaq olacaq? Nə vaxta qədər insan özünün gücsüzlüyünü, acizliyini dərk eləməyəcək? Nə vaxtacan dərk eləməyəcək ki, o bir heçdi, dünyanın milyon illik yaddaş salnaməsində qum zərrəsindən də kiçikdi. Görəsən, bu qəbiristanlıqda əlləşib vuruşan, doğmalarının qəbirlərini söküb təzə qəbiristanlıq yerinə aparan bu insanlar fikirləşirmi ki, on ildən, on beş ildən, lap uzağı otuz ildən sonra onların da yeri təzə qəbiristanlıqda olacaq, bir vaxt köçürdükləri qəbirlərlə qonşu düşəcəklər. Onların da qəbirlərinin üstündə bu başdaşılarından seçilməyən daşlar olacaq, onların da yanından keçəndə doğum-ölüm tarixlərinə baxıb, ömrün, həyatın puçluğunu, mənasızlığını xatırlayıb başlarını bulayacaqlar...».

Bel-külüng səslərinin ahəngi altında işləyən bu adamların sifətində, çöhrəsində o hissi, duyğunu görmürdü. Geyimi, əyin-başı, sir-sifətləri torpaqdan seçilməyən bu adamlar həyata o qədər bağlıydılar ki, inana bilmirdi, onlar insandı və nə vaxtsa onların ömrünün sonu, nəhayəti olacaq.

Camaatın arasında iyirmi-iyirmi iki yaşlarında bir qız da vardı, geyimindən bura adamına bənzəmirdi, görünür, qəbiristanlıq əhvalatını eşidib yaxınlarından, qohumlarından kiminsə qəbrini köçürmək üçün gəlmişdi. Ancaq qəbirlərin arasında ora-bura vurnuxur, deyən axtardığı başdaşını tapa bilmirdi. Qızın bir suyu ona şirin gəlirdi, elə bil hardasa görmüşdü. Qəfildən yadına düşdü: Sultanzadənin uşaq evindən götürüb saxladığı qız idi. Sultanzadənin evində bu qızın uşaqlığını görmüşdü. Aradan

Thank you for trying Soda PDF

bu qədər vaxt keçsə də, qız boy-buxununda, hərəkətlərində uşaqlıq illərinin cizgilərini qoruyub saxlayırdı.

Qız səhərdən bəri əlindəki balaca çınqılla bir-bir qəbiristanlıqdakı başdaşılarını döyəcləyib sonra qulağını daşa söykəyirdi. Elə bil torpağın altında yatan diriydi, onun başdaşını döyəcləməsini eşidəcəkdi, səsinə səs verəcəkdi.

Qızın hərəkətlərindən hiss olunurdu ki, Sultanzadənin evindən çıxan gündən bəri (o vaxtdan iki il keçirdi) əsl atasını axtarır və qəbiristanlıq yerinə gəlib çıxması onu göstərirdi ki, atasını axtarmaqdan yorulmayıb və tapmasa, qalan bütün ömrünü də bu işə sərf eləyəcək. Ancaq qızın nə üçün anasını deyil, yalnız atasını axtarması sirr idi, bəlkə də özünün taleyində günahkar anasını bilməyindəndi.

«...Görən qızı uşaq evindən götürüb saxlamış, iyirmi il atalıq eləmiş Sultanzadənin vətəninə nə çəkib gətirmişdi. Qız niyə atasını bu qəbiristanlıqda axtarırdı. Nəyə görə ona elə gəlirdi ki, atasının qəbri bu unudulmuş qəbirlərin arasında ola bilər. Bu yuxudamı ayan olmuşdu, ürəyinəmi dammışdı, yoxsa kimsə xəbər vermişdi qıza?.. Qəbirləri dönə-dönə axtarmasından hiss olunur ki, onu dünyaya gətirən insanın sümüklərinin bu qəbiristanlıq yerində olduğuna qəti inanır...».

Səhərdən bəri qəbiristanlıqda böyüklü-kiçikli atasını soruşmadığı adam qalmamışdı. Qabağına çıxana tanıdı-tanımadı:

– Mənim atamın qəbrini tanımırsınız? - deyirdi.

Adamlar başlarını bulayırdılar.

– Bilirsiniz, atam ucaboylu, qarayanız bir adamdı. Qaşının üstündə çapığı vardı. Üzü, gözləri eynən mənimki kimi olub. Özüm neçə dəfə yuxumda görmüşəm.

Qızı tanımayanlar:

– Atanın adı nə idi? - soruşurdular.

– Adını bilmirəm, - deyirdi, - təkcə nişanələrini xatırlayıram. - Qız atasını yuxuda görərkən yadında saxladığı nişanələri sayırdı.

Ancaq gördüm deyən yox idi, heç kəs o nişanədə adam tanıdığını xatırlamırdı.

Qız qəbiristanlıqdakı adamların onun atasını tanımadıqlarını yəqinləşdirəndən sonra daha heç kəsdən heç nə soruş-

madı, təzədən əlindəki çınqılla başdaşılarını döyəcləməyə başladı. Başdaşını döyəcləyəndən sonra qulağını daşa söykəyib dinşəyirdi, ancaq yerin təkindən səs, hənir gəlmirdi. Qəbirlər inadla susurdular. Ancaq qız ruhdan düşmürdü, başdaşılarını döyüb dinşəməkdən yorulmurdu və inanırdı ki, atasının qəbrini tapsa, mütləq torpağın altından onun səsini eşidəcək, atası mütləq ona hay verəcək.

– Get, təzə qəbiristanlıq yerinə də bax, bəlkə atanın qəbri ordadı, köçürüblər. - Bayaq atasının qəbrini soruşduğu qoca, beli bükülmüş kişi dilləndi.

Ancaq qız təzə qəbiristanlıq yerinə getmədi, çünki inanırdı ki, onun atasının qəbri unudulmuş qəbirlərin arasında olmalıdı, atası tək-tənha, kimsəsiz qalmalıdı. Və bu unudulmuş qəbirlərdə yatanların taleyi onun atasının taleyinə bənzəməlidi, ona görə heç cür burdan aralanmaq istəmir, eyni qəbirlərin üstünə dönə-dönə gedir, başdaşını çınqılla döyüb dinşəyirdi.

Sultanzadənin qəbrinə çatanda dayandı. Qız onun öldüyünü bilsə də, qəbrini görməmişdi, ancaq bilirdi ki, Sultanzadə bu qəbristanlıqda basdırılmağını vəsiyyət eləyib. Qız Sultanzadənin qəbrini köçürülməmiş qəbirlər arasında görəndə təəccübləndi, çünki ömrü boyu xeyirxahlıq eləmiş belə bir insanın qəbrinin unudulacağına inanmırdı.

Ancaq qız Sultanzadənin başdaşını döymədi, uzun müddət qəbrin önündə dayanıb durdu, sonra özü də hiss eləmədən qəbrin üstünə çökdü. Qız Sultanzadənin evindən çıxıb getdiyi gündən bu yana iyirmi il ona atalıq eləmiş bu insana qarşı içərisində hansı hisslər gəzdirdiyini özünə də izah eləyə bilmirdi. Bu hisslər nə nifrətə bənzəyirdi, nə də sevgiyə. Burası ona məlum idi ki, Sultanzadəni görmək, onunla üz-üzə gəlmək istəmirdi. Onun varlığını unutmaq istəyirdi, taleyin amansızlığı ucundan həyatına daxil olmuş bu insandan uzaqlaşmaq istəyirdi.

Ancaq indi qəbrini görəndə birdən-birə Sultanzadəyə qəlbində mərhəmət hissi duydu. Ömrünün erkən çağlarını xatırladı. O illəri xatırladı ki, ayağı təzə-təzə yer tuturdu, Sultanzadə hər axşam əlindən tutub dənizin kənarına gəzməyə aparırdı. Kövrəldi, gözləri doldu, ancaq özünü saxlaya bildi, ağlamadı.



Thank you for trying Soda PDF

Qız özünün sadəlövhlüyünə inana bilmirdi. Bu iyirmi ildə Sultanzadənin onun atası olmadığını hiss eləmədiyinə heç cür inana bilmirdi. Bir vaxt qəlbində, varlığında Sultanzadənin tutduğu yer çoxdan boşalmışdı və bu boşluq daha onu ağrıtmırdı.

Bəs niyə kövrəldi, niyə gözləri doldu? Axı niyə, niyə? Və qız birdən-birə dərk elədi ki, Sultanzadəni özündən tamam qova bilməyib, keçmişindən qova bilməyib və bəlkə heç zaman yaddaşından çıxara bilməyəcək...

* * *

Axşam tərəfi qız artıq büsbütün ümidini itirmiş halda bu başdaşından o biri başdaşına yüyürürdü. Bir azdan qəbiristanlığın uçurulacağını bildiyindən tamam başını itirmişdi. Daha bayaqkı kimi dayanıb səbirlə başdaşılarını döyməyə, sonra da qulağını daşa söykəyib dinşəməyə vaxt qalmırdı, eləcə ağzını başdaşına tutub qışqırırdı:

– Ata! Ata!

Qızın səsi daşa dəyib qayıdırdı, əks-səda verirdi, ancaq əbədi yuxuya getmiş qəbirlərdən səs-hənir gəlmirdi; daşlar inadla susurdular. Bu qəbri buraxıb o birinə yüyürürdü, fırfıra kimi qəbirlərin arasında fırlanırdı.

– Ata! Ay ata! Ataaa!!! - Elə qışqırırdı ki, eşidənin tükü ürpəşirdi.

Tanıyan olmasaydı, onu dəli zənn eləyərdi.

Sonra səs birdən-birə kəsildi, qız harasa qeyb oldu.

* * *

İlkindi vaxtı Çolaq Səftər işini qurtarıb köhnə qəbiristanlıq yerinə gəldi. Bütün günü əlləşməkdən it kimi yorulmuş adamlar yerbəyerdən Səftərin üstünə düşdülər.

– Rəhmətliyin oğlu, bu dərinliyində qəbir qazarlar, sən qazmısan? Day meyiti eşib çıxaranacan anadan əmdiyimiz süd

Thank you for trying Soda PDF

burnumuzdan gəldi.Adam bir iş görəndə sonrasını fikirləşməz ki, işdi-şayət yerə quyladığımı çıxarası olsam, neyləməliyəm...

Çolaq Səftər:

– Ə, mən neyniyim, - dedi, - indiyəcən heç olmuşdumu ki, qəbiristanlığı bir yerdən başqa yerə köçürəsən. Ə, Oruc əmi, sənin yaşın doxsanı keçib, heç bu doxsan ildə görmüsənmi ki, qəbiristanlığı köçürsünlər.

– Yox, Səftər, balalarımın canı üçün görməmişəm. Mən o Nikolayın qan-qan deyən vaxtlarını görmüşəm. Kişi gərək sözün düzünü danışsın, onda da belə şeylər yox idi. Atam balası, qəbiristanlığı da köçürərlər...

– Mən bilmirəm, nə deyib köçürürlər axı bu qəbiristanlığı, - geyimindən bura adamına oxşamayan birisi dilləndi.

– Əşi, nə bilim, deyirlər plana düşüb. Bilmirsən ki, Sovet hökumətində hər şey plannandı...

– Necə yəni plana düşüb. Plan bəyəm zənbillə göydənzaddan gəlir? O planı tutan insan döyül? Kağız, qələm onun əlində döyül? Planı tutanda bu yolu qəbiristanlığın böyrüylə, lap bir az aralı çəksə, başına daş düşər onun?

– Ay atam, bunu mənə niyə deyirsən, get hökumət başçılarına de də.

– Hökumət başçıları məni eşidir bəyəm? Bütün bu bəlaları törədən elə hökumətin başında oturanlar döyül? Əgər hansı bir nadan deyibsə ki, qatıq qaradı, qatığın ağ olduğun sübut eləməyə çalışsan, vay sənin halına. Bütün ömrün gedəcək, ancaq adicə bir şeyi sübut eləyə bilməyəcəksən. Rəhmətliyin oğlu, nəyi qoyub nəyi axtarırsan.

– Heç olmasa, camaat yığışıb gedəydi, deyəydi ki, a kişilər, ölülərin ruhuyla oynamaq olmaz. Nə vaxta kimi kabinetdə oturub əmr, göstəriş verəcəksiniz. Bir gəlin bu kəndə baxın, bu kəndin qəbiristanlığına baxın, sonra papağınızı qabağınıza qoyub fikirləşin ki, neyləyirsiniz...

– Boş söhbətdi, - Oruc əmi dedi. - Bir mənim saçlarıma bax, ay oğul, bircə qara tük tapmazsan. Mən dünyanın hər üzünü görmüşəm, fikirləşirdim ki, ahıl adamam, daha məni heç nəylə təəccübləndirmək olmaz. Ancaq demə, səhv eləyirmişəm, yanılırmışam, bu dünyada hər şey olarmış.



Thank you for trying Soda PDF

– Axı bu nə təhər işdi... Yuxarıdan hansısa qərar, ya göstəriş verilir, bir qədər keçəndən sonra məlum olur ki, bu səhvmiş, kökündən yanlışmış, ölkəni uçuruma aparırmış. Mən indiyəcən bir dəfə görməmişəm ki, yuxarıdan ağıllı bir qərar verilsin. Nə vaxta qədər belə olacaq.

– Sənin sözünün qüvvəti, qərar verəndə bir camaatın ağzını arayırlar ki, bəyəm görsünlər onların ürəyincədi, ya yox? Bir fikirləşirlərmi ki, ayə, bu qərarı axı biz daşa, torpağa verməmişik, adamlardan ötrü vermişik, onlar bundan narazıdırlarsa, day onda bu qərar nədən ötrüdü, kimdən ötrüdü...

– Elədi, qardaş, elədi, bax indi bu kənddə ağlı kəsən uşağından tutmuş ahılınacan kimdən soruşsan ki, bu qəbiristanlıq məsələsinə necə baxırsan, hamısı daş atıb başını tutacaq. Çünki haqsız qərardı.

– Haqsız yox ey, vicdansız qərardı...

– Vallah, adam bilmir başını götürüb hara getsin bu dünyadan. Nə ölüyə rahatlıq var, nə diriyə...

Bayaqdan bəri göyün başgicəlləndirən dərinliklərindən mat-mat insanları süzən qartallar uçub getmişdilər. İndi aydın səmada özgə bir canlı gözə dəymirdi.

...Sümsük it ağzında sahibinin sümükləri qəbir çuxurlarının arası ilə qaçırdı. Ağzında tutduğu sümüyü təzə qəbiristanlıq yerində qazdığı çuxura qoyur, təzədən geri qayıdırdı. Nə vaxtdan bəriydi ki, sahibinin sümüklərini bir-bir ağzındaca təzə qəbiristanlıq yerinə daşıyırdı. İt böyür-başında qan-tər içində işləyən adamlara məhəl qoymadan göz qırpımındaca gedib qayıdırdı.

...Bir dəstə adam dövrələmə dayanıb gendən-genə Əlişin xortdayıb çıxdığı qəbir çuxuruna baxırdılar. Adamların baxışlarından sir-sifətlərindən bir-birindən gizləmək istədikləri qorxu boylanırdı. Dövrəsində dayansalar da, heç kəs Əlişin qəbir çuxuruna yaxınlaşmağa cürət eləmirdi. Qəbrin torpağı da, yanı da üstə düşüb qalmış başdaşı da nə isə sirli idi, vahiməliydi.

Əlişin qəbrindən çıxan torpağın üstündə barmaqların yeri aydınca bilinən yalın ayaq izləri vardı və bu ayaq izləri içəridən başlayaraq qəbrin başına dolana-dolana təzədən qəbrin içərisinə qayıdırdı. Hamıya elə gəlirdi ki, Əliş xortdayıb çıxsa da, təzə-



Thank you for trying Soda PDF

dən qayıdıb qəbrin içərisində gizlənib, ona görə də heç kəs yaxınlaşmağa ürək eləmirdi.

Ağzında sahibinin ayaq sümüyü təzə qəbiristanlıq yerinə tələsən it bu mənzərədən durdu, sümüyü yavaşca yerə qoyub qəbir çuxurunun başına toplaşan, üzündə, baxışlarında qorxu, təlaş gəzdirən bu adamlara baxdı, baxdı. Ancaq bir şey anlamadı, təzədən yerə qoyduğu sümüyü ağzına alıb qəbir çuxurunun başına toplaşan adamların yanından sivişib təzə qəbiristanlıq yerinə baş aldı.

Bir az bundan qabaq qəhqəhə səsi qəbiristanlığı başına götürən Həlimə qarı indi qucağındakı daşlara layla çalırdı. Arvad daşın birini götürüb o birini qoyurdu. Qarının səsi su səsi kimi qəbiristanlığın üstüylə axıb keçirdi. Bu səsdə elə bir həzinlik, kövrəklik vardı ki, sanki qarı layla çalmırdı, ağı deyib ağlayırdı.

...İlantutan ovsun oxuya-oxuya qəbiristanlığın içərisilə dolaşırdı. Ağzını çataqlayıb heybə kimi çiyninə atdığı salafan torbalarda ilanlar bir-birinə elə sarmaşmışdılar ki, deyirdin bir baş bir bədəndilər. Daha bayaqkı kimi nazik, tükürpədici səslərlə mələşmirdilər. Üstlərinə şaxıyan günəşin istisindən, ağzı bağlı torbanın havasızlığından tamam solmuşdular. Və ilantutanın son ilanı da yuvasından çıxarmaq üçün oxuduğu ovsun onlara bürkünü də, havasızlığı da unutdurur, dəlicəsinə məst eləyirdi.

İlantutan qəbiristanlığın yuxarı başına çatıb dayandı. Bayaqdan bəri neçə dəfə ovsun oxuya-oxuya qəbiristanlıq yerini fırlanmışdı, ancaq daha ilan gözə dəymirdi. Çiynindəki ilan dolu salafan torbaları yerə qoydu, iri, yastı bir daşın üstündə oturdu. Qolsuz köynəyi tamam su içərisində idi. O baş bu başa fırlanmaqdan tamam yorulub əldən düşmüşdü.

Qəbiristanlığın hər daşına, hər ilan yuvasına bələdiydi; on ildən yuxarıydı ki, hər yayda yoldaşıyla buraya gəlir, ovsun oxuya-oxuya ilanları yuvalarından çıxarıb tuturdu. Ötən yay hansısa ilan yoldaşını kürəyindən çalıb öldürmüşdü. İlan elə hirslə çalmışdı ki, yarımca saat keçməmiş, yoldaşı gözlərinin qabağındaca gömgöy göyərmişdi. Günün günorta çağı gözlə-



Thank you for trying Soda PDF

rinin qabağında solub getməkdə olan yoldaşına baxa-baxa qalmışdı, heç nə eləyə bilməmişdi.

İlk dəfəydi ki, bu qəbiristanlığa təkcə gəlirdi. Yoldaşını ilan çalıb öldürəndən ürəyi peşəsindən sınmışdı. Qəbiristanlığın köçürülməsi xəbərini eşitməsəydi, bəlkə heç gəlməyəcəkdi.

İlantutan özündən xəbərsiz dodaqlarının altında ovsun oxuyurdu. Ovsun oxuyanda hər şey gözlərində dumana bürünürdü, keçmiş-gələcək yaddaşında bir-birinə qarışırdı. İlantutan oxuduqca yüngülləşirdi, yorğunluğu ovsun səsinə qarışaraq hiss olunmadan canından ayrılıb gedirdi.

Bir də başını qaldırdı ki, bir cüt körpə ilan balası gəlib ayaqlarının altındaca durub. İlan balalarının xırda gözləri elə duru, elə təmiz idi ki, onlara yazığı gəldi. Ovsun səsindən ağıllarını itirmişdilər, o səsdən savayı heç nə eşitmirdilər. Səsini kəsdi ki, bəlkə ilan balaları özünə gələ, çıxıb gedə. Ancaq ovsundan xumarlanmış ilan balaları xırda, duru gözlərini ona dikib dururdular.

Bir xeyli beləcə gözlərini körpə ilanların gözlərindən çəkmədən dayanıb baxdı. Sonra qalxıb salafan torbaları çiyninə aşırdı, yola tərəf baş aldı.

Hava isti olsa da, çiynindəki salafan torbalara yığdığı ilanlar soyuq idi və bu soyuqluğu qanında, damarlarında hiss eləyirdi.

On-on beş addım atmamış dönüb arxaya baxdı; ilan balaları sürünə-sürünə ardınca gəlirdi. İlanları azdırmaq üçün addımlarını yeyinlətdi. Ta şəhərə gedən daş yola çıxana qədər arxaya çevrilmədi.

* * *

...Buldozerçi çevrilib qəbiristanlıq boyu gəldiyi yola boylandı. Bilirdi ki, bu qəbirlərə, qəbir daşları üzərindəki yazılara sonuncu dəfə baxır, bilirdi ki, bu qəbirlərdən həmişəlik ayrılır və bir az sonra bu qəbirlər yerlə-yeksan olacaq, bir az sonra bu unudulmuş adamları yer üzünə bağlayan son izlər, son nişanələr büsbütün silinəcək.

Thank you for trying Soda PDF

«...Qəbirlər də insanlar kimiymiş, onların da yetimi, yiyəsizi varmış, atalı-analısı varmış, xoşbəxti-bədbəxti varmış». - Çala-çala çuxurların arasında dikələn başdaşılarına baxa-baxa düşünürdü.

Hava cəhənnəm kimi istiydi. Gün vurduqca əlləşməkdən sızıldayan sür-sümüyü yumşalır, dəli bir mürgü gözlərində, bəbəklərində oynayırdı. Bel-külüng səsləri çox uzaqdan gəlirdi ona. Və bu səs sehrmiş, ovsunmuş kimi yaddaşında olan hər şeyi qovub çıxarırdı. Başının altına bir daş parçası qoyub uzandı.

Lap yaxınlıqda qəbir yeri qazırdılar. Səsini tanımadığı birisi danışır, o biri qaza-qaza qulaq asırdı.

– Hə, onu deyirdim axı, dünən gecə rəhmətlik gəlmişdi yuxuma, deyirdi, ay oğul, bu qəbri köçürəndə bəs baxmadın ki, saqqalımı götürmüsən, ya yox? Çaş-baş qaldım, bilmədim nə cavab verəm. Dedi, ay oğul, məni bu ahıl çağımda xəcalət eləmə, ayıbdı, saqqalsız adam arasına çıxa bilmirəm, gör harda qoymusan mənim saqqalımı, tap gəlir. Səhər gəlib qəbir yerini ələk-vələk eləmişəm, çürük kəfən əskisindən başqa gözümə heç nə dəyməyib. Fikirləşdim ki, orda saqqalmı tapmaq olar, on il bundan qabaq qoyulubdu torpağa. Dedim, kişinin ruhu tutar uşaqları, gedim Molla Məhəmmədə bir Quran oxudum. Ancaq elə həmin gecə kişi yenə gəlib girdi yuxuma və bu dəfə dişinin dibindən çıxanı dedi mənə. Dedi, sənə söz tapşırmışam, iş buyurmuşam ki, yerinə yetirəsən, day deməmişəm ki, yersiz yerə ruhuma dua oxutdurasan. Dözəmmədim, obaşdannan bir də gəlib qəbir yerini tökübtöküşdürdüm. Saqqalı topasıynan yuxuda kişinin nişan verdiyi səmtdən tapmışam. İndi bu hadisədən sonra yuxum büsbütün çəkilib, heç cür özümü ələ alıb rahatlıq tapammıram, az qalıram dəli olam. Bunu mənə bir başqası danışsaydı, ələ salardım, gerçəkdən güman eləyərdim ki, yəqin başı xarab olub, ağlı üstündə deyil. Ancaq bədbəxtlikdən bu əhvalat öz başıma gəlib...

– Cəfərə xəbər eləyəmmədik, gəlib anasının qəbrinə yiyə dursun. Qayıdıb qəbiristanlığı yerlə-yeksan görsə dəli olacaq yazıq. Day neynim, bir həftə bundan irəli vurduğum teleqrama cavab alammadım. Srağagün gedib təzədən zəng eləmişəm Ba-

kıya, iş yerinə, deyiblər hansı şəhərəsə ay yarımlıq məzuniyyətə gedib. Qalmışam odla su arasında. Bir anasının qəbrinə görə bizləri yad eləyirdi, qəbir itəndən sonra ayağı tamam yığılar buralardan.

– Heç olmasa, təzə qəbirləri köçürəydik gərək. Eləsi var ki, hələ meyiti soyumayıb...

– Əşi, birdi, ikidi, hansını köçürəsən...

– Sultanzadənin qəbrinə nə deyirsən, ona ki, gücümüz çatardı. Axı, bir vaxt gələcək, bunu eləmədiyimiz üçün başımıza döyəcəyik.

– Vallah, mənə qalsa, bu işi boynuma götürərdim, nə çətin şeydi ki, iki nəfər cavanla bir təhər yoluna qoyardım, ancaq məni yandıran budur ki, bu bədbəxtin qohum-əqrəbalarından bircə nəfərin yadına düşmür ki, qəbiristanlıqda belə adamları var.

– Sənin sözünün qüvvəti, neçə gündür ki, söhbət qalxandan qəbiristanlıqdayam, Sultanzadənin qohum-əqrəbalarından bircə nəfəri görməmişəm bu tərəflərdə...

– Hələ Umuxanımın ərinə nə deyəsən? Oğlanları istəyiblər ki, analarının qəbrini köçürələr, ataları qoymayıb, deyib ki, çəkilin oturun yerinizdə, sizin ananız qəhbə olub, belə adamın gərək izi-tozu da qalmasın, qoyun versinlər buldozerin ağzına. Əşi, nə olub-olub da bu köpəyoğlunun qızı. Uşağa da anası haqqında elə söz deyərlərmi?..

– Eşitməmisiniz ki, Faiq müəllimin arvadı nə oyun çıxarıb? O günü bir vaxt dərs dediyi şagirdlərindən beş-altı nəfər gəlibmiş. İstəyiblər qəbri söküb təzə qəbiristanlıq yerinə köçürsünlər. Arvadı eşidib başı lovlu abırlarını verib. «Faiq müəllimin arvadı, uşağı, qardaşları dura-dura siz haranın itisiniz, – deyib, köçürərlər də özləri bilərlər, köçürməzlər də». Yazıqlar da kor-peşman qayıdıblar geri. Bəs, buna nə deyəsən?

Birdən gördülər ki, çılpaq, belinə kəfən dolamış, bəribədəni ağappaq tük içərisində olan bir adam onlara tərəf gəlir. Elə heybətli görünüşü vardı ki, adamlar qeyri-ixtiyari əl saxladılar, nəfəslərini çəkmədən donub yerlərindəcə qaldılar. Ancaq bədəni başdan-başa tük gətirmiş bu eybəcər vücud onlara

Thank you for trying Soda PDF

tərəf gəlirdi. Bircə anda adamlar işindən ayrılıb bir yerə toplaşdılar.

Ağ tüklü vücud da dayandı.

Heç kəs danışa bilmirdi, elə bil hamının dili birdən-birə lal olmuşdu.

Ağ tüklü vücud:

– Mən Əlişəm, - dedi, - dirilib gəlmişəm...

Adamların üstündən elə bil qorxu küləyi əsib keçdi, kütlə əsməcəyə tutulubmuş kimi titrəməyə başladı. Ancaq heç kəs dillənə bilmədi.

Əliş:

– Niyə belə qanlı-qanlı baxırsınız? - dedi. - Yoxsa tanımadınız məni?..

Qəfildən gözləri adamların arasında Bəkiri aldı. Əlişin ömrünün yarıdan çoxu Bəkirnən bir yerdə keçmişdi və indi Əliş Bəkiri əsməcə tutan kütlənin içərisində görəndə giləsi ağarmış gözlərinə işıq gəldi. Sevindi ki, heç olmasa, Bəkir adamları onun dirilib gəldiyinə, Əliş olduğuna inandıracaq.

– Bəkir! - dedi və yerindən qopub ixtiyarsız Bəkirə sarı yeridi. Bir-iki addım atmamışdı ki, bayaq Bəkirin ürəyi gedib tirtap yerə uzandı, başı kəsilmiş heyvan kimi çabalamağa başladı.

Əlişin üzündəki işıq qeyb oldu. Hələ də əsim-əsim əsən kütlənin içərisindən kimsə özünü ələ alıb:

– Rədd ol burdan, - dedi, - xortdamısan sən... Bu saat çıxıb getməsən, öldürəcəyik səni.

Ölüm adı gələndə Əlişin qolundakı güllə yarasının yeri göynədi:

– Siz allah, mənə toxunmayın, qoyun gəlim, girim öz qəbrimə, - dedi. - Vallah, xortdamamışam mən. Gecə qəbrimi qazıb üzüyümü, qızıl dişlərimi oğurlamaq istəyirdilər. Diri olduğumu görüb qaçıb getdilər. Mən sətəlcəm olmuşam, ölmüş bilib gətirib dəfn eləmisiniz...

Yerbəyerdən:

– Yalan deyirsən, xortdamısan sən. Bir həftə qəbirdə sağ qalmaq olmaz, - qışqırışdılar.

Kimsə:



Thank you for trying Soda PDF

– Öldürməsək, bir xata çıxarar bu, - dedi, - nə durmusunuz...

Camaat daş-kəsəyə cumdu. Əliş üstünə yağdırılan daş zərbələrindən güclə qaçıb qurtardı. Ancaq heç kəs dalınca yüyürməyə ürək eləmədi.

* * *

Əliş daş-kəsək zərbələrindən qaçıb qurtararaq çayı keçdi, sahil boyu uzanıb gedən xırda təpəciklərin arxasında görünməz oldu. Nəfəsini dərmək, bir azca toxtamaq üçün yerə çökdü. Sinəsindən tər su kimi axıb gedirdi. Əliş yalnız indicə, səhər açılandan bəri ilk dəfə havanın bürkü olduğunu hiss elədi. Əynində heç nə yox idi, belinə doladığı kəfən də hardasa düşüb qalmışdı. «Bəs niyə isti onu belə yandırır. Elə bil ki, yayın cırhacırında yun paltara bürünüb». Elə bil özünü indicə gördü: bədəni gözlərinin içinəcən ağappaq tük gətirmişdi. «...Xortdayıb, vəssəlam! Bu insan rəngidimi, insan sifətidimi? Özü-özündən qorxursa, başqaları neyləsin? Bir də axı, insan olsaydı, yemək yeyərdi, yemək istəyərdi. Basdırıldığı gündən gör bir nə qədər vaxt keçir, ac-susuz dolanır, yemək-içmək yadına belə düşmür... Elə buna görə də adamlar heç bircə sözünə də qulaq asmaq istəmədilər. Sən bir işə bax, Bəkir, onunla bir yerdə böyümüş Bəkir də qorxub özündən getdi... Xortlayıb... Başqa cür ola bilməz. Yoxsa, niyə onu görən kimi bu qədər adamı əsməcə tutdu?.. Adam görməmişdilərmi? Lap olsun ki, onu tanımadılar, bəs niyə görən kimi işlərini buraxıb bir yerə yığışdılar. Görünür, o dərəcədə qorxuncdu, heybətlidi ki, adamlar ondan üşənir...».

Əlişin yaddaşında hər şey bir-birinə qarışmışdı və bu qarmaqarışıqlıq içərisində iynə ulduzu boyda işıq, aydınlıq görünmürdü. Əliş özü özündən qorxurdu, hövllənirdi, özündən qaçmaq istəyirdi, ona dəhşətli gələn bu əzablardan biryolluq qurtarmaq istəyirdi.

Belə fikirləşə-fikirləşə xışıltı səsinə arxaya döndü. Arxaya çevrilməyiylə gözünə dəyən havaya qalxmış bel tiyəsi oldu. Dərhal sıçrayıb qalxdı. Tanımadığı iri cüssəli adam bel

tiyəsi başının üstündə quruyub qaldı. İri cüssəli adam Əlişin giləsi ağarmış gözlərinə tuş gələn kimi əsməcəsi tutdu və başının üstünə qaldırdığı bel tutan əlləri boşaldı. Əlişin gözlərinin qabağındaca uşaq kimi tir-tir titrəməyə başladı.

Əliş heç nə deməyib yovşanlı düzənliyin içərilərinə doğru getdi. Bir xeyli gedib dayandı, çevrilib arxaya baxdı. Onu öldürmək istəyən iri cüssəli adam başının üstündə bel tiyəsi hələ də tir-tir titrəyirdi.

* * *

– Ay oğul, səni bura göndərənə bir demisənmi, ay belə-belə olmuşun doğduğu, heç bir vicdanın, qeyrətin varmı ki, yolu burdan çəkirsən? Bir neylədiyini fikirləşirsənmi, ölüb yerə girirsənmi? Soruşmusanmı ki, ay allahın kor bəndəsi, dünyanı tutub duracaqsanmı, bir gün sən də bu cəmi məxluqat kimi ölməyəcəksənmi? Onda heç sənin cəmdəyinə tüpürməyəcəklər...

O dinmədi, cavab verməyə söz tapmadı, gözlədi ki, qoca çıxıb getsin, çünki heç bir şey eşitmək istəmirdi, yaddaşında indiyəcən eşitmədiyi cürbəcür səslər bir-birinə qarışmışdı. Hər şeydən, hər şeydən qaçmaq istəyirdi.

– Ay oğul... - sözün ardını eşitmədi, qulaqlarında dəhşətli bir uğultu başladı. Bu uğultu hansısa bir dibsiz dərinlikdən gəlir, daş səslərinə, külüng səslərinə qarışaraq böyüyürdü. Bu uğultuyla müqayisədə insan səsləri, böyür-başındakıların danışıqları pıçıltı kimi gəlirdi ona.

Uğultudan xilas olmaq üçün adamlardan aralanıb yovşanlı düzə tərəf qaçmağa başladı.

Bayaqdan bəri ara vermədən danışan qoca:

– Ə, buna nə oldu, niyə belə elədi bu?

Ona cavab verən olmadı, hamı buldozerçinin arxasınca baxırdı. O isə qulaqlarında böyüyən, içinə, varlığına sığmayan səsdən canını qurtarmaq üçün qaçırdı. Səs isə azalmaq, öləzimək bilmir, uğultudan beyni çatlayırdı.

Sonra gördü ki, daha qaça bilmir, ayaqları torpaqdan aralanmır, uğultu o dərəcədə güclüydü ki, bütün varlığını sarsı-



Thank you for trying Soda PDF

dırdı. Yerə uzandı, istidən, bürküdən qovurğa kimi olmuş torpağı qucaqladı. Səs elə güclüydü ki, dəli olurdu. O üz-bu üzə çevrilir, əlləri, barmaqlarıyla torpağı eşib tökür, çabalayırdı. Səs isə böyüyür, böyüyürdü.

Sonra heç bilmədi ki, nə vaxt huşunu itirdi.

Özünə gələndə ilk duyduğu qoxu yovşan ətri oldu. Baxdı ki, bayaqdan bəri başını yovşan topasının üstünə qoyub uzanıb. aradan nə qədər keçdiyini bilmirdi. Başını qaldırıb göy üzünə baxdı, gün xeyli əyilmişdi. Uzaqdan qəbiristanlıq yerindəki adamlar qarışqa kimi görünürdülər. Bu qədər yolu qaça-qaça gəldiyinə özü də heyrət elədi.

Ayaqlarına baxdı, ayaqqabıları yoxdu, hardasa düşüb qalmışdı. Bayaq varlığını sarsıdan o uğultu o qədər güclüydü ki, ayaqqabılarının harda düşüb qalmasından xəbəri belə olmamışdı.

Ləpirlərini tutub qayıtmağa başladı. Bayaqkı gurultu qulaqlarından çəkilib getmişdi, canında, varlığında qəribə bir yüngüllük duyurdu. Neçə gündən bəri ona kimliyini belə unutduran bu gözlənilməz əhvalatlar nağıl kimi gəlirdi. Elə bil gördükləri, eşitdikləri olmamışdı, bunları hardansa kimdənsə eşitmişdi. Ancaq yox. Yaxınlaşdıqca böyüyən, aydınlaşan qəbir daşları, qəbir daşlarının arasında tələsə-tələsə, təntiyə-təntiyə işləyən insan qaraltıları onu təzədən sərt, amansız həyata qaytarır, yaddaşını təzələyirdi.

Qəbiristanlığa gəlib çatanda günəş bir az əyilmişdi. Adamlar bir az tələsə-tələsə işləyirdilər. Xeyli aralıdakı alçaq dikdirin üstünə çıxıb qəbiristanlıq yerinə göz gəzdirdi. Bayaq qoyub getdiyi adamların hamısı yerindydi, hələ də nəfəslərini dərmədən işləyirdilər. Sümsük it bayaqkı kimi sahibinin sümüklərini təzə qəbiristanlıq yerinə daşıyırdı. Həlimə qarı adamlardan ayrılıb bir tərəfdə oturmuşdu, oğlunun qəbrindən çıxan daşları qabağına qoyub layla çalırdı. Uşaqları analarından bir qədər aralı ayaq üstə durub ağlayırdılar. Arvad heç kəsi yaxına buraxmırdı.

– Rədd olun burdan, - deyirdi, - səhərdən başımı-beynimi aparmısınız.

Uşaqlar isə analarını tək qoyub getmək istəmirdilər.

Uşaqlar bilirdilər ki, arvadı bir yolla inandırıb daşları əlindən ala bilməsələr, arvad evə qayıtmayacaq, gecəli-gündüzlü bu qəbiristanlıqda qalacaq. Arvad isə uşaqlarının bircə sözünə belə inanmır, onları heç cür yaxına buraxmaq istəmirdi.

Həlimə qarının böyük qızı Sona anasına sarı yeridi. Arvad özünü daşların üstünə yıxdı:

– Qoymaram, - dedi, - yaxın gələsiniz.

Arvadın üzünün-gözünün yaşı toz-torpağa bulanıb ona eybəcər bir görkəm vermişdi. Kəlağayısı sürüşüb boynundan düşmüşdü, çal saçları çılpaq çiyinlərinə səpələnmişdi. Oğlunun qəbrindən çıxan bu qara daşlardan savayı heç nəyi görmürdü, görmək istəmirdi...

Həlimə qarı qara daşların üstündə uzanıb qalmışdı. Qaragünlü Sona anasının bu halına dözməyib yaxınlaşdı, əyilib onu qara daşlardan ayırmaq istədi, ancaq nə illah elədisə arvadı yerindən tərpədə bilmədi.

Həlimə qarı eləcə üzü üstə torpağa uzanıb qalmışdı, dinmirdi, danışmırdı, qarğımırdı. Sona bir də anasını daşlardan qoparmaq istədi, ancaq gücü çatmadı. O biri uşaqlar köməyə gəldilər. Anasını yerdən aralayıb arxası üstə çevirdilər. Cəmi bircə dəqiqə əvvəl özünü daşların üstünə yıxan arvad indi quruyub ağaca dönmüşdü. Daşların ikisi arvadın bükülü qolları arasında qalmışdı. Nə illah elədilərsə, arvadın qollarını aralayıb o daşları çıxara bilmədilər.

Həlimə qarı elə bil ölmüşdü, bütün bədəni günün cırhacırında buz kimi soyuq idi. Ancaq təkcə arvadın gözləri danışırdı. Gözlərinə baxanda hiss eləyirdin ki, arvad ölməyib yaşayır. Gözlər qəribə tərzdə sağa-sola hərəkət eləyir, elə bil hədəqəsindən çıxmaq istəyirdi.

Arvadın kürəyini torpağa söykəyib oturtmaq istədilər, ancaq bədəni quruyub ağaca döndüyündən nə illah elədilərsə, əyilmədi ki, əyilmədi.

Gözlər yerində işlədiyindən arvadın sifəti rəng verib rəng alırdı, baxan kimi bilinirdi ki, danışmaq istəyir, ancaq dili tutulduğundan gözləri ilə nə isə demək, anlatmaq istəyir.

Thank you for trying Soda PDF

Uşaqlar anasının bu halına dözməyib ağlayırdılar. Təkcə Sona ağlamırdı. Gözlərini anasının gözlərinə dikib durmuşdu. Anasının nə istədiyini gözlərindən oxumaq istəyirdi.

– Kiriyin, - dedi, - bəsdirin uşaq kimi göz yaşı tökdüyünüz, qoyun görüm arvad nə istəyir.

Uşaqlar xırp səslərini kəsdilər.

Sona təzədən anasına tərəf əyilib gözlərini onun gözlərinə dikdi. Arvadın gözlərinə qan gəlirdi və qan gəldikcə bəbəkləri daha ehtirasla yerində oynayırdı.

Anasının qollarını ovxalamağa başladı, ancaq arvadın bədəni yumşalmaq bilmirdi, daş kimiydi, əl vurduqca gərilirdi. Damarları şişib qaralmışdı.

– Ana, ana, nə istəyirsən, bircə dillənsənə... - Sona göz yaşı içərisində soruşurdu.

Həlimə qarı dillənmək üçün gücünü toplayır, ancaq danışammırdı, əvəzində gözlərinə bir az da qan sağılırdı.

Sonanı hıçqırıq boğdu.

– Ana, ay ana... - dedi və içərisinə axan göz yaşından sözünün dalını gətirəmmədi.

Arvadın gözlərinə yenə qan sağıldı.

Sona qızların kiçiyinə dönüb:

«– Qaç çaydan su gətir», - dedi.

Qız çaya tərəf götürüldü.

Arvadın gözləri qandan sulanmışdı, baxmaq olmurdu. Sona hiss elədi ki, anası daha onu görmür.

Qızlara tərəf dönüb:

– Götürün evə aparaq, - dedi.

Sona anasının qollarından, o biri qızlar ayaqlarından tutdular. Ancaq qaldıra bilmədilər, arvadın quruyub ağaca dönmüş bədəni elə bil ikiqat ağırlaşmışdı.

– Dayanın, daşları qollarının arasından çıxaraq. - Bunu Sona dedi.

Hərəsi bir tərəfdən arvadın qollarını aralayıb daşları çıxarmaq istədilər. Ancaq ha əlləşdilərsə, arvadın qollarını aralaya bilmədilər.

Sona birdən anasının gözlərinə baxdı. Anasının qandan bulanmış gözləri böyümüş, eybəcər bir hala düşmüşdü. Uşaqlarının



Thank you for trying Soda PDF

ikisi arvadın qollarını tutdular. Sona birtəhər daşları anasının qucağından çıxardı.

Bundan sonra arvadı yerdən aralamaq istədilər. Ancaq Sona gözlərini anasının gözlərindən çəkə bilmirdi.

– Dayanın, - dedi, bir az gözləyin.

Kiçik qız bir şüşə su ilə qaça-qaça özünü yetirdi. Sona suyu alıb anasının üzünü islatdı, boyun-boğazını islatdı. Sonra arvadın gözlərinə baxdı. Arvadın gözləri tanınmaz dərəcədə böyümüşdü. Sona anasının gözlərinə baxa-baxa birdəncə başa düşdü ki, bu gözlər heç vaxt öz əvvəlki təravətinə qayıtmayacaq, bu gözlər heç vaxt durulmayacaq.

Gözlər böyüyürdü.

Uşaqlar lal-dinməz dayanıb anasının gözlərinə baxırdılar. Heç biri danışmaq, dillənmək istəmirdi, eləcə gözləyirdilər ki, bu işin axırı nə ilə qurtaracaq.

Birdən arvadın gözlərinin ikisi də pırtlayıb yerindən çıxdı, ayaqlarından bir qədər aralı düşərək torpağa bulaşdı.

Hamısı birdən qiyyə çəkdi. Gözlərin pırtlayıb çıxmağıyla arvadın bədəni boşaldı.

Sona qara yaylığını başından çıxarıb anasının gözlərini bağladı. Arvadın meyitini götürüb ağlaşa-ağlaşa evə tərəf yönəldilər.

* * *

İşləyə-işləyə qarğış eləyirdilər. Köhnə, quzulamış başdaşılarını çıxarıb necə gəldi tökürdülər.

Qulaqları dumanlı şəkildə bu qarğış səslərini eşidirdi, ancaq nə deyildiyini, kimin ünvanına söylənildiyini ayırd eləyə bilmirdi. Səslər hayandansa, çox uzaqdan gəlirdi, adamlar da uzaqlığın toranında seçilmirdi. Əlləri, qolları, sir-sifətləri boz rəngdəydi, heç adama da bənzəmirdilər, boz-boz kölgələr idilər. Və bu kölgələr hərəkət eləyirdilər, yerlərini dəyişirdilər. Kölgələrin biri ona sarı gəlirdi. Hərəkət elədikcə böyüyür, əli-qolu, üzü-gözü aydınlaşırdı. Ancaq addım-addım ona yaxınlaşan kölgənin çox qəribə, qorxunc yerişi vardı, elə bil insan deyildi, nə isə başqa bir canlı idi.

Onda gördü ki, dəmir kimi möhkəm iri barmaqlar xirtdəyindən yapışdı. Xırıldadı. Gözləri böyüyüb yumurta boyda oldu. Böyümüş gözlərilə dönüb barmaqların sahibinə baxdı. «...Dəyirmançı Xıdır döyüldümü? Ancaq gərək ki, dəyirmançı ölmüş olsun. Özüydü ki, durmuşdu». İstədi desin, ə, Xıdır, məni niyə boğursan? Sənə neyləmişəm? Sənnən qabaq-qənşər oturub bir pud çörək kəsmişik. Kişinin çörəyi dizinin üstündəmi olar... Ancaq gördü ki, hulqumu Xıdırın barmaqları arasındadı, istəsə də dillənə bilməyəcək. Bununla belə mütləq bir şey deməlidi, çünki dəyirmançının dağ boyda skeletinin mismar barmaqlarından yaxa qurtarmaq üçün bir söz demək lazımdı. Gördü dillənə bilməyəcək, var qüvvəsini toplayıb aşağıdan-yuxarı Xıdırın çənəsinin altından bir yumruq ilişdirdi. Bayaq Xıdırın kəlləsi bədənindən üzülüb daşlığa düşdü, üzü aşağı dığırlandı. Xıdırın cər-cəsədi də yıxılıb dağım-dağım oldu. Ancaq baxdı ki, Xıdırın əlləri qopub qalıb hulqumunda, boğur onu. İlahi, əllərdə, barmaqlarda bu qədər qüvvəmi olardı? Xıdırın çənəsinə ilişdirdiyi yumruğu yaman ağrıyırdı. Ağrıya tab gətirməyib inildədi.

– Əmi, ay əmi!

Qulağı bu səsi çaldı. Yuxuyla oyaqlığın arasındaydı. Deyəsən, onu səsləyirdilər. Handan-hana gözlərini açdı; bayaqkı uşaq idi, qəbir daşlarının arasında bitib durmuşdu. Uşaq onun əlinə işarə elədi. Barmaqlarının arasını qan örtmüşdü. Bayaq yuxusunda Xıdırın çənəsinə çaldığı yumruğu daşa dəyib yaralanmışdı... Və birdən hiss elədi ki, indicə yuxu görürdü və onu boğurdular. Əlləri ilə boğazını ovxalayıb yoxladı. Bunun yuxu olduğuna inanmağı da gəlirdi, inanmamağı da. Və doğrudan da Xıdırın skelet barmaqlarının qüvvəsini xirtdəyinin üstündə hiss eləyirdi. Hiss elədikcə də elə bil nəfəsi tıxçanırdı, boğulmağı gəlirdi.

...Sümsük it təzə qəbiristanlıq yerində sahibini basdırdığı qəbirin yaş torpağı üstündə oturub ac-ac ulayırdı. Elə bil ulayan it deyildi, qışın zəlov-zəlovunda dünyayla tək qalmış ac, həris yalquzaq idi. İtin ulartısı bir səs mənzilini aşıb dörd yan kənd-kəsəyəcən gedib çıxırdı. Bu ulaş səsində insanın içərisini doğram-doğram eləyən, ölüm kimi ruhunu, varlığını sarsıdan nə

Thank you for trying Soda PDF

isə əbədi, gizli bir qüvvə vardı. Bu səsi eşidən özünə acıyırdı, ağlı-idrakı olduğuna, daş-torpaq deyil, insan doğulduğuna acıyırdı.

Ayağa qalxıb qəbiristanlığın içilə üzü aşağı addımladı. Uzaqdan baxanda rəngi-ruhuyla, boyu-qamətiylə bomboz başdaşılarından seçilmirdi, hərəkət eləməsəydi, uzaqdan baxan onu da başdaşı hesab eləyərdi. Təzə qəbirlərin əksəriyyəti köçürülmüşdü, başdaşılarının yerində əcayib çuxurlar qalmışdı. Çürük kəfən qırıqlarıyla dolu bu çuxurlara baxdıqca vahimə bürüyürdü onu.

Qaş qaralırdı. Axşam toranı özüylə vahimə gətirirdi. Qəbiristanlığın yuxarısındakı Babalı bağında ağaclar bir az da hündürdən pıçıldaşmağa başlamışdılar. Kəndə yuxu kimi, ölüm kimi qaçılmaz bir qaranlıq çökürdü. Sanki qaranlıq Babalı bağının keçilməz pöhrəliklərindən başlayır, qəbiristanlığın üstündən adlayaraq kəndə yayılır, sonra bütün dünyanı bürüyürdü. Unudulmuş qəbirlərin arasında dayanıb həvəssiz-həvəssiz ətrafa çökən qaranlığa tamaşa eləyirdi. Axşamın gətirdiyi sirli qəriblik dünyanın üstüylə keçib gedirdi.

Qaranlığın düşməsiylə itlər hürüşməyə başlamışdı.

«Qəbiristanlıq uçurulanda gör bir nə qədər insanın ömür tarixçəsinə son qoyulacaq. Gör bir nə qədər insanı bu ulu dünyaya bağlayan son ilmə qırılacaq. Qəribəydi, bu adamlar ən çox ölümləriylə yadda qalmışdılar. Bu adamların həyatında başqaları üçün ən maraqlı ölümləri idi».

* * *

Axşamın belə erkən düşməyi onu qorxutdu. Böyür-başına nəzər saldı. Qu desən qulaq tutulardı. Qəbiristanlıqdan əl-ayaq yığışmışdı. Adamların çıxıb getməyindən, qəbiristanlığın büsbütün boşalmağından xəbəri olmamışdı. Birdən qulağına zəif xışıltı səsi dəydi. Üşəndi, tükləri biz-biz oldu, amma özünü toplayıb yavaş-yavaş səs gələn tərəfə addımladı. Səs deyəsən qəbir çuxurundan gəlirdi. Yaxınlaşdı. Uzun tükləri yer süpürən əcayib bir heyvan idi. Tüklü pəncələrində tutduğu insan sümü-

Thank you for buying Soda PDF

yünü gəmirirdi. Qəbir təzəydi, xeyli qazmışdılar, ancaq iş yarımçıq qalmışdı.

Goreşənin həssas qulaqları insan həniri duyduğundan ağzındakı tikəni yerə saldı və başını qaldırıb həris gözlərlə qarşısındakını pis-pis süzdü. Ancaq qarşısındakının duruşunda nə isə hiss elədiyindənmi, yoxsa ağzında insan əti çeynədiyindənmi, nədənsə ona məhəl qoymadı. Və təzədən ağzından saldığı sümük parçasını tüklü pəncələrilə sıxıb gəmirməyə başladı. Goreşən çeynədikcə əti ürpəşirdi. Qəbirdən qalxan boğucu üfunətdənmi, insan barmaqlarının gözünün qarşısında çeynənməyindənmi, ürəyi qalxdı. Öyüdü. Bu gün dilinə sudan savayı bir şey vurmamışdı. Gömgöy sarfa qusdu. Ancaq qusmaqla öyüməyi kəsmədi. Öyüdükcə öyüyürdü. Sanki yarandığı gündən bəri nə yemişdisə, hamısını qaytaracaqdı. Və yedikləri ilə birlikdə içi-içalatı da ağzından çıxıb tökülmək istəyirdi.

Handan-hana özünə gəlib bir daşın üstündə oturdu. Taqətsizlikdən oturduğu yerdə güclə duruş gətirirdi. Ağzının, burnunun, gözlərinin suyu bir-birinə qarışmışdı. Goreşən öz işində idi. Bu əcayib heyvana sarı baxmaq istəmirdi, baxsaydı yenidən öyümə tutacaqdı onu.

– Əmi, ay əmi! - uşaq hönkürə-hönkürə yalvarırdı, - qoyma, ay əmi, anamı goreşən yeyir, - gəl qoyma, ay əmi.

Bu uşaq kim idi, ilahi! Gah peyda olurdu, gah da qeybə çəkilirdi. Ancaq uşaq nə isə ona doğma gəlirdi. Doğma?! Onun dünyada doğma adamı vardımı? Bəlkə... Hardasa varıydı... ancaq tanımırdı. Bəlkə də atasıyla, anasıyla, qeyri doğmalarıyla min dəfə, milyon dəfə üz-üzə gəlmişdi.

Hərdən anası yuxularına gəlirdi. Hər dəfə də eyni simada, eyni boy-buxunda. Anasının mixəyi saçları, mavi gözləri vardı. Oyananda az qala dəli olurdu. Üzünü görmədiyi bir adam necə yuxularına gəlirdi? Əvvəllər hər dəfə belə yuxulardan sonra şəhərin gur yerində dayanıb gəlib-gedənlərə baxardı. Bu saysız-hesabsız adamların içərisində bir vaxt anasını tapacağına inanırdı.

Anası yuxularında yad bir kişinin qoluna girib harasa gedirdi. Və qolunu o yad kişinin qolundan çəkmədən baxıb əl eləyirdi, gülümsəyirdi. Ona elə gəlirdi ki, üzünü görmədiyi

anası yuxularına gəlirsə, o da mütləq anasının yuxusuna girir. O, anasını necə axtarırsa, anası da onu eləcə axtarır. Hər dəfə anasını yuxuda görəndə istəyirdi onunla vədələşib görüşsün, ancaq hər dəfə də bunu unudurdu, nədənsə. Ancaq bir dəfə anası ona görüş vəd elədi. Uzaqdan-uzağa o yad kişinin qoltuğunda gedə-gedə: «Sabah bazarın qabağına gələrsən, - dedi, - gözləyəcəyəm orda səni». Nə isə demək istədi, amma anası tutqun kölgəyə dönüb havaya qarışdı.

Səhər anasının dediyi vaxtda bazarın qabağına gəldi. Bir tərəfə çəkilib gözləməyə başladı. Tələsə-tələsə keçib gedən adamların arasında anasını axtarırdı. Ürəyinə dammışdı ki, anası mütləq gələcək. Ancaq vaxt ötür, gəlib çıxmaq bilmirdi.

Fəhmlə duymuşdu ki, anası adamların arasıyla onu izləyə-izləyə çıxıb gedir. Eynən yuxularındakı kimi yad kişinin qoluna girmişdi. Yerindən qopub dəli kimi özünü camaata vurmuşdu. Qadın onu görüb qaçmağa başlamışdı. Adamları itələyə-itələyə anasına çatmağa çalışırdı. Ancaq başa düşəmmirdi ki, anası ondan niyə qaçır. Adamlar seyrələndə artıq anası qaçıb haradasa gizlənmişdi, nə qədər axtarmışdısa, tapammamışdı.

Bu əhvalatdan sonra anasını yuxularından qovmağa çalışırdı. Anası yenə yuxularına gəlir, dil tökür, onu görüşə çağırırdı. Ancaq daha onu axtarmağa getmədi. Mixəyi saçlı, mavi gözlü o qadın yad kişinin qoluna girib ömürlük onun yaddaşından çıxıb getdi.

...Sonrası yadına gəlmirdi; goreşəni öldürmüşdümü, uşağı sakitləşdirmişdimi, burasını bilmirdi. Bir də ayıldı ki, buldozeri qəbiristanlığın içərisiylə aşağı-yuxarı sürür, projektorun işığında qorxunc görünən başdaşılarını əcayib kölgələrilə birlikdə uçurub tökür.

Qəbiristanlıqda nə qədər işlədiyini hiss eləmədi. Vücudundan qan-tər su kimi axıb gedirdi. Traktor hayqıra-hayqıra işlədikcə vahiməsi daha da artırdı. Və elə bil işin qurtarmağından qorxurdu. Qəbir daşları uçulub töküldükcə sanki içərisindəmi, damarlarındamı, qəlbinin dərinliklərindəmi nə isə gərilir, burulub-burulub mamırlı başdaşları kimi uçulub tökülür, içiniiçalatını şil-küt eləyirdi. Və başdaşılarının uçulub tökülərkən çıxardığı tükürpədici səsləri elə bil içərisində də eşidirdi.



Thank you for trying Soda PDF

Hərdən başdaşılarının arasında ağappaq bir kölgə gözlərinə dəyirdi. Kölgə fəryad qoparırmış kimi əllərini göyə tutub qışqırırdı, ancaq səs eşitmirdi, kölgənin fəryadı səssiz idi, eşidilməz idi. Nə illah eləyirdisə, gözləri bu ağ kölgəni seçəmmirdi, traktorun işığı üstünə dikilən kimi qaranlığa çəkilirdi. O kölgəni buldozerin çalovu başdaşılarına qatıb apardımı, yoxsa özü harasa qeyb oldumu – bunu bilmədi.

Gecənin bir aləmi işini qurtardı, dərhal buldozeri sürüb qəbiristanlıq yerindən çıxardı. Hayana gedirdi? Bunu bilmirdi; ucsuz-bucaqsız yovşanlı düzlə hansısa bir səmti tutub irəliləyirdi. Əslində səmt də tutmamışdı, dənizdə yol azmış kapitan kimi sükanı başlı-başına buraxmışdı.

Elə bil arxasınca düşüb qovurdular. Bu qorxu elə güclüydü ki, çevrilib arxaya baxmağa ürək eləmirdi. Qaranlıqlar projektorun selləmə işığında qurğuşun kimi əriyib tökülürdü. Elə yorulmuşdu ki, özünü traktorun yayları çıxmış oturacağında deyil, pərqu yataqda hiss eləyirdi.

Bayaqdan bəri gözlərində oynayan dəli mürgü ona rahatlıq vermirdi. Göz qapaqları yorğunluğun ağır yükünə davam gətirməyib bükülürdü. Və bu dəli mürgü içərisində yaddaşında adda-budda ağaran olub keçmiş hadisələr barədə düşünmək çətin idi. «Yüz il sonra bu yerlərə gələnlərin, bu yoldan ötənlərin görən bundan xəbəri olacaqmı? Görəsən, at dırnaqlarının, maşın təkərlərinin altında çürüyən xaraba qəbiristanlıqdan xəbər tutulacaqmı? Bu yoldan keçib gedənlərin ayaqlarının altı sızıldayacaqmı?» – mürgüdənmi, yorğunluqdanmı düşüncələri qırılır, sonra təzədən başlayırdı. – «...İlahi, bu işi tutmayacaqdı, axı, tutmayacaqdı... Özünə söz verməmişdimi, söz verməmişdimi... Bəs necə rahat olacaq bundan belə... Çalovun ağzında başdaşılarının çıxardığı o tükürpədici səsə necə dözdü, necə... İnsan fəryadına bənzəyən bu səsdən niyə sınmadı, niyə dayanmadı, niyə qayıdıb getmədi. Gecdi daha, gecdi... gecdi...».

Arabir qulaqlarına qəbiristanlıqda gördüyü uşağın çığırtı səsi gəlirdi. Bu səsi eşidəndə yuxusu bir anlığa çəkilirdi. Ona elə gəlirdi ki, uşaq bu zülmət gecədə traktorun arxasınca yüyürür, qışqıra-qışqıra onu səsləyir:

– E-he-heyyyy!!!

Bu səs çox-çox uzaqlardan gəlir. Beşikdənmi, uşaq evindənmi gəlir, bunu bilmir. Ancaq qəribəydi, bu səs əks-səda vermirdi, əks-səda verə bilmirdi və get-gedə bu səs gecənin müdhiş qaranlığında əriyir, eşidilməz olurdu.

«...Gecdi daha, gecdi... gecdi... gecdi...» – elə bil səs ilişib içərisində qalmışdı, çıxıb gedə bilmirdi.

...Buldozer uçurum aşağı yuvarlanıb dəhşətli gurultu qopardı.

*1982,*
*Bakı-Moskva*

Thank you for trying Soda PDF

*__Hekayələr__*

## XİFFƏT

Qaranlıq otaqda uçuşan milçəklərin yalnız səsini eşidirdi; yuxudan tamam ayılmamışdı. Və uçuşan milçəklərin səsini eşidə-eşidə ona elə gəlirdi ki, heç nə eşitmir, mütləq sakitlikdi, çünki qaranlıqsa heç nə eşidilməməlidi – onun təsəvvüründə həyatın, təbiətin məntiqi beləydi. Ona elə gəldi ki, qapı aralandı, otağa kimsə daxil oldu, hətta qapı aralanarkən qaranlığa hücum çəkən soyuq işıq selini də gördü. Torpaq döşəmədə yaş süpürgə gəzməyə başladı. Otağı süpürüb zibili buxarının gözünə tökdülər, sonra kölgə necə gəlmişdisə, eləcə də qeyd oldu.

Srağagün gördüyü yuxunun cazibəsindən heç cür qopammırdı. Yuxuda görürdü ki, əri çıl-çılpaq pambıq kimi yumşaq qarın içində uzanıb onu səsləyir:

– Çıxar sən də paltarlarını, - deyir, - gəl uzan burda, yaman sərindi. Orda, istidən, bürküdən nəfəsim çatlayır.

Soyuqdan dişləri taqqıldaya-taqqıldaya ayağının birini götürüb o birini qoyur.

– Çıxar, - deyir, - gəl uzan yanımda, bura yaman sərindi, gün bişirdi axı səni. – Əri mismar barmaqlarıyla sümükləri ağaran biləyindən yapışmışdı, nə illah eləyirdisə, onun əlindən, barmaqlarından qopammırdı.

– Burax, - deyirdi, - burax əllərimi, qoy gedim sənə isti paltar gətirim, soyuqdu axı...

– Gəlməyəcəksən, - deyir, - bilirəm, getdinsə, gəlməyəcəksən, yaxşı tanıyıram səni.

Yalvarırdı, yaxarırdı, dartınırdı, mismar barmaqlardan açılammırdı. Dartındıqca barmaqlar sümüklərinə işləyirdi. Və birdən... sol qolu biləyindən qopub ərinin barmaqları arasında qalır, fırlanıb-fırlanıb ağappaq qarın içərisinə yıxılır. Huşunu itirir, handan-hana sağ qoluna dirsəklənib birtəhər ayağa qalxır.

Birdən-birə düzü-dünyanı bürümüş qar nəhri səs eləyə-eləyə əriməyə başlayır və əri bu ucsuz-bucaqsız qar nəhrilə birgə axıb gedir. Uğuldaya-uğuldaya axıb gedən qar selinin

Thank you for trying Soda PDF

dalınca yaşıl bir dünya başlayır. Qışqıra-qışqıra, tövşüyə-tövşüyə qar selinin dalınca yüyürür.

– Ver mənim əlimi, - deyir, - mən əlsiz neyniyə billəm..

Gözlərini açıb qaranlıqda o yan bu yana göz gəzdirir; üstündən sürüşüb yerə düşən yorğanı götürmək istəyir, bacarmır. Ağac kimi yanına düşən sol qolunu sağ əlilə yoxlayır.

«– İflic?!..».

Bir andaca gözlərinə qaranlıq çökür.

Yuxarıda yata bilmirdi, xəstələnib yatağa düşəndən yerini aşağı evə köçürtmüşdü. Burda nə uşaqların səs-küyü vardı, nə də gəlib-gedənlərin sual-sorğusu. Bir də buranı ona görə istəyirdi ki, döşəməsi torpaq idı, ömrünün çoxu bu sayaq evdə keçmişdi; indi oğlunun taxta döşəməli evinə uyuşammırdı.

Günün hansı vaxtı olduğunu bilmirdi, yerindən qalxa bilsəydi, qapını açıb bayıra nəzər salardı. Ancaq... yadına düşdü qapının bayaq açılıb örtülməyi, içəri hucum çəkən soyuq işıq seli. Deməli, gündüzdü, hava işıqdı. İşıqdısa yatmamalıdı, yoxsa uzun gecəni səhər eləyəmməzdi. Qaranlıq otaqda gecəni gündüzdən seçəmməsə də, gündüzləri birtəhər başa vururdu, ancaq gecəni yuxusuz keçirmək əzab idi, işgəncəydi, elə buna görə də bacardığı qədər yuxusunu qoruyub gecəyə saxlamağa çalışırdı.

Milçəklər bayaqkı yorucu səsləriylə vızıldaşa-vızıldaşa uçuşurdular. Ona elə gəlirdi ki, qaranlıq otaqda, yaylı çarpayıda uzanmayıb, sanki dünyanın qurtaracağında sonu-səmti bilinməyən bir boşluqla üz-üzə dayanıb, yatağında azacıq çevrilsə, dibsiz dərinliyə yuvarlanacaq. Elə bil bu boşluq dünyanın, həyatın sərhədiydi, sonuydu, ömür-gün başa vurulanda, insan mütləq bu sərhədə gəlib çatmalıydı, bu boşluqla üz-üzə dayanmalıydı.

İçərisini xəstəlik qovursa da məhəl qoymur, bilir ki, ömrün, yaşın bu çağında ağrı-acılar yüngül gəlib keçir. Ağrıları öləziyəndə yuxu aparırdı, sonra yenə oyanır və təzədən yuxu; yuxuyla düşüncələri elə qarışır ki, bir-birindən ayıra bilmir. Ona elə gəlirdi ki, hər şey dünən olub, srağagün olub, lap bu yaxınlaracan uşaq idi, cavan idi, sevirdi, sevilirdi. Aradan keçən illəri görmürdü, duymurdu, ömrün, həyatın belə erkən sovuşduğunu dərk eləyəmmirdi.



Thank you for trying Soda PDF

Bağın ətəyindən sakit-səssiz aran çayı axırdı. Gündüzün cürbəcür səs-küyündən çayın səsini eşidəmmirdi, gecələr isə sirli-sirli şırıldayan suyun səsi apaydın eşidilir. Onda yatağından qalxıb bağın ətəyinə, çayın sahilinə enmək istəyirdi. Ancaq taqətsizlikdən yatağından qopammır, beləcə çayın sirli nəğməsi səssiz-səssiz oxuna-oxuna gecənin, qaranlığın yaddaşından keçib gedir.

İştahası çəkilib; belə çağlarında insan istəməsə də, yeməlidi, ömrün, yaşamağın xatirinə. Ancaq yemək istəmirdi, qətiyyən istəmirdi. Xeyli vaxtdı ki, dərmanları da qurtarmışdı, bu barədə oğluna demək istəmir. Bilir ki, iş adamıdı, şəhərə dərman dalınca getmək üçün gərək işini-gücünü buraxa. Dərmansız keçinmək də çətindi, gözləyirdi ki, oğlu özü soruşa, maraqlana, ondan da səs çıxmırdı.

Qapı aralanır; yuxuyla oyaqlığın arasındadı. Gözlərini açmasa da, bilir oğludu, çünki həmişə bu vaxtlar gəlir yanına. Gəlib oturur, kötüyə dönmüş əllərini ovcuna alır, dilucu nə isə deyir, soruşur, o da nə isə cavab verir. Bilir ki, burda, mənzilin aşağı qatında yatmağından oğlu narazıdı, hətta bir dəfə ağır xəstə olanda oğlunun çarpayıyla birgə onu yuxarı daşıtdırmağı da yadındadı. Oğlunu başa düşürdü; başa düşürdü ki, hardasa haqlıdı, ancaq özüylə bacarmırdı.

Oğluyla gəlini arabir sözləşirdi, aşağıda hər şeyi eşidir. Aralarında əsən soyuq küləkdən də xəbərdardı, oğlunun alınan, alçalan səsindən də. Ancaq üzə vurmur, ailənin taleyinə kənardan əl qatılmamalıdı – bunu təcrübəsindən bilir.

Yuxu tutduğu üçün oğlunun nə vaxt çıxıb getdiyindən xəbəri olmur.

Gözlərini yuman kimi qaranlıqda Əzrayılın nəfəsini duyurdu, küncdə yaş torpağın üstündə bardaşqurma oturub uzun kirpiklərini daraya-araya ona baxır, ruhunu oğurlamaq üçün girəvə axtarırdı. Gözlərini açan kimi Əzrayıl qeybə çəkilirdi. Uzun gecəni səhər eləyənəcən onunku ona dəyirdi. Dəqiqələr, saniyələr yüklü karvan kimi beləcə ağır-ağır çəkilib gedirdi. Səhərin açılmasını toyuq-cücənin, mal-heyvanın səsindən bilirdi. Bilir və rahatlanırdı; bütün gecəni Əzrayılla çarpışmaqdan

Thank you for trying Soda PDF

yorulub tabdan düşmüş bədənini yuxu aparırdı; qaranlıq otaqda oyana-oyana, səksənə-səksənə günortaya kimi yatırdı.

Ötən həftə körpəcə nəvəsi, ayparçası kimi qız gözə gəldi – ikicə günün içərisində çığıra-çığıra canını tapşırdı. «Yatan ölməz...» deyərlər. Bu ölümdən sonra əhvalını da soruşan yoxdu oğlundan savayı; onun da gəlişindən-gedişindən çox zaman xəbər tutmurdu.

Bayırda külək belədən-belə vıyıldayırdı. Küləyin qarşısında ikiqat bükülən üryan budaqların yalvarışlarını eşidirdi. Buxarının nə vaxt yandırılmağından xəbəri yoxdu, ancaq soyuqdu, yaman soyuqdu, sümükləri sızıldayır, az qala sürünüb ocağın gözünə girmək istəyirdi. Bayırda əsən külək burda – qaranlıq otaqda içini-içalatını doğrayıb keçirdi. Ona elə gəlirdi ki, içərisinə çökmüş soyuqluğu heç bir şeylə çıxarmaq olmaz.

Axşama doğru yüngülləşməyə başladı, qalxıb yatağının içərisində oturdu. Yuxunun əks-sədası qulaqlarından çəkilib getmək bilmirdi. Səs onu sehr kimi, tilsim kimi işığa çağırırdı. Səs qulaqlarında əks-səda verə-verə uzaqlaşdıqca ürəyi bu səsə qoşulub getmək istəyirdi. Səs gedirdi, gedirdi, onu arxasınca çəkib aparmaq üçün qayıdır, yenidən gedirdi. Nə illah eləyirdisə, səsin sehrindən, tilsimindən açılammırdı... Birdən-birə elə yüngüllük duydu ki, elə bil təzəcə anadan olmuşdu. Çarpayının millərindən tutub qalxdı; bu bir ildə ilk dəfəydi ki, ayağa dururdu.

Qapını aralayıb bayıra çıxdı. Üfüqdə əriyən günəşin soyuq şəfəqləri gözlərini qamaşdırırdı. Həyətdə heç kəs gözə dəymirdi, təkcə yuxarı otaqdan oğlu ilə gəlininin səsi gəlirdi; nə barədəsə mübahisə edirdilər.

Bayırda dayanıb dünyanın genişliyinə tamaşa eləmək istəyirdi, ancaq ayaqları onu evin qənşərindəki qarağacın altına çəkirdi. Qarağacın dibindəki sal daşın üstündə oturub kürəyini ağacın çopur-çopur gövdəsinə söykədi. Onu xəstə yatağından qoparıb işığa, günəşə çağıran səs qarağacın içindən gəlirdi. Qışın soyuğunda yarpaqlayan ağacın yaşıl budaqlarına baxdı. Qarağacı ilk dəfəydi ki, ilin bu vədəsi beləcə yarpaqlayan görürdü. Qarağacın içindəki apaydın səs ruhuna, varlığına yuxu

kimi yayılırdı və bu səsin ağacın özəyindən, qabığından ağrıya-ağrıya necə çıxıb gəldiyini bütün əzalarıyla duyurdu.

Başını qaldırıb bir də budaqlara baxdı. Gözlərinə inanmadı; qarağacın yaşıl yarpaqları sızıldaya-sızıldaya qopub donmuş torpağın üstünə tökülürdü.

*1985, Bakı*

Thank you for trying Soda PDF

# AĞ YOL

Gecələr eyvanda dayanıb ayın süd aydınlığında ağaran yollara baxardı. Bu ağ yol kəndin ətəyindən yovşanlı düzənlərin içərilərinə doğru uzanıb gedirdi. Yatağına girib gözlərini yuman kimi ağ yolla çapan ağappaq at yuxularına girərdi. Ayın süd aydınlığında ağ at hər gecə çapa-çapa bir az da uzaqlaşırdı. Bu bəyaz gecənin ağappaq yollarıyla ağ at hayana çapırdı belə? Bəs niyə gecələr bu ağ yolun sonu görünmürdü, yönü-səmti bilinmirdi...

Və gecələr yuxularında ağ yolun tükənəcəyindən qorxurdu. Bu qorxu ötən il sədr Qaçay kolxozun atlarını yığdırıb ətliyə göndərən gündən peyda olmuşdu.

... Kənddə cəmi-cümlətanı üç at qalmışdı. Biri naxırçı Lətifiniydi. Onun atına dəyməmişdilər, ona görə ki, Lətif kolxozun fermasında yeganə naxırçıydı, özü də qocalıb əldən düşmüşdü, atsız keçinə bilməzdi. Biri də qarovulçu Zakirdə qalmışdı. Çünki Zakir də tingliyin yanında yonca qarovulu çəkirdi, uzaq yolu gedib-gəlmək üçün hökmən ona da at lazımıydı. Üçüncü də Nəzir kişinin atıydı. Ancaq Nəzir kişi nə kolxozun naxırını otarırdı, nə də uzaq yerdə yonca qarovulu çəkirdi; ata ehtiyacı-filanı da yox idi. Səbəb buydu ki, Nəzir kişi kolxozun nalbəndiydi və uzun ömrü boyu atdan ayrı bircə günü belə olmamışdı. Kənddə uşaqdan böyüyə kimi hamı bilirdi ki, Nəzir kişi yeməksiz, susuz yaşayar, ancaq atsız bircə saat da keçinə bilməz.

Nəzir kişi kənddə təkcə nalbəndlik eləmirdi, kimin atının yanından bir əsim yel ötüb keçsə, çəkə-çəkə gətirərdi onun yanına, deyərdi ki: «Ay usta, qadan alım, bir bunun dərdi-halını ərz elə». Nəzir kişi də əvvəlcə atın ağzını açıb dişlərinə baxardı, kipriklərini aralayıb gözlərinin haşiyəsinə baxardı, sonra da əyilib qarnının altına baxardı və yalnız bundan sonra heyvanın «dərd-halını ərz eləyərdi».

Atlar yığılıb ətliyə göndərilən gündən qoca hiss eləmişdi ki, sədr Qaçay onun «nalbənd dükanı»nı sökdürmək istəyir, amma xətrini uca tutduğu üçünmü, qəlbini sındırmaq istəmədi-

Thank you for trying Soda PDF

yindənmi, nədənsə hələlik bu işə əl bulamır. Gözləyir ki, bəlkə qoca özü hər şeyi başa düşdü. Ancaq Nəzir kişi hər şeyi başa düşə-düşə onu da bilirdi ki, yaşı ötsə də, işsiz qalmaq, peşəsini tərgitmək ağırdı onunçün, vəssalam.

Qaş qaralan vaxtıydı. Soyuq payız küləyi ağacların sap-sarı yarpaqlarını insafsızcasına qoparıb küçələrə səpələyirdi. Göyün mavi boşluğunda bir əlcə ağappaq bulud yuxu kimi, xəyal kimi dalğalanırdı. Nəzir kişi «nalbənd dükanı»nda oturmuşdu. Gözlərini göy üzünə elə zilləmişdi ki, elə bil bir əlcə ağappaq buludun qeyb olacağından qorxurdu. Küçədən gələn tappıltı səsinə fikirdən ayrıldı. Başını qaldırıb açıq pəncərədən bayıra baxdı, qaralan üfüqlərə baxdı və bir də örüşdən yorğun-yorğun qayıdan mal-qaraya baxdı. Sonra da baxışlarıyla axtarıb-axtarıb gözlərini zillədiyi o bir əlcə bulud parçasını tapdı.

Ciyərlərinə güc gəlmişdi. Papirosunu elə sümürürdü ki, elə bil ömür-billah üzünə həsrət qalacaqdı. Papirosunu sümürdükcə sanki fikirləri daha dərinlərə işləyirdi və bu dərinliklərdə yumaq kimi çözələnirdi, ucunu-bucağını tapa bilmirdi.

Handan-hana ağır-ağır yerindən qalxdı. Asılqandan köhnə, rəngi bozarmış kürkünü götürüb geyindi. Ağır-ağır otağın qapısını bağlayıb evə tərəf üz tutdu.

Nəzir kişi qocalmışdı. Ancaq bu gün qocalıq dərdi düşündürmürdü onu. Bu dərdi uzun illər boyu çəkə-çəkə köhnəltmişdi. Bu gün züryətsizliyinin də fikrini eləmirdi, çünki bu dərdi də qəlbində çoxdan dəfn eləmişdi, lap çoxdan. Yarası da qaysaqlayıb unudulmuşdu bu dərdin.

Düz bir həftəydi ki, əlin ağdan-qaraya vurmurdu. Vaxt varıydı günün gözü yumulanacan dizini qatlamırdı, hər gün otuz-qırx at ayağı nallayırdı. Bəs indi? Hərdən yolüstü ötüb keçən atlıların bəzisi ustanın yanına buyruğa gələrdi, hərdən də uzaq kəndlərdən təkəm-seyrək bu səmtə yolu düşən tapılardı.

... Və bu dərd ustanı dirigözlü yeyirdi.

O gecə səhərə kimi yata bilmədi, elə bil iynə üstə uzanmışdı, bədənini dəlik-deşik eləyirdi. Yalnız səhər üzü bir balaca çimir eləyə bildi.

Gecənin süd aydınlığında ağ at yenə ağ yolla çapırdı. Bəs ağ atın belidəki ağ çuxalı oğlan kim idi? Atın yalını necə də

qucaqlamışdı... Və birdən-birə ağ at da, atın belindəki ağ çuxalı oğlan da ayın süd aydınlığında qeyd oldu. Sonra gözlərinə nə göründüsə, yerindən sıçrayıb qalxması bir oldu, hövllü-hövllü arvadı Zərişi səslədi:

– Qarı, qarı, ver mənim şalvarımı, kəhəri apardılar.

Zəriş səssiz-səssiz yatırdı və bir anlığa qocaya elə gəldi ki, Zəriş uşaqdı, ağlı kəsmir, qəlbində hələ dərd, nisgil yuva salmayıb, çünki yalnız ağlı kəsməyn, qəlbində dərd, nisgil sığınacaq tapmayan uşaq bu cür sakit, səssiz uyuya bilərdi.

Ancaq Zəriş oyandı. Oyandı və heç nə başa düşmədi. Elə bildi ki, qocanı qara basır, ya da ki, başına hava-zad gəlib.

Və Zəriş qorxdu. Qaranlıq otaqda ağ tuman-köynəkdə evin küncündə yatağına oturmuş illərlə bir yastığa baş qoyduğu ərindən hövlləndi. Elə bil Zərişin başına bir qazan qaynar su əndərdilər. Gözlərinin qabağından bircə anda neçə-neçə əcayib-qəraib lövhə gəldi, keçdi. Bu əcayib- qəraib lövhələrin birində Zəriş gördü ki, Qara Səmidin arvadı Yorğa Sona ətəyini əlinə alıb çıxıb kəndin içinə, küçənin ortasıyla o baş bu baş qaça-qaça çığırır: «Ay camaat, Nəzir kişinin başına hava gəlib, Nəzir kişi dəli olub, dəli olub, dəli olub...».

– Qarı, qarı, niyə qoydun kəhəri apardılar, evimin dirəyini yıxdılar.

Zəriş yenə dinmədi, gözlərini ərinin ağzına dikib durdu. Çünki Zəriş hələ heç nə başa düşməmişdi və qulağından Qara Səmidin arvadı Yorğa Sonanın səsi çəkilib getmirdi. Bu səs sərt bir qayayamı, dağamı, daşamı dəyib sınırdı, çiliklənirdi, əks-səda verirdi: «Ay camaat, Nəzir kişi dəli olub, dəli olub, dəli olub...».

– Qarı, qarı, niyə susursan, səninlə döyüləm? Kəhəri niyə verdin, evimin dirəyini niyə yıxdın, qarı?

Zəriş birdən-birə özünə gəldi:

– Əşi, nə kəhər, nə filan, kim apardı, haçan apardı, nə danışırsan, başına at təpibdi, nədi...

– Qarı, qarı...

Nəzir kişi arvadı kənara itələyib ağ tuman köhnəkdə eşiyə çıxdı.

Hava ayınlıq idi. Ayın süd aydınlığında kəndin ətəyindən başlayaraq yovşanlı düzənlərin içərilərinə doğru uzanan yollar ağappaq ağarırdı. Ancaq indi qoca ağaran yollara baxmadı.

Qocanın gözləri ayın süd aydınlığında tələsə-tələsə kəhəri gəzdi, tapdı. Kəhər xımır-xımır ot yeyirdi. Ürəyi üstünə gəldi, birdən-birə uşaq kimi sevindi. Bəlkə uzun ömrü boyu bu sayaq sevinməmişdi. Yuxusunun həqiqət olmadığına sevinirdi. Sevinirdi ki, nə yaxşı kəhəri aparmayıblar, kəhər həyətdədir.

Yalın tuman-köynəkdə həyətə düşüb axura sarı getdi. Kəhərin isti boynunu qucaqlayıb uşaq kimi ağladı, sonra atın üzündən-gözündən öpdü, belini tumarladı, yalını sığalladı.

Qoca düşündü ki, kəhər xoşbəxtdir, qayğısızdır, dünyanın işlərinə qarışmır, başını aşağı salıb fikirsiz, xəyalsız ömür sürür. Aləm dağıla vecinə deyil. Və atın yalını sığıllaya-sığallaya aydınlıq gecədən ağaran yollara sarı baxdı. Elə bil ağ yolun tükənəcəyindən qorxurdu. Bu qorxu birdər-birə necə peyda olmuşdu, iliyinə-qanına işləmişdi, baş aça bilmirdi. Yollar uzanıb-uzanıb qaranlıqlarda əriyirdi. Qoca hər dəfə bu yollara baxanda uşaqlığını xatırlayırdı, cavanlığını xatırlayırdı. Ona elə gəlirdi ki, yol insan ömrünə bənzəyir. Dünyada çox şeylər var ki, sonu yoxdur. Sonu olmayan yollar da var. Qoca belə yol görməmişdisə də, ağlına sığışdırırdı. Ancaq dünyada sonlu yolları çox tanıyırdı. Bax elə bu saat qaranlıqda ağaran bu yolun sonuna yaxşı bələdiydi. Bilirdi ki, bu yol gedib-gedib kəndin ətəyindəki qəbiristanlıqda tükənir. Və gecələr yuxularında ağ yolun beləcə tükənəcəyindən qorxurdu.

O gecənin səhəri Nəzir kişi yatağından qalxa bilmədi və o yatan düz üç gün bir üzü üstə yatdı. Düz üç gün qocanın bədəni qızdırmadan od tutub yandı. Elə bil köksünü yarıb içərisində tonqal çatmışdılar. Qarışıq yuxular üzürdü onu. Ayılanda Zərişi başının üstə görürdü. Və hər dəfə qocanın baxışları Zərişin çöhrəsindən başlayırdı, saçlarında gəzirdi, gözlərində ilişib qalırdı. Zərişin gözləri qəmginiydi, dərd çəkməkdən daralmışdı, yol çəkməkdən yorulmuşdu. Hər dəfə Zərişin gözlərinə baxanda, onun qüssəli baxşlarıyla üz-üzə gələndə günahkar özünü bilirdi, nədənsə.

O axşam qonum-qonşu da tökülüb gəlmişdi. Qonaqlar yerdə palazın üstündəcə dövrələmə oturmuşdular. Çay içilirdi, armudu stəkanlar tez-tez dolub boşalırdı. Çay içə-içə söhbət eləyirdilər. Kamal usta dil boğaza qoymurdu; təzəlikcə kənddə baş verən əhvalatlardan, uydurma söz-söhbətlərdən, daha nə bilim nələrdən, nələrdən danışırdı. Danışa-danışa hərdənbir üzünü Nəzir kişiyə çevirib qocanın qulaq asıb-asmadığını yoxlayırdı. Əslində Kamal usta üçün söhbətinə kimin qulaq asmağının fərqi yox idi. Təki, qulaq asan olsun. Bura yığılanların hamısı bilirdi ki, beləcə danışmaq Kamalın xislətidi, üz versən, lap sübhə kimi oturub danışar, yoruldum deməz.

Qonaqlar dağılışından sonra Zəriş asta-asta süfrəni yığışdırdı, stəkan-nəlbəkiləri yuyub rəfə düzdü, yaş əskiylə stolun üstünü sildi. Bütün bunları eləyəndən sonra işığı keçirib ərinin yanına uzandı. Zərişin adətiydi, evləndikləri uzaq gənclik illərindən bəri hər gecə əri yatağına uzanandan sonra yır-yığış edər, işığı keçirib yerinə girəndə yavaşca onu səsləyər, Nəzirin səsi gəlincə qucağına qısılardı. İndi də bu sayaq ərini səslədi:

– Nəzir yatmısan?

Ancaq Nəzirdən səs çıxmadı.

Əlini Nəzirin tüklü, sümükləri çıxmış sinəsi üstə qoydu. Və Zərişə elə gəldi ki, uzaq, şirin gənclik illərinin istisi axdı bədəninə. Nəzirin sinəsindən axıb gələn bu isti barmaqlarına, biləklərinə, qollarına yayıldı. Ancaq bu isti Zərişin köksünə çatmadı, ürəyinə çatmadı, köksünə, ürəyinə çatanacan tükəndi, əzasının hansı nöqtəsindəsə qırıldı.

Axtarıb ərinin əllərini tapdı. Qocanın əlləri buz kimiydi. Zəriş birdən-birə diksindi, başına gələn fikirdən saçları qabardı. Çırağın tutqun işığında qalxıb titrəyə-titrəyə ərinin gözlərinə baxdı. Qocanın göz qapaqları aralıydı, gözlərinin qarası axıb gizlənmişdi. Sonra qulağını ərinin köksünə dayadı. Və Zəriş birdən dəli kimi qiyyə çəkdi.

Bayırda kəhər kişnəyir, ayaqları ilə torpağı eşim-eşim eləyirdi. Sonra başının sərt hərəkəti ilə axurun dirəyinə bağlanmış kəndiri qırıb boynunu azad elədi. Başıyla hörmə çərbəndi itələyib yola çıxdı, çapa-çapa uzaqlaşdı.

Thank you for trying Solid PDF

Sonra ay doğdu. Kəndin ətəyindən başlayaraq yovşanlı düzənlərin içərilərinə doğru uzanıb gedən ağ yol ayın süd aydınlığına qərq oldu.

*1980, Arxangelsk-Bakı*

Thank you for trying Soda PDF

## BAĞLI QAPI

Ancaq elə bil hər gün gəlib-getdiyi yol deyildi. Soyuq səkilər, daş binalar, elektrik dirəkləri sanki yaddaşının uzaq dumanlıqlarında çoxdan, lap çoxdan unudulmuş bir nağılın pərakəndə lövhələriydi. Bu ona bənzəyirdi ki, ömrün boyu gəlib-getdiyin yolu zülmət içərisində ötüb keçəsən və bu zülmətin görünməzliyində gözlərinə qara toranlıqdan savayı heç nə toxunmaya. Ancaq bir gün qolundan tutub günün işıqlığında səni bu yoldan keçirələr...

Hər şey ilk dəfə görürmüş kimi gözlərinə dəyirdi.

Qəfil boğanaq küçənin toz-torpağını sovurub evlərin divarlarına, məhəccərlərinə çırpdı. Elə bil bircə anda asfalt səkilər boyu görünməz əllə süpürgə çəkdilər. Küçələr büsbütün süpürülüb təmizləndi.

Dilxor oldu, şose yolunun o biri tərəfindəki səkiyə keçmək istədi. Ağır addımlarla sola buruldu. Və birdən... kəskin, zil siqnal səsinə diksinib başını qaldırdı. Hava rəngli bir «Moskviç» sürünə-sürünə düz böyründə dayandı. Maşının arxa oturacağından qadınların qışqırıq səsi eşidildi və o saatca da sürücü başını pəncərədən çıxarıb ağzının zəhərini tökdü:

– Ə, zalım oğlu, zalım, yoldan keçirsən, bir sağına-soluna bax da... Axşam-axşam qanını gərək bizim üstümüzə tökəsən?

Hirs beyninə vurdu, dişlərini xırçıldayana kimi biri-birinə sıxdı, ancaq dillənmədi, dinə bilmədi, içəridən kəsilə-kəsilə qaldı. İrəli yeritmək istədi, ayaqları yerdən aralanmadı. Özünü tamam itirdi.

– Ə, səninlə döyüləm... niyə cavab vermirsən?

Heç nə görmürdü, heç nə eşitmirdi, elə bil fırlanıb-fırlanıb dünyanın çəkisizlik nöqtəsinə düşmüşdü və bu nöqtənin cazibəsindən çıxa bilmirdi.

– Ə, bu kardı ki...

Maşın sağa burulub sürətlə uzaqlaşı. Vücudunu bir andaca soyuq tər basdı. Qeyri-iradi barmaqları düyümləndi, açıldı. Əllərini cibinə qoydu, çıxardı, yenə cibinə qoydu. Və ona elə gəldi ki, əlləri bədəninə artıqlıq eləyir, əllərini qoymağa yer

tapmır. Hiss elədi ki, ürəyinin bütün kini, nifrəti axıb-axıb əllərinə, düyümlənən barmaqlarına yığılıb və bu nifrəti birisinin təpəsinə, gicgahına çırpmasa, əllərinin düyümü açılmayacaq, əllərini qoymağa yer tapmayacaq, əlləri bədəninə artıqlıq eləyəcək.

Beşmərtəbəli boz daş rəngli binanın qarşısında ayaq saxladı. Hava qaralırdı. Öz mənzilindən başqa bütün evlərin pəncərələrindən işıq gəlirdi. Hər axşam evə qayıdanda fikirləşirdi ki, səhər evdən çıxanda işığı söndürməsin, ancaq hər dəfə də nədənsə unudurdu bunu.

Evə getmədi, evə gedə bilməzdi. Kimsəsiz otaqlarda neyləyəcəkdi ki... Belə havada yalın divarlar arasında tənha oturmaqmı olardı?

Havadan payız küləyinin sopsoyuq qoxusu gəlirdi. Maşınlar sürətlə o yan bu yana şütüyürdülər. Küçələrdə qəndillər, lüminisset lampalar göz qamaşdırırdı. Ancaq bu işıqlar soyuq idi, çox soyuq idi. Birinci dəfəydi ki, belə soyuq işıq görürdü, lap erkən uşaqlıq çağlarından bəri. Və görürdü ki, bu işığın soyuğu iliyinə, qanına kimi işləyir, bədəninə vicvicə salır, sümüklərini sızım-sızım sızıldadır.

Haraya gedəcəyini bilmirdi, əslində bu saat, bu dəqiqə onunçün haraya getməyinin heç bir fərqi yox idi.

Kimsəsiz küçələrdən keçib sahilə sarı baş aldı. Külək güclənirdi. Sahil bağı boşalmışdı, skamyalarda kimsə gözə dəymirdi. Dənizdən qəribə, vahiməli uğultu gəlirdi.

Restorana tərəf üz qoydu, bir-iki qədəh içib fikrini dağıtmaq istəyirdi. İstəyirdi ki, ömrünün bu ağır, üzücü axşamını birtəhər yola versin.

Restoranda cəmi dörd-beş müştəri var idi. Küncdəki boş stullardan birində əyləşdi, bir butulka araq sifariş verdi. ...İçdi, gecədən xeyli keçənə qədər içdi. Ancaq bu dəfə nədənsə araq da öz təsirin göstərmirdi. Sanki içdiyi hər günkü araq deyildi, nə isə acı, tünd bir maye idi. Yenə araq istədi... yenə içdi. Restoran tamam boşalandan sonra ağır-ağır stuldan qalxıb qapıya doğru addımladı.

Get-gedə pozulan yaddaşıyla Süsəni xatırladı. Hesabnan bu gün onunla ayrıldığı gündən düz iki il keçirdi.



Thank you for trying Soda PDF

Köhnə, rəngi getmiş bir skamyada oturdu. Dənizdə dalğalar bir-birini qovurdu. Uzaqdan Nargin adasından nöqtə-nöqtə işartılar gəlirdi.

«– Bilirsən, Süsən, mənə uşaq lazımdı, uşaq, məndən sonra bu evdə çıraq yandıran olmalıdı, yoxsa yox?

Süsən cavab vermirdi, səssiz-səssiz ağlayırdı, güman ki, tanış olduqları gün xatırına düşmüşdü. Onda hardan ağlına gələrdi ki, bir vaxt gələcək taleyi ondan üz döndərəcək, dünyalar qədər sevdiyi bir adamın ürəyi daşa dönəcək, vaxtilə bircə təbəssümlə ipəyə dönən bu ürəyə onun yalvarışları əsər eləməyəcək. Hardan biləydi ki...

– Bilirsən, Süsən, mənə qalsa, heç vaxt ayrılmazdıq, ancaq bir mənim vəziyyətimi də düşün. Sənin ucbatından bütün qohum-əqrabadan üz döndərə bilmərəm ki...

Süsən dinmirdi, sakitcə paltarlarını çamadana yığırdı. Daha ağlamırdı, göz yaşları axıb ləkə-ləkə yanaqlarında qurumuşdu. Qulac-qulac saçları çiyinlərinə, boyun-boğazına tökülmüşdü. Sinəsi qalxıb-enir, hıçqırtısını boğa bilmirdi. Dodaqları nanə yarpağı kimi əsirdi.

– Bilirsən, Süsən, heç bilmirəm səni nə təhər başa salım, məndə nə günah var axı... Bir özün yaxşı-yaxşı fikirləş...».

Külək get-gedə güclənirdi. Əyni nazik olduğundan dişləri-dişlərinə dəyirdi. Pencəyinin açıq yaxasını düymələdi, soyuqdan taxtaya dönmüş əllərini qoynuna soxdu. Sahildə heç kəs gözə dəymirdi. Uzaqdan, dəniz vağzalından yola düşən sərnişin gəmilərinin kəsik-kəsik fitləri eşidilirdi.

Gecənin yarısına az qalırdı. Ayağa qalxıb ağır-ağır gəldiyi yolla geri qayıtmağa başladı.

Anası yadına düşdü, kövrəldi. Bu dəfə məzuniyyətini kənddə keçirəcəyinə ürəyində söz verdi, ancaq elə o saatca da hiss elədi ki, söz verdisə də, ürəksiz söz verdi və heç zaman bu sözünə əməl eləməyəcək.

Gecə yarıdan keçmişdi. Mənzilinin yerləşdiyi binaya çatıb dayandı. Pəncərəyə sarı boylandı. Qaranlıq idi, ancaq təkcə onunku deyil, indi bütün pəncərələr qaranlıq idi.

Pilləlləri ağır-ağır qalxmağa başladı. Kim bilir ömrü boyu neçənci dəfəydi ki, ümidli-ümidsiz bu pillələri qalxırdı. Ayaq-



Thank you for trying Soda PDF

ları sözünə baxmırdı, araq öz işini görmüşdü. Əl atıb tutacaqdan tutdu. Bir, iki, üç, dörd... Pillələri saymağa başladı. Görəsən, beşinci mərtəbəyə qədər neçə pillə eləyir? Niyə indiyə kimi bu pillələri saymayıb? Bəs birdən-birə hardan ağlına gəldi bu?

Ürəyi elə döyünürdü ki, sanki bu saat sinəsindən çıxıb ayaqları altına səriləcəkdi.

Axırıncı pilləni qalxıb dayandı. Təngnəfəs olmuşdu. Qapının zəngini basdı, içəridə xoş, qəribə musiqi eşidildi. Evliliklərinin ilk ili Moskvadan alıb gətirmişdi bu zəngi, Süsənin yaman xoşuna gəlirdi.

Gözlədi, cavab gəlmədi. Həmişə qapının zəngini basıb gözləyərdi, Süsənin qapıya yaxınlaşan addım səslərini eşidəndə zəngi bir də basardı. Süsənin «gəldim» deməsilə qapının açılması bir olardı. Qapı açılan kimi qızı elə astanadaca qucaqlayar, üzündən, dodaqlarından öpərdi, sonra da yüngül qov kimi qolları üstünə alıb divana aparardı:

– Bu gün neyləmisən?

– Heç bir şey.

– Nə bişirmsən yeməyə?

Qız qəsdən başını bulayardı, yəni «heç nə bişirməmişəm».

– Onda sənin özünü yeyəcəyəm.

Süsən:

– Yeyə bilməzsən, - deyərdi və çırpınıb onun əllərindən çıxar, əllərini sinəsinə sıxıb quş kimi ayaqlarının ucunda o biri otağa uçardı. Qızı qovub tutardı, boynunu qucaqlayar, saçlarını çəngə-çəngə üz-gözünə dağıdardı.

Öpərdi, dönə-dönə öpərdi.

Qapının zəngini bir də basdı. Yenə xoş, qəribə musiqi çalındı. Yenə də səbrlə gözlədi, gözlədi. Ancaq içəridən cavab gəlmədi. Bilirdi ki, içəridə heç kəs yoxdur, qapının zəngi heçliyə, kimsəsizliyə çalınır, bilirdi ki, gecə-gündüz döysə də, qapını açan olmayacaq. Bilirdi ki, bu qapı özgə cür bağlanıb. Elə bağlanmayıb ki, açmaq mümkün olsun. Ancaq ürəyinin hansısa gizli, əlçatmaz dərinliklərində inana bilmirdi buna.

Zəngin düyməsini bir də, bir də basdı. Sonra qulağını qapının açar deşiyinə söykədi. Ancaq qulağına özgə bir səs,

hənir dəymədi. Daha gözləmədi, yumruğu ilə qapını bərk-bərk dəyməyə başladı. Zərbələrini necə gəldi endirirdi. Yumruğunun səsi bütün binanı başına götürmüşdü. Qışqıra-qışqıra Süsəni çağırırdı:

– Aç qapını, Süsən, aç, aç... Qurban olum, aç qapını, aç, aç...

Ona elə gəlirdi ki, Süsən yuxudadı, yatıb, bu saat oyanacaq, yuxulu-yuxulu qapını açacaq. Ancaq heç nə deməyəcək, təkcə məzəmmətli baxışlarıyla astanadan asılqanadək izləyəcək onu. Sonra baxışlar yumşalacaq, həlimləşəcək. Və bu baxışlar deyəcək ki, axı niyə gec gəlirsən evə, ay insafsız, bəs mən adam deyiləmmi... Nə vaxta kimi yalın divarlara keşik çəkəcəyəm. Nə vaxta qədər... Bəs sonra nə deyəcək Süsənin baxışları...

Get-gedə qolları boşalırdı, sərxoş bədəni tabını-təpərini itirirdi. Elə hey Süsəni səsləyirdi, yalvarırdı, yaxarırdı:

– Aç qapını, Süsən, aç qapını... Qurban olum, Süsən, aç qapını, aç, aç...

Yorulmuş, keyimiş qolları sustaldı. Əlləri qapının dəstəyindən üzüldü, dizləri yavaş-yavaş büküldü, daş kimi qapının kandarına düşdü.

...Əslində bu yuxuya bənzəmirdi, sanki nə isə qəribə, heyrətamiz bir sehrə düşmüşdü. Hayana dönürdüsə, bağlı qapıyla üzləşirdi. Qəribə burasıydı ki, bu qapılar çox möhkəm bağlanmışdı, nə illah eləyirdisə, aça bilmirdi. Bu qapılar ona tanış idi, doğmaydı, haçansa, hardasa bu qapıları açmışdı, ancaq haçan, harda açdığını xatırlaya bilmirdi. Və görürdü ki, dünyanın tanıdığı, bildiyi bütün qapıları büsbütün bağlanıb üzünə...

Özünə gələndə səhərə az qalırdı. Daş döşəmənin buz kimi soyuğu sərxoş bədənini ayıltmışdı. Əlləri, ayaqları donub əl ağacına dönmüşdü. Titrəyən əllərilə qapının açarını çıxardı, ancaq aça bilmədi, açmağa əli gəlmədi. Qaytarıb açarı cibinə qoydu. Bu sayaq gecədən sonra evdə rahatlıq tapa bilməyəcəkdi.

Yavaş-yavaş pillələri düşməyə başladı. Aclıq hiss eləmirdi, ancaq susuzluqdan ciyəri yanırdı. Həyətə enib dodaqlarını kranın dəmir lüləsinə dayayaraq buz kimi soyuq sudan bəs deyincə içdi.



Thank you for trying Soda PDF

Həyətdəki səkinin üstündə oturdu. Pencəyini əynindən çıxardı; əzik-üzük, toza-torpağa bulanıq idi. İşə bu sayaq getmək olmazdı, mütləq təmizləmək lazımdı. Pencəyinin toza, əhəngə bulanmış yerlərini su ilə təmizlədi, ancaq əyninə geymədi, əyinə geyinməli halı yox idi, tamam su içərisindəydi.

Göyün üzünə baxdı. Bir vaxt Süsənlə burda, həyətdə dayanıb ulduzlu gecələrə saatlarla tamaşa eləyərdi. İndi də ulduzluydu səma. Ancaq uzaqda soyuq-soyuq işaran ulduzlar yavaş-yavaş işığını itirirdi.

Səhər açılırdı.

*1981, Bakı*

Thank you for trying Soda PDF

## MÜQƏVVA

Yaddaşında nə vardısa pərən-pərən düşmüşdü, ən adi şeyləri belə heç cür xatırına salammırdı. Elə bil bütün bunlar yuxuda baş verirdi; həyatla, insanlarla əlaqəsini büsbütün itirmişdi.

Hər tərəf zülmət kimi qaranlıq idi. Elə bil qaranlıq dünyaya düşmüşdü, çünki belə zülmət, belə qaranlıq ancaq nağıllarda ola bilərdi. Səmada ulduzlar görünmürdü, təkcə günəş var idi, ancaq günəş dünyanı işıqlandırmırdı, işığı, istiliyi tükəndiyindən ulduz kimi soyuq-soyuq közərirdi.

Adamlar qaranlığa məhəl qoymadan tələsə-tələsə keçib gedirdilər, ancaq hara getdikləri bilinmirdi. O, insanların qarışqa kimi qaynaşdığı qaranlıqda çaş-baş qalmışdı, hayana gedəcəyini bilmirdi. Dörd bir tərəf qaranlıq idi, hansı səmtə çevrilirdisə, zülmət keçilməz sədd kimi, divar kimi qabağını kəsirdi. Sanki dünya elə belə yaranmışdı; yer üzü başdan-binadan işıq, aydınlıq tanımırdı. Yadını-yaddaşının ən dərin qatlarında bu dünya, bu insanlar, bu rəng ona tanış, doğma gəlirdi, təkcə harda gördüyünü xatırlayammırdı.

Böyük şəhərin küçələri ilə addımlayırdı. Hayana gedəcəyini bilmirdi, hər yan qaranlıq idi. Və hayana gedəcəyindən asılı olmayaraq onu zülmət və qaranlıq gözləyirdi. Getdikcə daha artıq əmin olurdu ki, ömrünün hansı ilindəsə özünə doğma bildiyi bu böyük şəhərdə işıq və aydınlıq axtarmaq əbəsdi.

Onun təsəvvüründə qara rəng dünyanın sonuydu və fəhmlə bilirdi ki, haçansa dünyanın əvvəli də beləcə zülmət olub; dünyada əbədi bir rəng var – zülmət. Qalan bütün rənglər təsəllidi, yalandı, aldanışdı.

Dəniz vağzalındakı qəhvəxanaya girdi. Keçib küncdə boş stullardan birində oturdu. Qəhvəxanaya girməklə dünyanın qaranlıq olduğunu birdəncə unutdu.

«–Yenə gəldin?.. ».

Qəhvəxanaya ayaq basan kimi hər dəfə bu sualı eşidəcəyindən qorxurdu. Ona elə gəlirdi ki, günlərin birində hamının gözü qabağındaca qovub qəhvəxanadan çıxaracaqlar,

Thank you for trying Soda PDF

bir də buralara ayaq basammayacaq. Bu qorxunun içərisinə nə vaxtdan dolduğunu bilmirdi. Bu qorxu qəlbinə, varlığına elə hopmuşdu ki, hər dəfə içəri ayaq basandan keçib adamlara qarışanacan, yarım litr şirin çaxırı qurtum-qurtum içib qurtaranacan gözünü təkərli podnosunu sürə-sürə stolların arasında vurnuxan xidmətçidən ayırmırdı.

Zəif, tutqun divar lampalarının işığında çalınan caz havasına sanki divarlar, boş stullar, stolların üstündəki büllur qədəhlər rəqs edirdi. Caz havası elə oynaq idi ki, ondan başqa bircə nəfər də olsun oturmamışdı.

Bu qəhvəxanada o heç vaxt başqaları kimi arın-arxayın oturub yeyib-içməmişdi. Hərdən ömrünün ağır dəqiqələrində içib unutmaq üçün, hərdən də sərxoş çağlarında caz havasına qulaq asmaq üçün gəlib burada oturardı. Qışın soyuğunda şaxta nəfəsini kəsəndə canını isitmək üçün bura gəldiyi günlər də olurdu.

«–Dur, cəhənnəm ol burdan!».

Ürəyinə dammışdı ki, gec-tez bu hökmü eşidəcək. Ona görə də elə bil qor üstündə otururdu. Xidmətçinin üstünə atılacağını, yağlı əllərilə qolundan tutub sürüyə-sürüyə bayıra çıxaracağını hər dəqiqə gözləyirdi; adam seyrək olanda içəri girməyə cəsarət eləmirdi.

Qəhvəxanadan çıxıb evə getmək üçün avtobus dayanacağına gəldi. Dayanacaqda bir qız bir oğlanla qolboyun olub öpüşürdülər. Qız barmaqlarını daraq kimi oğlanın saçlarına keçirmişdi, oğlanın əlləri kor-kor qızın kürəyində gəzirdi. Qızın əl sumkası, oğlanın dəftər-kitabı yerdə ayaqlarının altındaydı. Hər şeyi unudub bir-birinə sarmaşmışdılar. Elə bil dünya bunlar üçün qaralmışdı.

Avtobusa minib arxa pilləkəndəcə dayanıb durdu. Tünlükdən içəri ayaq basmaq olmurdu. Qaranlıqda göz-gözü görmür, adamların sir-sifəti seçilmirdi. Dayanacaqları elan edirdilər ki, sərnişinlər nə vaxt düşmək lazım olduğunu unutmasınlar. Sonuncu dayanacaqda avtobusdan düşüb evə yollandı. Qaldığı evlə dayanacağın arası dörd-beş dəqiqəlik yoldu. Avtobusdan düşəndən sonra az qala qaça-qaça özünü evə çatdırdı. Qa-

Thank you for trying Soda PDF

ranlıqda əlilə cibini eşələyib açarı çıxardı, tələsə-tələsə qapını açdı.

Dəhlizdə elektrik lampasının düyməsini basdı. İşıq yanmırdı. Ancaq qəribəydi, soyuducunun səsi otağı başına götürmüşdü. Otağa girən kimi dərhal paltarlı-paltarlı yatağa uzandı. Soyunmağa həvəsi yoxdu. Yorğun olsa da, uzun müddət yuxuya gedəmmədi, eləcə gözlərini otağın qaranlıq pəncərələrinə dikib durdu.

Bəlkə ona görə yuxuya getmək çətin idi ki, qalxmağa, oyanmağa ümidi qalmamışdı. Çoxdannan bəriydi ki, dünya gözlərində sehrini, gözəlliyini itirmişdi. İndi yuxu da əzabdan savayı heç nə gətirmirdi. Qayğıları tükənmişdisə, ömrün yükünü, möhnətini çəkəmmirdisə, sabaha, gələcəyə aparan yol qaranlıqdısa, bəs onda nəyin xatirinə yaşayırdı?..

...Yuxuda görürdü ki, tanımadığı adamlar onu tabuta qoyub aparırlar. Tabutda, üstünə salınmış ağ mələfənin altına sağ olduğunu heç kəs bilmir. Elə heysizdi ki, gözlərini açammır, eləcə bir-birinə sıxılmış kipriklərinin arasından dəfninə yığılmış adamlara tamaşa eləyir. Bu qədər adamın içərisində bircə tanış sifət belə gözlərinə dəymir. Ha əlləşirsə, çevrilib tabutdan qalxammır. Nə isə demək, danışmaq, özünün sağ olduğunu onu dəfn eləməyə aparan bu adamlara başa salmaq istəyir, ancaq nə illah eləyirsə, səsi çıxmır.

Artıq adamlar qəbiristanlığı haqlamışılar. Düşünəndə ki, bu dəqiqələrdə nə isə bir şey eləməsə, sağ olduğunu bir yolla bildirəmməsə, sonra gec olacaq, onu diri-diri torpağın təkinə quylayacaqlar, birdən-birə ona qeyri-adi bir qüvvə gəldi. Əvvəlcə gözlərini açdı, sonra qalxıb tabutun içərisində oturdu...

– Aaauuuuu...

Adamlar vəhşi səslə ulaya-ulaya tabuta açıb bircə anda qaçıb dağılışdılar.

Yuxudan oyananda pəncərədən yenə zülmət tökülürdü. Yatmaqdan başı, boynunun damarları ağrıyırdı. Yatağına uzananda ona elə gəlirdi ki, yuxudan qalxanda səhəri açılmış görəcək. Ancaq qalxmışdı, dünya isə əzəlki kimi qat-qaranlıq idi.

Başının ağrısından gözləri dumanlanırdı. Bilirdi ki, içməsə dünyasında baş ağrısı keçib getməyəcək. Uzandığı çar-

payının altında boş şüşələr vardı, həmişə içdiklərini oraya yığırdı. Nə qədər ümidsiz olsa da, inanırdı ki, bəlkə sərxoş çağlarında yadından çıxıb şüşələrin hansınınsa dibində bir şey qalıb. Şüşələri bir-bir çalxalayıb küncə itələyirdi. Əlinə keçən çirkli bir şüşəni çalxalayanda çoxdannan qalıb qıcqırmış çaxırın turş təmi onu vurdu. Əlləri titrəyə-titrəyə dodağına tutub son qətrəsinə kimi içdi. Bir qədər özünə gəldi.

Yuyunmaq üçün vanna otağına keçdi. Soyunub buz kimi soyuq duşun altına girdi. Dəsmalla qurulanıb yataq otağına qayıtdı.

Ciblərini eşələdi, bircə qəpik də olsun pulu yox idi. Əslində bilirdi ki, pulu yoxdu, cibləri tamam bomboşdu, ancaq o hər cür möcüzəyə inanırdı.

Uşaqlarından xəbəri yoxdu. Harda yaşadıqlarını bilmir. Ailəsini itirəndən sonra onunla maraqlanmağı belə ağlına gətirməyib. Ancaq bir dəfə uzaqdan, lap uzaqdan arvadı və uşaqlarını yad bir kişi ilə küçədə görmüşdü. Tanımadığı o yad kişi uşaqlarının əlindən tutub arvadı ilə söhbət eləyə-eləyə hayanasa gedirdi. Özgə bir adamın doğma balalarının əlindən tutması, özü sağ ola-ola uşaqlarının özgə mehrinə qısılmağa qəfil xəbər kimi onu büsbütün sarsıtmışdı. Arvadının mənzildən imtina eləməsi, alimentlə uşaqlarını dolandırmağı özünə təhqir bilməsi onu sonralar, çox sonralar düşündürməyə başlamışdı. Sanki aradan keçən illər dumanlı düşüncələrini sahmana salmışdı. İndi özünə uzaqdan baxır, işlədiyi cinayətin (buna günah deməyə dili gəlmir) ağırlığını bütün əzasıyla dərk eləyirdi.

Avtobuslar əvvəlki kimi belədən-belə şütüyürdülər. O da dayanacaqda gözləməyə başladı. Ancaq hansı avtobusu gözlədiyini bilmirdi. Avtobuslarsa bir-birinin ardınca keçib gedirdilər.

Hayana getsin? Əslində onunçün hayana getməyin elə bir fərqi yox idi, hər dəfə olduğu kimi bu dəfə də evdən məqsədsiz-məramsız çıxmışdı. Bütün tanışlarını bir-bir gözlərinin qabağına gətirirdi. On il idi ki, özündən savayı heç kəsin qapısını açmırdı. Ən yaxın dostlarının belə evinin yolunu-səmtini unutmuşdu. İnsanlarla əlaqəsini itirmişdi, təmtəkcə yaşayırdı. Ancaq özünün təkliyinə, bu boyda şəhərdə kimi-kimsənəsi olmadığa inanmırdı.



Thank you for trying Soda PDF

Səkilər, divarlar, avtobus dayanacaqları, su köşkləri, bulvarda, qəhvəxanada rastlaşdığı adamlar uzaq uşaqlıq illərindən xatirə qalmış oyuncaqlar kimi onun yaddaşında doğma, lap doğmaydılar.

On il idi ki, dünyada nələr baş verdiyindən xəbərsizdi. Səhər, günorta, axşam içirdi, azacıq ayılmaq təhlükəsi hiss eləyən kimi günün hansı vaxtı olur-olsun fərq eləməzdi, dəli kimi ora-bura vurnuxur, bir şey tapıb içirdi. Bir az içdimi, hər şey yoluna düşürdü, özünü indicə anadan olubmuş kimi rahat və qayğısız hiss eləyirdi.

Onunçün zaman ölçüsünün heç bir əhəmiyyəti yoxdu. Yuxusu çəkilən kimi şəhərə çıxır, içib özünə gələndən sonra dənizin sahilinə enirdi. Yorulub əldən düşənə qədər gözlərini qaranlıq sulardan çəkmirdi. Evə qayıdıb dincini alandan sonra hər şey təzədən başlayırdı. Beləcə bir-birinə bənzəyən günlər təkrarlandıqca həyat, yaşayış onu məngənə kimi sıxırdı.

Ona elə gəlirdi ki, içərisində gizli, əlacsız bir xəstəlik var və hər saat, hər dəqiqə bu xəstəlik ağrısız-əzabsız ölümə doğru sürükləyir. Ancaq hər an ölümə doğru sürükləyən bu gizli, əlacsız xəstəlik onu zərrəcə qorxutmur.

Ulduz kimi soyuq-soyuq işaran günəş səmanın bir səmtindən hərəkətsiz asılmışdı. Minbərdən azan səsi gəlirdi. Ancaq azançının səhərmi, günortamı, ya axşammı azanını çağırığı bilinmirdi. Bu səs dalğalana-dalğalana qaranlığa elə qarışırdı, elə qovuşurdu ki, sanki zülmət dünyaya azançının səsindən yayılırdı.

Dəniz vağzalına tərəf baş aldı. Sahil həmişəki kimi qələbəlik idi. Skamyalar tutulmuşdu. Gəlib dənizin sahilindki məhəccərə söykəndi, gözlərini qaranlıqda səssiz-səssiz ləpələnən sulara dikdi. Həmişə dənizin sahil suları boyu uçuşan qağayılar gözə dəymirdilər. Dünyanın belə zülmətə boyanması onları bu yerlərdən uçurmuşdu. Ona elə gəlirdi ki, bir vaxt gələcək, qaranlıqların içərisindən xəfif dalğaları yara-yara sahilə bir gəmi yan alacaq və onu alıb biryolluq bu zülmətin qoynundan xilas eləyəcək, itirdiyi işıq və aydınlığa doğru aparacaq. Qaranlıqda bağrı yarıla-yarıla bu gəmini çoxdannan bəriydi ki,

gözləyirdi, ancaq günlər ötür, dəniz səmtindən səs-səda gəlmir, qaranlıq sular inadla susurdu.

– Bu kişi bütün günü burda dayanıb dənizə baxır, - hündürdən danışa-danışa gedən qızların hansısa bunu pıçıltıyla dedi.

Qulağı bu səsi çaldı, ancaq çevrilib səs gələn tərəfə gözlərinin ucuyla da baxmadı. Dünyanın işıq və aydınlıq çağlarında dəniz sahilinə enəndə çiçək kimi əlvan rəngl bu qızlardan gözlərini çəkəmmirdi. Yanından ötüb keçəndə burnuna dəyən ətirdən az qalırdı huşunu itirə. Ancaq indi qəlbində hər şeyə ölü bir biganəlik vardı. Hissləri və duyğuları o qədər korşalmışdı ki, onu heç nəylə heyrətləndirmək olmazdı.

Dəniz bayaqkı kimi lal və səssiz idi. Elə xəfif titrəyirdi ki, sanki sulara körpə nəfəsilə sığal çəkirdilər. Qaranlığın qoynundan nə sahil körpüsünə yan alan gəmilərin fit səsləri eşidilir, nə bir vaxt dan sökülənəcən sayrışan mayak işığı görünürdü. Gözlərini gülmət boşluqlara dikib durmuşdu. Ona elə gəlirdi ki, gəmi o burda olmayanda, yatıb dincini almaq üçün evə getdiyi zaman gəlir və sahil boyu onu axtara-axtara fırlanıb geri qayıdır.

– Gəmi nə vaxt gələcək? – Onda bir az aralı sahil məhəccərinə söykənib qaranlıq dənizə tamaşa eləyən əli əsalı bir qocadan soruşdu və o saatca da soruşduğuna peşman oldu.

Ancaq deyəsən qoca onun sualını başa düşmədi.

– Nə dedin? - gözlərini dənizdən ayırmadan laqeyd-laqeyd soruşdu.

Dərhal sualı dəyişdi:

– Deyirəm, qağayılar day görünmürlər, birdəfəlik yoxa çıxıblar.

– Bu həngaməyə qağayımı dözər... Yazıqlar canlarını götürüb qaçıblar. Bizik dözürük...

Qoca bir müddət susdu, sonra dərdli-dərdli danışmağa başladı:

— Ötən əsrdə bir şair öz zəmanəsində vəziyyətin gündəngünə pisləşdiyini görüb keçmiş günləri yad eləyrək yazırdı ki, «əcəb əyyam imiş əyyami-sələf, gərək o günlərdə olaydıq tələf».

İstəməsə də söhbətə qoşuldu, çünki özü başlamışdı.

– O vaxtdan düz yüz əlli il keçir. O hesabnan dünya çoxdan dağılmalıydı.

– Bəli, düz əsr yarımdı ki, hər şey beləcə pisliyə doğru gedir.

– Bəs elədisə, niyə dünya dağılmır. Min ildi ki, dünya elə həminki dünyadı. Təkcə nəsillər əvəz olunub.

– Hə elədi... Deməli, hər şey insanların başında çatlayıb. Dünya elə həminki dünyadı... elə həminki dünyadı... həminki dünyadı... dünyadı...

Birdən çevrilib baxanda indicə söhbət elədiyi əli əsalı qocanın yerində ağ saçları boyun-boğazına dolaşmış səksən yaşlarında bir qarı gördü. Qarı dişsiz ağzıyla saqqız çeynəyə-çeynəyə başa düşmədiyi yad bir dildə nəsə deyib dənizə atıldı, ağ saçları suları yayıla-yayıla üzüb qaranlığa qarışdı.

*1985, Peterburq-Bakı*

Thank you for trying Soda PDF

## SƏHƏR DUMANI

Payız səhərinin tutqun işığı evin gündoğana açılan pəncərəsindən otağa dolduqca içərinin zülməti çəkilib gedirdi. Ona elə gəlirdi ki, hər gün uzanıb yatdığı çarpayısında deyil, dünyanın sonu-səmti bilinməyən, buluddan, günəşdən, torpaqdan savayı özgə heç nəyin gözə toxunmadığı qərib bir yurddadı.

Gözlərini səhərin tutqun işığından ayıra bilmirdi. Yatağında o yan-bu yana çevrilir, qaçmış yuxusunu qaytarmaq istəyirdi, ancaq səhərin tutqun işığı üz-gözündə oynadıqca yuxusu dağılıb gedirdi.

Qalxmaq istədi, bacarmadı. Qocalıq məngənə kimi bərinə-bədəninə sarınmışdı və bu dəhşətli məngənənin qaçılmaz olduğunu bütün əzasıyla hiss eləyirdi. Bu məngənənin gücünü damarlarında, sümüklərində, əzələlərində duyurdu. Və duya-duya qocalığın görünməz əllərində boğulurdu.

Əzim kişi çoxdannan bəriydi ki, içində ölüm gəzdirdiyini bilirdi və Əzim kişinin özündən qaçmağı içində gəzdirdiyi ölümdən qaçmağıydı. Əzim kişi nə illah eləyirdisə, ölümdən aralanammırdı, çünki ölüm kişinin içərisinə çökmüşdü, ağrı kimi, yorğunluq kimi qanına, varlığına hopmuşdu, ölümün qoxusunu duyurdu. Əzim kişi nə illah eləyirdisə, ölümün caynaqlarından qopammırdı, açılammırdı. Və içərisində böyüdükcə Əzim kişinin ölümü gəzdirməyə tabı-taqəti qalmırdı.

Əzim kişi içərisində ölümlə birgə ağrı gəzdirirdi. İçərisini göynədən bu ağrı artıq olduğunu, oğul-uşağın çiynində yükə çevrildiyini dərk eləməyiydi. Qocanı ağrıdan oydu ki, ağsaqqal ola-ola evin, ailənin qayğıları onsuz həll olunurdu. Xəstə ola-ola dərdinə dərd kimi baxılmırdı. Günlərlə qızdırma içərisində qovrulsa da, iştahası büsbütün çəkilsə də, bunun səbəbinin qocalığında axtarılmağıydı. Və Əzim kişini göynədən ən böyük dərd öz evində qonaq kimi yaşamağıydı.

Zorla qalxıb həyətə çıxdı. Sabahın soyuğunda üşüdü, titrəyən əllərilə köynəyinin açıq yaxasını düymələdi.

Əvvəllər də ertədən oyanardı. Günün gözü çırtlamamış bağı-bağçanı suvarar, heyvanları açıb kəndin ayağındakı örüşə

ötürər, toyuqları hindən buraxardı. Düz əlli il idi ki, səhərləri beləcə təkrar olunardı. Arvadının sağlığında nə qədər ertə qalxsa da, onu həyətdə görərdi. İndi isə oğlu ilə gəlini səhər yuxusunu yatırlar. Onları oyatmağa qıymır. Heç bu barədə işarə də vurmayıb. Özlərinin ağlı kəsir, qoy necə istəyirlərsə, eləcə yaşasınlar.

Gecə səhərə kimi nəvələri yatmır, illah da kiçiyi – zərrəcə yuxu yoxdu gözlərində. Onların ucbatından yatmağa, rahatlanmağa imkan tapmır. Ancaq bundan qətiyyən narahat olmur, əsəbiləşmir. Əksinə, yuxusuz gecələrində bu səs ona həyan olur, təkliyini, kimsəsizliyini unutdurur. Belə gecələrində özgə heç nəyin fərqinə varmır, təki, səs olsun, hənir olsun. Ömrün, yaşın bu çağında təklik, kimsəsizlik qədər onu heç nə qorxutmur.

Qoca şehli otları ayaqlaya-ayaqlaya bağın ətəyindəki çəpərin döşünə qalxdı. Uzaqdan qəbiristanlıq səmtə boylandı. Səhərin tutqun işığında qəbiristanlığın gümüşü rəngli günbəzi seçilmirdi. Bir azdan duman çəkilib günəş doğacaq, günbəzin par-par yanan işığı kəndin ətəyindən başlayaraq göz işlədikcə uzanıb gedən yovşanlı düzənliyə qəribə bir işıqlıq gətirəcəkdi. Və səhərin doğacaq soyuq günəşində bu rəng də uzaqdan-uzağa qocanı üşüdəcəkdi.

Uzaqda yovşanlı düzənliyin qurtaracağında gömgöy göyərən sututar yerlər səhər dumanında güclə sezilirdi. Gün qalxdıqca duman göylüyə tərəf çkilirdi. Və elə bil qəlbinin, köksünün hansısa bir parçası dumana qoşulub göylüyün, boz yovşan kollarının üstüylə ağır-ağır çıxıb gedirdi.

Son günlər duman dağılanacan beləcə dikdirin üstündə dayanıb düşüncələrə dalardı.

– Sabahın xeyir, Əzim kişi!

Qoca diksindi, ancaq səsin hayandan gəldiyini kəsdirəmmədi.

– Aqibətin xeyir olsun, oğul, - dedi.

Dumana qarışıb uzaqlaşan addım səsləri bir müddət qulağından çəkilmədi.

Bir vaxtlar kolxozun naxırını otarana səhərdən-axşamacan at belində təzə otlaqlar axtara-axtara düzü-dünyanı yorub əldən-ayaqdan salardı. Ömrü yəhər üstündəcə keçmişdi. İndi nə



Thank you for trying Soda PDF

vaxt idi ki, atı açıb başlı-başına buraxmışdı. Ancaq heyvan bu cür sərbəstliyə, azadlığa alışmadığından heç yana çıxıb getmir, evin, məhlənin həndəvərindəki otlaqlarda dolaşırdı. Hərdən gecələr atın kişnərti səsini eşidirdi. At sahibinin başında nə isə bir qəza olduğunu hiss eləmişdimi, nəydi, gecələr üzünü evə sarı tutub uzun-uzun kişnəyirdi. Belə çağlarında o bu səsdəki çağırış anlayırdı, ancaq qocalığın amansız əllərindən qopub bağın ayağındakı çəmənliyə enməyə güc-taqət tapammırdı, içərisindən oyula-oyula qalırdı.

Səhərin səssizliyini pozan suyun səsiydi və bu səs suya qarışmırdı, suyun üstüylə ləpir sala-sala çıxıb gedirdi.

Bütün bu bağ-bağat təzə pöhrəliklərə kimi öz əlindən çıxmışdı. İndi səhərin soyuğunda göy dumanda yuyunan ağaclara baxdıqca onlara yazığı gəlirdi. Ağaclar niyə belə ağlaşırdılar? Bir azdan doğan günəş ağacları göz yaşlarını qurudacaq, onlar yenə heç nə olmayıbmış kimi xoşbəxt-xoşbəxt gülümsəyəcəklər.

Səhər dumanı bağa-bağçaya, ağacların yarpaqlarına, göylüyə çökmüşdü, çayın üstündən asılmışdı. Ona elə gəlirdi ki, insan ömrü də bu duman kimidi, hiss olunmadan çəkilib gedir, yerində boşluq qalır, kimsəsizlik qalır. Bunu bütün varlığıyla dərk eləyə-eləyə ömrün sovuşduğunu anlayammırdı, insanı heçliyə aparan amansız, qaçılmaz həqiqətlə heç cür barışammırdı.

Qoca ağlına da gətirmirdi ki, bir vaxt gələcək, nəfəsi bağın-bağçanın, göylüyün, boz yovşan topalarının üstüylə ağır-ağır çıxıb gedən bu dumana qarışmayacaq. «İnsanın sonu torpaqdısa, həyatın tükənib torpağa qarışması qaçılmazdısa, ölümlə hər şey qurtarırsa, bəs onda sonsuzluq nədi, əbədiyyət nədi?! Niy insan özünə belə şeylərlə təsəlli verir, niyə insan təsəllilərə allanır...».

Dumanın içərisindən atın kişnərti səsini eşitdi. Ürəyi elə atlandı ki, az qaldı huşunu itirə. Çəpərin payalarından tutub güclə ayaq üstə dayandı. «Görən at niyə kişnəyir bu vədə? Sahibinin yaxınlıqda, çəpərin döşündə olduğunu bilirmi? Səhərin gözü açılmamış bu nə çağırışdı belə? Səs yaxından gəlir, heyf, dumandan heç nə görmür...».

Thank you for buying Soda PDF

Çağırmaq istədi, ancaq səsi çıxmadı. Elə bil səsi içərisində düyün düşmüşdü.

Quşlar çığırışa-çığırışa başının üstündən uçub getdilər. Səsdən sümükləri səksəndi. Başını qovzayıb səmaya baxdı, səhər dumanından heç nə seçəmmədi. İçərisinin hansı bir əzasısa elə bil dumana qarışdı, quşların səsinə qoşulub uça-uça uzaqlaşdı. «Bir az yüngülləşsin, gərək çal-çəpərə əl gəzdirə, dağılıb gedib, təzədən kollanmalıdı–böyürtkənin əsl çalınan vaxtıdı. Yoldan ötən elə düşünər ki, həyət-baca yiyəsizdi. Nar kolları, üzüm tənəkləri budanmalıdı, bu gün-sabah qış kəsdirəcək qapının ağzını. Bağın ayağındakı qızılavarı da çalıb yağışlar düşməmiş tayanın başını bitirməlidi. Bircə xəstəlik sovuşa, bircə yüngülləşə...». Bütün bunları düşünə-düşünə özündən sonra bir dünya aydınlıq qoyub gedən səhər dumanından gözlərini çəkəmmirdi.

Qocanın ağlına da gəlmirdi ki, bağın-bağçanın, göylüyün, sututar yerlərin üstüylə ağır-ağır çıxıb gedən bu duman onun ömrünə çökən sonuncu dumandı.

*1984, Bakı*

Thank you for trying Solid PDF

# YARPAQSIZ BUDAQLARIN YAŞIL NƏĞMƏSİ

Qara zurnanın səsi adamları evdən bayıra çıxarır, sehr kimi, tilsim kimi çəkə-çəkə toy evinə gətirirdi. Ayaqlar qarışqa kimi bu səsin qaynadığı yurda tələsirdilər.

Sona qarı mağarın bir güncündə əlləri qoynunda bitib durmuşdu. Üzünə, gözlərinə dünyanın əzabı çökmüşdü. Qara zurnanın səsi qara yel kimi içərisini dalğalandırırdı. Bir az qabaq bu səs onu da yatağından qaldırıb xəstə-xəstə mağara çəkib gətirmişdi. Ancaq indi qarı onu xəstə yatağından qoparıb gətirən zurna səsini eşitmirdi, tamam özgə, indiyəcən eşitmədiyi uzaq bir səs eşidirdi.

Onu heç kəs toylarda gördüyünü xatırlayammazdı; mağarda görünməz bir yerdə dayanar, gizlin-gizlin qulaq asar, sonra da xəbərsi-ətərsiz çəkilib gedərdi.

Sona o səsin sehrinə düşüb hər şeyi unutmuşdu. O səsdən savayı heç nə eşitmirdi, eşidəmmirdi. ...O səs hayandan gəlirdi belə? Birdən-birə xəyalı körpəliyinə uçdu, yaddaşının ən uzaq torpanlıqlarında ay doğdu.

... Günəşli bir yaz günü, ağacların ağ-çəhrayı çiçəklər gətirən vaxtı balaca Sona uşaqlarla gizlənparç oynayırdı; qaçıb tut ağacının iri yaşıl yarpaqlı budaqları arasında gizlənmişdi, nə qədər axtarırdılarsa, tapammırdılar onu.

Bu, indiki kimi yadındaydı.

Sonra uşaqlar onu axtara-axtara düzü-dünyanı yorub əldən-ayaqdan salmışdılar. Kor-peşman evlərinə dağılışmaq istəyəndə Sona qışqıraraq özünü budaqların arasından yerə buraxmış, güllü çit donu quru budağa ilişib cırılmış, müvazinətini itirərək boynu üstə yerə gəlmişdi.

Bunlar da yadındaydı.

Sağalandan sonra Sona yenə gizlənparç oynayırdı. İllər ötdükcə uşaqlar biri-birinin bəhsinə böyüyürdülər, təkcə Sona böyümürdü, boy əvəzinə belinin qozu dikəlib qalxırdı.

İndi o günləri xatırlaya-xatırlaya ürkək-ürkək mağarı süzürdü. Gəlini üzü duvaqlı yuxarı başda sağdışla soldışın ara-

Thank you for trying Soda PDF

sında oturtmuşdular. Tanıdığı, bildiyi yaxın, doğma adamların içərisində birdən-birə qərib bir tənhalıq duydu. Qayıtmaq istədi, qaçmaq istədi, qoyub gəldiyi ölüm yatağının soyumasından qorxdu, ancaq bu qorxu, bu təlaş bircə an çəkdi, yenidən o səsin, o havanın sehrinə düşdü.

O səsi nə vaxt idi eşitmirdi Sona. O səs ruhuna, qəlbinə yayıldıqca dünyanın üzünə, gözlərinə çökmüş əzabı kölgə kimi, duman kimi çəkilib gedirdi. Sona qarı cavanlaşırdı, gözəlləşirdi. Elə bil toyu Qara Səmidin oğlu Lətiflə naxırçı qızı Gülsümə çalmırdılar, Yetim İsmiylə ona çalırdılar.

Ağappaq ay işığına bürünmüş bürkülü bir avqust gecəsi bir zaman yıxıldığı həmin iri yaşıl yarpaqlı tut ağacının altında Yetim İsmi onunla halallaşmışdı. Yetim İsmi davaya gedəndə bərk-bərk tapşırmışdı ki, gözləsin onu, qayıdacaq, qayıdannan sonra işləyib pul yığacaq, ev tikəcək, əməlli-başlı toy çaldıracaq. İndi Sona qarı birdən-birə Yetim İsminin davadan qayıtmadığını unutmuşdu. Yetim İsmini gözləyə-gözləyə qoz belinin bir az da büküldüyünü unutmuşdu.

Sonanın yaşıdlarından kimsə sağ qalmamışdı; təkcə o, Yetim İsmini gözləyə-gözləyə ömürdən bir az da möhlət istəmişdi. İndi o möhlət nə vaxtdan bəriydi qurtarmışdı, altı ay idi ki, Sona gözlərini yollardan yığmışdı, dünyaynan halallaşıb ölüm yatağına bürünmüşdü.

Qara zurna göynədə-göynədə çalırdı. Qızlar, gəlinlər əl-ələ, qol-qola yallı gedirdilər. Sona qarı heç kəsi görmürdü və heç kəs Sonanı görmürdü. O hava iliyinə qarışıb sümüklərinə yayılırdı, sümükləri öz-özünə oynayırdı.

Qara zurna oynayanları bir-bir yorub ortadan çıxarır, süst halda oturacaqlara salırdı.

Meydan tamam boşalmışdı. Zurnaçı Qara dərdli bir hava çalırdı. Elə dərdli çalırdı ki, elə bil qara zurna puçur-puçur yarpaqlayacaqdı. Elə dərdli çalırdı ki, oynamaq istəyənlər havanın sehrinə düşüb özlərini unutmuşdular, oynamaq yadlarına düşmürdü.

Handan-hana zurnaçı yorulub dayandı.

Sona qarı yerində dayana bilmirdi, əli-qolu, ayaqları oynayırdı, ürəyi oynayırdı, gözləri, bəbəkləri oynayırdı. Sona qarı

nə illah eləyirdisə, özünü saxlaya bilmirdi. Və bir də gördü ki, meydanın ortasındadı. Qozbel Sona çalğısız oynayırdı. Zurnaçını da heyrət götürmüşdü; zurna dizinin üstündə ağzı açıla qalmışdı, bilmirdi gülsünmü, ağlasınmı, yoxsa çalsınmı?

Zurnaçı birdən-birə özünə gəldi, qarının oyununa uyğun çalmağa başladı, ancaq qarının havasını tapammırdı, qarı öz havasına oynayırdı, o havanın səsinə oynayırdı. O havanı heç bir alətdə çalmaq olmazdı.

Sona gəlinlə üzbəüz dayanıb oynayırdı. Elə bil gəlini qovub mağardan çıxarmaq istəyirdi, ancaq çıxarmırdı. Elə bil keçib gəlinin yanında oturmaq istəyirdi, oturmurdu.

Naxırçı qızının gözlərindən gildir-gildir yaş tökülürdü. Ancaq bu göz yaşları duvağın altından görünmürdü. Kimsə gəlib Sonanın qolundan tutmalıydı, tutmurdu. Kimsə gəlib Sonanı çəkib mağardan çıxarmalıydı, çıxarmırdı, hamı heyrət içində bu oyunun sonunu gözləyirdi.

Qarı oynadıqca mağarın qırışığı açılırdı. Və birdən qarı oynaya-oynaya gülməyə başladı. Yavaş-yavaş camaat da ona qoşuldu. Səs-küy mağarı bürüdü. Qarını görənlər uğunub özlərindən gedirdilər. Sona qarı qəhqəhə çəkə-çəkə oynayırdı, dünya dağıla vecinə deyildi. Zurnaçı hələ də qarının havasını tapammamışdı, qəribə, əcaib bir şey çalırdı. Sonra qarı oynaya oynaya mağardan çıxdı. Oynaya-oynaya həyət qapısından çıxdı. Oynaya-oynaya kəndi kəsib keçən ağ yola çıxdı.

Toy camaatı Sona qarının dalınca düşdü. Sona ayaqyalın oynayırdı, cırıq qaloşları çıxıb hardasa qalmışdı, köhnə, qara örtüyü boynundan düşmüşdü, bir çəngə ağ yumaq saçları pırpızlanıb durmuşdu.

Zurnaçı Qara əcaib havasını çala-çala qarıya çatmaq istəyirdi, ancaq çatammırdı. Camaat Sonanı qaytarmıq istəyirdi, ancaq qaytarammırdı. Sona qarı oynaya-oynaya gedirdi.

Sona qarı oynaya-oynaya birdən dikəlib durdu; kürəyindəki donqar tamam itdi. İndi dimdik oynayırdı, bayaqdan ikiqat bükülmüş qarı boylu-buxunlu bir arvad olmuşdu.

Sona qarının dikəlib durmağıyla zurnaçı Qaranın çaldığı o qəribə, əcaib hava dodaqlarında, barmaqlarının ucunda donub qaldı. İndi Sonanın qulaqlarında o hava daha aydın oxunurdu.

Thank you for trying Soda PDF

Və Sona bayaqkı dəli ehtirasla oynaya-oynaya elə bil ki, düzdən-dünyadan çıxmaq istəyirdi, sehr kimi, ruh kimi qeyb olmaq istəyirdi.

* * *

Sabah yer üzünə dünyanın ən qərib gecəsi doğacaqdı; axşamdan başlayan payız yağışları bir həftə ara vermədən tökəcək, evləri, ağacları, yolları başdan-başa yuyub çimizdirəcəkdi.

Sona qarı bunu bilmirdi.

Sabah gecə Yetim İsmi onu tut ağacının altına çağıracaq, qolları arasına alıb gildir-gildir tökən payız yağışlarının altında bütün gecəni ovunduracaqdı.

Sona qarı bunu da bilmirdi.

Sabah gecə soyuq payız yağışlarının altında tut ağacı son xəzəllərini töküb bir daha yarpaq gətirməyəcəkdi.

Sona qarı bunu bilməyəcəkdi.

*1985, Bakı*

Thank you for trying Soda PDF

## AXŞAM GÜNƏŞİ

Arvadının ölümü onun sakit, məcrasına düşmüş həyat tərzini birdəncə pozmuşdu. Bu ana qədər ömür, tale, dünyanın əvvəli-sonu barədə düşünməmişdi. Ancaq bu ölüm qaranlığa çıxılan şimşək kimi bir anlığa alışıb sönməklə dünyanın hansı səmtində olduğunu xatırlatdı.

Arvadının ölümündən sonra onu ən çox narahat eləyən anasız qalan uşağının taleyiydi. Nə yaxşı ki, hələ ağlı kəsmirdi, körpəydi, yoxsa onu ovundurmaq da bir iş olardı. Uşağı bağçadan çıxarıb kəndə, anasının yanına aparıb qoymuşdu. İndi ayda, iki ayda bir vaxt eləyəndə gedib baş çəkirdi. Bilirdi ki, anası körpəni ovcunun içində saxlayır. Uşaq da nənəsini çox istəyirdi, ancaq nədənsə dünyanın bərkinə-boşuna düşməmiş bu körpənin anasız olduğunu düşündükcə ona yazığı gəlirdi, özünə yazığı gəlirdi.

Metronun qabağı yenə qələbəlikdi. Qabaqda yanaşı addımlayan oğlanla qızın (metrodan indicə çıxmışdılar) söhbətini aydın eşidir:

– ...xəcalətimdən az qalırdı yer yarıla, girəm yerə.

Oğlan susurdu.

– ... sən qəsdən mənim valideynlərimi təhqir eləmək üçün seçib o adamları göndərmişdin.

Oğlan dillənmirdi.

– ... səndən keçəmmədim. Yoxsa gətirdikləri üzüyü çırpardım başlarına.

Belə söhbətləri heç vaxt unuda bilmirdi. Əksinə eşitdikləri beynində dolana-dolana, fırlana-fırlana doğmalaşırdı, gecə yuxularına gəlirdi. Sonra o adamlar yaddaşında nağıllaşırdılar, eşitdikləri ilə uydurduqlarını biri-birindən ayırammırdı.

Tanımadığı bu qızla oğlanın söhbəti bir anlığa onu keçmişə qaytardı. Onunçün dözülməz, qayıdılmaz olan bu ömür birdəncə ürəyini qüssəylə doldurdu.

Şəhərə gəldiyi ilk günlər Mehparə adında bir qızla tanış olmuşdu. Qız nişanlı ola-ola onunla görüşürdü. Bir həftənin içində ona elə isinmişdi ki, elə bil min ildi bir yerdə yaşa-

Thank you for trying Soda PDF

yırdılar. Qız: «Götür, hara istəyirsən apar məni, – o əclafın sifətini görmək istəmirəm. Bu yaxınlarda toyumuz olasıdı. Götür qaç məni, üççə gün saxla, sonra ürəyin necə istəyir, o cür elə, özgə heç nə istəmirəm».

Qıza yazığı gəlsə də kömək eləyəmməmişdi. Sonrakı taleyindən də xəbəri yoxdu. Tək bircə dəfə qucağında körpə küçədə rast gəlmişdi. Onda da yaxınlaşmamışdı. İstəməmişdi ki, xoş-naxoş taleyi ilə barışmış bu qadını uzaq, unudulmuş günlərin xatirələri ilə bu günündən ayıra.

Bu da mətbəənin binası – arvadının keçmiş iş yeri. Hər axşam bu binanın qabağından keçəndə adamların işdən çıxan vaxtı olur. Arvadını səhər-axşam işə aparıb-gətirdiyindən onu burda tanımayan yoxdu. İndi isə o adamlardan heç birisiylə üz-üzə gəlmək istəmir.

Ötən həftə arvadının rəfiqəsi Zəmişlə rastlaşdı. Salam verib keçmək istədi. Ancaq Zəriş onu saxladı, hal-əhval tutdu, uşağı soruşdu. O isə dinmədi, ağzını açıb bir kəlmə də danışmadı.

Bir vaxtlar Zəmiş tez-tez onlara baş çəkərdi; bayramları bir yerdə keçirərdilər. Arvadının ölümündən sonra isə Zəmiş bircə dəfə də olsun onlara gəlməmişdi. Eləcə hərdən bu yolda, işdən çıxan zaman üz-üzə gəlirdilər. Çox vaxt da başını aşağı salıb keçmək istəyirdi. Keçmişlə bağlı heç nəyi xatırlamaq, heç kəslə üz-üzə gəlmək istəmirdi.

Ancaq olmurdu. Hərdən lap tanımadığı, ancaq sifətinin hansı cizgisisə tanış olan bir kəslə rastlaşanda da qeyri-ixtiyari ötən illərə qayıdırdı, arvadıyla birgə yaşadığı günləri xatırlayırdı.

Bu da doğum evi... Hər dəfə o məşum ölümü yaddaşında təzələyən doğum eviydi, tərs kimi də işə gedib-qayıdanda yolu burdan keçirdi.

İlki doğulanda bərk qar yağmışdı. Səhər obaşdannan gəlib kəsdirmişdi xəstəxananın qabağını. Qızı olduğunu eşidəndə dilxor olmuşdusa da, bir elə fərqinə varmamışdı. Ömrün hələ erkən çağlarını yaşadıqlarını, həyatın acılı-şirinli günlərinin qabaqda olduğunu düşünməklə təsəlli tapmışdı.

Hər gün gətirdiklərini məktubla birlikdə qapaçıya verir, qapıçı da arvadından cavab gətirirdi; beləcə məktublaşırdılar.

Ötən həftə kağız-kuğuzlarının arasından arvadının qayğıyla qoruyub saxladığı o məktubları tapmışdı. Arvadı yazırdı ki, pul göndərsin, bəri başdan tibb bacılarına versin ki, uşağın göbəyini sağalmamış qoparıb muştuluğa gəlməsinlər. O da pulsuzluğunu bəhanə gətirərək yazırdı ki, həkimə pul vermə, ən çətini uşaq oluncadı, uşaq doğulub qurtarandan sonra day nə pul, nə filan, mən lap söküldüm-dağıldım ki...

Uşaq doğulanda bayırda dayanıb gözləməmişdi. Doğuşdan sonra arvadı o qədər qan itiribmiş ki, təcili qan vurmalı olublar. Tərslikdən xəstəxanada həmin qrupdan qan yox imiş. Qapıya çıxıb onu axtarıblar, tapa bilməyiblər. Sonra hansı tibb bacısısa insafa gəlib öz qanından xəstəyə vurulmasına razılıq verib. «Görəsən, o tibb bacısı yenə işləyirmi?.. Yadına düşürmü ki, bir vaxt ölüm ayağında kiməsə qan verib, həyat verib...».

Arvadı sonralar bütün bunları – həmin gün onu xəstəxanaya atıb qayıtdığını, gecə heç olmasa, bir telefon zəngilə hal-əhval tutmamasını üzünə vurmamışdı.

İkinci uşaq doğulanda arvadını kəsib doğramışdılar. Gecənin bir vaxtı doğum evindən maşınla gəlib onu aparmışdılar. Həkim uşağı (özü də oğlan uşağı imiş) çıxarmaq üçün cərrahiyyə əməliyyatı aparmış və iş bitməmiş arvadı keçinmişdi. Onda da nə illah eləmişdisə, onu doğum evinə buraxmamışdılar. Meyiti xərəkdəcə gətirib maşına qoymuşdular.

Bu xəbər elə qəfil, elə gözlənilməz idi ki, inanmağı gəlməmişdi. Xərəkdəcə gətirilib maşının bir küncünə qoyulmuş meyitə baxdıqca, ona elə gəlirdi ki, dəhşətli, amansız bir yuxu görür. Çünki ölüm bu cür qəfil, gözlənilməz şəkildə insan ömrünə daxil olammazdı, insan ölümə hazırlanmamış təslim ola bilməzdi. Ona elə gəlirdi ki, indicə arvadının həmişə düşüncəli olan göz qapaqları aralanacaq, o, qüssəli baxışlarıyla heyran-heyran onu – öz ərini süzəcək. Bu baxışlarda həmişəki heyranlıqla yanaşı, yüngül məzəmmət sezilsə də, o bunu heç vaxt dilinə gətirməyəcək, üzə vurmayacaq, əksinə böyük bir günah işləyibmiş kimi üzrxahlıq eləyəcək. Deyəcək ki, «...bağışla məni, sənə oğlan doğmaq istəyirdim. Bacarmadım, neyləyim ki,

bacarmadım... Elə bilirsən sənin nə düşündüyünü, nə istədiyini bilmirdim?.. Dedim, çox yalvardım ki, uşağı nə yollasa xilas eləsinlər. Ancaq eşitmədilər mənim sözümü. Gözümün qabağındaca tikə-tikə doğradılar. Məni baxmağa qoymurdular. Gözlərimin qabağına pərdə,ağ pərdə çəkmişdilər. Sonra o pərdə dönüb qıpqırmızı oldu. Ancaq pərdədən də görürdüm. Görürdüm və bütün bədənimlə körpənin başına nə gətirdiklərini duyurdum. Qollarını kəsəndə qollarım tabdan düşdü, ayaqlarını kəsəndə gördüm ayaqlarım buza dönüb. Kəsib tikə-tikə buz kimi ləyənə tullayırdılar. Elə bil körpənin ürəyinə damıbmış. Həkim bıçağı əlinə götürən kmi elə qısıldı bətnimə ki, huşum başımdan çıxdı... Sonra körpənin qışqırığından başqa heç nə eşitmirdim».

Elə bil ölüm ürəyinə dammışdı, uşaq boynuna düşəndən qəlbiə qara bir vahimə dolmaqdaydı.

– Deyəcəm, məni on üçüncü plataya salsınlar. Keçən dəfə də o palatada yatmışam, – arvadı doğum evinə getməmiş belə deyirdi.

Bu dəfə də on üçüncü palataya düşmüşdü.

Bu bina onunçün sirr idi.

Bir vaxt arvadı bu binanın dəniz səmtindəki (arvadı pəncərədən görünən dəniz barədə heyranlıqla danışardı) on üçüncü palatada yatmış, nəfəsini bu otağın havasına qatmışdı. Hər dəfə doğum evinin qabağından keçəndə içəri girmək, bir vaxt arvadının qaldığı o palatanı, yatdığı çarpayını, şeylərini yığdığı balaca yemək dolabını, üstündə gəzdiyi döşəməni görmək istəyi dalğa kimi içərisində kükrəyib qalxır, ona əzab verirdi.

Qeyr-ixtiyari doğum evinin qabağında dayanıb durmuşdu. Yenə əvvəlki kimi qapılar bağlıydı. Xəstələrə görüşmək istəyənlər ora-bura vurnuxur, doğum evinin başına fırlanırdılar. Aşağıda, səkinin kənarında yaşıl rəngli bir maşın dayanıb gözləyirdi. Maşının yarıaçıq pəncərəsindən içəridə oturmuş qadının həyəcanlı sifəti ayın seçilirdi. İlki doğulanda o da beləcə yol maşını tutub arvadıyla uşağını doğum evindən çıxarana qədər burdaca gözlətmişdi.

Başını qaldıranda özünü giriş qapısıyla üzbəüz dayanmış gördü. Elə bil hansısa gizli bir qüvvə onu özündən alıb aparır, özgə heç nə barədə düşünəmmirdi.

Yavaşca qapını döydü. Cavab gəlmədi. Yenə döydü və çox keçmədən addım səsləri, sonra qıfıla salınan açar səsi eşidildi. Qapını açdılar.

Həminki qadın.. həminki tanış sifət... Nə desin? Necə anlatsın? Bilirdi ki, içəri girmək olmaz. Lap yəqin bilirdi ki, ağzını açan kimi qapını üzünə bağlayacaqlar və kim bilir üstəlik yağlı bir söyüş də eşidəcək. Ancaq bəs niyə dayanıb durur, niyə gözləyir?

Qapıçı qadın da dillənmirdi, eləcə mat-mat baxırdı. Qadının soyuq baxışlarından hiss elədi ki, onu unudub unutmayıbsa da, kim olduğunu xatırına sala bilmir. Ancaq bu soyuq baxışlara birdəncə uzaq, duyulmaz bir mərhəmət qondu. Ürəkləndi:

– İçəri keçmək istəyirəm, - dedi. - On üçüncü palataya, mümkünsə...

Qapıçı kənara çəkilib yol verdi.

Onunçün sirli, keçilməz olan bu qapının beləcə asanca açılacağına inanmırdı. Elə bil yadlaşıb tamam bambaşqa adam olmuşdu... O – özü isə bir kənara çəkilib bütün bu əhvalatlara tamaşa eləyirdi.

Pillələri qalxanda elə halsız idi ki, sanki uzun xəstəlikdən sonra yataqdan durmuşdu. Pilləkənin tutacağından yapışmasa, yıxılacaqdı. Yıxılacaqdı və bir daha ayağa qalxammayacaqdı.

Divarlar sirli olduğu qədər də ona tanış gəlirdi. Uzaqda, yarıqaranlıq dəhlizdə növbətçi tibb bacısı oturmuşdu. Palatanı soruşmağa ehtiyac yoxdu. Qapıların üstündə nömrələri aydın yazılıb: 7, 8, 9, 10... Üçüncü mərtəbəyə qalxmalıdı. «Nəydi görən o tibb bacısının adı? Bilsəydi soruşardı. İki il nə olan şeydi ki... Çox güman ki, hələ burda işləyər. Ancaq təəssüf ki, onun adını bilmir...».

...Qayıdıb təzdən pillələri qalxır: 11, 12 və nəhayət 13.

Bir anlığa hər şeyi unutdu. Ona elə gəldi ki, arvadı körpəsiylə birgə içəridə uzanıb, indicə qapını açan kimi onları görəcək. Əvvəlcə körpəsini qucağına alıb doyunca tamaşa eləyəcək, üzündə-gözündə özünə oxşar nişanələr axtaracaq. Sonra arvadıyla hal-əhval tutacaq. Arvadı onsuz korluq çəkib-çəkmədiyini soruşacaq, ev üçün burnunun ucu göynədiyini, lap yaxın

günlərdə xəstəxanadan çıxacağını bildirəcək... Çəkdiyi əzablar yuxu kimi, yorğunluq kimi unudulub gedəcək.

...Hiss elədi ki, bütün bədəni titrəyir.

...Qapını yavaşca döydü.

...İçəridən səs gəldimi, ya gəlmədimi?

...Heç nə eşitmədi.

...Yavaşca qapını itələyib açdı.

...Çarpayıda cavan bir qadın uzanmışdı.

...Keçib bir tərəfdə oturdu.

...Nə isə deməliydi, ancaq demədi.

...Qadın da nə isə soruşmalıydı, ancaq soruşmadı.

Balaca, səliqəli, bir adamlıq palataydı. «Deməli, arvadı bu çarpayıda yatıb, ağrılarını sakitləşdirmək üçün əllərini bu çarpayının soyuq dəmirinə söykəyib, yuxusuz gecələrində tavanın cizgiləri, nişanələri yaddaşına həkk olub, onun öz əlilə hazırlayıb gətirdiklərini bu otaqda yeyib, məktublarına cavabı burdaca yazıb…».

Əlilə çarpayıya elə toxundu ki, elə bil canlı kəpənəyə toxunurdu və bir andaca töküləcəyindən qorxurdu.

İndisə bu otaqda başqası yatır. Elə sakit, elə rahat uzanıb ki, iki il, lap elə iki həftə bundan qabaq burda kimlərinsə yatdığından xəbərsizdi. Bu anda, bu məqamda yalnız özünü, öz körpəsini düşünür. Bilmir ki, yer üzü təkcə özündən və körpəsindən ibarət deyil. Bilmir ki, uzandığı bu çarpayı da yaşadığı dünya kimi, ömür kimi müvəqqətidi, sabah burda bir başqası yatacaq, daha sonra başqa birisi... Bilmir ki, dünya min ildi kirkirə kimi fırlanır, fırlanır...

Təklif gözləmədən pəncərənin qarşısındakı kətildə oturmuşdu. Dəniz elə yaxın idi ki, ləpələrin titrəyişi də hiss olunurdu. Batmaqda olan günəşin qan rəngli şəfəqlərinin sındığı dənizin qoynunda bir gəmi dayanmışdı. Ləpələrin sığalladığı bu ağ gəmi dünyanın sonsuzluğunu, əlçatmazlığını xatırladırdı, ayrılıq gətirirdi, qüssə gətirirdi. Ona elə gəldi ki, o axşam o məsum körpənin hələ dünyanın havası toxunmamış bədəninə bıçaq yeriyəndə, günəş işığının bulandırmadığı duru gözləri açılmamış qapananda da dənizə belə sirli, möcüzəli bir qaranlıq çökməkdəymiş.

Dözə bilmədi, dayana bilmədi. Sanki hər şeyi gözlərinə, yaddaşına yığmaq üçün son dəfə... son dəfə otağı gözdən keçirib ağır-ağır qapıya yönəldi.

– Sizə kim lazım idi ki? - Qalxıb yatağının içində oturmuş qadın halsız-halsız soruşdu.

Səsdən diksindi. İçəridə adam olduğunu sanki indicə duydu.

Arxaya çevrilmədən:

– Heç kəs, - dedi, - daha heç kəs...

Qapını açıb dəhlizə çıxdı.

*1987, Moskva*

Thank you for trying Soda PDF

## XURMAYI SAÇLAR

Bizim qızlar yataqxanasına oğlan xeylağı buraxmırlar. İşdi şayətdi, qızları çağırmaq lazım olsa, burada yaşayanların birinə otağın nömrəsini, bir də çağıracaqları adamın adını deyirlər. Yuxarı qalxan tələbə də gedib çağıracağı adamın qapısını-filanı döyüb eləməz, elə dəhlizdəncə səsləyər. Nə isə bizim yataqxanada əzəldən qayda beləydi və tək-tək hallarda bu qayda pozulardı. Elə buna görə də yataqxanada bir nəfəri aşağı çağırsaydılar, beş mərtəbənin beşi də bu çağırışı eşidərdi.

Yataqxana həyatı bizə qəribə gəlirdi. Hər axşam kimisə, nə üçünsə aşağı səsləyəndə nədənsə ürəyimiz titrəyərdi. Aşağı çağırılanlara, həyətdə qoşa dayanıb pıçıldaşanlara həsədlə baxardıq. Onların adlarını bilməsək də, üzdən yaxşı tanıyırdıq. Bilirdik ki, filanksi filan otaqdan filan saatda çağırırlar. Filankəs heç vaxt yataqxananın qabağından əskik olmur, gələndə də, gedənlə də mırt vurur. Filankəsi isə heç vaxt çağıran olmur. Çağırılmayan qızlara ürəyimizdə acıyırdıq. Çünki onların nə sevgilisi var idi, nə dost-tanışı, nə də şəhərdə yaşayan qohum-əqrəbası.

Hər axşam yataqxananın bağlanmasına bir saat qalmış gediş-gəliş seyrələrdi. Bu vədə az-az hallarda qızları çağıran olardı. Tək bircə nəfərdən başqa.

Yataqxananın bağlanmasına bir saat qalmış həmişə bir oğlan gələrdi. Və bütün yataqxana bilirdi ki, o hər gecə bu vaxt qırx səkkiz nömrəli otaqda yaşayan bir qızı çağırır. Qızlar da bu cür çağırışa adət eləmişdilər. O desəydi də, deməsəydi də yataqxanının həyətində görünən kimi dəhlizdən həmin qızı səsləyərdilər. Ancaq qəribəydi, oğlan o qızı adıyla çağırmazdı, eləcə xahiş edərdi ki, qırx səkkiz nömrəli otaqdan bir nəfər çağırsınlar və bu çağırışı hamımız əzbər bilirdik. Çünki hər gün eyni vaxtda dəhliz boyu yayılan bu çağırışı eşidirdik:

– Qırx səkkizinci otaqdan bir nəfər!

Hər otaqda dörd qız yaşayırdı. Ancaq bu işarəydi, nədi, hər dəfə bu çağırışa xurmayı saçlı bir qız düşərdi. Bəlkə də oğlan onu adıyla çağırmağa utanırdı, ürək eləmirdi.

Thank you for trying Soda PDF

Bəzən bizi də tələbə yoldaşlarımız bu sayaq çağırırdılar. Bilirdik ki, məsələn, filan oğlan kitab üçün gəlib, ya bir başqası imtahan biletlərinin suallarını tapıb gətirib. Onda bizdən hansı birimiz olsa, düşərdik. Ancaq bu, ona bənzəmirdi.

Yataqxananın həyətində qapıdan xeyli aralı cavan bir akasiya ağacı vardı. Həmişə onun altına çəkilib söhbət edərdilər. Qapıçı qadın da onları tanıyırdı. Gecə yataqxanının bağlanmasına bir az qalmış onları özü səsləyərdi.

Beləcə aylar, günlər ötüşürdü. Bir gün oğlan gəlməyəndə darıxardıq, hətta ürəyimizdə qınayardıq da onu. Ta ki, saat on iki olub yataqxana bağlanana qədər qulağımız səsdə olardı. Qalxıb qarşıdakı oğlanlar yataqxanasına boylanardıq. Öyrənmişdik ki, hər gün o qızı çağıran qarayanız oğlan qarşıdakı yataqxanada yaşayır. Otağının pəncərəsini də tanıyırdıq.

Bir ara daha həmin vaxtlar yataqxananın uzun dəhlizi boyu yayılan o çağırışı eşitmədik. Fikirləşdik ki, ya oğlan xəstədir, ya da qızla aralarında nə isə olub – ürəyimizə min cür fikir gəlirdi.

Günlər ötürdü, ancaq oğlandan səs-soraq çıxmırdı. Oğlanın gəlişi üçün həsrət çəkirdik. Çünki onun gəlişi də, çağırışı da, o qızın xurmayı saçları da, həyətdəki tənha akasiya ağacı da bizim nəzərimizdə qeyri-adiydi.

Hər gün həmin vaxtlar pəncərədən akasiya ağacının altına baxırdıq. Orda onları görməyəndə kövrəlirdik, qəribsəyirdik. Nədənsə, onların taleyini öz taleyimizdən ayrı tuta bilmirdik.

Qapıçı qadın da hər gecə yataqxananın qapısını bağlamazdan qabaq akasiya ağacının altına baxırdı. Hiss edirdik ki, o da hər gün qapını bağlamamışdan qabaq onları səsləməyə adət edib. İndi orda olmasalar da gecə saat on ikiyə qalmış onların bir vaxt üzbəüz dayanıb pıçıldaşdıqları yerə baxır. Onu da hiss edirdik ki, bu adətini tərgitmək onunçün də çətindi.

Ancaq bir müddət sonra müxtəlif vaxtlarda həmin otaqdan xurmayı saçlı qızı adıyla çağırmağa başladılar. Bu çağırışa alışmamışdıq deyin, bizə elə gəlirdi ki, adıyla çağırmaq ona yaraşmır. O qızı adsız çağırmaq gözəl idi. Adıyla çağıranda elə bil o xurmayı saçların gözəlliyi, qəribəliyi itirdi.

Thank you for trying Soda PDF

Bu oğlan tələbəyə oxşamırdı. Ucaboylu, şıq geyimli bir adam idi. Daha xeyli aralıda akasiya ağacının altına çəkilməzdilər. Oğlanın eynən qızın saçları kimi xurmayı rəngli maşını var idi. Ertədən minib gedər, bir də yataqxana bağlanmağa az qalmış qayıdardılar. Çox vaxt da qayıtmaz, hardasa gecələyərdilər.

Qarayanız oğlanın gedişi ilə elə bil hər şey sirrini-sehrini itirmişdi. Akasiya ağacının altında başqa sakinlər görünməyə başlamışdılar. Ancaq akasiya ağacı elə bil qarayanız oğlanla xurmayı saçlı qızın boyuna biçilmişdi, başqa heç kəsə yaraşmırdı. Akasiya gecələr onların pıçıltılarını çox dinləmişdi. Və adama elə gəlirdi ki, özgə səslərə qulaq asmaq indi onunçün ağırdı, yaman ağırdı.

...Sonra mühazirələr, imtahan qayğıları. Özgə şeyləri fikirləşməyə vaxt qalmırdı. Olub keçənlər yaddaşın mübhəm qaranlıqlarında unudulmaq üzrəydi. Ancaq...

...Ancaq bir gecə gözlənilmədən o qızı həmin vaxtda, həmin çağırışla çağırdılar. Elə bil sakit dənizdə qəfil qasırğa qopdu. Qulaqlarımıza inanmadıq. Pəncərənin qarşısına yüyürdük. Həmin qarayanız oğlan idi, yenə akasiya ağacının altında, həmişəki yerində dayanmışdı. Bu vaxt ərzində xeyli dəyişmiş, arıqlamışdı, güclə tanımaq olurdu. Elə bil uzun sürən ağır xəstəlikdən sonra yataqdan qalxmışdı.

Gözləyirdik ki, indicə qız həyətə enəcək, heç bir şey olmayıbmış kimi yenə akasiya ağacının altına çəkiləcəklər. Yenə qapıçı qadın saat on ikiyə qalmış onları səsləyəck. Yenə...

...Ancaq qız aşağı düşmədi. Oğlan yataqxana bağlanana kimi gözlədi, sonra ağır addımlarla çıxıb getdi.

Daha bir də həmin vaxtlar o çağırışı eşitmədik.

*1982, Bakı*



Thank you for trying Soda PDF

## XALLI

Ananın sonbeşiyi doğulanda qışın oğlan çağıydı. Bayırda qar əlçim-əlçim ələyirdi. Külək həyət-bacanın qarını sovurub evin buz bağlamış pəncərələrinə çırpırdı.

Körpənin çığırtısına hamısı ayılmışdı. Otağın zülmət qaranlığında göz-gözü görmürdü. Ata qaranlıqda o yan bu yana vurnuxur, kibriti axtarırdı, elə bil kibrit yağlı tikə olub göyə çəkilmişdi, tapılmaq bilmirdi ki, bilmirdi.

Ev soyuq olduğundan uşaqlar yalın köynəkçədə tir-tir əsirdilər, ancaq qorxularından nəfəslərini içəri çəkib durmuşdular. Axır ki, ata kibriti tapıb çırağı yandırdı. Otaq çırağın titrək alovuyla alayarımçıq işıqlandı.

– Niyə xəbər vermədin, gedib Nazlını çağırardım, – ata üstündən ağır yük götürülübmüş kimi deyir və qan içində olan körpəni ağ mələfəyə büküb ananın qoynuna salır.

– Bu qarda-çovğunda əziyyət vermək istəmədim, – ana yorğun-yorğun dillənir. Ancaq əsl səbəbini özü də bilmir.

– Oğlandı! – ikisi də birdən deyir.

Ortancıl qız, hələ nə baş verdiyini anlamamışdı. Əskiyə bükülmüş körpəni görəndə uşaq marağını öldürə bilmədi, yatağın üstünü kəsdirdi. Anası acıqla:

– Yeri, yıxıl yat, - dedi, - bu nə vaxtın durmağıdı...

Qız anasının hirslənəcəyindən çəkindiyindənmi, yoxsa gecənin bu vədəsi baş vermiş bu gözlənilməz hadisənin vahiməsindənmi, səsini çıxarmadı.

Gecə yarıdan keçmişdi. Külək get-gedə güclənirdi. Ata odun dalınca çıxdı və çox keçmədən qucağında qarı çırpılmış bir neçə yarma ilə qayıtdı. Az sonra dəmir soba gurhugurla yanmağa başladı. Sobanın istisi otağı isitdi, pəncərələrin çirkli şüşələri tərdən dumanlandı.

Uşaqlar alt paltarında ananın yastığının üstünü kəsdirmişdilər. Ata acıqlanıb onları yatağa girməyə məcbur elədi. Uşaqlar yerlərinə girsələr də, heç biri yatmaq istəmirdi, qorxu qarışıq maraq hissi onları bürümüşdü.



Thank you for trying Soda PDF

Ata ələyi küncdən alıb taxta tabaqda un ələməyə başladı. Bu çağa kimi uşaqlar elə bilirdilər ki, un ələməyi təkcə anaları bacarır və bütün bu sayaq işləri yalnız o bacardığı üçün o da eləyir.

Unu elədikcə kişinin bədəni yırğalanırdı, çırağın işığında onun kölgəsi divarda eybəcər bir mənzərə yaradırdı və bu mənzərə böyüyüb kiçildikcə sanki otağa qəribə bir vahimə dolurdu.

Sonra qazança gətirib quymaq çalmağa başladı.Uşaqlar atanın xörək bişirməyinə heyrətlə tamaşa eləyirdilər.

Ata xörəyi bişirib bir nimçə arvadına içirəndən sonra sobaya iri bir yarma atıb yatağına girdi.

...Səhər uşaqlar yuxudan qalxanda günorta üstüydü. Qar düzü-dünyanı tutmuşdu. Ana yerinin içində mütəkkəyə dirsəklənib gözünü pəncərəyə zilləmişdi. Üz-gözündən narahatlıq tökülürdü. Uşaqlar yerindən qalxan kimi əlilə sobanın altını böyük qıza göstərib:

– Götür o murdarı ordan rədd elə! - dedi. - Sonra da acıqla əlavə etdi. -Vaxt tapdı o da...

Qız sobaya yaxınlaşdı. Xallı pişik doğmuşdu. Dörd dənə balası bir-birnə elə sarmaşıb durmuşdu ki, elə bil bir can idi. Hələ gözlərini aça bilmirdilər.

Ananın pişikdən zənd-zəhləsi gedirdi: Xallını da əlacsızlıqdan evə buraxmışdılar, çünki siçan göz verib işıq vermirdi.

Nənəsi danışırdı bunu: bir kişinin züryəti olmadığından gecə-gündüz oturub allaha dua eləyirmiş ki, ona övlad versin. Kişinin həyətində iti və pişiyi də varmış; bunlar da öz heyvan dillərində sahiblərinə övlad diləyirmiş. Guya it deyirmiş ki, kaş sahibimin yeddi igid oğlu olsun, hərəsi mənə bir parça əppək versə, şad-xürrəm ömür sürərəm. Pişik isə yalvarırmış ki, allah sahibimə yeddi kor qız qismət eləsin, hərəsinin əlindən bir tikə çörək qapıb yesəm, bəsimdi... Doğruydumu, yalanıydımı, bunun fərqinə varmaan ta zamandan pişiyi görən gözü yox idi.

Qız bir söz demədən pişiyin balalarını torbaya yığıb tövləyə getdi. Çölə atsaydı, o saat donub ölərdilər. Hər tərəf bəmbəyaz qar idi. Tövlənin samanlığında bir yer düzəldib balaları ora qoydu. Xallı pişik miyoldaya-miyoldaya qarabaqara qızın

dalınca gəlirdi. Qız bütün günü pişiyin yanından əl çəkmədi. Hərdən anasının gözünü oğurlayıb pişiyə çörək, ət parçası apardı, balaların altına əski döşədi.

O gün ata işdən ertə qayıtdı. Qucağında meyvə, konfet və başqa bahalı hədiyyəlrlə dolu kağız torba vardı. Gözləri gülür, körpə uşaq kimi sevinirdi. Bu neçə ildə ilk dəfəydi onu sevinən görürdülər. Alnının qırışları itmiş, gözləri yollardan yığılmışdı – oğlu olmuşdu – dörd qızdan sonra birinci oğlu. Ana da gülümsəyirdi. Gözləri ərinə dikilib qalmışdı, heyran-heyran baxırdı.

Ata iştahla papirosunu sümürürdü, Üz-gözündən elə bir öyüngənlik tökülürdü ki, sanki körpəni arvadı yox, özü doğmuşdu. Yerindən qalxıb uşağı qucağına aldı, əlilə üzünü açdı, xeylaq gözlərinə baxıb:

– Yaxşı oğul dayısına çəkər deyiblər, - dedi, - elə bil bir almadı yarı bölüblər.

Gecə ər-arvad xeyli pıçıldaşdılar. Ata əzəlki kimi zəhmli, əsəbi səslə danışmırdı, körpə doğulandan yumşalıb piləyə dönmüşdü.

Ana:

– Pişik də vaxt tapdı doğmağa. Qorxuram uşağın başına bir iş gələ:

– Eh,- dedi əri, - sən də fanatik olub getmisən.

Səhər böyük qız anasının səsinə oyandı, yuxulu-yuxulu sobaya tərəf baxdı. Xallı pişiyin balaları sobanın altında idi. Qəribəydi, pişik balalarını bu qarda-çovğunda tövlədən evə necə gətirmişdi? Hardan yol tapıb evə girə bilmişdi? Pişiyə yazığı gəldi, istədi anasına yalvarsın ki...

– O murdar olmuş götür çırp qarın içinə, - arvadın acıqlı səsi eşidildi.

Ağzını açıb bir söz deyə bilmədi. Sakitcə balaları torbaya yığıb yenə tövləyə apardı, samanlıqda düzəltdiyi yuvacığa qoydu. Xeylaq onlarda əyləndikdn sonra evə qayıtdı ki, anasından gizli bir qədər çörək də gətirib pişiyə versin. Anası onu odun dalınca göndərdi, sonra sobanı yandırmağı tapşırdı. Yalnız bundan sonra bir qırıq çörək götürüb tövləyə qaça bildi.

İçəri girəndə heyrətindən yerində dondu: Xallı pişik balalarını yeyirdi.



Thank you for trying Soda PDF

Ağacı götürüb pişiyin üstünə cumdu. Xallı quyruğunu ox kimi dikəltdi, tüklərini qabardıb vəhşi səslə miyoldadı. Gözləri pişiyin qan çanağına dönmüş gözlrinə sataşınca əti ürpəşdi. Ağacı atıb evə qaçdı:

– Məmə, ay məmə, gəl qoyma, pişik balalarını yeyir!

Ana diksindi. Qəfildən körpə də qışqıra-qışqıra ağlamağa başladı. Ana körpəni ovutmaq üçün qucağına aldı. Qız anasını gözləməyib tövləyə qaçdı.

Xallı pişik balasının üçünü yemişdi. Əlinə keçən kərpic parasını götürüb pişiyə sarı tolazladı. Kərpic pişiyin yanından ötdü. Pişik axırıncı balasını dişinə alıb göz qırpımında tövlənin damına sıçradı.

... O gündən pişiyin ayağı evdən kəsildi. Ana tutduğu işdən peşman olmuşdu, ancaq peşmançılığını üzə vrumurdu.

Bacılar axşama kimi körpə qardaşlarının yanından əl çəkmirdilər, pərvanə olub başına dolanırdılar. Ana körpənin biləyinə gözümüncuğu taxdı. Evə yad adam gələndə başına duz dolayırdı ki, gözə gəlmsin, yatıranda yastığı altına çörəkotu qoyurdu ki, qorxmasın.

Xallı pişik yavaş-yavaş unudulurdu.

Bir səhər ana malları sulayıb tövləyə salandan sonra böyük qızı səslədi. Qız baldırlarına kimi uzanan rezin kişi çəkmələrini geyib həyətə düşdü. Ana sakit səslə:

–Xallı tövlədədir, samanlıqda yatıb, - dedi.

Qız sevindi, iri çəkmələri sürüyə-sürüyə tövləyə getdi. İçəri qaranlıq idi. Divardan tuta-tuta irəlilədi. Yavaş-yavaş gözləri qaranlığa alışdı. Samanlığa çatanda birdən yerində dondu. Xallı pişik samanlıqda, balaları üçün düzəldilmiş yuvada ölmüşdü. Hıçqırıq qızı boğdu.

Handan-hana özünə gələrək bayıra çıxdı.

Qar havasıydı. Soyuqdan adamın bəbəkləri donurdu. Külək evin novçalarınan sallanan sırsıraları qırıb tökürdü.

*1986, Bakı*

Thank you for trying Soda PDF

## İLAN ƏFSANƏSİ

İsti səhra küləyi qalxdı. Qum dənizi dalğalandı. Dəli boğanaq göz qırpımında pul kimi qızarmış qum zərrələrini havaya sovurdu. İlan dayandı. Küləyin üstünə tökdüyü isti qumun altından sürünüb çıxdı. Boğanağın yatmasını gözlədi.

Handan-hana külək öləzidi. Səhra küləyin qaldırdığı qum dumanından təmizləndi.

Günəş od püskürürdü. Hava təndir içi kimi bürküydü. Nəfəs alanda ilanın ciyərləri qarsır ani, hərarətdən beyninin yağı qaynayırdı.

Qarşıda bomboz səhra uzanırdı. Bu yolun nə sonu, nə səmti bəlliydi. Bu yol həyatamı aparırdı, məzarımı, suyamı aparırdı, təşnəliyəmi? İlan bunu bilmirdi.

Birdən ilan dayandı. Başını yerdən qaldırıb ətrafını dinşədi. Səs-səmir eşidilmirdi, ağır səhra sükutu çökmüşdü. Dilin çıxarıb qərib-qərib mələdi. Hardasa yaxınlıqda ilanın səsinə hürküşüb yuvalarına dürtüşən yekəpər səhra siçovullarının ciyiltisi eşidildi. Sonra yenə səssizlik ətrafı bürüdü. İlan bir də, bir də mələdi.

Səhra uzanırdı. Dayanmadan sürünmək artıq ilanı yormuşdu. İsti qum bədənini sürtüb qançır eləmişdi. Qabıqdan çıxmaq istəyirdi. Köhnə qabıq bədənini qıdıqlayır, əziyyət verirdi.

Qumun üstündə yumaq kimi bükülüb açıldı, sonra özünü qısıb yavaş-yavaş irəli dartındı. İlanın bozumtul, köhnə naxışlı qabığı sürüşüb yağlı bədənindən çıxdı. İlan bir müddət köhnə qabağını süzdü, süzdü. Kim bilir, neçənci dəfəydi ki, beləcə donunu dəyişirdi. Deyəsən, bu sonuncusuydu. İlan bunu hiss eləmişdi. Sonuncu don, sonuncu qabıq.

İlanın başından tüstü qalxdı. Qıvrıldı. Günün işığında balıq pulunu xatırladan təzə dərisi parıldadı. İlan bir də, bir də qıvrıldı. Sonra taqətsiz halda yenidən sürünməyə başladı.

İlan səhra rəngindəydi. Səhra da ilan rəngində. İlanla səhranı bir-birindən ayırmaq olmurdu. Səhra da bozuydu, ilan da. Hava da bombozuydu, ağ karvan buludlar bulanıb səmanı boz rəngə boyamışdılar.

Təzə qabığı istiyə dözmürdü. Dərisi göynəyirdi. Səhra yolu isə uzanırdı. İlan qət eləmişdi ki, bu yolun sonu yoxdu, bu yol sonsuzluğa, intəhasızlığa aparır.

Hərdən dayanıb nəfəsini dərirdi. Sonra yenə qançır olmuş bədəni taqətdən düşənə kimi sürünürü.

Günəş sürətlə qüruba enirdi. Qarşıda ilanı yuxusuz səhra gecəsi gözləyirdi. İlan bilirdi ki, bu gecədən sonra yenə səhər açılacaq, yenə səhranı odlara qalayan günəş doğacaq, yenə onun əzabları başlayacaq. Yenə səhra uzandıqca sürünəcək.

Artıq ilan insansız bir yer tapmağa ümidini itirmişdi. Ötən həftə səhrada qoşa palma ağacının dibindəki dəvəni və kölgədə uzanıb yatmış ağ çalmalı adamı görəndən sonra. İlan bilirdi ki, insan onun ağına da lənət deyib, qarasına da. Oydu ki, ilan baş götürüb insanlardan qaçırdı. Çalmalı adam ilanın qardaşlarının qatilinə necə də bənzəyirdi. Ax! İlanın qəlbi insanlara sonsuz nifrət hissiylə doluydu. Bu nifrət onun nazik quyruğundan tutmuş xəncər dişlərinə qədər bütün vücudunu bürümüşdü. Bu nifrət ilanın xırda, duru gözlərində oynayırdı, zəhərinə qarışıb qaynayrıdı. Bu nifrətin ağırlığı bir özünə bəlliydi, bir allahına.

Neçə gün, neçə gecəydi dayanmadan sürünürdü. Daha dözümü, taqəti qalmamışdı. Bütün vücudu ağlamaq üçün dolmuşdu, ancaq ağlayammırdı. Nə illah eləyirdisə, gözlərindən yaş çıxmırdı, gözlərindən yaş qalmamışdı.

İlan qorxdu. Belə ağlamaq olmazdı, belə ağlamaq olmurdu. İlanın bəbəkləri quruyurdu, gözləri yaş üçün göynəyirdi.

Hiss eləmişdi ki, bu gecə onun ömrünün son gecəsidir. Bu gecədən sonra daha bir də gecə üzü görməyəcək, gecələrə əbədi həsrət qalacaq. İndi neyləsin? Bu gecəni yatsınmı, yoxsa gecənin qaranlığına, sərinliyinə, ulduzlarına tamaşa eləsin? İlan ömrünün son gecəsi bildiyi bu gecəni yatmaq istəmirdi.

... Ancaq yatdı. Yuxuda yenə səhranı gördü. Uzaqda qumun səthində kiçik nöqtə boyda nə isə qaralırdı. O, qara nöqtəni tutub sürünməyə başladı. Qara nöqtə qara daşıydı; daşı yalamağa başladı. Daş su təmi verirdi. İlan yaladıqca yalayırdı. Birdən yaladığı yerdən su fışqırdı. İlan dəli kimi suyu içməyə



Thank you for trying Soda PDF

başladı. ...Ancaq doymurdu, içdikcə içirdi. İlan gördü ki, içmək-lə doyası deyil, sürünüb bulağın gözünə girdi.

Yuxudan ayılanda gün yenicə üfüqdən boylanırdı. Gecənin sərinliyi hələ səhranın canından çıxmamışdı.

İlan neçə günüydü nə bir insan həniri, nə bir zınqrov səsi eşidirdi. Səs üçün qəribsəmişdi, yaman qəribsəmişdi. Səhranın dəli sükutu qulağını dəlirdi.

Aclığını büsbütün unutmuşdu. Susuzluq onu əldən salırdı. Səhranınsa sonu görünmürdü. Elə he sürünürdü.

İlanın gözləri iri, boz səhra siçovulunu qumdan zorla seçdi. Bütün gücünün toplayıb siçovulun üstünə sıçradı. Xəncər kimi dişlərini siçovulun piyli hulqumuna yeritdi. Siçovul xeyli çırpındı, ancaq hulqumunu ilanın xəncər dişlərindən xilas edə bilmədi.

İlan ağzını siçovulun hulqumundan fışqıran qanın altına tutdu. Qanı su yernə içməyə başladı. Susuzluğunu qanla söndürmək istədi. Qan istiydi, ürəkbulandıran qoxusu vardı, ancaq ilanın susuzluqdan zəban çəkən ciyəri bu qoxunu, bu istiliyi hiss eləmirdi.

İlan siçovulun bütün qanını içdi. Sonra özü də siçovulun meyiti yanında süst düşdü. İlanın qarnı köpmüşdü. İçdiyi qan ona əziyyət verirdi, mədəsi az qala ağzına gəlirdi. Öyüdü, qıvrıldı, qusmağa başladı. Qusduqca köpüklü qan ağzından tökülüb isti quma hopurdu. Sonra ilan taqətsiz halda uzanıb qaldı. Gün bədənini yandırırdı. Dayanıb qalsa isti qumda bişib kababa dönərdi. Yenə sürünməyə başladı.

Səhra bozarırdı. Alçaq-hündür qum təpələrindən başqa gözə dəyəsi bir şey yox idi.

Ancaq görürdü ki, daha sürünə bilmir. Bədənini sürüyüb aparmağa qüvvəsi qalmamışdı. Get-gedə günəş daha şiddətlə yandırırdı. İlan əzablardan qurtarmaq istəyirdi, rahatlanmaq istəyirdi. İndi nə irəli getməyə ümidi, nə geri dönməyə taqəti vardı. Bəs necə qurtaracaqdı bu əzablardan, işgəncələrdən?

Birdən ağlına qəribə bir fikir gəldi. Bəlkə öz zəhərini udsun... O zəhər ki tökdüyü bütün canlılara əbədi bir rahatlıq verirdi, nədən özünə verməsin... Ağlına gələn bu fikirdən bir qədər yüngüllük duydu. Və öz zəhərini udmağa başladı.



Thank you for trying Soda PDF

Zəhər bağırsaqlarını yandıra-yandıra gedirdi. Mədəsinə çatanda sancısı qalxdı. Sancının ağrısından ilan qıvrılırdı. Elə qıvrılırdı, sanki içərisini didim-didim eləyir, içalatını dəmir qarmaqla çəkib ağzından çıxarırdılar. İlan qıvrıldıqca sanki bu ağrı öləziyirdi, azalırdı. Sonra zəhər mədəsindən damarlarına keçib vücudu boyu axdı.

İlkindi vaxtıydı. İlanın gözləri saralmış, duruluğunu itirmişdi. Ancaq hələ ölməmişdi. Axşam gözləyirdi. Ulduzunu görməmiş ölə bilməzdi.

... Gecə səmada iri-iri ulduzlar doğdu. İlan axtarıb bəxt ulduzunu tapdı. İşıqsız gözlərilə öz ulduzunu süzdü, süzdü. Sonra yavaşca başını isti qumun üstünə qoyub gözlərini yumdu.

*1985, Kürdəmir-Bakı*

Thank you for trying Soda PDF

## ADA

...Çəpik səslərinə diksinib gözlərini açdı.

...Alnını, gicgahlarını soyuq tər basmışdı.

...Qulaqları uğultudan gizildəyirdi.

...Harda olduğunu, səsin hayandan gəldiyini kəsdirənəcən xeylaq çəkdi. Səs yenə o səmtdən, prezident sarayından gəlirdi.

...Qaranlığın düşməyindən xəbəri olmamışdı. Pəncərənin o tayından, zülmət boşluqdan hər gün təkrar olunan o uzun, yorucu gecənin əzabları boylanırdı.

...Çəpik səsləri yuxularına dolandan axşamın düşməyini istəmirdi. Yatıb o dəhşətli yuxuların girdabına düşməkdən qorxurdu. Ən çox da o yuxuların get-gedə artan səs-küyündən hövllənirdi.

...Ancaq heç cürə bunlardan qaça bilmirdi. Yorğanı atıb yatağına uzanan kimi yuxu onu elə yaxalayırdı ki, xəbəri də olmurdu. Yuxuya getdiyini əsəblərini əzən o şaraqqaşaraqdan duyurdu. Sonra o səslər get-gedə böyüyür, beyni dəmir çubuqların çalındığı zindan kimi guruldayırdı. Belə əzablı gecələrdən sonra bir az da səbirsiz olurdu. Elə bil gecələrin ömrü get-gedə artır, uzanırdı. Və ona elə gəlirdi ki, günlər get-gedə qısalacaq və bir zaman gələcək ki, həyat yalnız gecələrdən ibarət olacaq. Bu çəpik səsli yuxular addımbaaddım gücünü, qüdrətini əridərək yaxınlaşan ölümün sirli, mübhəm kabusu kimi görünürdü gözlərinə. Ölüm xofu içərisinə yeriyirdi.

...İnsan ömrü nə iləsə tənzim olunandısa, bəs tale fərqliliyi nədəndi, bir qisminin taleyinə dünya şöhrətinin, o biri qismininkinəsə izsiz-tozsuz yaşayıb ölməyin yazılması nə ilə bağlıdı? Nədən birisi doğulduğu yurddan ayrılmağı özünə dərd bilir, o birisi isə dünyaya sığmır?

...Ömür məhduddursa, bəs onda insanın dünyanın gələcək taleyindən narahatlığı nədəndi? Axı o, gələcəkdə yaşamayacaq, o illəri görməyəcək, yeri, məqamı şöhrəti ilə birgə dünyanı kimlərəsə tərk edib gedəcək. Və bunu bilir, yaxşı bilir. Bilirsə, bəs niyə belə tezcə də unudur?

Onun düşüncəsində insanın ömrü boyu eləyə biləcəklərinin ən dəyərsizi ölümdü. Bəlkə adi bir axarıyla gəlsəydi, ölüm bu sayaq qorxudammazdı onu. Çünki o, qismətindən artıq yaşamaq istəmirdi.

İpəkqurdu kəpənəyə çevrilən kimi insanın da ölümündən sonra hansısa canlıya çevrilib yenidən həyata qayıdacağından, yenidən dünyanın zülmünə, zəlalətinə qatlaşacağından qorxurdu.

...O, taleyini bir dəfə yaşamışdı. Bir daha o günlərə qayıtmaq, ona verilən ömrü təkrar yaşamaq istəmirdi. Keçmişini xatırlayanda həyəcandan içi quruyurdu. Yaşadığı ömrün irili-xırdalı keşməkeşlərini bir daha dəf etməyə özündə güc, qüdrət tapammazdı. Bir zamanlar doğma bildiyi keçmişi indi ona qorxulu, vahiməli görünürdü. Bəlkə buna görəydi ki, o, yaşadığı, itirdiyi ömrü, istisi, soyuğu, acısı, şirini, xəyanəti ilə birgə elə keçmişdəcə görmək istəyirdi.

...Su səsi, külək səsi, yovşan ətri, hətta göy üzündə asılıb qalan bir əlçim ağ bulud onu ixtiyarsız olaraq bugünündən alıb keçmişə aparırdı. Ömrünün hansısa səhifəsinə oxşar anlar, dəqiqələr yaşayanda  yaddaşı gizildəyir, sanki keçmişə döndüyünü düşünürdü. Ancaq bu, bir anlıq çəkir, sonra hər şey yaddaşında yerbəyer olurdu. Hərdən də yuxularında ömrünün yaşanmış illərinə qayıdırdı. Qayıdır və dərhal səksənib oyanırdı.

Çəpik səsləri yuxularına dolandan isə həyatı adi axarından çıxmış, hər şey dəyişib bambaşqa olmuşdu. Yuxuların xofu təkcə gecələr deyil, gündüzlər də tərk etmirdi onu.

...!!!

...Elə bil çağırıldı. Adının səslənişindən diksindi. Çünki bu səslənişdə onu keçmişə bağlayan ilmələr vardı.

...Keçmişə qayıdacağından qorxduğundan qulaqlarını səs səmtindən yayındırdı.

...Kəndə döndüyü zaman uşaqkən oynadıqları meydanın əkin-biçin yerinə çevrilməsini görəndə hafizəsində keçmişi, xatirələri alt-üst olsa belə narahat olmur, əksinə, bu dəyişikliyə sevinirdi. Bir qədər uzaqda yulğunla yovşandan savayı özgə bir şey bitirməyən aran düzünü kəsib keçən çınqıllı yol da təzəydi, onun yaddaşına toxunmurdu.

Ancaq çəpik səsli yuxular kənddə də rahat buraxmırdı onu. Başını yastığa qoyan kimi kəndin kimsəsizliyindən, tənhalığından, səssizliyindən qoparaq paytaxt şəhərində dincliyini əlindən alan o dəhşətli yuxuların ağuşuna düşürdü.

Yuxuların xofu yadını-yaddaşını pərən-pərən salmış, düşüncələri sahmanını itirmişdi.

... Gecənin qaranlığında zibilliyi eşələyib nə isə tapmaq istəyən qocanın kölgəsi gözləri önündən çəkilib getmirdi. Bir dəfə, cəmisi bir dəfə görmüşdü o qocanı.

...Qoca bir əliylə zibilliyi eşələyir, o biri əliylə çəpik çalırdı. Ancaq zibilliyi eşələsə də, qocanın fikri-zikri çəpik vuran əlinin yanındaydı, elə bil, ritmin, ahəngin pozulacağından qorxurdu. Adamlar sağ əli zibil qutusunu eşələyən, sol əli isə havada açılıb-yumulan bu qocanın yanından saymazyana ötüb keçirdilər. O isə dayanmış, qoca zibillikdən tapdığı bir parça kiflənmiş çörəyi pencəyinin cibinə dürtüb çəpik çala-çala uzaqlaşana qədər bu qəribə mənzərəni seyr etmişdi.

...Xəstəlik onu yatağa salandan hər şeyə qarşı hövsələsiz olmuşdu. Çəpik səslərini eşitməkdən qorxduğu üçün televizoru açmırdı. Ancaq televizorun sönmüş ekranından belə çəpik vuran əllərin tutqun kölgəsinin boylandığını duyur, əsəbləri gərilirdi.

Əvvəllər də hərdən işdən sonra şəhərin ucqarında, dəniz sahilindəki villasına gedir, orada gecələyirdi. Dənizin və tənhalığın onu ovunduracağını düşünürdü. Ancaq əbəsmiş...

...Küləkli havalarda dəniz uğuldayırdı. Dənizin uğultusu onu vahimələndirir, qorxudurdu. Küləksiz günlərdəsə gecə yarıdan sonra sahilə can atan dalğaların xəfif şırıltısı qüssə gətirirdi.

...Gecələri həyəcan içərisində keçirdi. Ona elə gəlirdi ki, gözlərini qapayan kimi üstündə uzandığı torpağı su yuyub aparacaq, çarpayı qarışıq dənizə qərq olacaq. Gözlərini yuman kimi dənizin şor suyunun təmini dodaqlarında hiss edir, boğulacağından, qorxaraq ayılırdı.

Ağzının dadını itirmişdi. Yediyi-içdiyi şeylərdə qabaqkı ləzzət qalmamışdı. Bu, hardasa dadına çatırdı; addımbaşı xəyallarla çarpışmaqdan yaxasını qurtarırdı.

...Bir vaxtlar sevinirdi ki, nə yaxşı o dünyanı insan yalnız yuxu içərisində keçirir. Çünki yuxu əvəzinə, o dünyada cürbəcür işlərə – zülmə, məşəqqətlərə də cəlb edilə bilərdi. Yenidən pula möhtac olar, ehtiyac çəkərdi.



Thank you for trying Soda PDF

...Ancaq son günlər dəniz və tənhalıqla baş-başa qaldığı villada da yuxuları onu yorur, heydən salırdı. Gözlərini yuman kimi çəpik səsləri yuxularına dolurdu. Hardansa yaxınlıqdan gələn bu səslər əlləri sürəkli çəpik çalmaqdan yağır olmuş bir dəstə başsız kütləni xəyalən gözləri önündə canlandırsa da, o, səsdən savayı heç nə duymur, eşitmirdi. Çəpik səsləri addım-addım içinə yeriyirdi.

...Çəpik səsləri yuxularına dolanda özgə bütün səsləri batırır, eşidilməyə qoymurdu. Bu səs dənizin uğultusunu da, sahilə can atan xəfif dalğaların pıçıltısını da örtürdü.

Çəpik səsləri sürəkli və sonsuz idi. Onu dəhşətə gətirən bu səslərin bitmək, tükənmək bilməməsiydi. Çəpik səsləri uzandıqca uzanırdı. Bu səslər uzandıqca örtülən, basdırılan, eşidilməyən, görünməyən özgə səslər haldan düşür, taqətini itirirdi... Ətrafında, yaddaşında, onu dünyaya bağlayan xatirələrində nə varsa, o səsə təslim olur və onu tərk edirdi.

...Qorxurdu, bu yuxuların uzanacağından, çəpik səslərinin onu dəli edəcəyindən qorxurdu.

...Pəncərəyə yaxınlaşıb dənizə baxdı. Ləpələnən ay işığı gözlərini qamaşdırdı. Ona elə gəldi ki, dəniz sərxoşdu, çalxalanmaqdan yorulduğu üçün durmaq, dayanmaq, özünə, düşüncələrinə dalmaq istəyir.

...Ancaq su köpüklü, ləpələrsə ağappaq idi.

...Çəpik səslərinin ritminə düşdüyündən dəniz öz ahəngini itirmişdi.

Düşündü ki, görəsən, suda şütüyən balıqlar bu ahəngi tuta biləcəklərmi?

*14-18 noyabr 2000*
*Kipr, Qazimağusa*

Thank you for trying Solid PDF

## VƏTƏN

İt bir vaxt qoruduğu həyətin yanında dayanıb durdu. Ömrünün ən xoş illərinin bağlandığı bu ev, bu yurd indi onunçün dünyanın uzaq, əlçatmaz bir məskəninə çevrilmişdi.

Üç günüydü ki, ac idi; hansı qapıya ayaq basırdısa, qovub çıxarırdılar; özünə yurd, sığınacaq tapa bilmirdi. Küçənin sonundakı üfunət iyi verən qat-qarışıq zibilliyi burnu ilə neçə dəfə eşələmiş, ancaq bir şey tapa bilməmişdi.

Tənbəl-tənbəl küçə boyu göz gəzdirdi. Birdən yolun sağındakı daş hasarın dibində düşüb qalmış iri bir sümük gözlərinə sataşdı. Böyür-başına baxdı, sanki kimdənsə ehtiyat eləyirdi, kimsə sümüyü əlindən ala bilərdi. Ancaq yol boyu inscins gözə dəymirdi. Qorxa-qorxa sümüyü dişləri arasına alıb yolun sonundakı kimsəsiz bir dalana çəkildi. Sümük bıçaqla elə təmizlənmişdi ki, üstündə bircə tikə belə ət qalmamışdı. Çürümüş iri dişləri ilə cəhənglərinin suyu axa-axa nə illah elədisə sümüyü sındıra bilmədi. Sümük dişlərinin arasında o yan bu yana çevrildikcə ağzının suyu şoralanıb gedirdi. Sümüyü atıb tənbəl-tənbəl geri döndü.

Göyün yüksəkliyində ağ pənbə buludlar qızarıb qan rəngi almışdı. Elə bil buluddan yağış əvəzinə isti qan yağacaqdı.

Qarşıdakı dağların zirvəsi axşam günəşinin solmaqda olan şəfəqləri altında saralırdı. Evsiz, yurdsuz bu kənddə özünü qərib, uzaq hiss eləyirdi.

Bir vaxt sahibi onu balaca rahat damda saxlayar, hər gün ləzzətli yal verərdi. Ancaq bu xoşbəxt günün ömrü uzun sürmədi; günlərin birində sahibinin uzaq şəhərdə yaşayan oğlu gəlib atasını yığışdırıb özüylə apardı. Qoca getmək istəmirdi, ancaq oğlu əl çəkmədi, hər dəqiqə müharibənin başlayacağı, kəndə hücum olacağı təhlükəsini bəhanə gətirərək kişini razı saldı. Sahibi yığışıb getməmişdən qabaq evin, həyətin qapısını qıfılladı. O, sahibinin kənddən çıxıb getməsini istəmirdi, ancaq ona fikir verən kim idi...

Qocanı kənddən çıxana kimi ötürdü. Kəndin ətəyində yovşanlı düzənliyin arası ilə uzanan çınqıllı yolda sahibi onun

boynunu qucaqladı. Sonra geriyə baxmadan dayanıb onu gözləyən maşına oturdu.

Maşında qocanın oğluyla əsəbi tərzdə danışa-danışa ona tərəf baxmasından söhbətin onun haqqında getdiyini hiss eləyirdi. Elə bil sahibi onu özüylə götürmək istəyir, oğlu isə etiraz eləyirdi. Hətta oğlu maşından düşmək istəyən atasının qolundan dartaraq:

– Gəl gedək, sən allah, bizi xalqa güldürmə, - dedi və qapını çəkib hirslə bağladı. Maşın düzənliyin genişliyində kiçilib gözdən itənə kimi it dayanıb sahibinin arxasınca baxdı. Sonra qayıdıb həyətə girdi. Bu, ömrünün ən yalqız və ümidsiz çağlarıydı.

Sahibi kəndin sayılan-seçilən adamlarındandı. Onun gedişindən sonra kənd yavaş-yavaş boşalmağa başladı. Kimin şəhərdə tanışı-bilişi, simsarı vardısa, ev-eşiyinin qapısını bağlayıb kənddən çıxdı. Sonra kəndi gecələr ermənilər atəşə tutmağa başladılar. Bəzən atışma səsləri səhərəcən kəsmək bilmirdi. O, gecələr silahlı ermənilərin kəndin ətəyinəcən yaxınlaşdığını, adamları qorxutmaq üçün cürbəcür oyunlar çıxardığını görür, ancaq insan dilini bilmədiyi üçün bir şey eləyə bilmirdi.

Payıza doğru kənd düşmən əlinə keçdi.

İt kəndi ən sonda tərk elədi.

Güllə dəymiş ayağının ağrısından huşunu itirə-itirə gecəni gündüzə qatıb şəhərə gəldi. Bilirdi ki, sahibi şəhərdədi və hər gün yeni bir ümidlə şəhərə çıxırdı ki, bəlkə sahibini görə, sahibinin rəhmi gələ, saxlaya. İt bilirdi ki, şəhər evlərinin kənddəki kimi keşikçiyə ehtiyacı yoxdu, ancaq bununla belə ümidini üzməmişdi.

İstəyirdi ki, kimsə onu itliyə götürsün, evini-eşiyini, həyətini-bacasını tapşırsın. İstəyirdi ki, sahibi olsun, ancaq özünə ağa, sahib tapammırdı, itlik eləyə bilmirdi, beləcə ömür-gün keçib gedirdi.

İtin bütün ömrü beləcə böyük şəhərin küçələrində keçmiş, ancaq sahibindən bir xəbər çıxmamışdı. İt bilməmişdi ki, sahibi əsirlikdə olan yurdunun xiffətini çəkə-çəkə dünyadan köçüb. İt indi də sahibinin şəhərin kənarındakı qəbiristanlıqda uyuyan ot basmış qəbrindən xəbərsiz idi. Neçə illərdi ki, kəndin

düşmənlərdən geri alınacağı barədə söhbət gedirdi. Ancaq bu quruca söhbət idi, kəndin hansı yolla qaytarılacağını bir kimsə bilmirdi.

İt kənd üçün darıxır, yurd-yuvasını itirmiş insanlar kimi şəhərin küçələrində ölmək istəmirdi. Doğma kəndi, doğulduğu, küçüklük illərini keçirdiyi, böyüyüb ərsəyə gəldiyi yerlər üçün burnunun ucu göynəyirdi. Ancaq nədənsə kəndə dönmək insanları onun qədər narahat eləmirdi.

Və nəhayət, bir gün kəndə dönməyi qərara aldı.

İndi bütün bu əhvalatlardan sonra kəndə dönmüşdü.

Havanın rəngi get-gedə solurdu. Dağdan əsən axşam küləyi vələs meşələrinin acıtəhər ətrini qovub kəndə gətirirdi. Bu, itə tanış idi, doğma idi, küləkli gecələrdə damın qənşərində uzanıb mürgüləyəndə bu ətir onu bihuş eləyərdi.

Qapı aralı idi, həyətdə kimsə gözə dəymirdi. Ayaqlarının ucunda sivişib içəri keçdi. Evin qənşərindəki ağacların arasında göy yoncalıqda uzandı. Hündür qurşağa qədər qalxan yoncalıqda onu görən olmazdı. Bir vaxt sərin yay gecələrində burda göy otluqda boz qancıqla səhərə kimi mazaqlaşardı. Səhər alaqaranlıqlı sahibi qalxmamışdan boz qancığı ötürər, özü isə həyətdə, damın qənşərində uzanıb gecənin yuxusunu alardı.

Qulağına dəyən ayaq səsləri iti xəyaldan ayırdı. Başını cəld pəncəsi üstündən qaldırıb arxaya qanrılanda saqqallı bir kişinin əlində tüfəng ehtiyatla ona sarı gəldiyini gördü. Ac, taqətsiz bədəninə uyuşmayan bir cəldliklə yerindən sıçrayıb çəpər boyu götürüldü.

Saqqallı kişinin yad dildə söyüş söyə-söyə arxasınca yüyürdüyünü hiss elədiyindən çəpərin üstündən atılmaqdan başqa bir çarə qalmırdı. Ancaq gərək bağın ayağınacan qaça... Orda çəpər bir qədər alçaqdı, atılmaq asan olardı...

Çəpərin üstündən atılmaq istəyəndə güllə açıldı. İtin bədəninə ılıq bir hərarət yayıldı. Ulaya-ulaya vələs meşələrinin ətəklərinə kimi qaçdı, sonra taqətsiz halda torpağa sərildi.

Qürub çağıydı.

Axşam günəşinin tünd qızılı şəfəqləri itin yarıyumulu, işığını itirməkdə olan gözlərində solurdu. İt o həyəti, o evi, evin

bacasından çıxan ağ tüstü burumlarını son dəfə görmək üçün başını torpaqdan aralamaq istədi, ancaq bacarmadı.

*2000, Bakı*

Thank you for trying Soda PDF

## DƏRVİŞ

*Alim Qasımova*

Bu yola nə zaman çıxdığını xatırlamırdı, elə bil onu aparan ağlı, şüuru deyildi, hansısa görünməz, bilinməz bir duyğunun, fəhmin, qeybdən gələn ilahi bir çağırışın səsinə, sehrinə, cazibəsinə qoşulub gedirdi.

Bu, yol deyildi, buna yol demək olmazdı; ayaqlarının altında axan qumdan səhrada addımladığını duysa da, ancaq bu yolun hardan başladığını, hayana apardığını, nədən bu yolun yolçusu olduğunu, mənzil başına nə zaman yetişəcəyini bilmirdi.

Səhra heç zaman ona bu qədər sirli-sehrli gəlməmişdi. Bu qum dənizində onu məftun eləyən nə idi belə?.. Ətrafında gözlərinə toxunan hər şey sanki ilk dəfə görürmüş kimi onu qəribə, ecazkar sehrinə salır, duyğulandırır, özündən alıb aparırdı.

Yola çıxmaq istəyini qəlbində çoxdan gəzdirirdi və bu istək içində zərrə-zərrə böyüdükcə ona dinclik, rahatlıq vermirdi; hiss eləyirdi ki, daha əvvəlki kimi yaşamaq istəmir, ətrafında gözlərinə toxunan hər şey onu hədsiz dərəcədə darıxdırır, həyatın dözülməz adiliyindən xəbər verirdi. Bu yolçuluq isə nəyəsə can atmaq, nəyəsə qovuşmaq üçün deyil, ömrün yorucu, dözülməz yeknəsəkliyinə etirazı idi.

İndi bütün bunları xatırladıqca həyatının pərakəndə lövhələri gözləri önündən gəlib keçir, ömrünün hədər keçən illərinə təəssüflənirdi.

Birdən ayaq saxlayıb başını qaldırdı; səhra yamyaşıl rəngə boyanmışdı. Dalğalanan qum dənizi əzəli rəngini itirərək birdən-birə yaşıla bürünmüş, bomboz qumun üstünə sanki yamyaşıl məxmər çəkilmişdi; daha qumun ayaqlarının altında axdığını hiss eləmirdi.

Ayaq saxlayıb bir andaca yaşıla bürünən səhraya tamaşa elədi; dünyanın bir göz qırpımındaca belə möcüzə yarada biləcəyini heç cür dərk eləyəmmirdi.



Thank you for trying Soda PDF

Sonra heybəsini götürüb səhranı örtən yaşıl çəmənin üstüylə yoluna davam elədi. Çiynindəki heybə ağır idi, ancaq düşdüyü sehrin cazibəsindən bu ağırlığı hiss eləmirdi.

Bir azdan səhranı bürüyən yaşıl otluq bomboz qum dənizinin içərisində görünməz oldu.

Oynamağı gəlirdi; bu ucu-bucağı bilinməyən səhranın ortasında yoruluncaya, oynamaq istəyini içərisindən çıxarıncaya qədər oynamaq istəyirdi.

Birdən dərviş dayandı, heybəsini çiynindən çıxarıb yerə qoydu. «Axı, hayana gedirdi, onu çəkib aparan nə idi, niyə bir anlığa da olsa dayanmaq, yorğunluğunu almaq üçün bir hovur dincəlmək istəmirdi?»

Qarşıda onu gözləyən taledən xəbərsizdi, ancaq bu onu qorxutmur, getdikcə xəyalını ovsunlayan o sehrli dünyanın cazibəsi duman kimi ruhuna, varlığına hopurdu.

Dərvişin yaddaşında keçmişlə gələcək biri-birinə qarışmışdı. «Nə idi həyatının axarını tamam başqa bir səmtə çevirən, onu özündən, varlığından alıb apararaq dünyayla, zamanla qarşı-qarşıya qoyan? Bəs taleyə, gələcəyə, olacağa üsyan edən nə idi? Bu nə qədər davam eləyəcəkdi? Bir gün bu iztirabların sonu olmayacaqdımı?».

O, bu suallara cavab tapa bilmirdi, bəlkə cavab tapmaq da istəmirdi; can atdığı mənzilin nagümanlığı o qədər cazibədar, o qədər çəkici idi ki, onu gözləyən təhlükələrə baxmayaraq bu nagümanlığa təslim olurdu.

Küləyin kəsik-kəsik çəkib gətirdiyi zınqırov səsləri hardasa yaxınlıqda, bir səs mənzilində karvan yolçuluğundan xəbər verirdi. Bu səs nə qədər doğma, məhrəm olsa belə, yolundan dönmək, karvana qoşulmaq istəmir, karvana qoşulmaqla taledən, qismətdən qaçmış olacağını düşünürdü.

Qulaqlarına su şırıltısı dəydi; qeyri-ixtiyari ayaq saxlayaraq vücuduna sərinlik gətirən bu səsi dinşədi. Şırıltı səsindən suyun o qədər də uzaqda olmadığı aşkar duyulurdu. Ancaq hayandan gəlirdi bu səs? Səhranın ortasında su şırıltısının bu aydınlıqda eşidilməsi mümkün idimi? Və qəribə burası idi ki, su səsi addım-addım böyüyür, apaydın eşidilirdi.



Thank you for trying Soda PDF

Suya yetişmək üçün addımlarını bir qədər yeyinlətdi. Və birdən gözləri önündə açılan mənzərədən onu heyrət bürüdü; səhranın sinəsi boyunca mavi dəniz uzanırdı. Nəhəng su aram-aram qumlu sahilə yayılır, sonra xəfif şırıltı ilə çəkilib gedirdi.

Dərviş sahildə dayanıb uzun-uzadı mavi dənizə tamaşa elədi; ömründə bu mavilikdə, bu duruluqda dəniz görməmişdi. Daha susuzluğunu hiss eləmirdi, sanki dənizin sərinliyi, duruluğu, maviliyi içərisinə axaraq suya təşnəliyini büsbütün söndürmüşdü.

Gözlərini yumdu.

Çarıqlarını çıxarıb suya girdi. Suyun sərinliyi vücüdu boyu yayılaraq ruhuna, varlığına bir dinclik gətirdi. Bir müddət sahil boyu islanmış qum üzərində iz sala- sala yeridi. «Bəs, bundan belə hansı səmti tutub getməliydi?» Hansısa qeyri-adi bir istək onu dənizin qucağına səsləyir, durmağa, dayanmağa, dincəlməyə qoymurdu.

Elə bu istəklə də özünü dənizə vuraraq suyun üstüylə yeriməyə başladı. Yeridikcə dəniz ayaqlarının altında çalxalanır, ətrafa sıçrayan ləpələr böyüyərək iri dalğalara çevrilirdi.

Bir azdan leysan başladı, göz qırpımında səmayla dəniz biri-birinə qovuşdu, dünya sel-su ilə örtüldü.

Dənizin üstüylə nə qədər getdiyini xatırlamırdı; sel-su bitmək bilmirdi ki, bilmirdi. Onu ovsunlayan o səsin sehrinə düşüb yola çıxdığı üçün özünə, taleyinə qarğıyır, lənət oxuyurdu.

Gözlərini açanda özünü yenidən səhrada gördü.

Uzaqda üfüqlər boyu sıralanan yastı təpələr qarşıda tamam özgə bir dünyanın başlayacağından xəbər verirdi. Getdikcə təpələr böyüyərək az qala göy qübbəsilə qovuşan sıldırım qayalara çevrilirdi.

Yoxuşu qalxmaq üçün canında güc, taqət tapacaqdımı? Bunu bilmirdi, bildiyi təkcə o idi ki, nə olursa olsun, bu yoxuşu qalxmalıdı, hər şey, hər şey bundan sonra başlayacaqdı, çünki yoxuşu qalxmasaydı, bu qədər məsafə qət eləməsinin heç bir faydası olmayacaqdı.

Ayaqlarına dəniz suyu toxunandan yorğunluğunu unutmuşdu, sakit addımlarla yoluna davam eləyirdi, ancaq bu, daha əvvəlki yola bənzəmirdi. İndiyədək keçib gəldiyi yolun bu

sayaq yoxuşu olmamışdı; yoxuş sərtləşdikcə, nəfəsi təngiyir, addımları seyrəlirdi, ancaq dayanmırdı, elə bil dayanıb bir anlığa nəfəsini dərsəydi, hər şey bitər, qurtarardı.

Ancaq dayandı və çevrilib arxaya, keçib gəldiyi upuzun yola baxdı: dağın köksüylə burula-burula ağappaq cığır uzanırdı. Bu uzunluqda yoxuşu necə qət elədiyini ağlına, təsəvvürünə gətirəmmirdi.

Təkrar yoluna davam elədi. Yolun ətrafını dərin, dibsiz, sərt uçurumlar kəsirdi, cığır getdikcə daralır, yerimək çətinləşirdi, gah sağından, gah da solundan vəhşi ehtirası ilə ağzını açan uçuruma  baxanda gözləri qaralırdı.

Hava qaranlıqlaşdığından ayaqlarının altını güclə seçirdi. Daha əvvəlki kimi yeriyə bilmir, addımlarını ehtiyatla atır, uçuruma yuvarlanmaqdan qorxurdu. Bir yandan da ürəyindən cığırdan çıxıb, uçuruma yuvarlanmaq xofunu içərisindən qovaraq daşa-kəsəyə, kola-kosa  məhəl qoymadan yoxuşu qalxmaq istəyi keçirdi.

«Bu cığırı kim salmışdı, nə zaman salmışdı? Kimlər keçmişdi bu cığırın üstündən? Onun bu cığırla getməyə haqqı vardımı? Vardısa, bu haqqı kim vermişdi ona? Nə üçün o başqalarının açdığı cığırla addımlamalıdı…».

Hiss etmədən cığırdan çıxaraq özünü qaranlığa vurdu. İndi hara getdiyinin fərqində olmasa da, özünü bayaqkından daha rahat hiss eləyirdi. Elə bil üstündən ağır bir yük götürülmüşdü, indi onu nə ayaqlarını əzən, dırnaqlarını qanadan daş-kəsək, nə də hər an yuvarlana biləcəyi dibi görünməyən uçurum qorxudurdu, elə rahat addımlayırdı ki, sanki yoxuşa qalxmır, hamar, düppədüz yolla yeriyirdi.

Hava əməlli-başlı soyumuşdu, ancaq soyuğa, sazağa baxmayaraq yoxuşa qalxdığından qan-tər onu yuyub aparırdı, bircə anlığa ayaq saxlayan kimi  bədəni soyuyur, əli-qolu buza dönürdü; özünü soyuğa verməmək üçün gücü çatdığı qədər addımlayır, necə olur-olsun mənzil başına yetişmək istəyirdi.

Yolun  isə sonu görünmür, yoxuş uzandıqca uzanırdı. Əl-qolunu kol-kos çızıb qanatmış, ayaqlarını daş-kəsək qançır eləmişdi, ancaq bədənində heç bir ağrı hiss eləmirdi, sanki bütün



Thank you for trying Solid PDF

əzaları korşalmış, onu ardınca çəkib aparan o ilahi duyğudan savayı hər şeyə biganə olmuşdu.

Bütün gecəni beləcə üzü yoxuşa dırmandı. Hərdən dayanır, bir anlığa nəfəsini dərir, sonra yenidən yoluna davam edirdi. Dan yeri söküləndə özünü dağın zirvəsində gördü və günəşin doğuşuna tamaşa eləyə-eləyə rahat nəfəs aldı.

Yol dağın zirvəsində bəmbəyaz qar örtüyünə bürünərək bitirdi və yolun bitdiyi dağın bəyazlığa bürünən zirvəsindən baxanda arxada qoyub gəldiyi dünya ovcunun içərisindəymiş kimi apaydın görünürdü.

Dərviş bir müddət dayanıb dünyaya tamaşa elədi. O, indiyədək dünyanın bu qədər gözəl, bü qədər əsrarəngiz olduğunu duymamışdı, ancaq dünya nə qədər gözəl olsa da, daha geri dönmək istəmirdi. İndi onun üçün geri dönməkdən çətin və əzablı heç nə olammazdı. «Bəs neyləməlidi, hayana getməlidi… Həyatının bundan sonrası necə olacaqdı… Hansı duyğunun səsilə buraya gəlib çıxdı… Bu nə iş idi, nə qismətdi belə…».

Əvvəlki kimi nə isə onu irəli çəkir, sirli, dumanlı bir aləmə doğru səsləyirdi, ancaq daha taqəti qalmamışdı; halsızlıqdan ayaq üstə dayana bilmirdi, bəri-bədəni, beli-buxunu elə ağrıyırdı ki, deyirdin bu saat sümükləri qırılıb yerə tökülcək. Ağrılarının səsini eşidirdi; get-gedə qollarnıa, çiyinlərinə yığılan ağrılar daha dözülməz olur, huşunu başından alıb aparırdı.

Müvazinətini itirməmək üçün yavaşca daşın üstünə çökdü və nə zaman huşunu itirdiyindən xəbəri olmadı. Handan-hana gözlərini açanda bayaqkı ağrı-acılardan əsər-əlamət qalmamışdı, özünü quş kimi yüngül hiss eləyirdi.

Oturduğu yerdən qalxaraq yenidən ətrafa göz gəzdirdi; bayaq dağın zirvəsindən apaydın görünən dünya indi dumana, bozluğa bürünmüşdü. Təkcə səma aydın idi. Qəfildən gözləri çiyinlərindən göyərib qalxan qanadlara sataşdı. Dəli bir ehtiras onu səmalara doğru çəkir, ayaqlarını yerdən üzürdü.

Qarşıda onu göy üzünün ucsuz-bucaqsız ənginliyi gözləyirdi.

*2003, Bakı*

## MAĞARA

Onlar iki nəfər idilər; biri cod sarışın saçlı, o biri isə çal saqqallı ucaboylu adamdı, əllərində bel-külüng daş mağarada qazıntı aparırdılar. Neçə gündən bəriydi ki, qeyri-adi tapıntılar bu iki əcnəbi alimi büsbütün ovsunlamışdı; özgə heç nəyin fərqində deyildilər. Söylədiklərinə görə, onların mağaradan tapdıqları əşyalarla tarixin yaşını ən azı min il qədimlərə çəkmək olacaqdı. Miladdan bir neçə yüz il öncə bu ərazidə qədim mədəniyyətin izlərinin olması ilə bağlı inandırıcı dəlillər tapılmışdı. Ancaq onlar istədiklərini əldə etsələr də, yorulub usanmadan qazıntı işlərini davam etdirirdilər.

– Bir baxın, bu qalıqlar çox qədim bir sivilizasiyadan xəbər verir,- bunu əlindəki sümük parçasının torpağını təmizləyib ehtiyatla ağ kətanın üzərinə qoyan sarışın saçlı dedi.

Çal saqqallı yoldaşına sarı dönmədən:

– Bunları üzə çıxara bilsək, bütün dünya arxeologiyasını heyrətdə qoyacağıq, - deyə cavab verdi.

...Bir qədər aralıda mağaranı xatırladan qazma daxmada qaçqın ailəsi yaşayırdı. Ailə ər, arvad, bir də on bir yaşlarında oğlan uşağından ibarətdi. Uşaq ailənin kiçiyiydi, böyüyü erməni əsirliyindəydi.

Ailənin başçısı bu qazmanı iki il əvvəl mənzilə çevirmişdi. Əvvəlcə bu yerdən bir qədər aşağıda yerləşən qaçqınlar üçün salınmış çadır şəhərciyində yaşayırdılar. Onların çadır evciyi olduqca darısqaldı və darısqallıq bir yana, qışda soyuqdan, yayda bürküdən içəridə durmaq olmurdu. Yağış yağanda isə çadırı su basır, torpağın rütubəti həftələrlə çəkilib getmirdi. Qazmanın şəraiti isə çadırla müqayisədə xeyli əlverişli idi. Ailənin başçısı bu qazmadan öncə indi əcnəbi arxeoloqların işlədiyi mağaraya düşmək istəyirdi. Ancaq mağaranın genişliyi, dərinliyi, sür-sümüklə dolu olması onu fikrindən daşındırmış, eynən həmin mağaraya bənzəyən bu qazmada məskunlaşmağı qərara almışdı. Düz bir həftə çalışıb-çabalayaraq uzaqdan təpəciyi xatırladan bu mağaranı yaşayış üçün yararlı hala salmışdılar.

Qazmanın bir qapısı, bir pəncərəsi vardı. Pəncərəni sellafonla örtmüşdülər, qapını isə köhnə, cırıq brezent parçası əvəz eləyirdi.

Qaçqınlığın ilk dövründə gündə bir yer dəyişdiklərindən uşaq məktəbə gedə bilməmişdi. Sonra çarəsizlikdən çadır şəhərciyinə üz tutmuşdular. Yaxınlıqda məktəb olmadığı üçün o, dərsə çadır şəhərciyi ilə qonşuluqda yerləşən kəndə getməli olurdu. Əvvəlcə uşaq məktəbə getmək istəmir, yaşıdları ondan üç sinif yuxarıda oxuduğu üçün utanıb sıxılırdı. Bir yandan da yolun uzaqlığı onu yorurdu. Bir neçə gün davamlı dərsə getməyəndə sinif rəhbəri dalınca gəlirdi. Bəlkə də dərs oxumaq istəyindən deyil, müəlliminin bu uzaq yolu dalınca gəlməsinə narahat olduğundan dərsdən qalmaq istəmirdi.

Ötən ildənsə cadır şəhərciyində köhnə yük vaqonunda məktəb açılmışdı, daha oxumaq üçün bu qədər yolu gedib-gəlməyə ehtiyac yox idi.

Bu iki əcnəbi alimin yaxınlıqdakı daş mağarada qazıntı aparması uşağın marağına səbəb olmuşdu. Onların mağaranın girəcəyində qurduqları mavi rəngli çadır, çadırdan gələn cürbəcür musiqi səsləri, uzun antennalı, qara şüşəli «Cip» markalı avtomobil, ətrafa səpələnmiş boş konserv qutuları, gecələr çadırı işıqlandırmaq üçün gurultuyla işləyən elektrik qurğusu – hər şey, hər şey onu cəlb edirdi.

Ən çox xoşlandığı isə əcnəbi arxeoloqların gurultuyla işləyən elektrik qurğusundan onların torpaq qazmasına işıq çəkilməsiydi.

Bura gəldikləri ilk günün axşamı o iki arxeoloqu qonaq çağırmışdılar. Atası qonaqpərvərdi, qaçqınlıq illərindən qabaq axşamları bircə dəfə olsun belə qonaqsız-qarasız keçməzdi, anası isə arxeoloqları qərib adam gözündə görür, hansısa köməyə ehtiyacı olub-olmadığını düşünürdü.

Qonaqlar gəlmiş, ancaq içəri qaranlıq olduğu üçün tezcə də qayıdıb bir top məftil gətirərək gurultuyla işləyən elektrik qurğusundan daxmaya işıq çəkmişdilər. O iki qonaq anasının saca saldığı isti yuxa ilə toyuq qızartmasını yeyə-yeyə heyrətli baxışlarla qazmanı süzür, onların həyatı, yaşayışı ilə bağlı hər

şeylə maraqlanır, cürbəcür suallar verirdi. Qonaqlar axşamdan xeyli keçənə qədər oturmuşdular.

Gündüzlər elektrik qurğusunu söndürür, yalnız axşamlar işə salırdılar, ona görə də işıq yalnız axşamlar olurdu. Nə qədər ki, bu iki əcnəbi mağarada işləyirdi, işıq sarıdan korluqları olmayacaqdı.

Mağarada qazıntı başlanandan əvvəllər hər şeyə qarşı biganə olan uşağın gördüklərinə münasibəti dəyişmişdi, indi o, atasını sorğu-suala tutmaqdan yorulmurdu:

– Ata, onlar kimdirlər, nə axtarırlar orda?

– Arxeoloqdular. Qazıntı aparırlar, keçmişin izlərini axtarırlar.

Səhəri gün başqa suallar doğurdu:

– O gün uşaqlar danışırdılar ki, onlar qızıl izinə düşüblər.

– Ola bilər...

– Bəs biz nə üçün evimizdə qazıntı aparmırıq?

– Evdə qazıntı aparmazlar, quzu. Qazıntını mağarada aparırlar.

– Axı, anam deyir ki, bura mağaradı...

– O zarafatla belə deyir, – kişi ürəyində arvadını qınadı.

Bir axşam isə uşaq qətiyyətlə:

– Ata, böyüyəndə mən də arxeoloq olacağam, – dedi.– Sonra da qürurla:– Qədim tariximizi öyrənəcəyəm, – əlavə etdi.

– ...

Kişi cavab vermədiyindən uşağa elə gəldi ki, atası onun son sözlərini eşitmədi.

Uşaq səhər yatağından həvəslə qalxıb hər günkü kimi bir fincan südlə çörəyini yeyərək mağaradan baxanda sac kimi dəyirmi görünən qaçqın düşərgəsindəki məktəbə yollandı. Bu gün özünü başqa bir aləmdə hiss eləyirdi; o, arxeoloq olacaqdı – qəti qərara gəlmişdi. Uşağa elə gəlirdi ki, məktəbdə hər kəs onun bu gizli arzusundan xəbərdardı.

Dərsdən sonra atası onu iş dalınca göndərdi. Atasının tapşırığını həmişəkindən daha həvəslə yerinə yetirdi. Evə dönəndə hava qaralmaq üzrəydi.

...Həmişəki kimi, arxeoloqların mavi rəngli çadırından musiqi səsi gəlirdi. O iki nəfər beli, külüngü bir tərəfə atıb yor-

ğunluqlarını almaq üçün yaylı çarpayıya uzanmışdı. Bəlkə də yaylı çarpayıya uzanmaq yorğunluqdan deyildi, sadəcə onları gözləyən şöhrətin xəyallarında əsən havasından sərxoş olmuşdular.

...Uşaq isə qazmanın ətrafında dayanıb sabahkı dərslərini hazırlamaq üçün elektrik qurğusunun nə zaman işə düşəcəyini gözləyirdi. Axı o böyüyəndə arxeoloq olacaqdı, dərsə hazırlıqsız gedə bilməzdi.

*2004, Bakı*

Thank you for trying Soda PDF

## QÜTB GECƏSİ

– Mən əvvəlki adam deyiləm. – Altı illik ayrılıqdan sonra sonsuz bir həyəcanla gözlədiyi ilk görüşdəcə hal-əhval sorarkən aldığı bu gözlənilməz cavab onu diksindirən kimi oldu və ayrı yaşadıqları bu illər ərzində xəyalında qurduğu dünyasını birdəncə yerlə-yeksan etdi.

Onun idarə etdiyi maşın ətrafı qranit qayalar və seyrək ormanla örtülü yolla şütüdükcə gözləri ilk dəfə gördüyü qeyri-adi mənzərələrə dikilsə də, insanın bu qədər dəyişə biləcəyinin heyrətləri içərisində fikrini bir səmtə cəmləşdirə bilmirdi.

O inanılmaz dərəcədə yadlaşmış, ifrat soyuqqanlı və qaradinməz bir adama çevrilmişdi. Xeyli cavanlaşmış vücudunda, çöhrəsinin hansısa bir cizgisində birgə yaşadıqları o əzablı illərin, dözülməz sıxıntılar içərisində keçən günlərin ötəri nişanələrini belə tapmaq mümkün deyildi.

Aldığı ilk cavabdan sonra onu düşündürən məsələ iki həftəni bu adamla bir mənzildə necə keçirəcəyi idi.

Maşın ormanların arası ilə irəlilədikcə insanın əsəblərinə sığal çəkən yaşıllığın və yabanı gözəlliyin arxasında gizlənən qəribliyi və tənhalığı bütün vücudu ilə duyurdu.

Eşitdiyi o sözlərdən sonra onun ardınca bu ölkəyə gəlməyinin peşmançılıq duyğusu içini bürüməyə başladı və ötən aylar ərzində büsbütün başqa ovqata köklənmiş yaddaşı biri-birinə qarışdı.

«İndi nə etsin, hayana getsin?» – öz-özü ilə söhbət edirmiş kimi düşünür, qərar qəbul etməkdə çətinlik çəkirdi.

«Bəs onda niyə gəlib qarşıladı? Niyə telefon zənglərində həmişə görüşməyə həvəsləndirirdi, onun üçün darıxdığını söyləyirdi? Axı, hərəkətlər deyilənlərlə qətiyyən uyğun gəlmirdi».

Hava limanından şəhərə aparan yol boyu biri-birini əvəz eləyən yaşıl mənzərələr seyrək tikililərlə əvəz olunanda narahatlığı biz az da artmağa başladı. Evlər biri-birindən aralı idi, ancaq ins-cins gözə dəymirdi, sanki bu binalarda insan yaşamırdı və burda həyat, gözəllik tənhalıq örtüyünə bürünmüşdü, insan xoşbəxtliyi yalnız təklik və tənhalıq cildindəydi.

Thank you for trying Soda PDF

Əslində son illər hər dəfə hansı məqsədləsə ölkədən çıxanda bir daha geri dönməyəcəyini düşündüyündən zəruri sənədlərini və əşyalarını özüylə götürürdü. Çünki daha öz ölkəsində yaşaya bilmədiyini, həyatının yarıdan çoxunun keçdiyi vətənin onunçün əsil cəhənnəmə çevrildiyini bütün əzasıyla hiss eləyirdi. Bir zamanlar bağlı olduğu insanların əqidəsini, məsləyini dəyişib tanınmaz dərəcədə başqalaşdıqlarını heç cür anlaya bilmir, özünü bu insanların çevrəsində büsbütün yad hiss eləyirdi.

– Deyəsən, mənim sözlərim xətrinə dəydi, ancaq yalan danışmağı sevmirəm. – O, gözlərini yoldan ayırmadan bir daha bayaq söylədiklərini təkrar elədi: – Mən əvvəlki adam deyiləm. Sadəcə bunu bilməyini istədim.

Həbsxanada bir il sərasər eyni kamerada yatmış, məhbəs həyatının dözülməz çətinliklərini, ağrılı-acılı günlərini birgə yaşamışdılar. O çıxılmazlıqda dostunun iradəsinə heyran qalmışdı. Dırnaqlarını çəkib çıxarsalar da, elektrik cərəyanına qoşaraq dözülməz işgəncələrə məruz qoysalar da, heç bir günahı olmadığı halda, min cür ləkə və iftiralar atsalar da, onu sındırmaq mümkün olmamışdı.

İndi qeyri-ixtiyari olaraq məhbəsdə keçən o dəhşətli günləri gözlərinin önünə gətirir, maşında yanaşı oturduğu insanın həmin adam olduğuna inanmağı gəlmirdi.

O günlər məhbəs həyatının ağırlığı onları biri-birinə daha da yaxınlaşdırmışdı. Bəzən gecələr kameranın kiçik nəfəsliyindən içəri axan ay işığının solğun şəfəqləri altında baş-başa verərək gələcək üçün xəyallar qurardılar. Əlbəttə, o zaman ən çox arzuladıqları azadlığa qovuşmaq idi; ancaq ümidsiz də deyildilər. Məhbəs həyatı nə qədər ağır keçsə də, hər an azadlığın nəfəsini duyur, o günün yaxında olduğunu anladıqlarından ruh yüksəkliyi içindəydilər.

Məhbəsdə olanda daha bu ölkədə yaşamayacaqlarına qəti şəkildə qərar vermişdilər. Həbsdən çıxarkən ölkəni birgə tərk eləməyi düşünürdülər, ancaq iş elə gətirdi ki, o, uşaqlıq dostuna yoldaşlıq eləyə bilmədi. İradəsimi çatmadı, yoxsa yaşlı ata-anasını taleyin ümidinə qoyub getməyimi vicdanına sığışdırmadı, -bunun səbəbləri özünə də aydın deyildi.

Dostunun ölkəni tərk etməsindən bir neçə gün sonra xəbər tutdu. Anası xəstələndiyi üçün ona baş çəkməyə getdiyindən şəhərdə deyildi. Əvvəlcə bu xəbərdən sarsılan kimi oldu, daha doğrusu, uzun illərdən bəri tanıdığı, bağlandığı yaxın bir dostunu, simsarını əbədi olaraq itiribmiş kimi içinə bir qəriblik duyğusu çökdü. Ancaq bu hiss çox çəkmədi, bir az sonra özünün də çıxıb gedəcəyini düşünərək bir qədər sakitləşən kimi oldu.

O, bu görüşü belə təsəvvür eləmirdi; sanki onun gəlişi dostunu qətiyyən maraqlandırmırdı. Elə bil ki, yanında oturduğu yad bir insan idi; söhbətə təşəbbüs etməməsi, dinib-danışmaması, tanış-bilişlərdən hal-əhval tutmaması, ölkədəki vəziyyətlə maraqlanmaması onu təəccübləndirirdi.

Vətəndən çıxıb gedənlərə yalnız ona görə haqq qazandırırdı ki, onlar əqidəsini, məsləyini qorumaq üçün bu addımı atmağa məcburdular. Ancaq insan vətəndən ayrılıb getdiyi yurdda da əqidəsini, məsləyini qoruyub saxlaya bilmirsə, onda bu addımı atmağın mənası nə idi?

Dostunun ailəsini də özüylə gətirdiyini bilirdi, ancaq yaranmış soyuqluqdan onların hal-əhvalını soruşmağa cəsarət eləmir, necə olsa, evə yetişəndə hər şeyi öyrənəcəyini düşünürdü.

Nəhayət, maşın beşmərtəbəli bir binanın qarşısında dayandı.

Dostu:

– Çatdıq, - dedi, - gördüyün bu evdə yaşayıram.

Hər ikisi tələsmədən maşından endilər, o, baqajı açaraq əşyalarını götürdü, sonra birlikdə bloka daxil oldular. Liftlə dördüncü mərtəbəyə qalxana qədər heç biri danışmadı.

İki otaqlı kiçik mənzilə daxil olanda o, içəridəki ab-havadan dostunun tənha yaşadığını hiss elədi, ancaq hisslərini büruzə verməmək üçün başını aşağı salıb ayaqqabılarının qıyını açmağa başladı.

Yerbəyer olandan sonra duş qəbul elədi, sonra birlikdə çay içdilər və çaydan sonra dostu evin açarının birini ona verərək vacib iş üçün gedəcəyini söylədi. Çıxanda isə ürəyi bir şey istəyən zaman soyuducudan götürüb yeyə biləcəyini söylədi.

...O gedəndən sonra uzun müddət pəncərənin qarşısında dayandı, ətrafı bürüyən yaşıllıqları tələsmədən gözdən keçirdi. Sonra divara vurulmuş böyük xəritənin qarşısında dayanaraq gəldiyi şəhəri axtarıb tapdı. Bu gün səhər evdən çıxmışdı; cəmi bir neçə saata bu qədər yol qət elədiyinə heyrətləndi.

Bu ölkə haqqında çox oxumuşdu, tarixini, mədəniyyətini, ədəbiyyatını burda yaşayanların bir çoxundan yaxşı bilirdi. Ancaq bu ölkədə yaşaya bilərdimi? Taleyini birdəfəlik bu yurda bağlaya bilərdimi? Bunu heç cür təsəvvür eləyə bilmirdi.

Sonra qonaq otağına göz gəzdirdi. Son dərəcə sadə döşənmiş otağın divar boyaları, uyğun seçilmiş rahat mebelləri bir tamlıq yaradır, insanın əsəblərinə sığal çəkirdi.

...Dostu evə axşamdan xeyli keçəndən sonra qayıtdı. İçəri girən kimi onu tənha buraxdığı üçün üzrxahlıq elədi, bir daha işlərinin çox olduğunu xatırlatdı:

– Ağlın başqa yerlərə getməsin, - dedi, - burda yaşamaq üçün gecə-gündüz çalışmalısan.

O heç bir cavab vermədi və birgə masanın arxasına oturdular.

Dostu:

– Mən yeməyəcəyəm, ac deyiləm,- dedi. – indi sənə bir şey hazırlayaram.

Gözləmədiyi bu təklifdən narahat olduğundan:

– Yox, yox, lazım deyil, zəhmət çəkməyin, - deyə qəti şəkildə etirazını bildirərək iştahının olmadığını söylədi.

Əslində bu gün təyyarədə yediyinin üstündəydi və o yeməyin ürəkbulandıran qoxusu hələ burnundan çəkilib getməmişdi. Bəlkə aradan bu qədər vaxt keçəndən sonra iştahının olmaması da elə onunla bağlıyıdı.

– Yaxşı, onda sərin pivə içərik. - Dostu soyuducudan iki şüşə pivə çıxararaq açıb qədəhlərə süzdü.

Bütün günü bir şey yemədiyi üçün pivə ona yüngül məstlik gətirdi, əhval-ruhiyyəsi bir qədər dəyişdi.

– Xanım, uşaqlar hardadır,- nəhayət soruşa bildi.

Dostu bircə kəlmə ilə:

– Ayrılmışıq, - dedi.

Thank you for trying Soda PDF

Vә bu bircә kәlmәni elә etinasız tәrzdә söylәdi ki, daha ayrılmaqlarının sәbәbini soruşmağa cәsarәt elәmәdi.

Ancaq dostunun onun nigarançılığına son qoyması çox çәkmәdi:

– Biri-birimizi anlaya bilmәdik, - dedi.

– İndi hardadırlar, barı uşağını görә bilirsәnmi? – deyә soruşdu.

Dostu başını bulayaraq:

– Onlar daha mәni maraqlandırmır, - dedi.

Hiss etdi ki, dostu ailә mövzusunda danışmaq istәmir, ona görә dә söhbәti dәyişәrәk işin üstünә gәtirdi:

Dostu:

– Bir şirkәtdә çalışıram, - dedi.- mazut alveri ilә mәşğul oluram.

Gözlәmәdiyi bu cavabdan sarsılan kimi oldu, çünki dostu siyasәt adamı idi, onun siyasәtdәn uzaqlaşaraq başqa işdә çalışmasını ağlına, tәsәvvürünә gәtirә bilmirdi.

– Bәs siyasi işlәrә  necә, vaxtınız qalırmı?

Dostu eynәn bayaqkı әsәbiliklә:

– Daha mәni siyasәt maraqlandırmır, ömrümün o illәrinә tәәssüf elәyirәm- dedi vә bununla da söhbәti biryolluq kәsmәk istәdiyni bildirdi.

Bir azdan dostu sabah erkәn qalxacağı üçün tez yatmalı olduğunu söylәyәrәk onu qonaq otağında tәnha buraxdı.

* * *

...O isә yata bilmәdi.

Gündüzdәn seçilmәyәn qütb gecәsinin aydınlığında sәhәrә qәdәr gözlәrinә yuxu getmәdi vә hәyatında ilk dәfә olaraq tәlәsmәdәn yaşadığı ömrün yaddaşına hopmuş sәhifәlәrini aşağı-yuxarı vәrәqlәyә bildi.

Zaman hiss olunmadan axıb gedirdi.

Yaddaşında qarışmış vaxt duyğusunu sahmanlamaq üçün qalxıb pәncәrәnin önünә gәldi vә qütb gecәsinin süd kimi aydınlığında yuyunan şәhәrә, şәhәrin üstünә yeriyәn sәssizlik vә kimsәsizliyin cansıxıcı mәnzәrәsinә tamaşa elәmәyә başladı. Göy qübbәsinin ortasında fırlanan günәş seyrәk buludlarla әhatә

Thank you for trying Soda PDF

olunmuşdu. Gecənin bu vədəsi günəşi göyün ortasında görmək çox heyrətamiz idi. Gecə o qədər işıqlı idi ki, həyatında ilk dəfə işığın bolluğundan narahatlıq duydu. Gecələri qaranlıq təsəvvür elədiyindən ona elə gəlirdi ki, bu işıq seli yalnız qaranlıqları deyil, dünyanın bütün gizlinliklərini, sirlərini yuyub aparır və insanı mübhəmliyini itirmiş dünya ilə baş-başa qoyur.

Şəhərin işıq selində üzən kimsəsiz küçələri bir anlığa ona insanları məhv olmuş dünyanı xatırlatdı. Ona elə gəldi ki, şəhərdə ondan başqa bir kimsə yoxdu və bu böyüklükdə şəhər küçələri, imarətləri, bağ-bağçaları, çayları, gölməçələri ilə birlikdə yalnız ona məxsusdur.

Ruhunu zədələyib keçən bu düşüncə içərisində yatağına girsə də, gözlərinə yuxu getmədi.

O, kölgəsindən sıyrılıb çıxmaq inadıyla bu yerdən, bu ölkədən uzaqlaşmaq istəyirdi.

Ancaq haraya gedəcəyini bilmirdi.

Vətən onunçün ölmüşdü.

2007, Oslo, Norveç

Thank you for trying Soda PDF

## KOR DÜYÜN

İlanın mələrti səsini eşitdi.

Bir də bədəninə yeriyən iti, xəncər dişlərin xırçıltısını.

Ağır-ağır hərlədiyi dəryaz havadaca donub əllərində qaldı. Torpaq rəngli gürzə ayağının altından siyrilib çıxaraq otluğa soxuldu.

İlanı tapdadığını yalnız indi anladı.

Əvvəlcə ona elə gəldi ki, nə isə qorxunc, səksəkəli bir yuxu görür, ancaq bu bircə an çəkdi, topuğundan qopan şiddətli ağrı onu bu mübhəm yuxunun pəncəsindən çəkib qopardı.

Vahimə içərisində:

– Xəlil!!!- qışqırdı.

Xəlillə biçənəkləri yanaşı, bir şırımarası məsafədəydi. Bir qədər aralıdakı təpənin üstündən baxanda nəhəng dar ağacına bənzəyən otlaq yerinin yuxarısı Xəlilin, ayaq tərəfi isə onunku idi. Əkin yerləri yanaşı olduğundan çox zaman çölə, biçinə birlikdə gəlib gedirdilər.

Səhər kənddən bir yerdə çıxmışdılar. Bir az bundan qabaq Xəlil dəryazını itiləmək üçün yeyə dalınca gəlmişdi. İndicə dəryazının səsi gəlirdi.

Ancaq Xəlildən cavab gəlmədi.

– Xəlil!!! Xəlil!!! – Bir az da ucadan səslədi.

Ona elə gəldi ki, səsi boğulub içərisində qaldı.

Dəryazı otluğa tolazlayıb əlləri titrəyə-titrəyə köhnə kəmərini belindən açdı, ilan çalan qıçını dizdən aşağı boğadı. Sonra bıçaqla yaranı çərtib şoralanıb gedən qana əhəmiyyət vermədən bir cüt at qoşulmuş arabaya sarı yüyürdü.

Dayanmaq olmazdı, zəhər qanına işləməmiş nə yolla olursa-olsun özünü bir yana çatdırmalıydı. Sonra gec ola bilərdi.

Atlara sarı qaça-qaça Xəlilin qarasınca deyinir, onu söyüb yamanlayırdı:

– Zalım oğlu, hara qeyb oldu bir göz qırpımında. Bayaqdan səsi-küyü düzü-dünyanı başına götürmüşdü.

Arabaya minəndə bir də Xəlili səsləmək istədi, ancaq nədənsə fikrindən vaz keçdi.

* * *

…Atları torpaq yolla kəndə sarı qovurdu. Əlindəki qırmanc atların belində ağappaq zol açır, dəmir cağlı araba az qala oxundan çıxıb dağılmaq istəyirdi.

Arabanı ötən il yazağzı özü düzəltmişdi. Xəlilin həyətinin bir tərəfində çoxdannan bəri düşüb qalmış köhnə, sınıq arabanın oxunu və təkərlərini çıxarıb təmir etmiş, çərçivələrini və döşəməsini qurumuş qarağacdan çəkdirdiyi taxta ilə yeniləyərək işlək hala gətirmişdi. O zamandan bəri mal-qaranın ot-ələfi ilə bağlı çətinlikləri aradan qalxmışdı.

...Araba çala-çuxurlu torpaq yolla az qala uçurdu. Ancaq təlaş içərisində olduğundan ona elə gəlirdi ki, araba hərəkət eləmir, hansı bir görünməz qüvvəsə atları tutub saxlamaq istəyir. Elə tələsirdi ki, bir cüt qanad çıxarmaq, arabadan qopub uçmaq istəyirdi.

Bütün gecəni qatma-qarışıq yuxular görmüşdü; dünən axşam Xəlillə sözləşməsəydi, bu gün evdən çıxmayacaqdı, başqa görüləsi işləri vardı. Ancaq olacağa çarə yoxmuş... Kim bilir, əcəl özü çəkib gətirmişdi bəlkə...

Otlaqdan kəndə, oradan da xəstəxanaya xeyli yol idi. Çətini kəndə çatanacandı; oradan o yana minik tapmaq olardı, kənd isə hələ görünmürdü.

Atları söyür, yamanlayır, qırmanclayırdı... Ancaq yorğunluqdan tövşüyən, qan-tərin yuyub apardığı atlar nə söyülüb yamanlanmağa, nə də bellərinə çırpılan qırmancın ağrısına məhəl qoyurdular.

Yol işlək deyildi; biçənək kənddən xeyli aralıydı deyin bu tərəflərə seyrək yolu düşən olurdu. Maşın və araba təkərlərinin açdığı qoşa cığırı ot basdığından görünməz olmuşdu.

Topuğundan bir az yuxarı baldırının kəmərlə boğduğu yeri sancırdı. Ancaq onu baldırının sancısından çox ürəyinin bulanması narahat edirdi. Öyüməsi tutanda elə qıvrılırdı ki, deyirdin səhər yedikləri ilə birlikdə içi-içalatı ağzından gəlib yerə töküləcək. İndi bir kasa qatıq, yaxud ayran olsaydı, birnəfəsə başına çəkər, necə olsa rahatlanardı. Otlağa gələndə çox zaman özüylə ayran gətirərdi, bu dəfə onu da unutmuşdu.

Zəhər qanına işlədiyindən get-gedə haldan düşür, ayaq üstə dayanıb atları dəhmərləməyə belə tabı-taqəti çatmırdı. Arabanın təkərləri çala-çuxura düşdükcə səndələyir, dizləri bükülür, müvazinətini saxlaya bilmirdi.

Günəş allana-allana günorta yerinə yaxınlaşırdı. Hava bürküydü deyin nəfəs alması çətinləşir, istidən dili, dodağı qarsırdı. Havanın bürküsündəndimi, yoxsa vücuduna işləyən zəhərin təsirindəndimi ciyəri alışıb yanırdı. İndi bir udum su üçün nəyindən, nələrindən keçməzdi... Ancaq bu bürküdə, düzənliyin ortasında su tapmaq ağlagəlməz bir işdi. Səhər evdən çıxarkən özü ilə götürdüyü su dolu bardağı unudub otlaqda qoymuşdu.

Dizləri büküldüyündən arabanın içərisinə çökdü.

Bir azdan cağları cırıldayan arabanın yumşaq küləşlə örtülmüş döşəməsi üstə uzanıb səmanı seyr edirdi. Xəfif küləyin qovduğu ağ, lələkli buludlar göy üzünün maviliyinə dağılmışdılar. Hayanasa axıb gedən buludlar sanki onun içindən, varlığından nəyi isə qoparıb aparırdı. Baxışlarıyla buludların axarını saxlamaq, yönünü, səmtini dəyişmək istəyirdi, ancaq olmurdu.

Ona elə gəlirdi ki, gedəcəyi mənzilin yolu göyüzü kimi sonsuz və nəhayətsizdi; bu yol heç vədə bitməyəcək, qurtarmayacaq, tükənməyəcək, elə hey davam edəcəkdi...

Bu kəndə düşdüyü on ilə yaxındı. Ermənilər Şuşanı ələ keçirən gündən bu aran düzünə pənah gətirmişdi. Bura gəlməyinin səbəbi isə Xəlillə uzaqdan-uzağa tanışlığıydı. Dünyanın düz vaxtında yay tətilində iş tapmaq ümidilə bu kəndə gəlmiş, məktəbdə xarrat işləyən dostu ilə onun evinin damını vurmuşdu. O zamandan yolu bu tərəflərə düşəndə Xəlilə baş çəkməyi unutmazdı. Xəlilin evi kəndin sonuncu yurd yeriydi. Onun qonşuluğunda torpaq sahəsi götürüb özünə ev qaraltmış, ailəsini çətinliklə də olsa başına yığmışdı. Ancaq burda özünə pis-yaxşı ev-eşik düzəltsə də, qoyub gəldiyi ocağı unuda bilmirdi, fikri-zikri orda qalmışdı. Bircə istəyi vardısa, o da öləndə doğulduğu kənddən bir az yuxarıda, yamacdakı qəbiristanlıqda anasının məzarı ilə yanaşı dəfn olunmaqdı.

«Ancaq daha bu mümkün olmayacaq, bir də o yerlərə qayıda bilməyəcək. Daha heç kəs onu bu arzusuna qovuşdura

bilməyəcək. Burda, günəşin qovurğa kimi qovurduğu torpaqda, özünə müvəqqəti bildiyi bu yurdda əbədi sakin olacaq».

Ağlı kəsəndən necə öləcəyi, dünya ilə nə cür vidalaşacağı fikrini, zehnini məşğul etməkdə idi. Açıq etiraf etməsə də, ölüm onu qorxudur, hafizəsini qarışdırır, yuxularını qaçırırdı. Ancaq ölümün bu sayaq gələcəyini qətiyyən təsəvvür eləmirdi. Ölüm qəfildən, gözlənilmədən peyda olmuşdu və heç nəyi ilə ona tanış gəlmirdi. Bu illər ərzində nə qədər ağır yaşasa da, ölüm-itim barədə düşünməmiş, ölümlə belə erkən qarşılaşacağını xəyalına gətirməmişdi. O, ölümə hazır deyildi, dünya ilə bu cür vidalaşmaq istəmirdi. Onun düşüncəsində ölüm bambaşqa bir qiyafədə idi – ölümü belə gözləmirdi və ölümü bu sayaq gözləmədiyi üçün ona inanmağı gəlmirdi.

Dünyada ilandan qorxduğu qədər heç nədən qorxmurdu. Ta uşaqlıqdan yuxularına gələn torpaq rəngli gürzə gecələrini bir-birinə vurar, qan-tər içərisində diksinib oyanardı. Ancaq xeyli vaxt bunun yuxu olduguna inanmaz, ona elə gələrdi ki, yatağına girən doğrudan-doğruya ilandı. Vücudunda ilanın soyuqluğunu duyduqca əzaları keyləşərdi. İşığı yandırıb yorğan-döşəyi ələk-vələk eləyər, büsbütün arxayın olmayınca yatağına girməzdi. Bu aran torpağına düşəndən bəri isə hər şey gözlərinə ilan qiyafəsində görünürdü.

Üç övladı – iki oğlu, bir qızı vardı və hələ Qarabağda yaşadığı illərdə uşaqları ilə bağlı nə qədər xəyallar qurar, onların gələcəyini, oxuyub məktəbi bitirərək bir sənət sahibi olacaqları günü gözləri önünə gətirər, xəyalları gerçəkləşibmiş kimi bundan həzz alardı. Ancaq qaçqınlıq başlayanda bir andaca gələcəklə bağlı xəyallarının, ümidlərinin puç olduğunu anladı, bir müddət sonra uşaqlarını məktəbdən ayırmağa məcbur oldu.

Araba cırıldaya-cırıldaya kəndə sarı irəliləyirdi. Atlar yola yaxşı bələd olduqlarından səhər gəldikləri səmti tutub gedirdilər. Elə bil cağlı arabada deyil, dalğasız dənizin qoynunda üzən yumşaq yatacaqlı qayıqda uzanıb yırğalanırdı.

Zəhərlə birlikdə bədəninə qəribə bir məstlik yayılırdı. Bayaq özünü həkimə çatdırmağa tələsirdi, ancaq indi daha onunçün fərqi yox idi. Sadəcə arxası üstə arabaya uzanıb olub-keçənləri xəyalından keçirir, ömür yolunun adda-budda löv-

hələri duman içində yaddaşında canlandıqca harda olduğunu unudurdu.

Bir azdan araba diki aşaraq alçaq təpələrin arxasında görünməz olur. Sütül sünbül qoxusu getməmiş küləşin arasından kövşənin ətrini duyur. Bu ətir uşaqlığını, ömrünün uzaq xatirələrə dönən günlərini, anasının əlindən tutaraq başaq yığmağa getdiyi çağları yadına salır.

Anasını xatırlaması ilə bir anlığa ağarmış bənizinə qəribə təbəssüm yayılır, damarları ilə axan ılıq hərarət vücudunu sarır. Ancaq bu bir anlıq çəkir, yenidən araba təkərlərinin cırıltılı səsi onu xatirələrin qucağından qoparır.

«…Araba gedib doqqazın qabağında dayanacaq. Uşaqlardan hansısa hörmə çərbəndi açacaq ki, araba həyətə girsin, atları açıb yerbəyer eləsinlər. Ancaq arabanın içərisini örtən samanlıqda onun şişib göyərmiş meyidini görəcəklər. O, bu cür ölməyə məhkummuş, bunu heç cürə dəyişdirə bilməyəcək».

...Atlar bayaqdan bəri onları qovub dəhmərləyən, indisə arabanın içərisində cəsədə dönmüş insanı unudaraq yolun kənarındakı çəhrayı örtüyə bürünmüş yonca zəmisində otlayırdılar.

Qürub edən günəş uzaq üfüqləri qan rənginə boyamışdı.

*Brüssel-Bakı*
*iyun-uyul, 2008*



Thank you for trying Soda PDF

## İLĞIM

İlanın fısıltı səsinə diksinib ayıldı; özü də hiss etmədən oturduğu yerdəcə onu yuxu aparmışdı. Bir anlığa harda olduğunu xatırlamağa çalışsa da, nə illah elədisə, yadına sala bilmədi, ancaq təkrar fısıltı səsini duyması onu özünə gətirdi və mürgüsünü büsbütün qaçırdı.

İlk ağlına gələn körpəsi oldu və dərhal nəzərləri çadırın yuxarı küncünə yönəldi; ilan körpənin ayağı səmtində torpaqdan seçilməyən nimdaş, ipləri süzülmüş kilim parçasının üstündə qıvrılıb uzanmışdı.

Körpə ilanı sığallayırmış kimi əllərini yumub açır, sürüşkən bədənindən tutmaq istəyirdi, ancaq ilan qıvrılıb açıldığından onu tuta bilmirdi.

Bədənindən soyuq bir gizilti keçdi – körpə ilanla oynayırdı.

Gördüyü bu dəhşətli mənzərədən özünü itirdiyindən ilana yaxınlaşmağa ürək eləmir, yanlış bir hərəkətlə onu qıcıqlandıra biləcəyindən ehtiyatlanır, körpəni çalacağından qorxurdu.

Gecə aydınlıq idi. Rəhgi-ruhu bilinməyən çadırın cırıqları, yırtıq-deşikləri arasından süzülüb gələn ay işığı döşəmədən tutmuş qat-qarışıq hörümçək toru ilə naxışlanmış səqfə qədər içərini bozumtul rəngə boyamışdı.

İlan yad hənir duyduğundan çəkilib çadırın küncündə üst-üstə qalaqlanmış mitilin arasına girərək gözdən itdi.

Cəld hərəkətlə yaxınlaşaraq körpəni qucağına aldı, sonra fənərin işığını artıraraq qorxaq nəzərlərlə onun ilanı tutmaq istəyən əlini yoxladı. Körpənin əlində heç bir iz gözə dəymədiyindən ilanın ona toxunmadığını duyaraq ürəyi üstünə gəldi və uşağı bağrına basıb sel kimi axıb gedən göz yaşlarına qərq etdi.

İlan nə vaxtdan bəriydi ki, çadıra ayaq açmışdı. Körpə dünyaya gələndən isə çadırdan aralanmırdı, fürsət tapan kimi yanına gələrək qıvrılıb bələyin böyründə uzanır, sanki onunla oynamaq istəyirdi. Ona görə də gecələr yerinə uzansa da, fikri, xəyalı körpəsinin yanında qalır, yatağına qor dolubmuş kimi



Thank you for trying Soda PDF

addımbaşı diksinib oyanır, hövlnak qalxaraq körpəsinə yaxınlaşırdı.

Bu dəfə də belə olmuşdu; mürgü onu aparar-aparmaz, gecənin səssizliyində ilanın fısıltı səsinə diksinib oyanmışdı.

...Qadın hər ehtimala qarşı körpənin nazik, nimdaş döşəkçədən ibarət yatağını saman tayının üstünə qaldırdı. Bura yerdən aralı olduğundan bir qədər təhlükəsiz idi, ilan rahatlıqla ona yaxınlaşa bilməzdi.

Həyəcanını adlatmaq üçün qapının ağzındakı köhnə alüminium bidondakı sudan içmək istədi. Bidonun qapağını qaldıranda torpaq rəngli bir qurbağa sıçrayıb bayıra atıldı. Diksindi, əlindəki dəmir parç ayaqları altına düşdü.

– Tfu! – Əsəbi halda qurbağanı təpiyi ilə vurub çadırdan bayıra tolazladı.

«–Neçə dəfə demişəm ki, suyu gətirəndə diqqətlə baxın. İlanı-qurbağanı yığıb gətirməyin çadıra, ancaq kimə deyirsən, elə öz bildiklərini eləyirlər», - ürəyində səhərlər yaxınlıqdakı gölməçədən su gətirib satan uşaqların qarasınca deyindi.

Srağagün xörəyin içindən çəyirtkəyə bənzər həşərat çıxmışdı. Min bir əziyyətlə hazırladığı xörəyi atmağa əli gəlmədiyi üçün ürəyi ağzına gələ-gələ yeməyə məcbur olmuşdu.

Dünən isə bişirdiyi çörəyin içərisində iri-iri qurdlar gözünə dəymişdi. Unu taxta çəlləkdə saxlayırdı, ancaq yer rütubət olduğundan una qurd düşdüyünün fərqinə varmamışdı.

Hər ayın sonunda yük maşınlarında gətirilən ərzaq bağlamaları, yardım üstündə itələşən, didişən boz kütlənin söyüş, inilti, yalvarış səsləri, havaya uzanan əllər – onu kor düyün kimi özünə bağlayan bu mihitin içərisində insan olduğunu unutmuşdu.

Çadırın ağzında əl-üz yumaq üçün qoyulmuş aftafa-ləyənin yanından köhnə, sınıq güzgünü götürdü. Son günlər güzgünü əlinə alıb saatlarla özünə tamaşa edir, xəyallara dalırdı. Sifətinin güzgüdə canlanan hər bir cizgisi onu çəkib keçmişə, ömrünün erkən illərinə, xoşbəxt, qayğısız çağlarına aparırdı. Çöhrəsinin dəyişən ifadələrində uşaqlığı, doğma yurd yerləri, kəndin ətəyindəki evlərinin taxta məhəccərinə söykənərək bağçadakı gilənar ağaclarını seyr etdiyi çağlar canlanırdı. Sonra üzünün

cizgilərində qaçqınlığın ağrı və əzabları, itirdiklərinin xatirəsi, ərinin ölümü, hamilə halda min bir əzabla qaçıb canını qurtarması, bu çadır şəhərciyində məskunlaşması, yuxusuz, ümidsiz gecələri yer alırdı.

O, keçmişini, keçmişi ilə birgə gələcəyini də itirmişdi.

İndi güzgüyə baxanda özünü tanımadı, sanki üzü-gözü, ağzı-burnu, qulaqları, saçları özününkü deyildi. Özünə bənzəmirdi, büsbütün başqa bir adama çevrilmişdi; sifətinə tük gəlmiş, burnu enlənmiş, qulaqları nazilib uzanmışdı. Əlini qorxa-qorxa sifətinə çəkdi – barmaqları narın tüklərə toxundu, onu dəhşət bürüdü. Sonra eyni qorxaq hərəkətlə burnunu, qulaqlarını yoxladı.

Vahimə içərisində güzgünü vızıldatdı – o, insana bənzəmirdi.

Cəld körpəsini yatağından qaparaq çadırdan çıxdı.

Artıq qərara gəlmişdi – o, burda yaşamayacaq, özünü də, körpəsini də bu cəhənnəmdən xilas edəcəkdi.

Çadır komalarından ayrılan yollar dünyanın dörd bir tərəfinə uzanıb gedirdi.

Komaların arasından keçərək hansı səmtə apardığı bilinməyən torpaq yola çıxanda üstündən dağ götürülübmüş kimi rahat nəfəs aldı.

Arxada ömrün ağır, kədərli, xəyallarda belə dönmək istəmədiyi günlərinin acı xatirələri qalmışdı.

Hansısa anlaşılmaz bir duyğunun təsirilə dönüb geriyə, taleyinə biçilmiş əzablı, ümidsiz günlərinin keçdiyi çadır komalarına son dəfə baxmaq istədi, ancaq içində tərəddüd, mübhəmlik, tənhalıq xofu kimi hansı bir hissinsə onu təkrar geriyə qaytara biləcəyindən qorxub çəkindiyindən dərhal bu fikrindən vaz keçdi.

Körpəsini bağrına basaraq elə cəld addımlayırdı ki, sanki törətmiş olduğu dəhşətli bir cinayət üstündə yaxalanacağından qorxub qaçırdı.

O, vücudunda qeyri-adi güvvə hiss edirdi; xəstəliyini, yorğunluğunu, ümidsizliyini unutmuşdu. Damarları boyu axaraq bütün vücuduna yayılan istilik içərisini çalxalayır, ruhunu yerindən oynadır, onu bambaşqa bir insana çevirirdi.



Thank you for trying Soda PDF

Gecənin yarısı olsa da, dünyanın uzaq üfüqlərinə xəfif bir aydınlıq çökməkdəydi. O, qaranlığın bağrından sıyrılıb çıxmaq istəyən işığı, aydınlığı bütün varlığı ilə duyur, hiss edirdi.

Toz-torpaq rənginə boyanmış gecə sirri-sehri ilə birgə bozluğunu, bulanıqlığını işığa, aydınlığa tərk edərək çıxıb gedirdi.

Gündoğan səmtinə uzanan yolla addımladıqca ona elə gəlirdi ki, üfüqlərdən sızan aydınlığın ucundan tutaraq hansısa bilmədiyi, duymadığı, bambaşqa bir dünyaya sarı baş alıb gedir.

O, uzaqda ağaran üfüqləri süzə-süzə ruhunda bir dan yerinin söküldüyünü hiss edirdi.

*may-iyun 2007,*
*İstanbul-Bakı*

Thank you for trying Soda PDF

## NƏVAİ-QUMRU

Miranşah atası Əmir Teymurun böyük dəyər verdiyi, şöhrəti bütün Şərqə yayılmış məşhur bəstəkar Əbdülqadir Marağayinin yeni əsərini dinləmək üçün möhtəşəm bir məclis düzənləmişdi. Bəstəkar bir ay öncə yazdığı əsərin əlyazmasını ona təqdim edərək çəkinə-çəkinə belə bir məclisin keçirilməsi arzusunda olduğunu söylədikdə hökmdar məmnunluq hissi ilə razılığını bildirmiş və o zamandan sarayın bağcasında indiyədək misli görünməmiş hazırlıq işlərinə başlanılmışdı. Təbrizin ən mahir ustaları saraya dəvət olunaraq bağçanın yenidən qurulmasına cəlb edilmişdi. İki aydan artıq davam edən bərpa və təmir işləri saray bağçasının görünüşünü tanınmaz şəkildə dəyişmişdi.

İndi bağçanı dövrələyən bəzək ağaclarının rəngbərəng çeşidləri göz oxşayır, çiçəklərin biri-birinə qarışmış əsrarəngiz qoxusu adamı bihuş edirdi. Gül kollarının arası ilə səkilər boyunca naxışlı ağac dirəklərdən asılmış fənərlər gecəni çıraqban edir, səkilərə döşənmiş təsvirli Təbriz xalıları bağçaya ayaq basanları xəyal dünyasına çəkib aparırdı. Az sonra ziyafətin başlayacağını xəbər verən xəfif musiqi sədaları bağçaya sirli, sehrli bir ovqat gətirirdi.

Əslində eyş-işrət məclisləri tez-tez keçirilsə də, saray ilk dəfə idi ki, belə təmtəraq və zövqlə bənzədilmişdi. Bunun səbəbi isə hər kəsə bəlli idi: bəstəkarın yeni əsəri Əmir Teymurun nəvəsi, Miranşahın oğlu Sultan Xəlilə ithaf olunmuşdu.

Miranşah yeniyetməlik çağına qədəm qoymuş oğlunu ötən yay Mavərənnəhrə, Əmir Teymurun hüzuruna göndərmişdi. Məqsədi oğlunun gözlərini açmaq, babasının yanında cahangirliyin və səltənəti qorumağın sirlərini öyrənməsinə yardımçı olmaqdı. Ancaq çox keçmədən atası Sultan Xəlilin saraydakı cariyələrdən Şadimülkə vurularaq səltənət işləri ilə maraqlanmadığını Miranşaha bildirmiş, bir müddət onu Təbrizə öz yanına aparmağı məsləhət görmüşdü. Miranşah belə də etdi. İndi iki aydan artıq idi ki, Sultan Xəlil Təbrizdə idi. Hər gün israrla Səmərqəndə dönmək istədiyni bildirsə də, Miranşah bir bəhanə ilə oğlunu fikrindən daşındırır, zamanla hər şeyin həll

Thank you for trying Soda PDF

olunacağını düşünürdü. Sarayda düzənlənən bu musiqi məclisi də Sultan Xəlili bir növ ovundurmaq, o cariyənin sevdasını başından çıxarmaq məqsədilə düşünülmüşdü.

Neçə gündən bəri idi ki, Əbdülqadir bitməz-tükənməz bir narahatlıq içərisində məşq eləyir, yazdığı musiqinin gözəlliyinə heyranlığını gizlətməyən ifaçılarla əsəri təkrar-təkrar səsləndirirdi. Hər dəfə də o, ifanın bəlli bir yerində musiqini kəsərək yeni xallar, yeni düzəlişlər əlavə edir, bəstəni qüsursuz sənət əsərinə çevirmək üçün əlindən gələni əsirgəmirdi.

Ancaq içini sarmaşıq kimi bürüyən narahatlıq onu tərk etmir, əl-qolunu bağlayır, həyəcanını artırır, nə illah eləyirdisə, özünü ələ ala bilmirdi: «Görən, musiqiçilər əsəri onun istədiyi kimi səsləndirə biləcəkdilərmi? Ən əsası isə bunca hazırlıqların müqabilində hökmdar musiqini bəyənəcəkdimi?» – özünə ünvanlanan bu sualların cavabı ona bir azdan bəlli olacaqdı.

Musiqi canından artıq sevdiyi oğluna yazıldığı üçün saray məiyyətilə birgə məclisə təşrif buyurmuş Miranşah bağçanın yuxarı başında inşa olunmuş taxtına qalxmazdan öncə ifaçılara yaxınlaşaraq hal-əhval tutdu. Hökmdarın gəlişini uzaqdan izləyən mavi xalatlı, başlarında zərli fəs olan ifaçılar ayağa qalxaraq müntəzir dayanmışdılar. Miranşah eyni qiyafədə olan saray musiqiçilərinin hər birini şəxsən tanıyırdı, təkcə bir nəfərdən – əsəri ifa etmək üçün bəstəkarın dəvət üçün təkidlə israr etdiyi xanəndədən başqa. Əslində hökmdarın taxta əyləşməzdən öncə musiqiçilərlə xüsusi görüşməsinin səbəbi də xanəndəylə tanışlıq idi.

Cavan, arıq cüssəli, qaraşın çöhrəli xanəndə Miranşahla üz-üzə gəlməkdən özünü itirdiyindən dizi üstə hökmdarın qarşısında çökərək başını köksünə sarı əyib durmuşdu. Miranşah onun qalxmasına icazə verdi.

– Oğlum, Azərbaycanın harasındansan? – soruşdu.

Xanəndə başını qaldırmadan qərib bir səslə:

– Marağadanam, - dedi

– Səndəmi Marağadansan?

Əbdülqadir qabağa yeridi:

Thank you for using Soda PDF

– Hökmdar, Marağada doğulan hər kəsin belə gözəl səsi olur... – bəstəkar fikrini tamamlamaq üçün daha nə isə demək istədisə də, ancaq münasib söz tapa bilmədiyindən susdu.

Miranşah xanəndəni mürəxxəs edib Əbdülqadirin qoluna girərək onu müşayiət edən məiyyətinin əhatəsində taxtına sarı getdi. Hökmdar taxtına əyləşdikdən sonra musiqiçilər onunla üzbəüz xalının üstündə yerlərini tutdular.

Hökmdarın sağında oğlu Sultan Xəlil əyləşmişdi. Sol tərəfdə taxtla yanaşı qoyulmuş kürsüdə əyləşmiş bəstəkarın bütün diqqəti ifaçılarda idi; onlar aram-aram alətləri kökləyir, çalmağa başlamaq üçün bəstəkarın işarəsini gözləyirdilər.

Ziyafət əhli dəstə-dəstə bağçaya döşənmiş xalıların üstündə əyləşmişdi. Tərtəmiz geyinmiş xidmətçilər əllərində gümüş kuzələr qonaqlara ətirli şərbət, qırmızı şərab paylayır, hil, mixək, zəncəfil qoxuyan şirniyyat çeşidləri təklif edirdilər.

Bəstəkar hökmdarın icazəsini alaraq ifaçılara başlamaq işarəsi verdi və zərif musiqi sədası gecənin sükutunu pozdu.

Saray məclisləri ənənəsinə uyğun olaraq əvvəlcə Əmir Teymurun, sonra Miranşahın şərəfinə musiqi səsləndirildi, daha sonra rəqqasələrin oyunu nümayiş etdirildi.

Azacıq fasilədən sonra isə hər kəsin intizar içərisində gözlədiyi Sultan Xəlilin şərəfinə «Nəvai-Qumru»nun ifa olunacağı elan edildi; bircə anda bağçaya dəli bir sükut çökdü. Musiqinin müşayiət etdiyi xanəndənin qeyri-adi səsi eşidilincə məclis bu səsin sehrinə düşübmüş kimi özünü büsbütün unutdu.

Udun səsi yerin təkindən qopub gəlirmiş kimi boğuq bir fəryadla inildəyir, sənturun naləsi kanonun cingiltili nidasına qovuşaraq qeyri-adi ahəng yaradırdı. Xanəndə elə şövqlə oxuyurdu ki, onun səsi dinləyənin ürəyinə işləyir, ruhunu vücudundan çəkib çıxarırdı.

Saray bağçasının göz oxşayan yaşıllığı içərisində hər şey musiqinin ahənginə, harmoniyasına köklənmişdi. Məclis bu ahəngin sehrinə, cazibəsinə bələndiyindən heç nə görmür, eşitmir, duymurdu. Musiqi səsi simlərdən süzülərək damla-damla qaranlığın bağrına hopur, gecənin ruhuna sığal çəkirdi.

***

Bu, Əbdülqadirin indiyə qədər yaratdıqları içərisində ən böyük sənət əsərlərindən biri idi, mahnının qeyri-adi ifası başqaları kimi onu da özündən alıb aparır, anlayıb dərk etmədiyi, sirlərindən agah olmadığı bir dünyaya salırdı.

Əslində Əbdülqadir bu mahnını Sultan Xəlilə ünvanlasa da, musiqinin ritmi, sədaları içərisinə çəkilməz əzablara məhkum olan xalqının acı taleyini gətirmişdi. Ancaq sözlər adi sözlər idi, bunu sözlərlə ifadə etmək təhlükəli idi, bu dərdin aşkar deyilməsi həyatı bahasına başa gələ bilərdi, ona görə də hər nə deyilmişdisə, musiqinin ritminə, sədalarına hopdurulmuşdu.

Əbdülqadir Qumrunun sevgisini ömrünün erkən illərində qəfil əsib keçən rüzgar kimi duymuş, ancaq faciə ilə bitən bu sevdanın kədər qoxuyan xəyallarını həmişə özündən uzaqlaşdırmağa çalışmışdı. Heç zaman adıyla çağırmadığı o gözəlin Qumruya – zərif quşcuğaza necə də bənzəyişi vardı...

Bəstəkar əvvəl-əvvəl o ilahi sevgisinə qayıtmaq, Qumrunu xatırlamaq istəməmişdi, bu sevgidən, bu sevginin gətirdiyi həyəcandan qorxmuşdu. O, qızın məhəbbətinə layiq olmadığını, ona cavab verə bilmədiyini düşünərək bu sevgidən qaçmış, hər şeyi unutmağa, belə bir sevginin ola bilməyəcəyini düşünməklə özünü, gələcəyini aldatmağa çalışmışdı...

Ancaq sonra, çox-çox sonra bunun mümkün olmadığını anlamışdı. Səmərqənddə yaşadığı illərdə Qumrunun eşqi daim onun yuxularını qaçırırdı; vətəninin, doğmalarının həsrəti o qızın rəngində, qoxusunda, qiyafəsində gəlir, onu darıxdırır, həyəcanlandırır, kədərləndirirdi.

Qumrunu el-el, oba-oba soraqlaşmağa başladı, görənlərdən, tanıyıb bilənlərdən xəbər aldı, onu tapmaq ümidilə Səmərqənddən Bağdada, Ərbilə qədər gəzib dolaşdı, ancaq soraq verən olmadı. Sanki qız doğulmamış, yerli-dibli bu dünyaya gəlməmişdi...

Beləcə, Əmir Teymurun nəvəsinə ithaf etdiyi bu əsər özü də duymadan «Nəvai-Qumru»ya çevrilmişdi.

Əbdülqadir bu mahnını əlinə qələm alıb yazmamışdı, bu musiqi ruhundan, qəlbindən süzülüb gəlmiş, ilahinin sehri, möcüzəsi kimi yaranmışdı. O sadəcə hisslərini, duyğularını var-



Thank you for trying Soda PDF

lığından siyirib səsə, ritmə, ahəngə çevirmişdi. Bu mahnı deyildi, musiqi deyildi, buna qulaq asmaq olmurdu, dinləyənin ruhunu, varlığını titrədir, insan olduğunu, dərd üçün doğulduğunu, ölənəcən dərd içindəcə qovrulacağını ona xatırladırdı.

İndi musiqini dinləyən hər kəs onun sədaları, ritmi, ahəngi içərisində gizlənən ilahi sevgini duyur, bu sevginin böyüklüyünə, əzəmətinə, qüdrətinə heyranlığını gizləyə bilmirdi.

Bəstəkar saray bağçasının yaxınlığındakı hərəmxanada, qaranlıq otağın qalın pərdəli pəncərəsi dibinə çökərək musiqini dərd kimi ruhuna çəkən gözəlin – Qumrunun varlığından xəbərsizdi. İllərlə axtardığı sevdasının səsin yetdiyi qədər yaxınlıqda olduğunu bilmirdi. Bilmirdi ki, səsin həyəcanlandırdığı qız musiqinin fəhmlə ona yızıldığını duyubmuş kimi gizli bir təşviş içərisində çırpınır, gecənin, tənhalığın, sevgisizliyin pəncəsindən qoparaq o səsə qovuşmaq, həsrətini, nakamlığını o səsin ahəngində əritmək istəyir. O bütün bunları bilmirdi və bilməyəcəkdi də...

* * *

Bu ilahi musiqinin qüdrətinə təslim olmuş Miranşahın illər boyu sifətini örtmüş zəhmi, zalımlığı bir andaca çəkilib getmiş, yerini yumşaq, mülayim cizgilər bürümüşdü. Musiqi Miranşahın ruhuna, varlığına elə işləmişdi ki, heç nə görmürmüş, eşitmirmiş kimi gözlərinin dikildiyi uzaq məchulluqları seyr edirdi.

«– Görən taleyimiz necə olacaq», - Miranşahın dodaqlarından qopan bu səda Əbdülqadiri diksindirdi. – «Hökmdar ondanmı nicat umurdu?! Fələk, bu nə sözlərdi belə».

... Birdən Miranşahın əsəbi halda taxtdan qalxması ilə musiqi yarımçıq kəsildi. Hələ musiqinin cazibəsindən qopmamış, nə baş verdiyini anlamayan məclis əhlinin gözü hökmdara dikildi.

Miranşah özündə deyildi, bayaq musiqi ifa olunarkən düşdüyü halətdən qopub ayrılmamışdı. Musiqi onun ruhuna, varlığına, qəlbinin, içəri dünyasının ən gizli nöqtələrinə nüfuz etmiş, keçmişini, gələcəyini biri-birinə qatmışdı.



Thank you for trying Soda PDF

Musiqinin kəsilməsilə məclisə ölü bir sükut hakim oldu. Miranşah onunla yanaşı dayanmış bəstəkara sarı döndu:

– Bu mahnını kimə yazmısan, Əbdülqadir?

Bəstəkar gözləmədiyi bu sualdan özünü büsbütün itirdi, əslində bayaqdan bəri Miranşahın sifətinin dəyişən cizgilərindən onun qeyri-adi xəyallar aləminə qədəm qoyduğunu duymuşdu. «Əlahəzrət niyə bu gözlənilməz sualı verdi, görən? Bəyəm o bilmirmi mahnının kimə həsr olunduğunu? Söyləməmişdimmi, hələ bir ay öncə Sultan Xəlilin şərəfinə yazıldığını? Əgər bilmirdisə, bəs bu təmtəraq, bu məclis nədən ötrü qurulmuşdu? Yox, bu adi suala bənzəmir».

Miranşahın sualının gözlənilməzliyi onu diksindirsə də, təmkinini toplayaraq:

– Sultan Xəlilin şərəfinə yazmışam, əlahəzrət! – dedi.

Miranşahın sifəti birdən-birə dəyişdi:

– Nə cəsarətlə mənə yalan söyləyirsən!

Əbdülqadir ağlına belə gətirmədiyi bu ittahamdan çaşıb qaldı, sifətinin rəngi çəkildi və nə cavab verəcəyini bilmədiyi üçün susub durdu.

– Bu mahnını Sultan Xəlili düşünüb qoşmamısan!..

– ...

– Bu sevgi əsəridi!

Məclisə daş sükutu çökmüşdü, hər kəs nəfəsini udaraq bu söhbətin sonunun necə qurtaracağını gözləyirdi. Adamlar böyük musiqi ustadının Miranşahın qəzəbinə düçar olacağının, belə qüdrətli sənətkarın susdurulacağının həyəcanı içərisində idi.

Miranşah sualına cavab almadan qalxıb taxtında əyləşdi.

– Lənət şeytana, - dedi və Əbdülqadirə sarı dönərək mahnını bir daha dinləmək istədiyini bildirdi.

Qəfildən yeni bir ahənglə yüksəlməyə başlayan musiqi sədaları yaranmış gərginliyi bir qədər aradan götürən kimi oldu və hökmdarın hirsinin soyumasından ürəklənən bəstəkarın rəngi üstünə gəldi.

* * *

Thank you for trying Soda PDF

Şərəfinə bəstələnən musiqi gənc Sultan Xəlili özündən alıb aparmış, atasının nəsihətləri ilə bir qədər səngiyən həsrətini yenidən oyandırmışdı. Səmərqənddə qoyub gəldiyi Şadimülkün dərdi içini alovlandırmağa başlamışdı. «Əbdülqadir onun yaşadıqlarını necə duymuş, qəlbinin gizlinliklərinə nə yolla vara bilmişdi? Elə bil olub-bitən hər şeyi bəstəkara anlatmışdılar. Kaş, bu musiqini Şadimülk də dinləmiş olaydı».

Gənc içərisini didən sualların əzablarından çırpınır, daha bu ayrılığa dözə bilməyəcəyini anlayaraq yollar arayırdı. «Görən, Şadimülk indi mənsiz neyləyir? Babası onu öldürtmək istəyirdi, bir yolla sevgilisini ölümün cəngindən qurtara bildi. Bəs kimin ümidinə qoyub gəldi onu? Niyə bu addımı atdı? Yox, yox, bunu heç zaman Şadimülk ona bağışlamayacaq. Heç özü özünü də bağışlamayacaq».

Sultan Xəlil ayağa qalxaraq hiss olunmadan məclisi tərk etdi. Musiqi qəlbini ovsunlamış, gücünü, qüdrətini coşdurmuşdu. İndi heç bir maneə qarşısını kəsə, vüsala aparan yolunu bağlaya bilməzdi.

O, gizli yollarla saraydan çıxıb atına süvar oldu. Dördnala çaparaq şəhərdən çıxıb onu tilsim kimi özünə çəkən Səmərqənd səmtini tutdu.

* * *

...Musiqi bitəndən sonra Miranşah əsərlə bağlı Sultan Xəlilin fikrini öyrənmək üçün sağına çevriləndə oğlunu yerində görmədi. Ürəyinə nə isə damdığından dərhal xəfiyyəbaşını səsləyərək oğlunun harda olduğunu soruşdu.

Göz qırpımında gedib-qayıdan xəfiyyəbaşı Sultan Xəlilin atına süvar olaraq sarayı tərk etdiyini bildirdikdə hökmdar məsələni anladı və mühafizə dəstəsinə şəhərdən çıxan bütün yolları kəsmələrini, oğlunu tapıb geri qaytarmalarını əmr etdi.

Ancaq bütün bunlar əbəs idi; Sultan Xəlilin atı qanad çıxarmışdı.

*2005, Bakı-Hamburq*



Thank you for trying Soda PDF

# KİTABİN SƏHİFƏLƏRİNDƏ

Məktub şəklində müqəddimə (Çingiz Hüseyn) .......................... 3
Heçlik vadisi (esse)..................................................................... 6

**Povest-illüstrasiya**

Ölüm yuxusu ............................................................................ 8

**Hekayələr**

Xiffət ..................................................................................... 93
Ağ yol ..................................................................................... 98
Bağlı qapı................................................................................. 104
Müqəvva .................................................................................. 110
Səhər dumanı ........................................................................... 117
Yarpaqsız budaqların yaşıl nəğməsi ....................................... 121
Axşam günəşi .......................................................................... 125
Xurmayı saçlar......................................................................... 132
Xallı ........................................................................................ 135
İlan əfsanəsi ............................................................................ 139
Ada ......................................................................................... 143
Vətən....................................................................................... 147
Dərviş ..................................................................................... 151
Mağara .................................................................................... 156
Qütb gecəsi ............................................................................. 160
Kor düyün ............................................................................... 166
İlğım ....................................................................................... 171
Nəvai-Qumru ........................................................................... 175

Thank you for trying Soda PDF

**Vaqif Sultanlı**
**Heçlik vadisi**
(povest və hekayələr)
Bakı, Azərnəşr, 2010

Thank you for trying Soda PDF

Müəlliflə əlaqə saxlamaq üçün aşağıdakı
ünvana müraciət oluna bilər:

Azərbaycan Respublikası, Bakı şəhəri,
Zahid Xəlilov küçəsi, № 23, Bakı Dövlət Universiteti,
Müasir Azərbaycan ədəbiyyatı kafedrası

Tel.: (+99412) 439-04-25 (iş)
(+99450) 313-10-22 (mob.)
E-mail: vagif_sultanlı@yahoo.com

Thank you for trying Soda PDF

Yığılmağa verilmiş 16.04.2010
Çapa imzalanmış 05.05.2010
Formatı 60x90
Şərti çap vərəqi 15,5
Sayı 1000
Sifariş № 099
Qiyməti müqavilə ilə